Az2
494

# RAFİQ YUSİFOĞLU



# HƏSRƏT SAZAĞI

84Az-5
Az2
Y54

RAFİQ YUSİFOĞLU

# HƏSRƏT SAZAĞI



F. Köçərli adına
Azərbaycan Dövlət Uşaq
KİTABXANASI
İNV. № 95053

Bakı – Şirvannəşr – 2005

*Beynəlxalq Qızıl Priz laureatı (Madrid, 2004)*
Şirvannəşr, 59 (773), 2005
*Naşir Qəşəm İsabəyli*
-----------------------------

***Bu kitabın çapında mənə yardımçı olan dostlarıma, şerlərim haqqında vurğunluqla söhbət açan, məni yazıb-yaratmağa həvəsləndirən bütün sevdalı insanlara dərin minnətdarlığımı bildirirəm.***

*M ü ə l l i f*

Redaktoru
*Məhərrəm Qasımlı*
Rəssamı
*İlqar Tofiqoğlu*

***Rafiq Yusifoğlu***
***Həsrət sazağı. Şerlər. Bakı, Şirvannəşr, 2005.***
***368 səh.***

"Qızıl qələm", "Vətən", "Araz", "İlin ən yaxşı kitabı", "Tofiq Mahmud" mükafatları laureatı, görkəmli Azərbaycan şairi, tanınmış ədəbiyyatşünas, tərcüməçi, publisist Rafiq Yusifoğlu "Yurdum-yuvam", "Ətirli düymələr", "Ocaq yeri", "Aylı cığır", "Qəm karvanı", "Həsrət köçü", "Şirin yağış" (rus dilində), "Böyük arzuya gedən yol", "Çiçək yağışı", "Təzə sevdalara doğru", "Söz çəməni", "Ayrılığın qəm hasarı", "Günlərimiz, aylarımız" adlı şer, "Bahar qatarı", "Şirin yuva" adlı nəsr, "Xatirə kəcavəsi", "Bir sevdalı ürəyim var" adlı publisistika kitablarının, "Azərbaycan poeması: axtarışlar və perspektivlər" monoqrafiyasının, "Kitabi-Dədə Qorqud" adlı komikslər toplusunun, "Ədəbiyyatşünaslığın əsasları", "Uşaq ədəbiyyatı", "Müasir ədəbi proses və ədəbi tənqid" dərsliklərinin müəllifidir. Rafiq Yusifoğlunun "Həsrət sazağı" adlı yeni kitabında onun son illərdə yazdığı həzin, kövrək şerləri toplanmışdır.

83.3. Az(2)
R ---------------
054

© Rafiq Yusifoğlu, 2005.

*Ünvan: Bakı – Az 1021, Badamdar şos. 77.*
*Tel.: 492-92-27, 492-93-72, 434-70-94, (850) 316-23-40.*



# MƏNİM AZƏRBAYCANIM

## MƏNİM XALQIM

Dili sənə dost deyənin əli gizlicə
Əsrlərlə ayağının qazıb altını.
Sən bu ağır günlərində məğrursan necə,
Mənim xalqım, uca saxla təmiz adını!

Başımızın üstündədir yenə duman, çən,
Yolumuzu seçməliyik biz bəri başdan.
Ümidin var, heç bilmirəm nə gözləyirsən
"Dovşana qaç, tazıya tut" – deyən qardaşdan?

Ədalətdən hey dəm vuran dostun səsində
Bu günəcən bir zərrə də haqq görməmişəm.
Səndən başqa xəyanətin məngənəsində
Sıxılsa da, "uf" deməyən xalq görməmişəm.

Dost demisən qismətini basıb yeyənə,
Bəsdir daha, həqiqətin gözlərinə bax!
Neyləyəsən, bəs qatığa qara deyənə
Açıq-aşkar haqq verirsə güvəndiyin dağ?

Canavarla həvirləşib hiyləgər köpək,
Üzdə mənim tərəfimi saxlamasın o.
Dəysin özcə təpəsinə etdiyi kömək,
Təki vuran qolumuzu bağlamasın o.

Azadlığı verməyəcək sənə kimsə pay,
Ayağa dur, öz oduna, közünə güvən.
Mənim xalqım, bir kimsədən gözləmə haray,
Ağır sınaq günlərində özünə güvən…

**1990**

## AZƏRBAYCAN TORPAĞI

Bəxtəvərsən, bura gəlmək qismət olmur hər kəsə,
Dostumuzdur, kim özünü lovğalanıb öyməsə.
Hiss etməzsən, əziz qonaq, ayaqların dəyməsə
Bu yerlərin atəşini, - bir yerə düş maşından.

Burda nələr yaradıbdır təbiətin öz əli,
Qayaları dilləndirər Füzulinin qəzəli.
Düz ilqarlı, sərv boylu Azərbaycan gözəli –
Heyrətindən daş olarsan, bir yol keçsə qarşından.

Güneyində qışda günəş qar əridir, buz yeyir,
Əskik olmaz qar tığından yayda belə quzeyi.
Dağlar, daşlar təbiətin əsrarəngiz muzeyi,
Ürək doymur bu yerlərin baharından, qışından.

Qalx zirvəyə, öyünmə ki, sən hamıdan hündürsən,
Ürəyincə cavab verər burda kimi dindirsən,
İgidlər var, yumruğunu qayalara endirsə,
Parçalanar ovum-ovum, seçilərmi daş undan?!

İnsanları taleyini işə, gücə bağlayıb,
Kəmənd atıb gur çayları axarından saxlayıb.
Qocalar var bu torpaqda, yaşı yüzü haqlayıb,
Təpəri var ürəyində, gileylənməz yaşından.

Təslim oldun qüdrətimə, iradəmə çar-naçar,
Qobustanım heykəlləşən tariximdən söz açar,
Pis niyyətlə toxundumu, ayaq altdan yer qaçar,
Haray qopar bu yerlərin torpağından, daşından.

Ana torpaq, ana torpaq, həm dərman, həm təbibsən,
Ürəyinin istisini varlığıma səpibsən,
Ayağımı neçə dəfə oxşayıbsan, öpübsən,
Tikan çıxıb qövr eləyən ürəyimin başından.

**1977**





## ARAZIN CAVABI

"Gözlərində qaldı neçə xoş arzu, muraz,
Bu insafsız çayı görmək ağırdı bizə." –
Eh, o qədər giley-güzar eşitdi Araz,
Dilə gəlib cavab verdi axırda bizə:

- Əzəl gündən öz məcrama düşüb axıram,
Şair, sən də sızıldama, yerində otur.
"Bura mənim, ora sənin" – deyib bağıran,
Çəpər çəkən insanlara gülməyim tutur.

Öz önünə köz eşməyə sən də tələsdin,
Çalışdın ki, elin dərdi sənə dəyməsin.
Gülməlidir qohumbazın, yerlipərəstin
Araz deyib, Təbriz deyib sinə döyməsi.

Zəmanənin köhləninə nə yəhər-yüyən? –
Boş ah-ufla incitməyin mənim ruhumu.
Bu sahildə qardaşıyla yola getməyən
Neyləyəcək o sahildən gələn qohumu?!

Öz nəğməmi oxumuşam həyatım boyu,
Azmamışam gözlərimə duman çökəndə.
Ayrılıqda nə günahı torpağın, suyun? –
İnsan olub körpü tikən, sərhəd çəkən də.

Əzəl gündən öz məcrama düşüb axıram,
Şair, sən də sızıldama, yerində otur.
"Bura mənim, ora sənin" – deyib bağıran,
Çəpər çəkən insanlara gülməyim tutur.

**1989**

## ATA EVİ

Əziz bala, bu ocağı yaxından tanı,
Bura gəlcək həyəcandan əsir dil-dodaq.
Ata evi – qartalların uçuş meydanı,
Ata evi – övladların güvəndiyi dağ.

Bu gün varam, sabah yoxam, ömür-gün keçir,
Sən bunları yaxşı başa düşəsən gərək.
Doğmalara, əzizlərə yovuşmaq üçün
Axşam-səhər bu ocaqda bişəsən gərək.

Bu həyətdən köz götürüb ömür payınız,
Neçə nəsil gəlib burda görüşməlidi.
Unutmayın, hamınızın ömür çayınız
Axıb, axıb, bu mənzildə birləşməlidi.

Ata evi – ögeylərin önündə səngər,
Siz bu evin işığında şad yaşarsınız.
Bu həyətdən ayağınız kəsilsə əgər,
Bütün qohum-qardaş ilə yadlaşarsınız.

Ata evi – bu kəlmənin mənası dərin,
Ata evi, doğmaların doğma ölkəsi.
Zaman-zaman nəvələrin, nəticələrin
Üzərinə düşəcəkdir onun kölgəsi.

Ömrüm-günüm, bu ocağı yaxından tanı
Bura gəlcək həyəcandan əsir dil-dodaq.
Ata evi – qartalların uçuş meydanı,
Ata evi – övladların güvəndiyi dağ…





## SUMQAYIT

O sayrışan işıqların görən nə deyir? –
Neçə ürək pərvanə tək oda atılıb.
Neçə cavan yuxusunda görəmmədiyi
Gözəlləri Sumqayıtda görüb, mat olub.

Dil açıbdır neçə gəncin şirin diləyi,
Ürəyində tikmək, qurmaq həvəsi gəlib.
Bu şəhərə neçə düzün gülü, çiçəyi,
Neçə dağın könül açan havası gəlib.

Ona bağlı illərimiz unudularmı? –
Milyonlara doğma olub Sumqayıt adı.
Yurdumuzun elə kəndi, şəhəri varmı
Bu şəhərdə yaşamasın onun övladı?

Burda kimsə taleyindən deyil narazı,
Qara gün də toy-bayrama dönər bu yerdə.
Şəkinin qara zurnası, Qazağın sazı,
Qarabağın tar-kamanı dinər bu yerdə.

Övladları bir-birindən xoşbəxt, bəxtiyar,
Adamların bir-birinə qaynayır qanı.
Evsizlərə ev olubdur, yarsızlara yar,
Aslanlara, Şəmşadlara hünər meydanı.

Gündən-günə ucalır o, artır qüdrəti,
Bir yenilməz dağa dönür qürur köksümdə.
Sumqayıtım bəxtəvərdi, səksən millətin
Mərd ürəyi bir ahənglə vurur köksündə.

Bir qartala bənzəri var, buna çox şadam,
Uzaq-uzaq üfüqlərə dikilib gözü.
Ona şəhər söyləmək də istəmir adam,
Sanki böyük bir ölkədir Sumqayıt özü.

**1981**

## MƏNİM İMZAM

*İmzasını qoymuş miləl övraqi-həyatə,*
*Yox millətimin xətti bu imzalar içində.*
***M. Hadi***

İmzam yoxsa imzaların içində,
Mənim dərdim Araz olub çağlayar.
Mənim imzam öz qüdrətli çiynində
Dünənimi, bu günümü saxlayar.

Xətainin qüdrətinə bələdəm,
Boşalmayıb kəhərinin törpüsü.
Namərd əllər pozammayıb hələ də, -
Mənim imzam – Xudafərin körpüsü.

Mənim imzam – Təbriz, Qarabağ, Gəncə…
Mənim imzam tarixin yaddaşında.
Mənim imzam – Qız qalası, Əlincə,
Mənim imzam – Qobustanın daşında.

Düşmənimin dar gününü gözlərəm,
Sevinərəm, tutar onu sancılar.
Məni görmək istəməyən gözlərə
Mənim imzam bıçaq olub sancılar.

Sərgimizə özgə quşlar dadanıb,
Təzə-təzə sevda gəzir başında.
Mənim imzam məni danan nadanın
Həkk olunub ocağının daşında.

Bir gün tarix yapışacaq yaxamdan,
Kim salacaq bu işləri nizama?
Övladımın damarında axan qan
Təmizdisə, zaval yoxdu imzama.

**1985**





## YADINDA SAXLA

Zaman insanları seçir, ayırır,
Dağdan nə aparar hər əsən külək?
Əvvəl evin içi, sonra bayırı
Deyən babalara baş əyək gərək.

Kənarda gəzirsən hey pislikləri,
Uzaq düşmənləri hədələyirsən.
Sən öz işindəki naqislikləri
Vətən kəlməsiylə pərdələyirsən.

Boğazdan yuxarı sözə uymayıb, -
Bir tük də yayınmaz elin gözündən.
Əlin daş üstünə bir daş qoymayıb,
Dilin qabar tutub "vətən" sözündən.

Sən öz sənətini bilmirsən hələ,
Ancaq danışırsan hey dürək-dürək.
Kəsməkdən savayı hər şeyi bilən
Küt balta vətənin nəyinə gərək?

Dadsan da həyatın yüz nəşəsini,
Sevgi qazanmazsan fəğanla, ahla.
Vətənin düşməni öz peşəsini
Yarımçıq biləndir, yadında saxla!

## YUMRUQ KİMİ BİRLƏŞMƏSƏ ELİMİZ

Göz dağına dönən ulu Kəpəzin
Zirvəsində soldu neçə gülümüz.
Torpaq üçün vuruşmadıq, vətənin
Qarşısında gödək oldu dilimiz.

Ağbulağın bəxti qara yazıldı,
Şamsız adı xəritədən pozuldu.
Qəlbimizdə bir əbədi sızıltı –
Gözləmirdik belə fitnə-feli biz.

Qardaş deyib başımızı qatdılar,
Ömrümüzü alovlara çatdılar,
İzimizi qaşıdılar, atdılar,
Əldən çıxdı kövşənimiz, çölümüz.

Nökərimiz üzümüzə ağ oldu,
Dağlarımız gözümüzə dağ oldu.
Sonaları pərən-pərən dağıldı,
Qara geydi bizim Qara gölümüz.

Ürəyimdə ağrı, nisgid boy atar,
Başımıza dünya oldu niyə dar?
Dağ döşündə yetim qalıb Niyədar,
Bir də ona çətin yetə əlimiz?

Qələm çəkdi yağı doğma adlara,
Torpağımız qismət oldu yadlara.
Bu ayrılıq saldı bizi odlara,
Tarixlərə səpələndi külümüz.

Nə vaxtacan yurdumda yad gəzəcək?
Ürəyimiz haqsızlığa dözəcək?
Yağı bizi tapdayacaq, əzəcək,
Yumruq kimi birləşməsə elimiz.

## AZADLIQ

Qış gecəsi başımıza gələnlər
Başdan-başa müəmmadı, təzaddı.
Unudulmaz el yolunda ölənlər,
Qan gölündə bitən gülmüş azadlıq.





Tapdananda xoş ümidlər, diləklər,
Tısbağalar çanağına çəkildi.
Ürəklərdə qönçələyən çiçəklər
Güllələrin sınağına çəkildi.

Qanımızdan yarandı bir göl, Vətən,
Neyləmişik ağ gün bizdən küsübdü?
Harınların nə vecinə el, vətən? –
El qeyrəti çəkən kasıb-kusubdu.

Gücsüzlərə qılınc çəkib, güclüyə
Durub quyruq bulayana nə deyək?
Bəsdir qoydun sən özünü bicliyə,
Tüpürdüyün yalayana nə deyək?

Rahat, zəngin otağında süslənib,
Bizə tələ quranları tanıdıq.
El sözünün arxasında gizlənib,
Nala, mıxa vuranları tanıdıq.

Qış gecəsi başımıza gələnlər,
Başdan-başa müəmmadı, təzaddı.
Yaddan çıxmaz el yolunda ölənlər,
Qan gölündə bitən gülmüş azadlıq…

## YANVAR RÜBAİLƏRİ

Ölən igid gənc idimi, qaboyum?
Göz yaşların incidimi, qaboyum?
Tank keçəndə sinəmizin üstündən
Tırtılları incidimi, qaboyum?

Qara geydi dağım, düzüm, kamança,
Qan püskürdü ağlar gözüm, kamança.
Haqq səsimə kilid vurdu nahaqlar,
Dodağımda yandı sözüm, kamança.

Pətəyimdə şan qalmadı, balaban,
Daha məndə can qalmadı, balaban.
Gözlərimdə yaş qoymadın, a zalım,
Damarımda qan qalmadı, balaban.

**1990**

## QƏRƏNFİLƏ DƏYƏN GÜLLƏ

Qaçmağa da qoymadı,
Namərd dörd yanı kəsdi.
Vətənimin gülləri
Harayıma tələsdi.

Qərənfil, bu meydana
Can verməyəmi gəldin?
Yaralı igidlərə
Qan verməyəmi gəldin?

Güllələr "haqq", "ədalət"
Deyən dillərə dəydi.
Təzəcə qönçələyən
Qərənfillərə dəydi.

Sinəm aşsüzən oldu,
Köks ötürdüm dərindən.
Bir qərənfil boylandı
Hər yaramın yerindən…

## LAYLAY, QƏBƏLƏM, LAYLAY

Torpağın içindəki
Şəhəri görmürsən bəs?
Ayağının altında
Tarix yatır, yavaş gəz!





İtirib-axtarmasaq,
Küsər Qəbələ birdən.
Qazıb üzə çıxartdıq
Qəbələni qəbirdən…

***

Qəbələ bir yüyrükdü,
Onu zaman tərpədir.
Qaraçay, Qocalançay
Sanki yüyrük ipidi.

Qaraçay, Qocalançay
Həzin-həzin oxuyar.
Bu yüyrüyün içində
Tarix gedib yuxuya.

***

Evinin, hasarının
Kərpici uçub lay-lay.
Laylay, gözümün nuru,
Laylay, Qəbələm, laylay!

Laylay, ulu şəhəri
Salan memar əlləri.
Laylay, evim-eşiyim,
Laylay, ötən illərim.

Laylay, düşmən oxuna
Sipər olan sinələr.
Laylay, ulu babalar,
Laylay, ulu nənələr!

Biz sizi unutmarıq,
Düşmənə uduzmarıq.
Yatın, arxayın yatın,
Yerinizdə biz varıq!

**1985**

## QƏBƏLƏNİ QORUYAN HASAR

Düşmən hücum edəndə
Dönüb keçilməz dağa.
Bu hasar sinəsini
Tez veribdir qabağa.

Qılınclara, oxlara
Qalxan olub nə qədər.
Bu hasarın önündə
Düşmənlər al qanına
Qəltan olub nə qədər.

Qoruyarmış şəhəri,
Nə yaxşı ki, varmış o.
Qəbələnin əynində
Zirehli paltarmış o.

Daşların, kərpiclərin
Donub gözündə leysan.
Hasar qalıb, şəhərsə
Olub yer ilə yeksan.

Hanı "mənəm" deyənlər?
Hanı "mənim" deyənlər?
Bu hasarın köksündə
Yatır dərdlər, düyünlər.

Dindirmə, ağlayacaq,
Bulud tək dolub indi.
Ölən qədim şəhərə
Baş daşı olub indi...

**1985**





## AZƏRBAYCAN YAŞAYIR

Həramiz bu vətənin
Parçası, zərrəsiyik.
Yağılara yurdumun
Parçası, zərrəsi yük!

Dünyanın hər yerində
Yaşayır soydaşımız.
Düşmənlərin başına
Ələnsin qoy daşımız!

Nəqarat

Bu vətənin yolunda
Birləşsin əllərimiz!
Sevinsin dağlarımız,
Sevinsin çöllərimiz!

Neçə ki, ruhumuz var,
Neçə ki, dilimiz var, -
Azərbaycan yaşayır,
Yurdumuz, elimiz var!

Nə zaman ki, birləşir
Hissim, ruhum, bədənim,
Dünyanın özü boyda
Bir dünyadı vətənim.

Kim yurdumun ruhunu
Ürəyində daşıyır,
Onun köksü üstündə
Azərbaycan yaşayır.

Nəqarat

**11. 02. 2005**

## DOĞULDUĞUM KƏND

*Sığmaz xəyalına böyük bir vətən,*
*Sığar xəyalına doğulduğun kənd.*
**K. Simonov**

Lal olsam, o məni gətirər dilə,
Çırpınar bağrımın başında arzum.
Doğma torpağımı demirəm hələ,
Göyərər kəndimin daşında arzum.

Atamın, babamın adları ilə
Mənim pasportumda qoşadır adı.
Nə qədər boy atsam, ucalsam belə,
Özülüm ordadı, köküm ordadı.

Ay ürək, bir nəğmə oxu dünyaya,
Ay keçir, il keçir, daşlanır ömrüm.
Orda göz açmışam axı dünyaya –
Bir çayam, kəndimdən başlanır ömrüm.

Gedirəm, günbəgün uzanır boyum,
Təzə mənzillərlə qucaqlaşıram.
Daha bərk axıram artdıqca suyum,
Bəs niyə kəndimdən uzaqlaşıram?

Çayam, mənbəyimdən gərək güc alım,
Gec-tez bu həsrətin buzu əriyər.
Mən axıb getdikcə fikrim, xəyalım,
Dönər balıqlara, üzər geriyə…

1977





## LƏNKƏRANDA YAĞIŞ

Nəğmə imiş buranın çən-çisəyi,
Dağlar, düzlər bələnibmiş ətirə.
Öpdü yağış həsrətlə gül-çiçəyi,
Öpüşünün yeri qaldı xatirə.

Dağların da qəlbi belə yuxamı?
Elə bil ki, sehr yağdı sinəmə.
Yağış yağdı, dartıb açdım yaxamı,
Damcı-damcı şer yağdı sinəmə.

Burda güllər qol götürüb süzərdi,
Bir qızılgül dəstəsiydi "Cələlə".*
Ürəyimdə neçə duyğu közərdi,
Neçə bulaq dönüb oldu şəlalə.

Bu yağışın damlasında üzərlər,
Dalda yerə qısılmağın yerimi?!
Elə bildim rəqs eləyən gözəllər
Ayaq açan misrasıdı şerimin.

Yaxam qaldı bu həsrətin əlində,
Ağıl dedi: -Bir özünü al ələ!
Kərəm oldum bu Lənkəran elində,
Ürəyimdən Əsli keçdi, a Lələ!

Şehə batıb bu güllərin ləçəyi,
Duyan üçün bir damla da dərindi.
Bu yağışa qol götürən çiçəyin,
Hünərin var, bircəsini dər indi…

* Rəqs qrupu

F. Köçərli adına
Azərbaycan Dövlət Uşaq
KİTABXANASI
İNV. № 95053

## ASTARA

Göyçək balan güllə çıxdı qarşıma,
Bu şerimin ilk misrası – Qızılgül.
Astaranın yağışında üşüyüb,
Əllərimin istisiylə qızır gül.

Neçə qızın çiçək bitdi dilində,
Neçə cavan tora düşdü gözündən.
Bu torpağın yağışı da, seli də
Yuya bilmir gözəlliyi üzündən.

Torpağına qədəm basdım baharda,
Ağ örtüklər bəzək verir üzünə.
Yaşıllığı görməsəydim kənarda,
Sanardım ki, qar ələnib düzünə.

Ürəyimin istəyini göz deyər,
Bu torpağın abidəsi – gözəllik!
Qorxuram ki, cəlalına göz dəyə,
Yanan qəlbim olsun sənə üzərrik.

Dönərəmmi burdan çiçək dərməmiş?!
Bir kitabdı – dağlar, düzlər varağı.
Yaxınları yaxşı-yaxşı görməmiş,
Duman qoymur gözün görə uzağı.

İlə dəyər burda keçən bir günüm,
Deməyin ki, sizə yadam, "gəlmə"yəm.
Qayıdanda sel apara körpünü,
Bu torpaqdan geri dönə bilməyəm.

1981

F. Köçərli adına
KİTAB.. ANASI
İNV.





## QARAÇI YURDUNDA

Ürəyində təpər varsa, yola çıx!
Gözəlliyə sarı gedən yol açıq.
Gör nə qədər geniş imiş bu dünya,
Yamacı gəz, yavaş-yavaş yala çıx!

Üfüqlərdə batan günəş odlanır,
Köksüm altda neçə duyğu atlanır.
Bura niyə "Qaraçı yurd" adlanır,
Nə gəzirmiş axı burda qaraçı?

Kor bulağın gözünə yaş gələ bir,
Lazım gəlsə, dar ayaqda gülə bil.
Bu gözəllik dənizində elə bil
Ağ yelkəndi görünən hər alaçıq.

Zirvədəki dumandımı, sisdimi?
Tunca dönən bu üfüqlər misdimi?!
Göyqurşağı – paxır tutan hissimi
Çəmənlərdə qalaylayan qalayçı.

Odmu yanır o dağların qaşında?
Bir gözəllik sərgisi var qarşımda,
Görünəsən kaş yolun o başında –
Göz yol çəkir, ürək həsrət, qol açıq.

Qan fışqırır bu dağların köksündən,
Qəlb od alır lalələrin közündən,
Yusifoğlu, çiçəklərin gözündən
İçdiyin şeh – dərdlərinin əlacı…

## KƏPƏZ

Nə vaxtdır bu dünya boşalır, dolur,
Heç özü də bilmir yaşını Kəpəz.
Zirvəsi həmişə duman, çən olur,
Göygöl yaşınmaqdan, yaşınır Kəpəz.

Qalxana çevrilir onun təpəsi,
Azğın şimşəkləri qoymur yaxına.
Təbiət dumana bükür Kəpəzi –
Qorxur ki, göz dəyə o boy-buxuna.

1987

## MARALGÖLƏ YOL GEDİRƏM

Maralgölə yol gedirəm sevincək,
Dərə çiçək, təpə çiçək, yer çiçək…
Elə bil ki, əl eləyib hər çiçək
Söyləyir ki, ruhun olsun, mənə bax!

Günəş qalxıb, zülmət gecə əriyib,
Zirvələri yenə duman bürüyüb.
Ağac gördüm, ayaq üstə quruyub,
Meşələrin saçındakı dənə bax!

Elə bilmə duman dağa gənəşir,
Gədiklərdə maral durub gərnəşir.
O yanda çən, bu yanda yay günəşi,
Yağışa bax, dumana bax, günə bax!

Bu lövhəyə təbiətmi qol qoyub?!
Gül-çiçəklər alov saçır yol boyu!
Meşəsində ağac gördüm qolboyun,
Ulasa bax, palıda bax, vənə bax.





Çin olubdur neçə arzun, diləyin,
Dumanlarda itib-batıb gileyin,
Çəkib səni bu dağlara taleyin,
Yusifoğlu, gözün doymur, yenə bax!

1982

## BU GECƏ

Yuxuma giribdir dağlar, meşələr,
Göylərdə ildırım çaxıb bu gecə.
Kəndimizdə olan çaylar, çeşmələr
Yuxu dənizimə axıb bu gecə.

Talada kəkliklər gəliblər dilə,
Yenə də dağlarda çiçəkli yazdır.
Təpədən dərəyə enən şəlalə,
Elə bilirdim ki, sədəfli sazdır.

Gəlinmi köçürdü dağlar bu gecə? –
Kəpəz ağ libasda nə göyçək idi!
Bir əsər yazmışdı bahar bu gecə,
Onun hər kəlməsi gül-çiçək idi.

Nə görsəm yaxşıdır yuxudan durub? –
Gördüm at oynadır çöldə qarlı qış.
İsti yatağımdan məni qaldırıb,
Dağlara aparan yuxuya alqış!

1976

## ZİRVƏDƏ

Ucalmaq – arzumun əzəli, ilki,
Bir dəfə qıy vurmaq yüz ömrə dəyər.
Zirvə qartal üçün zirvə deyil ki,
Qartal yorulanda enər zirvəyə.

Könlümə ruh verən onun səsidir,
Mən qərib saymıram özümü orda.
Zirvələr qartalın söz kürsüsüdür,
Qarğa deyə bilməz sözünü ordan.

## BÜLLUR BƏLƏDÇİM

Qısıldım bir palıd budağına mən,
Xəyalım hər yanı gəzdi, dolaşdı.
Döndüm xatirələr bulağına mən,
Qayğısız günlərim kükrədi, daşdı.

Meşənin qoynunda itirdim yolu,
Hündür bir təpənin çıxdım üstünə.
Qanatdı dizimi həmərsin kolu,
Yoncanın suyunu sıxdım üstünə.

Çiyələk qoxusu tutdu hər yanı,
Yaşıl bir talaya endim ehmalca.
Yuxarı baxanda gördüm səmanı,
Aşağı baxanda yaşıl bir xalça.

Əyildim bulaqdan bir qurtum içim,
Yol hanı? – Bürüdü məni həyəcan.
Bir çeşmənin suyu oldu bələdçim,
Ötürdü o məni coşqun çayacan…

**1976**

## ÇAYZƏMİDƏ QIŞ GECƏSİ

Meşə heyrətə gəlib,
Çay heyrətə gəlib.
Ulduz heyrətə gəlib,
Ay heyrətə gəlib.





Gecə heyrətə gəlib,
Qış heyrətə gəlib.
Yuxudan oyatdığımız
Quş heyrətə gəlib.
Çay elə bil soruşur
Aydan süzülən nurdan:
-Gecənin bu vaxtında
İnsan nə gəzir burda?!
Bulaq heyrətlə baxır,
Meşə heyrətlə baxır.
İnsan ay işığında,
İnsan qar işığında
Şam kimi əriyib axır.
Heyrət heyrətə qovuşur,
Heyrət bir çıraq olur.
İnsan heyrətə gələndə
Gözləri bulaq olur…

**1986**

***

Kəndimizə qonaq gələn dost,
Öz bəxtindən küs ki,
Sən adicə bir çiçək görürsən,
mən baba qəbrindən
boylanan nisgil.
Min xatirə uyuyur
o dağın zirvəsində,
bu dərənin qucağında.
Bir həsrət nəğməsi çağlayır
bu bulağın dodağında.
Bir ürək titrəyir
bu ağacın hər yarpağında.
Bir ata həniri var
bu evin suvağında…
Sən adicə dərə,

adicə dağ görürsən.
Sən adicə ağac,
adicə yarpaq görürsən.
Sən novunu sel aparmış
adicə bulaq görürsən,
Sən suvağı tökülmüş
adicə otaq görürsən.
Mən o dərədən, o dağdan,
o ağacdan, o yarpaqdan,
novunu sel aparmış bulaqdan,
suvağı tökülmüş otaqdan
yamanca utanıram…

**1987**

## O BAĞIN AĞACLARI

*Uşaqlıqda dərs keçdiyimiz məktəbin, onun gözəl bağının yerində şum görəndə kövrəldim.*

Burda bir gözəl ev vardı,
Ürəyimdən bir ah qopub.
O ev göyəmi çəkilib,
O ev torpağamı hopub?!

O evin itdiyi yerdə
Elə bil ki, ahdı ilğım.
O ilğımın arxasında
Mənim kövrək uşaqlığım.

O evin dörd tərəfində
Bir gözəl bağ vardı o vaxt.
O bağın köksünə axan
Bir bulaq çağlardı o vaxt.

O ev uçub dağılanda
Bu bağı da tutub qarğış.
Demə bu bağın üstündə
O evin kölgəsi varmış.





O ağacın budağında
O bülbüllər ötməz daha.
Şumlanıb o bağın yeri,
O ağaclar bitməz daha.

Əziz bala, zərrə qədər
Yalan yoxdu sözlərimdə.
Bax, o bağın ağacları
Bitib mənim gözlərimdə…

**1987**

## DOĞMA DAĞLARIN HÜZURUNDA

Saç-saqqalı dümağ gəldim,
Ürəyimdə bir dağ gəldim.
Qış qapını alan zaman,
Dağlar, sənə qonaq gəldim.

Tüfəngimi alıb qalxdım,
Qarlı zirvələrə baxdım.
Gəldim sizə yiyə duram
Dağların yiyəsiz vaxtı.

Qəlbim açıldı göy kimi,
Ürəyim dindi ney kimi.
Qarınız kəfənim olsun,
Sizə baxsam ögey kimi…

## DOĞMA YERLƏRDƏ

***Dostum İxtiyara***

Hara gedir baş alıb bu buludlar? –
Göz dikmişəm qarasına, ağına.
Qəlbim kimi boşalıbdı buludlar,
Yer həsrətdir, heç oxşamır yağana.

Bura gələn torpaq yollar didilib,
Dağ döşündə qəribsəyib Qədili.
Bu daşların nə ağzı var, nə dili,
Boş obalar çevrilib göz dağına.

Əzəl gündən bu dağlara söykəndim,
Arzularım nə bitdi, nə tükəndi.
Gorus yolu elə bil ki, örkəndi,
Dəlikdaşsa bir əbədi doğanaq.

Buludların bəbəyində donub yaş,
Dağ ağlasa, gözlərindən yağar daş,
Qəm eləmə, zaval yoxdu, a qardaş,
Nəbiləri, Həcərləri doğana...

## QARDAŞ, BİR BAŞINI YUXARI QALDIR

İndicə yağacaq bahar yağışı,
Göylərdə bir qərib bulud kişnədi.
Sonra gec olacaq, atam-qardaşım,
Bəsdi başaşağı gəzdin, işlədin.

Tez elə, başını yuxarı qaldır,
Çiçəyi çırtlayan budaqlara bax.
Yığdığı var-dövlət de, kimə qaldı? –
Göylərə baş çəkən bu dağlara bax!

Dizində güc varkən, gəz bu yaylağı,
Çəmənin üzünə düşən şehi gör!
Dinlə nəğməsini şırşır bulağın,
Çiçəyin gözündən öpən mehi gör!

Get dayan dənizlə nəfəs-nəfəsə,
Dinlə ləpələrin pıçıltısını.
Meşənin qoynunda düşüb həvəsə,
Eşit xəzəllərin xışıltısını!





Bu necə cığırdı, bu necə yoldu? –
Yarır toranlığı durnanın döşü.
Qardaş, bir başını yuxarı qaldır,
Ayın danışdığı nağılı eşit!

Qoxla bu çiçəyin gözəl iyini,
Onu sev, ürəyin qalansın oda.
Bədbəxtdi, həyatın gözəlliyini
Duymaya-duymaya yaşayan adam...

## ÜRƏYİM ATLANIR DAĞLARA SARI

Ürəyim atlanır dağlara sarı,
Deyəsən, deyəsən yuxum çin olub.
Gedirəm, gedirəm üzü yuxarı,
Bir körpə dağ çayı bələdçim olub.

Arabir üzülür yerdən ayağım,
Qalxıram kollardan mən tuta-tuta.
Gedib zirvəsində o uca dağın,
Dönmək istəyirəm bir top buluda.

Boylanıb baxırlar ürkək marallar,
Bağrımın başında dərd qönçələyib.
Bu çayın suyunda yanğı var, Allah,
Bu çayın içində ay gecələyib.

Sıxın gözünüzü buludlar kimi,
Amandı, qoymayın sozalsın bu çay.
Siz onun içində qazın qəbrimi,
Sinəmin üstündə saz olsun bu çay.

Ürəyim atlanır dağlara sarı,
Deyəsən, deyəsən yuxum çin olub.
Gedirəm, gedirəm üzü yuxarı,
Bir körpə dağ çayı bələdçim olub...

## QAPIMIZDA BİTƏN TUTLAR

Tale özü qarğıyıbmı bu kəndə? –
Tənha evlər gözümüzü dağlayır.
Üstümüzə dərd buludu çökəndə
Gözlərimiz bulaq olub çağlayır.

Bir nisgil var bu tutların boyunda,
Küskün-küskün dayanıblar gör necə?!
Gözlərimin göz göynədən suyunda
Ötən günlər güzgülənir gizlicə…

Qapımızda bitən tutlar, xoş gördük,
Buğum-buğum boy atmısız, qalxmısız
Bu ev sizə səngər olub, əsgər tək
Neçə-neçə döyüşlərdən çıxmısız.

Dönüb tapdaq meydanına bizim bağ,
Baramaçı gəlib sizi doğraya.
Hücüm çəkib qoyun-keçi, at-ulaq,
Dözmüsünüz hər əzaba, ağrıya.

Ürəyimi təkcə sizə açıram,
Başdan-başa duyğusunuz, hissiniz.
Qapımızdan getməmisiz heç hara,
Hamımızdan etibarlı sizsiniz…

## TƏK ARMUDUN ÖNÜNDƏ DÜŞÜNCƏLƏR

Təklik sıxdı ürəyimi, boynumu burdum,
Həsrət odu yanağıma süzüldü dən-dən.
Bir qurumuş tək armudun yerində durdum,
Ağac olub bitmək keçdi mənim qəlbimdən.





Əziz gəlir burda mənə ot da, ağac da,
Bu dərədən, bu təpədən adam utanır.
Köhlənimi oynatdığım o yal-yamacda
Ayrı uşaq məhmizləyir indi atını.

Doğma yerdə kövrək olmaq nə asan imiş,
Eh, nə bilim, bəlkə elə bu tək armud da
Mənim kimi qəribsəyən bir insan imiş,
Ağac olub kök salıbmış bir vaxt bu yurdda.

Uzaqlara sürdüm bir vaxt mən qarğı atı,
Bu yollarda həm sevinc, həm sinə dağı var.
Buludlara can atsa da, ağacın, otun,
Öz əslinə, öz kökünə qayıtmağı var.

İllər ötür, ömür dönür şirin nağıla,
Ən qüdrətli igidin də boşalır qolu.
Saymazyana öz atını səyirdən oğlan,
Gəlib bura dirənəcək sənin də yolun.

Görəcəksən buza dönüb o od, o ocaq,
Qarğı atlı uşaqlar da keçəcək səni.
Doğma yurdda səni heç kəs tanımayacaq,
Ürəyindən ağac olmaq keçəcək sənin…

**1986**

## HƏSRƏT

Gözüm görür,
Ürəyim atlanır.
Əllərim titrəyir,
Ruhum qanadlanır.
Yaşımın bu çağı,
Saçımın ağı,
Məni böyük adam sanan
Kəndçilərimin qınağı –
Bu doğma yerlərlə mənim aramda

Sərhəd dirəkləri kimi dayanır.
Bu dirəklərin o üzündən
on üç yaşlı,
qara gözlü, qara qaşlı
bir uşaq boylanır…
Mənə "gəl-gəl" deyir
Dərələrin dərinliyində çağlayan bulaqlar.
Yol kənarında bitən qırxbuğumlar,
Kol dibindən boylanan quzqulaqlar,
Sinəsindən çiçək dərdiyim çəmənlər,
Budağından yelləncək asdığım ağaclar…
Ancaq…
On üç yaşım kimi
əlçatmazdı, ünyetməzdi
bu dağlar, bu dərələr, bu yamaclar…

**1986**

## ÜŞÜYƏN DAŞLAR

Əsər də qalmayıb hünərimizdən,
Talemi qarğıdı o çağımızı?
Hərarət alardı hənirimizdən,
Közü qurtarmazdı ocağımızın.

Bizsiz yetim qalan ulu yurd yeri
Görəsən bizimi düşünür indi?
Yağışın altında, qarın altında
Ocaq daşlarımız üşüyür indi.

* * *

Cığırları ayağımla
Yumaq kimi çözələdim.
Meşələrin qoynundakı
İzlərimi təzələdim.

Dırmandım çiçəkli dağa,
Qonaq oldum buz bulağa.





Maddım-maddım mənə baxan
Çiçəklərə göz elədim.

Baxma mənə quru-quru,
Ocaq sönüb, közü qoru!
Kül altında qalan qoru
Nəfəsimlə köz elədim.

Ürəyim dindi ud kimi,
Səksəndim lal sükut kimi,
Dolan qara bulud kimi
Vərəqlərə söz ələdim…

**16. 07. 2002. Qusar,**
**Qayakənd.**

## KUZUN YOLU

*Dostum Rəşidə*

Dağlar qoynunda uyuyur,
Kuzuna bax, Kuzuna bax!
Yamacların çiçəyinə,
Zirvələrin buzuna bax!

Qəlbi həsrətli dərələr
Öz köksünə basar çayı.
Səhərəcən layla çalır
Yatanlara Qusar çayı.

Heyranlıqla baxıram mən
Könül açan mənzərəyə.
O dağın, bu dağın suyu
Özünü atır dərəyə.

Biçənəklər bir tərəfdə,
Ayrıcadı örüş yeri.

Dərələr – dağlardan gələn
Çeşmələrin görüş yeri.

Kim deyir ki, qantəpərin,
Baldırğanın canı yoxdu?!
Ulduzların sanı var ki,
Çiçəklərin sanı yoxdu…

Arı güldən gülə qonur,
Damağında bal sevdası.
Hey uçuşur kəpənəklər,
Ürəyində gül sevdası.

Dağdan keçir, çaydan keçir
Hey uzanır Kuzun yolu.
Zirvələrə doğru gedir
Dünyanın ən uzun yolu…

**17. 07. 2002. Qusar, Kuzun.**

## DAĞLARA SARI ÜZ TUTDUQ

Minib atların belinə
Dağlara sarı üz tutduq.
Neçə yamaca vuruldum,
Neçə zirvəni göz tutdu.

Qusarçay bələdçi oldu
Dırmandıq üzü yuxarı.
Elə bil ki, yolumuza
Nur saçırdı zirvə qarı.

Çiçəkli yamaclara bax,
Lalənin közünə isin.
Düş atdan, piyada gedək,
Ayaqlarımız sevinsin!





Yamacların ətəyində
Bizim də qalsın izimiz.
Şəlalələrdən yapışıb,
Dağlara qalxsın gözümüz.

Dumanlı dağa baxanda
Gözlərimdə şimşək çaxar.
Nə bu atlar o at deyil,
Nə bizdən Koroğlu çıxar…

**18. 07. 2002. Ləzə.**

## YORA BİLMƏZ YOLLAR BİZİ

Apar məni o dağlara,
Qaşqa kəhər, qaşqa kəhər.
Yolu yaxşı tanıyırsan,
İstəmirəm başqa kəhər.

Keçib Peyğəmbər daşından
Gedə bilsən Ləzəyəcən,
Çiçəklərdən dəstə tutub,
Yalmanını bəzəyəcəm.

Bu yol uzanır dağlara,
Bu yol gedir Suvaracan.
Köhlənimi Qırxbulaqda
Otaracam, suvaracam.

Ürəyimizdəki həvəs
Uzaqlara yollar bizi.
Qəlbimizdə sevgi varsa,
Yora bilməz yollar bizi…

**17. 07. 2002. Suvar.**

## DAĞ LÖVHƏSİ

Ayrı düşən dağların
Bulaq gözləri dolub.
Dağların arasında
Dərələr sərhəd olub.

Dağlar şəlalələri
Dərəyə pay göndərir.
Dərə dost sovqatını
Coşqun çaya döndərir…

## KUZUN ŞƏLALƏLƏRİ

Bu yamaclar, bu dağlar
Yaman gəlir xoşuma.
Bir kəpənək dolanır
Hər çiçəyin başına.

Dayanıbdır üz-üzə
Kuzun şəlalələri.
Məhəbbətlə seyr edir
Gözüm şəlalələri.

Elə bil iki aşıq
Dayanıbdır üz-üzə.
Hər şəlalə bir sazdı,
Ehtiyac yoxdu sözə.

Könül açan bu lövhə
Yaradanın işidir.
Dağlar xəyala dalıb,
O nəğməni eşidir…

**20. 07. 2002. Qayakənd.**





## LƏZƏ ŞƏLALƏLƏRİ

Gözəllik məskənidir Azərbaycan torpağı,
Tanrı bizə bəxş edib gözəl şəlalələri.
Dünyaları dolaşır onun səsi, sorağı,
Ürəkləri oxşayır Ləzə şəlalələri.

Zirvələrə qalxdıqca qəlbimə düşür işıq,
Şəlaləyə baxanda köksümdə dan sökülür.
Biz onun sorağıyla dağlara dırmanmışıq,
O bizi arzulayıb, dərələrə tökülür…

**20. 07. 2002. Qayakənd.**

## SUDUR

Bu kəndin adı Sudur,
Dörd yanı otdur, sudur.
Neçə-neçə sürülər,
Dağ yuxarı sürülər.
Anasını gözləyən
Körpə quzular mələr.
Qoyunların südündən
Gül-çiçək ətri gələr…

**20. 07. 2002. Qayakənd.**

## YAĞIŞDAN SONRA

Qaranlıq nura bələnib,
Göy gurlayıb, şimşək çaxıb.
Damcılar nəğmə oxuyub,
Gecə səhərəcən yağıb…

Leysan təzəcə kəsilib,
Yolumu gözləyir meşə.

Hamamdan təzəcə çıxan
Gözələ bənzəyir meşə...

**04. 08. 2004. Qusar.**

* * *

Gözəlliklər məskəniymiş Yarımca,
Sağalarsan, bura gəlsən yarımcan.
Meşələri, bulaqları bir yana,
Bir qız gördüm, doğma imiş yarımca...

**2003**

## AĞAC BİTİRƏN QAYA

Ləzəyə gedən yolun üstündə
Çiçəklə bəzənib
hər dağ, hər yamac.
Ləzəyə gedən yolun üstündə
bir bulaq,
bulağın üstündə
bir qaya,
qayanın üstündə
bir ağac.
Ona bədnəzər
neyləyə bilər
torpağımda, daşımda
gözəllik, halallıq
mayası varsa?
Bu ölkə cənnət
deyil bəs nədi,
əgər üstündə
ağac bitirən
qayası varsa?

**11. 08. 2004. Ləzə.**





## MEŞƏYƏ YAĞIŞ YAĞIR

Bulud köhlənləri
göyüm-göyüm göynədir
göyün şimşək qamçıları.
Meşəyə yağış yağır.
Ağaclar
yarpaq ovuclarını açıb,
havada tutmaq istəyir
damcıları.
Yarpaqlar piano dillərini,
Yağış sehrkar
bəstəkar əllərini
xatırladır.
Göylərin yağış simfoniyası
heyrətə gətirir
yerdə insanı.
Yarpaq ovucda
tutub saxlamaq
mümkündümü
leysanı?!
Səhərəcən gözlərinə
getməyib çimir,
Ağaclar
bəxtiyar-bəxtiyar
çimir,
çimir...

**26. 07. 2002. Qayakənd.**

* * *

Sev hər gülü,
hər yarpağı,
Yaşamaq xoşbəxtlik deyilmi
bu gözəl məkanda?
Bitirdiyi qanqala,
çayıra görə

söymə torpağı;
torpaq gül-çiçək də bitirir,
qaratikan da...
2003

* * *

Fırtına simfoniyası
çox yaraşır
dilinə dənizin.
Küləklərdən başqa
kim sığal çəkə bilər
telinə dənizin?!
2003

## YAZ DUMANI

Yaz dumanı olubdur
Meşənin tül köynəyi.
Ağacların içində
Tumurcuqlar göynəyir.

Novruzgülü – meşənin
İlk şamı, ilk çırağı.
Duman yuna bənzəyir,
Budaqlar - yun darağı.

Təbiət bir sehrli
Sərgi açıb qarşımda.
Duman yarpağa dönür
Ağacların başında.

Yarpaq yadigar qalır
Sanki duman köçündən.
Yaşıl ümid sıyrılır
Boz dünyanın içindən...
**21. 03. 2002. Qusar.**





## BAHARIN İLK QƏDƏMLƏRİ

Dərin qış yuxusundan ayrılmayıb böcəklər,
Budaqlardan sallanıb bərq vuran şeh muncuqlar.
Ağacların dibində üzə gülür çiçəklər,
Ancaq göz açmayıbdır budaqda tumurcuqlar.

Yaz yağışı inci tək səpilib düzə, çölə,
Çiçəklərin gözləri dikilib uzaqlara.
Gövdənin içi ilə bahar yol gedir hələ,
Üç-dörd günə çatacaq ən uca budaqlara...
**21. 03. 2002. Qusar.**

## İKİ DƏNİZ

Romantik xəyallar
məni mö'cüzələr beşiyi dənizin
sahilinə aparır.
Ancaq dənizlə üz-üzə gələndə
ürəyim fəğan qoparır...
Dalğalar "mən ölüm, sən öl" bilmir,
hövsələsi dardı.
Xəyalımdakı dəniz mehriban,
qarşımdakı dəniz qəddardı...
**22. 04. 2002**

***

Bir umacağın varsa,
söylə,
Əlimi qoyum
gözümün üstünə!
Uyut məni,
uyut, dənizim,
Başımı qoyum
dizinin üstünə...

# TƏRƏZİDİR ELİN GÖZÜ

## SÖZ KARVANIM

Bir söz çəməni salmışam
Aqil gəlib çiçək dərə.
Sevənlər baxıb zövq alar
Mən əkdiyim çiçəklərə.

Nadansa kobud sözüylə
Ürəyimə yara salar.
Gözümdə bərq vuran nuru
Görə bilməz yarasalar.

Şükür ki, mənim arxamda
Qədirbilən elim durur.
Ay nurundan yoğrulmuşam,
İçim duru, çölüm duru.

Qəmə bələnmiş sevgimi
Görənlərin qəlbi sızlar.
Mənim isti sözlərimi
Necə sevsin qəlbi buzlar?!

Çiçək gözündə şeh öpən
Bir şairi duymaq üçün,
İlahi bir sevgi ilə
Dolu ola gərək için.

Gücün çatmaz ürəyimin
Yanğısını yatırmağa.
"İt hürüşü qadir deyil
Mələk ünü batırmağa."





Qəlbində sevda olmayan
Bulaq tək çağlaya bilməz.
Söz karvanımı yolundan
Bəndələr saxlaya bilməz...

**27. 12. 2003**

## İTİ QƏLƏM

Mənə pənah gətirib
uzaqlar, yaxınlar;
üşüyən böcəklərə,
ağlayan çiçəklərə
sığınacaq olub
isti ovcum.
Söz gülşənimə
əyri-əyri baxanlar!
Gözlərinizi qoruyun, –
Çox itidi ha
qələmimin ucu!...

**28. 12. 2003**

***

Həyat eşqi -
Sevdayla dolu
nəfəsimdi.
Məni qüdrətli eləyən
yaşamaq həvəsimdi.
İçimi bəxtəvərliklə dolduran
nəğməyə çevrilən səsimdi.
Nə Nizami olmaq istəyirəm,
nə Füzuli,
nə Puşkin olmaq istəyirəm,
nə Bayron, -
Rafiq Yusifoğlu olmaq
bəsimdi...

**23. 08. 2004**

## ŞER YAZANDA

*"Şair şer yazanda birinci növbədə oxucunu düşünməlidir" deyən bir nəfərə.*

Yoldaş fəlsəfəçi,
Gizlənmə şüarlar arxasında.
Dərindən düşün bir!
Yağış yağanda otları, çiçəkləri,
Çiçək bitəndə arıları,
Arı bal çəkəndə insanları düşünmür.
Ancaq…
Yağış çiçək üçün,
Çiçək bal üçün,
Bal insan üçün gərəkdi…
Toxunma şair ürəyinə,
O, üsyankardı, şıltaqdı, kövrəkdi.
Şair şer yazanda
gözünə oxucu görünmür,
ilan kimi qıvrılır yerində.
Yoxsa yağışın səsi,
Çiçəyin ətri,
Balın şirinliyi
Olmaz onun şerində…

**1984**

## DEYİRƏM YAXŞI Kİ, BU QƏLƏMİM VAR

Deyirəm yaxşı ki, bu qələmim var,
Könlümü açıram mən ona hərdən.
Bir həsrət çeşməsi coşar, çağlayar,
Min arzu göyərər o dəyən yerdə.

O mənə sadiqdi intizar kimi,
Külüngə çevrilər desəm: daşı yar!





Yorulmaq bilməyən bir qatar kimi
Qəlbimdən kağıza nisgil daşıyar.

Şərikdi sevincə, ortaqdı dərdə,
Qıymaz ki, qəlbimin alovu sönə.
Bir mizraba dönüb toxunar hərdən,
Mənim həsrətimin sarı siminə.

Bir yaşıl budağa dönər baharda,
Mənim ondan ayrı təmənnam yoxdu.
O mənə arxadı çətində, darda
O mənim əlimdə qılıncdı, oxdu.

Dünyada nə qədər buqəlamun var,
Daha dizlərimin gücü tükənib.
Yaxşı ki, yaxşı ki, bu qələmim var,
Ayağa dururam ona söykənib…

**1984**

***

Ürəyim dolanda dinər qələmim,
Varaqlar üstündə quş kimi uçar.
Elə bil kotana dönər qələmim,
Kağızın üstündə şırımlar açar.

İlhamım zəhmətdən səadət umar,
Çəkər "şum kağızlar" alın tərimi.
Titrək qələmimlə açdığım şuma,
Toxum tək səpərəm fikirlərimi…

## QORUYUR

Təpə gərib sinəsini
Küləkdən düzü qoruyur.
Həyat eşqi qarlı gündə,
Çovğunda bizi qoruyur.

Alov yeri xal-xal edib,
Elat köçüb, ilxı gedib…
Kül özünü qalxan edib,
Ocaqda közü qoruyur.

Dağ seli tək daşa-daşa,
Hey çırpılır dağa, daşa,
Qoymur dildə ucuzlaşa,
Şairlər sözü qoruyur.

* * *

Meylim yox dünya malına,
Əzəl gündən gözüm toxdu.
Kölgəmi qılınclayanın
Özünün kölgəsi yoxdu…

**24. 02. 2002**

## SÖZ BULUDU

Söz buludu, yağış gətir,
Vərəqlərə söz ələnsin.
Söz buludu, yağış gətir,
Xatirələr təzələnsin…

**04. 07. 2004**

## ULDUZLAR

Taleyə bax, hər vaxt göydə olsa da,
Qaranlıqda gözə dəyir ulduzlar.
Eh, gündüzlər dili gödək olsa da,
Gecələr gəl, gör nə deyir ulduzlar!

Arzularım deyil eyni biçimdə,
Gözə dəymir heç adım da, sanım da.
Bəxt ulduzum ulduzların içində,
Özüm yerdə, adamların yanında.





Böyüklüyü gedib öyrən günəşdən,
Var hər kəsin öz mənliyi, qüruru.
İşığıyla öyünsəydi günəş də,
Heç kəs qəbul eləməzdi o nuru.

Kim istəyər cılızlaşmaq, kiçilmək? –
Könlümdəki arzulara gülürsən.
Ulduz olub ulduzlardan seçilmək,
Hər ulduza qismət olmur, bilirsən…

## TAYTUTAN

İnsanlar bir yana, evlər bir yana,
Yadıma zəncirli köpəklər düşür.
Dəryazlı kişilər düşüb meydana,
Güllü biçənəyə təzə vər düşür.

Axşam ot verirlər iki bağ, üç bağ,
Yenə ayağıma dolaşır sicim..
Mən də bir uşağam, cılız bir uşaq,
Atı yükləməyə çatmayır gücüm.

Özünə qarışıb hərənin başı,
Yüklənir tarlada ulaq, at, qatır.
Axır yanağıma isti göz yaşı,
Yenə də dadıma taytutan çatır.

Taytutan – meşədən qırdığım ağac,
Taytutan – köməkçim, yaxın yoldaşım.
Qışda inəyimiz niyə qalsın ac,
Ot-alaf yığmağa qarışıb başım.

Məni qorxutmurdu kiçik də olsam,
Qoruqçu Ziyadın sözü, hədəsi.
Deyərdi: -Canımı yığdı boğaza,
Bu Yusif müəllimin böyük gədəsi.

Bağrımın başında açılan çiçək
Alışdı qəlbimin təzə qoruna.
Gün keçdi, o allı-güllü biçənək
Döndü redaksiya qapılarına.

Orda da uşaqdım, burda da uşaq,
Hərənin öz məşhur soyadı varmış.
Dedim öz-özümə: -Taleyimə bax,
Şerin də qoruqçu Ziyadı varmış...

Yenə də Ziyadın kefini pozdum,
Demə ki, bu oğlan əcəb mətinmiş!
Bir bənd çap etdirmək, sən demə, dostum,
Bir bağ ot almaqdan yüz qat çətinmiş!

Hərdən kövrəlirəm, gözlərim dolur,
Nə bilim, sabah nə gözləyir məni?
Ümidim, inamım taytutan olur,
Yenə də meydana səsləyir məni...

## QARA ZURNA, DÖNÜM SƏNİN GÖZÜNƏ

Dağların da sanki gəlib həvəsi,
Qara zurna qayır-qayır qaynayır.
Oda düşüb zurnaçının nəfəsi,
Gözlərində ildırımlar oynayır.

Ayrı düşən quzudurmu köçündən,
Mələr qalıb, nədir onun günahı?!
Aman Allah, sanki onun içindən
Tərtər axır, Araz axır, Kür axır...

Dağ səksənər dinləyəndə bu səsi,
Heyrətimin zirvəsidi "Heyratı".
Harayında Koroğlunun nərəsi,
Ayağının səsi gəlir Qıratın.





Bir ocaqsan, qızınırıq közünə,
Sənin səsin tariximin aynası.
Qara zurna, dönüm sənin gözünə,
Din, babamın sümükləri oynasın!

***

Gözümüzdən qovdu qara yuxunu,
Şad elədi babaların ruhunu.
Nurla dolsun qəbri usta Nuhunun,
Gözün yumub zurnasını pülədi.

Günəş çıxdı, düşdü dağa, daşa nur,
Az qalır ki, üfüqlərdən daşa nur,
Yaxına get, əllərini daşa vur,
Elə bil ki, daş deyil heç, pilədi.

Sümüyümüz bu sədaya köklənib,
Canavarın qulaqları şəklənib,
Ana qoyun göy çəməndə təklənib,
Qara zurna quzu kimi mələdi.

Bir buluddu – dodağında yağışı,
Bir ağacdı – soyuq deyil ağuşu,
Nəğmə ilə siləlenib koğuşu,
Birdən daşıb ruhuma nur elədi.

Neçə ahıl bu sədadan xoşlanıb,
İki gəncin "Vağzalı"sı başlanıb,
Qara zurna görən hara tuşlanıb? –
Elə bil ki, bir sehrli lülədi.

Araz axır bu lülənin içindən,
Biçinçilər əl saxlayıb biçində.
Hamımızı bircə anın içində
Bu dünyanın bəxtəvəri elədin. –

Qara zurna, dönüm sənin gözünə,
Bir ocaqsan, isinirik közünə.
Güc vermisən Koroğlunun dizinə,
Dədə Qorqud sənə uğur dilədi.

***

Qara zurnanın içindən
Keçən nəfəs "Cəngi" olar.
"Vağzalı"sı çalınmayan
Gözəllərin rəngi solar.

Bir günəşdi, qəlbimizə
Nur ələyir şəfəqləri.
O dinəndə genişlənər
Kəndimizin üfüqləri,
Əngin olar.

Yada düşər ötən çağlar,
Qara zurna coşar, çağlar.
Sümüyünə düşsə, dağlar
Kəpənəkdən yüngül olar.

## KƏND TOYUNDA

Nə vaxt sarı Həsənin
Ovurdları şişərdi,
Kəndə haray düşərdi.
Yığışardı qız-gəlin
Eyvanların altına.
Öz toyları düşərdi
Nənələrin yadına.
Bəy qazan dibi yeyib, -
Hava bir az nəmişdi.
Baş qızışdı oyuna,
Qoyun-quzu əmişdi.
Nurlanmışdı, Günəşi
İstəyirdi Ay dana.





Sümükləri yanmışlar
Düşərdilər meydana.
Dəmçi yaman coşubdur,
Bu toy kimin toyudu? –
Yelləyirdi başını,
Guya çalan o idi.
Deyirdilər: -Ay İmran,
Dəm tutursan elə sən.
Nə olar bir dəfə də
"Dütdülüdü" eləsən?!
Toybaşıya nə oldu,
Yoruldu çal-çağırdan?
O qədər "Şabaş!" dedi,
Batdı səsi axırda.
Neçə qoca ah çəkdi,
Neçə cavan odlandı.
Nə durmusan, ay Həsən,
Bir çal "Gəlin atlandı"…
Evdə şüşə qalmadı,
Çilik-çilik etdilər.
Uşaqlar qız evinə
Xəbərçilik etdilər.
Aydınlıq olsun təki,
Şənlik həmişə olsun.
Ürəkləri qırmayın,
Sınanlar şüşə olsun!
Çal-çağır hey uzandı,
Göydə ulduz əridi.
Bəy üzülür həsrətdən,
Bir sümük, bir dəridi.
Gün çıxdı, bir anlığa
Ulduzlar yaddan çıxdı.
Təzə gəlin atlandı,
Şən qızlar yaddan çıxdı.
Günəş qalxdı üfüqdən,
Günəş təzə gəlindi.

Onun gül camalına
Oğulsan bax gəl indi!
Qızlar nələr danışdı
O gün çeşmə üstündə?! –
Dava düşdü gəlinin
Sağ əlinin üstündə: –
O dedi mənim başıma,
Bu dedi mənim başıma!
Gileyləndi bir qarı:
Eh, nə deyim yaşıma?!
Dilə gəldi "Vağzalı",
Xatirələr dindilər.
Qocalar o havanı
Dəstələyib, xəyalən
Toylarına döndülər…
1977

## TOY ÇÖRƏYİ SALINANDA

Külləyin, sacı külləyin,
Yoxsa yandırar yuxanı.
Bəy anası, iş şuluqdu,
Ələ vermisən yaxanı!

Oxlov yayar, şiş çevirər,
Təzə bəyin qaç yanına.
Ona xələt, buna xələt,
Sac dirənib sac yanına.

Yaya-yaya yuxaları,
Çoxunun qəlbi yuxalar.
Söyləyərlər: -Qoy hamıya
Qismət olsun bu yuxalar!

Kündə yuxa olanacan
Ötən günlər çözələnər.





Xatirələr sac üstündə
İstilənib təzələnər.

Hərə bir pay verməlidi –
Neçə qohum yaxalanar.
Arzuların kündələri
Pardaxlanar, yuxalanar.

***

Toy çörəyi hazır oldu,
Zurnaçıya göz eləyin.
Heç düşmədi sümüyümə,
Bu havanı təzələyin.

Qırmızı lent bağladılar
Qoçların buynuzlarına.
Təzə gəlin yandıq verdi
Kəndimizin qızlarına.

Bəy dönmədi öz sözündən,
Ov ovladı oğul kimi.
Səpin gəlinin başına
Ulduzları noğul kimi!

## QABOY ÇALINANDA

*Kamil Cəlilova*

O kim idi qaboy çaldı? –
Bir titrəyiş qondu mənim dodağıma.
Elə bildim köpüklənə-köpüklənə
Dağ çayları töküldülər otağıma.
Çaylar çıxdı məcrasından,
Göylər hönkürdü, ağladı.
Bulbül kəsdi nəğməsini,
Durnalar qanad saxladı.
Qönçənin dodağı qaçdı,

Qızılgüllər pardaxladı.
Ağ tüstülər qanad açdı,
Qara kömür köz bağladı.
Dərə açdı ağuşunu,
Zirvələr çatdı qaşını.
Daş kövrəldi daşlığıyla,
Çinarlar əydi başını.
Sular dönüb buz oldular,
Çıraqlar ulduz oldular.
Qarılar gedib xəyala,
On beş yaşlı qız oldular.
Səsdən od düşdü fələyə,
İblislər döndü mələyə.
Vətənindən küsüb gedən
Gəldi mələyə-mələyə.
Ağlayanlar şən oldular,
Səhralar çəmən oldular.
Qaratikan kolları da
Dönüb yasəmən oldular.
Araz boyu səpələndi
Qaboy səsi gilə-gilə.
Birdən tikanlı məftillər
Döndülər çiçəyə, gülə.
Bir anlığa yaddan çıxdı
Ayının da ayılığı.
Qaboy susdu, gör neylədi
Sədasının ayrılığı?!
Qaboy susdu, çıraq gördü
Çıraqdı, ulduz olmayıb.
Qərib gördü qürbətdədi,
Qarı gördü qız olmayıb.
Tikan gördü nə yasəmən?!
Səhra olmayıbmış çəmən.
Bülbül fəğana başladı,
Durnalar uçdu yenidən...





## SARI AŞIQ YANĞISI

Dedim: -Güləbürdə çox qalıb hələ? -
Bizi mat-mat süzdü oğlan da, qız da.
Qəbriniz üstünə yol gələ-gələ
Sizə toy elədik xəyalımızda.

Kim qol götürəcək, yaxşı, bu toyda? -
Eşqinin o parlaq ülkəri solub.
Sən qaldın o tayda, Yaxşı bu tayda,
Arada günahkar Həkəri olub.

Kövrəldi, qəlbimiz ipəyə döndü,
Elə ki, şerini su kimi içdik.
Sənin nəğmələrin körpüyə döndü, -
Üstündən adlayıb o taya keçdik.

Yaxşı dayanmışdı günahkar kimi,
Məzarı önündə xəyala daldım.
Sənin başdaşına dəyən əlimi,
Onun başdaşına qoycaq, od aldın:

-Mən Aşığam, ya dəli,
Ya divanə, ya dəli.
Qəbrim od tutub yanar,
Sənə dəysə yad əli...

**1987**

## İYDƏ ƏTİRLİ NƏĞMƏLƏR

*"Ağ saçlarım" şerinin müəllifi Q. Qasımzadəyə*

O gümüşü saçlara bax,
Şəfəqi dörd yanı tutub.
Dağ başında qar deyil o,
Bir ağ bahar bulududu.

Ala gözlərini sıxsa,
Yaş ələnər gildir-gildir.
O buluddan yağan yağış
Bənövşədir, qərənfildir.

Hər birində qeyrət yükü,
O ağ saç başın tacıdı.
Durub kənardan baxıram,
Sanki iydə ağacıdı.

O ağacın budağından
Şer "dərdik" biz nə qədər.
Ruhumuza nur çilədi
İydə ətirli nəğmələr.

1983

## İSTƏMİRƏM

Başsız əsən külək,
Vaxtsız solan çiçək,
Duzsuz çörək,
Sevgisiz ürək
Olmaq istəmirəm.

Quşu uçan budaq,
Nəğməsiz dodaq,
Çağrılmamış qonaq,
Gözü lillənmiş bulaq,
Söndürülmüş ocaq
Olmaq istəmirəm.

**30. 05. 2004**





# HAQQIN YOLU

## VƏTƏN UĞRUNDA

Ünvansız külək kimi
əsmə,
Unutma ki,
köksündəki daş deyil,
ürəkdi.
Vətən uğrunda
ölməyə tələsmə, –
Vətən uğrunda
yaşamaq gərəkdi…
Ürəyində
həyat eşqi olmayan
susuz ağac kimi
quruyar.
Bir bədəni
qoruya bilməyən,
bir vətəni necə
qoruyar?!
Unutma ki, min ölü
bir dirinin yerini
verə bilməz.
Özünü qorumayan
Arzu çiçəklərini
dərə bilməz.
Yaşamağa layiqdi
elin dərdinə yarıyanlar, –
Həyatının qədrini bilir
kimin ki, ağlı var.
Vətənin adını ucaldar
öz namusunu, ləyaqətini
qoruyanlar, –

Deyərlər ki,
halal olsun bu millətə,
belə namuslu qızı,
belə qeyrətli oğlu var…
Öz qədrini bilməyən insanı
arif olanlar qınayarlar.
Vətəni daşıyla, torpağıyla yox,
Vətəni oğluyla, qızıyla
tanıyarlar.
Bir elə də xoş gələr
bir nəslin adını,
bir ata ocağının
közünü qorusan.
Birinin balasını,
birinin atasını,
birinin əmisini,
birinin dayısını,
birinin sevgilisini…
qorumuş olursan
özünü qorusan…
Övladları naxələf çıxsa,
bulaqları
quruyar vətənin.
İnsan ulu yurdun
bir parçasıdı, –
Özünü qoruyan
bir parçasını
qoruyar vətənin…

27. 12. 2003

## ANA

Ana ürəyi –
Solmaq bilməyən
sehrli çiçəkdi.
Hamı canı ağrıyanda





"Ana" – deyir.
Yer üzündəki
bütün analar
mələkdi, -
Ancaq heç bir mələk
Ana deyil…

**04. 08. 2004. Qusar.**

## DÜZ – ƏYRİ

Əyrinin kimsəyə axı nə xeyri,
Düzlərə həmişə ehtiyac olur.
Bəs niyə meşədə yaşayır əyri,
Kəsilən həmişə düz ağac olur?

## YERİN YERİNƏ OLSAM

Kasıbın əynində
isti köynəkdi,
Pətəkdə baldı,
Çəməndə çiçəkdi –
Günəş.

Tarlada sünbüldü,
Çöldə sarmaşıqdı.
Budaqda meyvədi,
Gözdə işıqdı –
Günəş.

Can verir küməmizin
Torpağına, daşına…
Yerin yerinə mən də olsam,
Dolanardım onun başına.

**1985**

## QARABAĞ ƏLİLİ

Ürəyindən nələr keçir? –
Dillən, Qarabağ əlili!
Öz bəxtinə acı-acı
Gülən Qarabağ əlili.

Əlsiz-qolsuz keçən ömür
Zillətə öyrətdi səni.
Taleyinə biganəlik
Yamanca göynətdi səni.

Döyüşdə zərrəcə qorxu
Ürəyinə yol almadı.
Geri döndün, vətən sənə
Əl olmadı, qol olmadı.

Doğmaların ögeyliyi
Səni səndən araladı.
Düşmən sənin qol-qıçını,
Dost qəlbini yaraladı.

Tapılmadı göz yaşını
Silən, Qarabağ əlili.
Papağını qoy qarşına,
Dilən, Qarabağ əlili!

**23. 07. 2003. Qusar.**

## BU TONQALIN ODU İLƏ

Hərzə-mərzə söz danışır,
Tutun onu! Vurun onu!
Diri-diri yandırdılar
Burunonu.
Bu tonqalın odu ilə
Müşfiqimin, Cavidimin





İlhamının qanadını ütdülər.
Bu tonqalın işığında
Neçə ömrü üyütdülər.
Karbışevin bədəninə
su vurdular…
Neçə kəndin, neçə yurdun
Külünü göyə sovurdular.
Bu tonqalın odu ilə
yanan gördüm
Osvensimi, Xatını…
Bu tonqalın işığında
Namərd yenə yəhərləyib
Öz "neytron atını"…
Bu alovun tüstüsündə
Boğun onu!
Tutun onu!
Vurun onu!
Yoxsa bir də yandırarlar
Burunonu…

**1981**

## PAPAQ

Eşqi, əməliylə tanınar insan,
Ağıldır hamını ucaldan göyə.
Sən isə özünü kişi sanırsan
Başında qiymətli papaq var deyə.

Yersiz lovğalığın nə mənası var,
Əgər baş qılıncsa, papaq qın olub.
Başını uca tut deyib babalar,
Bir ağlın meyvəsi bir xalqın olub.

Zəkadır, ağıldır insana həyan,
Ağıl çeşməsindən güc alıb bəşər.
Deyirəm: görəsən başı olmayan
Adamın yadına ürəkmi düşər?!

Sevdim, gözlərimdən yuxu da qaçdı,
Ağıl olmasaydı neylərdi ürək?!
Papağı qiymətə mindirən başdı,
Başa qiymət vermə papağa görə...

1984

## TƏPƏR VƏ ÇƏPƏR

Nə vaxt ki, canımda təpər var idi,
Qarşımda tikanlı çəpər var idi.
Nə vaxt ki, qarşımda çəpər yox oldu,
Qocaldım, canımda təpər yox oldu...

1982

## ADİ ADAM

Yer qazar, daş yonar, gəlməz arına,
El-oba içində axtar, gəz onu.
Qarışar dünyanın adamlarına,
Yoxluğu, varlığı bilinməz onun.

İşi diliylə yox, əliylə görər,
Natiqlər lal olar danışsa, dinsə.
Ən ağır işlərə o, sinə gərər,
Çalışar, tər tökər, ad alar kimsə.

Könlündən nə dövlət, nə ad-san keçər,
Düşmənə əl açmaz, dosta əyilməz.
Çəkilib bir küncə sakitcə içər,
Toyda sağlığına tost da deyilməz.

Ələnər saçına qayğı qırovu,
Ağ gün arzusula vurar ürəyi.
Öləndə nə mitinq, fəxri qarovul,
Nə də ki, nekroloq deyil gərəyi.





Bu qoca dünyadan köçər ahəstə,
Onu yola salar beş-on can-ciyər.
Adi adamların qəbrinin üstdə
Vida sözünü də göz yaşı deyər...

## ÖZÜNÜ QORU

Salamat çıxsam da alovdan, oddan,
Daha əzəlki tək deyiləm duru.
Yüz tənə dadmışam qohumdan, yaddan,
Günbəgün azalıb gözümün nuru,
Sən isə deyirsən: - Özünü qoru!

Düşmənim işində ustadır, usta,
Etibar qalmayıb tanışa, dosta.
Necə hirslənməyim bu bashabasda? –
Arzular əlçatmaz, ömür-gün yarı,
Sən isə deyirsən: - Özünü qoru!

Dağların başında yelə dönmüşəm,
Dərənin qoynunda selə dönmüşəm,
Alışa-alışa külə dönmüşəm,
Ömür ocağımın azalıb qoru, -
Sən isə deyirsən: - Özünü qoru!

Axır ürəyimə gözümün yaşı,
Gül sandım üstümə atılan daşı.
Bizə ağıl qoymaq istəyən naşı
Ayıra bilməyir "Hırınan zırı", -
Sən isə deyirsən: - Özünü qoru!

Üstümə əssə də yüz qara külək,
Yalqızam, kimsədən görmürəm kömək.
Adətdir, qurd basar arxalı köpək, -
Görürəm xalqıma qurulan toru, -
Sən isə deyirsən: - Özünü qoru!

Namərdlər mərdlərin pozur izini,
Gördük anaların ağlar gözünü,
Nahaqlar qatlayır haqqın dizini,
Oğrular dəryadan çıxırlar quru,
Sən isə deyirsən: - Özünü qoru!...

## GÖY AT

Göy at kişnəyəndə
Göydə şimşək çaxardı.
Göy at fınxıranda
Elə bil yağış yağardı.
Göy at yola çıxanda
Su kimi axardı.
Göy at şahə qalxanda
Hamı həsrətlə baxardı.
Tövlədən çıxaranda
Baxmazdı yola gözləri.
Ala buludlarda idi
Göy atın ala gözləri.
Göy at göydəki buludları
Əmirdi elə bil.
Göy atın ayaqları göydə idi,
Yerə dəymirdi elə bil.
Fərman dayı hər gün
Göy atı tumarlayardı,
Yalını darayardı.
Palçığa batmasın deyə
quyruğunu düyərdi.
O biri atlar küləş tapmazdı,
Göy at arpa yeyərdi.
Qışda altına saman səpərdilər,
Qupquru olardı altı.
Yazda biçənəyin ortasında
Hörükləyərdilər göy atı.
Tez-tez qırardı hörüyünü,





Atları qatardı qabağına.
Atmı dözərdi
Göy atın şıllağına?
Göy atı əzizləyərdilər,
Göy atı oxşayardılar.
O biri atların belində
Göy ata qış azuqəsi daşıyardılar.
Göy at kəklik kimi səkərdi,
Göy atı ayda bir dəfə minərdilər,
Suya aparanda da Fərman dayı
onu yedəyində çəkərdi.
Minəndə fişəngə dönərdi göy at,
Qəfəsdən çıxan pələngə dönərdi göy at.
...Təzə sədr qoydular kolxoza,
Hər şey dəyişdi.
Göy atı dinclik, qayğı
Göy at eləmişdi.
O qədər mindilər Göy atı,
Hay-hayı getdi, qaldı vay-vayı.
Göy at göydən yerə düşdü,
Oldu o biri atların tayı.

## DÖRD MİSRA BAYATI

*"Bu qonaq evinin qarşısında dörd çinar var idi, onları kəsdirib, yerində gül əkdirmişəm."*
***Bir müdirin sözlərindən***

Deyirəm görəsən o xan çinarı
Üstünə yıxmadı külək nə üçün?
A gül sevən müdir, bir düşün barı,
Yermi qəhət idi gül əkmək üçün?!

Çinarın yerini verərmi kollar,
Daşın gözlərində sellənərmi yaş?!
Doğrandı günəşə uzanan qollar,
Bir kötük üstündə kəsildi dörd baş.

O törə boyundan bir utan barı,
Mərdə tələ quran niyə ər olsun?!
Sənə baş əyməyən o dörd çinarı
Kəsdin ki, boyunla bərabər olsun?!

Uca ağacların görünür yeri,
Kaş onlar bir az da boy ata idi.
Sanki bu dörd çinar anamız yerin
Dilində dörd misra bayatı idi:
Haray naşı əlindən,
Alın işi əlindən!
Torpaq şikayət eylər,
Gözüm yaşı selindən…

**1985**

## ƏL QUZUSU

Allı-güllü yonca yeyir
gövşək-gövşək,
Ot dalınca dolanmayır
kövşən-kövşən.
Çörək yeyir, kişmiş yeyir…
Bu dünyanın bəxtəvəri
Mənəm deyir.
Hamı onu sığallayır,
Hamı onu əzizləyir.
Bilməyir ki,
Bu qayğının arxasında
Bəxtəvəri nə gözləyir…

## QOYUN

Qoyunu qurddan qoruyuruq,
Bu bizim dostumuzdu deyirik.
Südünü içirik,
Yununu qırxırıq,
Ətini yeyirik dostumuzun…

**1985**





## BOŞALMIŞ KƏNDDƏ TƏK QALAN KÖPƏYİN NƏĞMƏSİ

*"Başımız elə qarışdı ki, tələsik köçəndə itin zəncirini açmağı da unutdum."*

***Bir didərginin sözlərindən***

Boş evlər göz dağı oldu,
Dost çevrilib yağı oldu.
Ulartım bu ulu kəndə
Layla oldu, ağı oldu.

İtirmişəm dostu, yarı,
Zəncirsiz olaydım barı!
Çaqqallar diş qıcadılar,
Dartındım onlara sarı.

Buludam, yağa bilmirəm,
Eyvana baxa bilmirəm.
Zəncirimi dartıb qırdım,
Həyətdən çıxa bilmirəm.

Ev soyuyub, ocaq sönüb,
Durmuşam bir küncə sinib.
Bu həyətə sədaqətim
Boynumda zəncirə dönüb…

## YOXDU

İnana bilmirəm duyumu olsun,
Kimin ki, qəlbində ağrısı yoxdu.
Nə qədər dərd verir həyat insana,
Qürbətə düşməkdən ağrı yoxdu.

Qardaş, sevinərsən rütbəyə çatsam,
Bir gün tənbəlliyin daşını atsam,
Camaat yol salıb, sən narahatsan,
Hələ qardaşının cığırı yoxdu.

İnsan min əzabla ruzi qopardır,
Beynimdə ağrılar qabar-qabardı.
Bir də görərsən ki, coşdu, qabardı,
Xəmir yeyənlərin fağırı yoxdu.

Qarışma, qarışma işimə, qardaş,
Çox dostu vurmuşam dişimə, qardaş,
Başını sındırıb düşünmə, qardaş,
Dünyanın əvvəli, axırı yoxdu...

## BİZİ

Ağlımız kəsəndən ulu babalar
Öyrədib dostluğa, ülfətə bizi.
Yağı at oynadır meydanımızda,
Kökləyir qəzəbə, nifrətə bizi.

Dəryalardan çıxan atlar görmüşük,
Doğmalar görmüşük, yadlar görmüşük,
Alovlar görmüşük, odlar görmüşük,
Ta heç nə gətirmir heyrətə bizi.

Bir işi heç iki iş eləməzdik,
Olanı, keçəni eşələməzdik,
Özgə toyuğuna kiş eləməzdik,
Qonşular gətirib qeyrətə bizi.

Hər qarış torpağım yatar – xəzinə,
Girər bədxahların paxıl gözünə.
Bədbəxt qəbir qazar özü özünə,
Salmaq istədikcə zillətə bizi.





Halaldır suyumuz, çörəyimiz də,
Təmizdir arzumuz, diləyimiz də,
Məhəbbət qaynayır ürəyimizdə,
Allah çox görməsin millətə bizi...

## GÖRƏCƏKLİ GÜNLƏRİMİZ

Nəyimiz var bizdən sonra
Gələnlərə pay qalası?
İnsan oğlu təbiəti
Barmağına az dolasın.

Açılmamış solur qönçə,
Qələmələr olub xənçəl,
Gicitkənə dönüb yonca,
İstəyir bizi dalasın.

Gözəl-gözəl guşələri,
Zümrüd-zümrüd meşələri,
Bu insafsız nəşələnib,
İstəyir çapıb talasın.

Namərdə vermişik qazı,
Dolanırıq qazı-qazı.
Üşüyür atam balası,
Odun yox ocaq qalasın.

Gün yeri yandırıb, yaxıb,
Göy gurlayıb, şimşək çaxıb,
Yağışın yadından çıxıb,
Yağıb çölləri sulasın.

Heç kəs gəzmir itiyini,
Çoban çalmır tütəyini,
İt itirib itliyini,
Məqam gəzir ki, ulasın.

Mal bəyənmir axurunu,
Su axtarmır çuxurunu,
Bu işlərin axırını
Allah xeyirə calasın…

## BƏSDİR TƏRİFLƏDİK BU BOZ SƏRÇƏNİ

"Almır da vecinə çovğunu, çəni,
Vətəndə keçirir o, bütün qışı!" –
Bəsdir təriflədik bu boz sərçəni,
Bəsdir qoyduq onu durnaya qarşı.

Gəzib dolaşsa da qarın içində,
Sığınmaq yeri var, sevinsin gərək.
Gedərdi, qalmazdı boran içində,
Hiss etsə bahara yetə biləcək.

Bilir: "şahin-şonqar" doludur, dolu,
Bu yol yüz qırğının içindən keçir.
Durnanın getdiyi baharın yolu
Ölümün, qırğının içindən keçir.

Bacarsa gedərdi bahar dalınca,
Deməyin sərçənin həvəsi yoxdu.
Gəzir, eşələnir qarnı dolunca,
Neyləsin, bir ayrı çarəsi yoxdu.

Peyinin içində axtarırsa dən,
Yem üçün dözürsə ömrün qışına,
Əgər yaranıbsa əfəlliyindən,
Onun vətən eşqi dəysin başına.

Sönməz bahar eşqi, axsa da qanı,
Onun zəhmətini zay eləməyin.
Döşü buludları yaran durnanı,
Bir yoluq sərçəyə tay eləməyin!





## HAQQIN YOLU

Bu çətin yolla getməyə
Az adamın həvəsi var.
Haqqın yolunun üstündə
Nahaqqın yüz tələsi var.

Əsrlərlə yalan, hiylə
Həqiqətə zəfər çalıb.
Haqqın yolu haqq gəzənin
Qəbrinə dirənib, qalıb.

Qəlbimizdə sonsuz ümid,
Başımızda möhnət, ağrı,
Ağlımız söz kəsən gündən
Can atırıq haqqa doğru.

Yetəmmirik ancaq ona,
İllər ötür, ömür bitir.
Haqqın yolu düyün-düyün,
Haqqın yolu kələ-kötür…

## GƏZİRƏM

*Bir qaçqının dilindən*

Əlçatmaz olubdur süsənli dağlar,
Ay oğul, səhrada çiçək gəzirəm.
Əyib sındırdılar haqqı nahaqlar,
İçimdə fırtına, şimşək gəzirəm.

Yanıram, ürəyim qalanır oda,
Öz evim, eşiyim düşəndə yada.
Tığlanıb ucalan yük qaldı yada,
Üstündə yatmağa döşək gəzirəm.

İmdad diləyirik biz hər yetəndən,
Didərgin düşmüşük doğma vətəndən,
Təzə bir yurd yeri axtarıram mən,
Dəvə itirmişəm, köşək gəzirəm…

## MEDALDAN MƏHRUM EDİLƏN QIZIMA

Xəbərin yox fırıldaqdan, hiylədən,
Xoş təbəssüm qərar tutub üzündə.
Ürcahına pis adamlar çıxmayıb,
Tərtəmizdi dünya sənin gözündə.

Çiçək sanıb boylandığın qar imiş,
Tale cibi dolulara yar imiş,
Bir medalın iki üzü var imiş,
Çömçətutan möhkəm durdu sözündə.

Paklıq mənə hər nemətdən əzizdi,
Arzularım kükrəyən bir dənizdi,
Adım kimi ciblərim də təmizdi,
Qızım, bunu sən bilirsən özün də.

Qalstuklu dilənçilər pay dilər,
Ürəyimi kündə kimi yaydılar,
Haqq aradıq, bizi haqsız saydılar,
Düzlük gəzdik, qaldıq çölün düzündə…

## İLAN

Ömür paylananda, can veriləndə
Sənin taleyinə sürünmək düşüb.
Ancaq titrəmişik adın gələndə,
Önündə pələnglər, fillər büzüşüb.

Ağrıdan, əzabdan göynəyir için,
Bu namərd dünyada çəkmisən zillət.





O zərif görkəmlə yaşamaq üçün
Zəhər bəxş eləyib sənə təbiət.

Öz doğma yuprdunda qəribsən, qərib,
Qaçıb dalda yerdə qalan olmusan.
Yalmana-yalmana yamanlıq görüb,
Qıvrıla-qıvrıla ilan olmusan…

## ŞƏHƏR YUXU GÖRƏR

Gündüzlər dayanıb pyedestal üstə
Gələni, gedəni süzər heykəllər.
Gecələr kürsüdən düşüb ahəstə
Tənha küçələri gəzər heykəllər.

Göydən ulduz dərər polad əlləri,
Sabir qədəminə el gül ələyər.
Sahibinin ruhu dağ heykəlləri
Zərif kəpənəkdən yüngül eləyər.

Ayaqlar altında çırpınar gecə,
Yalvarar: - Qurtarın mənim canımı!
Vurğun öz evinə gedər gizlicə,
Cəfər qəbri üstə Sona xanımın.

Nəsimi getdikcə axar qızıl qan,
Füzuli qoynuna qoyar əllərin.
Gecə işıqları – addımlarından
Qopan qığılcımdı bu heykəllərin.

Şəhər yuxu görər sökülüncə dan,
Qıvrıla-qıvrıla yatar küçələr.
Heykəl addımının ağırlığından
Titrəyər küçələr, batar küçələr.

Şirindir Bakının gördüyü yuxu,
Ancaq yuxu görmək deyildir hünər.
Eh, neçə heykəlsiz dahinin ruhu
Gəlib meydanlarda heykələ dönər...

1985

## HÜSEYN CAVİDƏ

Vətən! Bir övladın geriyə dönür,
İgid oğulların qolları üstə.
Qoynuna qayıdır bir payız günü,
O keçib ayların, illərin üstdən.

Gəzir ürəkləri bir gizli dalğa,
Sanki göy kişnəyir, bulud ağlayır.
Bütün Azərbaycan qalxır ayağa,
Elə bil qırx illik sükut ağlayır.

Bu qayğı, ehtiram dindirir onu,
Bu gəliş daşı da kövrəltdi bəlkə!
-Oxqay! Sümüyümün açılır donu,
Məni torpaq ana göyərtdi bəlkə?!

...O gələn yollara güllər düzülüb,
Neçə xəbis ürək batıbdır yasa.
Ona qibtə edir böyük Füzuli,
Baxıb köks ötürür Müşfiq hardasa...

1982

## OCAQ DAŞI

Odların içində hər vaxt qalsa da,
Daşdır, daşlığını o heç danmayıb.
O neçə yanana şahid olsa da,
Özü yanmayıb.
Bəlkə buna görə, düşünürəm mən,
Üzü qara çıxıb odlar içindən?





## KİŞİ ÜRƏYİ

Ağlın söz kəsəndən tutdun doğru yol,
Gördün zaval yoxdu mərdə, doğruya.
Dözdün neçə-neçə dərdə, ağrıya,
Mənim fil ürəyim, azman ürəyim.

Gümüşə döndərdi saçımı illər,
Məni qınamasın qoy bizim ellər,
Toxundu əlimə kəmanə tellər,
Hönkürüb ağladı kaman ürəyim.

Sevgi nə yaxşı ki, baxmayır yaşa,
Qəlbində ilk bahar get üzü qışa,
Kişi sinəsində kişi tək yaşa,
Kimsədən istəmə aman, ürəyim.

Pay verdin hamıya duyğudan, hissdən,
Yoxdur bir qorxumuz dumandan, sisdən.
Ələyib seçəcək yaxşını pisdən,
Ən gözəl sərrafdı zaman, ürəyim...

1981

## OXŞAR TALELƏR

Mən bu dağa vurulmuşdum körpə çağımdan,
Kəndimizə yol çəkənlər onu oyublar.
Bir abidə düzəldiblər yol qırağında,
Suyu sısqa bir bulağa heykəl qoyublar.

Özünə də ad veriblər: "Ceyran bulağı",
Gəlib-gedən sudan içmir, heykələ baxır.
Ondan yüz yol suyu sərin, şəfa qaynağı
Bulaqlar var kol dibində çağlayır, axır.

Mən onların gözlərindən öpmüşəm bir vaxt,
Hər birinin səsi qalıb qulaqlarımda.
Düşünürəm, qismətə bax, taleyə bir bax,
İnsanlara oxşarı var bulaqların da...

1984

### BAYATI YAĞIŞI

Şair dostum, bayatı çək, bayatı,
Həsrətimiz yarpaq-yarpaq ərisin.
Qəlbimizdə neçə nisgil boy atıb,
Sarı Aşıq – şerimizdə sarı sim.

Sarı qızıl axı nə vaxt paslanıb? –
Tanıyırıq xalisi biz, qəlpi biz.
Qoy bayatı yağışında islanıb,
Köksümüzdə çiçəklənsin qəlbimiz.

Sarı Aşıq, qalx yuxudan, sıçra, min
İlhamının sənə həsrət atına.
Sarı Aşıq, sən bulud ol, kölgə sal,
Biz də dolaq qanadının altına.

1985

***

Vətən!
Sən bizim üçün
hava kimi, su kimi
gərəksən.
Köksümüzdə çırpınan
yaralı ürəksən.
Kasıblar üçün
namus, qeyrət işi,
Varlılar üçün
sağmal inəksən...

02. 03. 2005





# ÖMRÜM-GÜNÜM

### MƏNƏ QANAD VER, TANRIM!

Bilmirəm heç neyləyim,
Hissim çəkilib tarım.
Naşı mizrab toxunsa,
Susacaq könül tarım.

Qəlbimə yaz gətirib
Nərgiz, bənövşə ətri.
Ürəyim tir-tir əsir
Övlad toyundan ötrü,
Mənə murad ver, Tanrım!

Çətin ki, gücüm çatsın
Dağı, daşı uçurum.
Bilmirəm heç neyləyim,
Sağım, solum uçurum, -
Mənə qanad ver, Tanrım!

09. 03. 2004

### DƏNİZ

Mənim sevdalı dənizim,
Gözün yollarda qalmasın.
Qəlbimdə həyat eşqisən,
Sənsiz bir günüm olmasın.

Neçə yol məlhəm olmusan
Ürək göynədən yarama.
Girən təkcə sən olmusan
Dərd ilə mənim arama...

13. 03. 2004

## BİZƏ İNSAN DEYƏRLƏRMİ

Heç olmasa qovuşaydıq
Arzuların bircəyinə.
Ağ saqqalım qarışaydı
Sənin gümüş birçəyinə.
Qocalaydıq ikimiz də,
Yəni qoşa qarıyaydıq.
Oğul-uşaq sarıdan da
yarıyaydıq.
Gözümüzdən axmayaydı
Bir qətrə yaş.
Oğul toyu görmək nədir,
Nəvə toyu görəydik kaş!
Deyirsən: -Çox yaşayardıq,
Qayğıların ucbatından
Çürütməsək ömrümüzü.
-Bizə insan deyərlərmi –
Arzuların atəşində
Əritməsək ömrümüzü?

## ÇİYİN-ÇİYİNƏYƏM PAYIZLA

Həzinlikdən yoğrulub elə bil,
Son bahar sözü, payız adı.
Çiyin-çiyinəyəm payızla,
Ömrün üzü payızadı.
Bağımızdakı ağaclar
Elə bil mənə pay uzadır,
Meyvə payı.
Bir işıqdı sanki
Almaların, heyvaların hərəsi…
Bəs mənim meyvələrim hanı
Dost-tanışa sovqat verəsi?!
Çiyin-çiyinəyəm payızla,
Ömrümün üzü payızadı…

**1984**





## UŞAQLIĞIM

Uşaqlığım çıxıb getdi narın-narın,
Bir də çətin qonaq gələ o bu dağa.
Meyvələri biz olardıq ağacların,
Bu budaqdan tullanardıq o budağa.
O günlərim köçüb getdi, haray, haray…
Harda qaldı "Südlü sümük", "Mollaharay"?
"Dirədöymə", "Yoldaş, səni kim apardı"?
O günləri ömrümüzdən kim apardı?
Uşaqlığım şimşək kimi çaxdı getdi,
Uşaqlığım qarğı atın belindəcə çıxdı getdi.
Ağacların budağında qaldı mənim uşaqlığım,
Bir də, bir də öz anamın
Dodağında qaldı mənim uşaqlığım…

## YENƏ GƏLDİM BU DAĞLARI GÖRMƏYƏ

Yenə gəldim bu dağları görməyə,
Xatırladım sənli keçən anları.
Əlim gəlmir daha çiçək dərməyə,
Axı kimə verəcəyəm onları?!

Qanad açıb ayrılığın yelləri,
Bir ağ çiçək əl eləyir uzaqdan.
Baxışımdan sevgi uman güllərin
Xəbəri yox qəlbimdəki sazaqdan.

Bu dağlarda yer tapmıram özümə,
Son nəğməmi axı kimə həsr edim?!
Qərib-qərib güllər baxır üzümə,
Gözlərimdə çiçək açıb həsrətin…

**16. 07. 2002. Qusar, Qayakənd.**

## BU PAYIZ ÖMRÜMDƏN KÖÇÜNÜ ÇƏKDİ

Həsrətin qanatdı könül yaramı,
Bir nakam məhəbbət içini çəkdi.
Ömrü xəzan oldu doğmalarımın,
Bu payız ömrümdən köçünü çəkdi.

Bu payız kövrəltdi məni yamanca,
Duydum ki, dünyada tənhayam, təkəm.
Baxıb yarpaqları qopan ağaca
Az qaldım gözümdən mən də yaş tökəm.

Payız neçə bağın, neçə ağacın
Saçına sehrli əlini çəkdi.
Daldım xəyallara mən acı-acı,
Gözümə ayrılıq dumanı çökdü…

**2000**

## ÖMRÜN ƏLLİ ÜÇÜNCÜ PAYIZI

Qusar meşələrində gəzirəm.
Bir yanımda
budaqların arxasından
boylanan günəş,
bir tərəfimdə
bəmbəyaz qara bələnmiş
Şah dağı.
Elə bil nağıl danışır mənə
kövrələn bir ağacın
doluxsunmuş budağı. –
Sözlər yarpaq-yarpaq
ömrümə ələnir.
İçimdəki öləziyən ocaq
közərən xəzəllərə
bələnir.





Göz işlədikcə baxıram
qızıl suyuna çəkilmiş
bu dağların,
bu yamacların
uzununa, eninə.
Elə bil başı qarlı Şah dağı
güzgü tutub
sübh günəşinin önünə…
Necə gözəlmiş, İlahi,
zərrin şəfəqlər altında
gümüş kimi parlayan
şehli süvrə…
Təbiətin qarşımda açdığı
e'cazkar bir süfrə…
Gözəllikdən lal olmuşam,
inanmıram gözümə.
Qışdan xəbərsiz payız çiçəyi
gülümsəyir üzümə…
Mən də unutmuşam
yaxınlaşan qışı,
mənim də qəlbimdə
bahardı.
Sarı yarpaqların altından
göbələklər dişlərini
ağardır.
Canına üşütmə düşən ağaclar
çətin ki,
dağların başına düşən
qara gülələr!
Budaqlarda göz
yaşı kimi gilələnib,
üvəzlər,
    əzgillər,
        qaragilələr…
İstəyirəm gəzdikcə gəzim,
baxdıqca baxım…

Necə xoşbəxt,
necə bəxtəvərəm, Allahım!
Zirvədə sübh şəfəqi altında
bərq vuran qar,
Meşədə qızılı payız,
Qəlbimdə
yamyaşıl bahar…

**31. 10. 2003. Qusar.**

## XƏZƏL NƏĞMƏSİ

İçimdə bir yanğı var,
Demə gözəl olmuşam.
Ağacda yarpaq idim,
Yerdə xəzəl olmuşam.

Ürəklərdə qəribə
Duyğular oyadıram.
Torpaqdan yaranmışdım,
Torpağa qayıdıram…

## XƏZAN YELLƏRİ

Xəzəllərin dalınca
Xəyallara dalıblar.
Bu ağaclar nə qədər
Yarpaq yola salıblar.

Dözmək olmur ağrıya,
Gələcək bahar haçan?
Ağac ana göynəyir
Payızdan baharacan…

Əsən xəzan yelləri
Budağa qan uddurur.
Gələn yarpaq gedənin
Dərdini unutdurur…

**02. 11. 2003. Qayakənd.**





## ALATORAN

Sübh çağı
meşədə gəzirəm,
Elə bil sehrli bir
nağıllar dünyasında
üzürəm.
Ayaqlarımın altında
xəzəllər xışıldayır,
Başımın üstündə
sapsarı yarpaqlar
işıldayır.
Budaqda titrəyən bu yarpaqlar
Səhərəcən etməyib çimir.
Yarımçılpaq ağaclar
Ay işığı altında çimir…

***

Elə bu zaman
günəş qızılı şəfəqlərini
sancdı gecənin köksünə,
Qaranlıq fəqan qopardı.
Küləklər ayı da
bir sarı yarpaq kimi
harasa apardı…
Köksümdə ürəyim
budaqda titrəyən
sarı yarpaq kimi
dil açdı, danışdı…
Günəş mehriban
təbəssümü ilə
kirpiklərimdə bərq vuran
bir cüt şehi
qurutmağa çalışdı…

**30. 10. 2004. Qusar.**

***

Həsrətdən saralıb
gözlərim,
Payız yarpağı kimi
titrəyir dodaqlarım.
Meşə yerə
xəzəl döşəyib ki,
qoynunda gəzəndə
incimısin ayaqlarım...

**31. 10. 2004. Qusar.**

## 2004-CÜ İLİN SON SAATLARI

Meşədə gəzirəm
2004-cü ilin
son qarının üstündə.
Bir azdan
köhnə il can verəcək
təzə ilin
qollarının üstündə...
Bir azdan zamanın əlləri
2004-cü ili də
bir yarpaq kimi
qoparacaq.
Ötən il
mənim ayaq izlərimi də
özü ilə
keçmişə aparacaq...
Köhnə il
son saatlarını yaşayır,
Ömrümün əlli beşinci qışı da
bir neçə saatdan sonra
nağıla dönəcək...
Köksümdə çırpınan ürəyim
təzə-təzə sevdalarla





dinəcək...
Ömür ağacımın
budaqlarında
təzə-təzə yarpaqlar
bitəcək.
Ötən ilin
qarının üstünə düşən
ayaq izlərimi
bu gecə
təzə ilin
qarı örtəcək...

**31. 12. 2004. Qusar.**

## NƏ YAXŞI Kİ...

Bir qışın qarı,
çovğunu
neyləyəsidi axı
qəlbi bahar
havasıyla köklənən
bir obaya, bir elə.
Nə yaxşı ki,
qış bütöv olmur;
yarısı bir ilə düşür,
yarısı bir ilə...

**31. 12. 2004. Qusar.**

## İLİN SON GECƏSİ

İlin son gecəsində
meşə səsini içinə çəkib.
Təbiət ötən ildən
ayrıla bilmir elə bil,
hər yana
duman çöküb...

* * *

2004-cü ilin
xəzəllərinin üstünə
döşənib,
2004-cü ilin son qarı.
Bəmbəyaz bələyin içində
mışıldayır hələ
2005-ci ilin baharı...

**31. 12. 2004. Qusar.**

## TƏZƏ İLİN İLK ŞERİ

Meşədə gəzirəm:
ciyərimdə təzə ilin
ilk gününün havası;
ürəyimdə ötən ilin
ağrısı,
nisgili.
Meşədə gəzirəm:
ayaqlarımın altında
keçən ilin son qarı;
başımın üstündə
təzə ilin dumanı,
çiskini...
Meşədə gəzə-gəzə
sevdalı könlümün
səsinə qulaq asdım.
Təzə ilin ilk şerini
Köhnə ilin
son qarının üstünə
illər yorğunu olan
ayaqlarımla yazdım...
Həsrətin buzları
selə dönüb,
gözlərimdən





süzülə bilmir hələ.
Başımda təzə ilin
havası olsa da,
ayağım köhnə ildən
üzülə bilmir hələ...

**01.01.2005. Qusar.**

***

Ötən il günəşin
əridə bilmədiyi qarı
bu ilin dumanı
əritməyə başladı.
Çisgindən sonra
günəşin ılıq təbəssümü
qar altında qalan
yarımcan otları,
çiçəkləri
diriltməyə başladı...

* * *

Meşədə
qar üstündə gəzə-gəzə
düşündüm.
Həsrət sazağı kəsdi məni,
üşüdüm...

**01.01.2005. Qusar.**

## BABALAR

Elvina ilə Sevil
qaşlarını çatıb.
Nəcabət nənə acıqlanır:
-Ora getməyin,
Çoban baba mürgüləyir,
Bura getməyin,
Rəşid baba yatıb.

Elvina ilə Sevil
Nəcabət nənəyə qulaq asır:
-O otağa getməyin ha,
Rafiq baba şer yazır...
Sevil maddım-maddım baxır,
Elvina belə deyir gülə-gülə:
-Ay nənə,
bəs biz neyləyək? –
Hara gedirsən
babadı elə...

**01.01.2005. Qusar.**

## ƏLLİ BEŞ YAŞIM

Yəqin ki,
illərin qarı,
yağışı altında kövrəlib
atam, anam,
babam, nənəm indi.
Xoş gördük,
55 yaşım! –
Bizim nəslin
ən yaşlı kişisi
mənəm indi...

**02.01.2005. Qusar.**

***

Düzlərdə zəncəfil, qantəpər, kəkotu,
Dağ boyda olurmuş dağların sükutu.
Başının altına yastıq tək çək otu –
Mürgü vur, bu yuxu xoş olar.

Gülləri dəstəylə köksünə sıxanda,
Küləyin "əlləri" dolanar yaxanda,
Zirvədə dolanan qartala baxanda
Ürək də çevrilib quş olar.





Sel gələr, dağlara səs düşər, "güm, gurum"...
Əks edər o səsi özündə sıldırım,
Dağıdar sükutu bir anda ildırım,
Göylərin ürəyi boşalar.

Tez durub qaçasan yaxına,
Verəsən özünü Göyəzən dağına,
Bir ürkək maral da köksünə sığına, –
Ah, necə xoş olar!

**1970**

## HƏYATIN MƏNASI

Uşaqların qəlbi əsir bayaqdan bəri,
Düşüncələr nəhayətsiz, arzular min-min.
Çox çəkmədi müəllimin titrək əlləri
Ağ yol çəkdi üzərində qara lövhənin.

"Sən həyatın mənasını nədə görürsən?"' –
Neçə yerə parçalandı bu yol bir azdan.
Duyğuları alışdıran suala əhsən,
Hər ürəyə bir qol gəldi Kürdən, Arazdan.

Düşüncələr hey kükrədi, ürəklər doldu,
Sanki günəş göl üstündə əritdi buzu.
Hər sərlövhə elə bil ki, bir vağzal oldu,
Yola düşdü sinəsindən min xəyal, arzu.

Biri yazır: əsl həyat mübarizədir,
Biri yazır: yaratmaqdır ömrün mənası.
Birisinin sözü köhnə, biri təzədir,
Biri ömür arzulayır min il ən azı.

Biri yazır kaş olaydım çiçəkli bir yaz,
Paylayaydım işığımı çəmənə, çölə.
Biri yazır: həyatımın mənası olmaz,
Əgər fayda vermirəmsə obaya, elə.

Biri yazır: qanatmayın köhnə yaramı,
Yalvarıram, rişxənd edib gülməyin mənə.
Yaş fərqimiz sərhəd kimi kəsib aranı,
Bacarmıram ürəyimlə, sevirəm yenə.

Biri yazır: dalğasız da dəniz olarmı?! –
Bəzək vurur ömrümüzə həsrət, intizar.
Biri yazır: sevilməkdən gözəl şey varmı?!
Biri yazır… Nə qəribə sözlər yazırlar…

1976

## İLK QAR

Qəlbimizi aça bilmir Cənub qışı,
Yerə çatmır, qar yağsa da inci-inci.
Harda qalıb təbiətin buz naxışı? –
Göydə ölür körpələrin ağ sevinci.

Həsrət çəkir qarlı qışa neçə ürək,
Qar altında mürgüləyir yüz dağ, dərə.
Göydən enən dəstə-dəstə ağ kəpənək
Bəyənmirmi küçəmizi – qonmur yerə?!

Yer ağarıb, bu sevinc də çıxdı əldən,
Zəng vuruldu, sinfə girdik dəstə-dəstə.
Gözlər baxır müəllimə, fikir çöldə,
Qar yağacaq bu gün neçə dərsin üstə…

1984

## ASFALTIN ÜSTÜNDƏ ÇİÇƏKLƏR AÇAR

Bu necə arzudu könlümdən keçib? –
Ürəyin işindən baş açmaz fələk.
Kəndin çəmənindən, çölündən keçib,
Asfaltın üstünə can atar ürək.





Asfaltın üstüylə ümidlər uçar,
Şəhərin yuxusu ərşə çəkilər.
Asfaltın üstündə çiçəklər açar,
Çiçək ətri ilə dolar səkilər.

Üz gülər baharın gəlişi ilə,
Qızlar təbəssümdən çələng toxuyar.
Yırtar köynəyini Qızılgül, Lalə, –
Güllər cavanlara meydan oxuyar.

Yanaqlar allanar çiyələk kimi,
Asfaltın tozunu yuyar yağışlar.
Burda qanad açıb kəpənək kimi,
Çiçəkdən-çiçəyə qonar baxışlar.

İşığa can atar sevən ürəklər,
Bir ürək işıqdı bir qız gülüşü.
Çəmənin bəxtinə güllər, çiçəklər,
Asfaltın bəxtinə gözəllər düşüb.

1983

## MOSKVADA İLK QAR

Payız öz sözünü deməyib hələ,
Görəsən bu qarın qəsdi nə, yağır?
Hələ saralmağa macal tapmamış
Yaşıl yarpaqların üstünə yağır.

Bir həsrət qəlbimi üzür gizlicə,
Əriyir ömrümün qızıl günləri.
Çatım harayına bilmirəm necə? –
Üstünə qar yağır qızılgüllərin.

1982

## MOSKVADA PAYIZ

Qızlarının saçı kimi
Ağaclarının saçı qızılı.
Payızın qızıl əlləriylə
Ömrümün qızıl səhifələri yazılır.
Moskva bir ağacdı elə bil,
Ürəyim payız yarpağı kimi
Onun budağından asılıb…

**1982**

## HƏSRƏT KÖZÜ

*Oğlum Gündüzə*

Əgər nəfəs dəysə, açıla bilər,
Yol çəkir kösövün mürgülü gözü.
Bir təzə ocağın təməl daşıdı,
Sönməyə qoymayın sonuncu közü.

Anıram keçmişi, gözüm yaşarır,
Ürəyim mələyir bir quzu kimi.
Qəlbimdə sonuncu həsrət işarır,
Sonuncu ocağın son közü kimi.

Ömür ağacımın budaqlarında
Titrəyən sonuncu yarpaqdır o köz.
Sənin yollarını nura qərq edən
Bir gözəgörünməz çıraqdır o köz.

Nənənin, babanın təmiz eşqinin
Halal mayasından yoğrulmuşam mən.
Bir əmanət kimi verilən közü,
Oğlum, sənin üçün qorumuşam mən.





Bığ yerin tərləyib, yol çəkir gözün,
Köksümün altında çırpınır ürək.
Götür qəlbimdəki əmanət közü,
Sənin ocaq ömrün başlayır demək…

**1988**

## SAZ KÖYNƏKDƏN ÇIXANDA

Köynəkdən çıxartdı sədəfli sazı,
Bulud arasından günəşmi çıxdı?
Şəfəqli tellərə qəlbim tamarzı,
Nəğmələr sel kimi kükrədi, axdı.

Simlər min hekayət danışdı mənə,
Sevincim kükrəyən bir dəniz oldu.
Nəğmə dənizinə baş vurduq yenə,
Soyunan saz oldu, çimən biz olduq.

## BİBİMİN SÖZLƏRİNDƏN

Ahın bu dağlara gəlsin,
Dağ ahlara dözər, bala!
Aşkar yana bilməsən də,
İçin-için közər, bala!

Gəl bu sözün duraq üstə,
Zülmətdən qaç, çıraq istə.
Az baş sındır varaq üstə,
Səni fikir üzər, bala!

Təkrar etmə dediyini,
Oğulsan, aç bu düyünü:
Özgə özgə itiyini
Bayatıyla gəzər, bala!

Azalt bir az sərtliyini,
Əsirgəmə mərdliyini.
Vüqarlı ol, pərtliyini
Birdən yağı sezər, bala!

Tərəzidir elin gözü,
Qiymət verər bir gün özü.
Qulaq assan, onun sözü
Həyatını bəzər, bala!

### XATİRƏLƏR

Xatirələr –
Uzaq illərin
arxasından əsən
həsrət yelidi.
Xatirələr –
Öləziyən ocağın
soyumaqda olan
külüdü.

**04. 07. 2004**





## MÖCÜZƏLİ, SİRLİ DÜNYA

### ƏBƏDİYYƏT

Nə vaxtsa sevdalı qəlbim
Çürüyəcək, toz olacaq.
Ömrüm zamanın əliylə
Kəlmə-kəlmə pozulacaq.

Nə vaxtsa bir gün gələcək,
Adın yadımdan çıxacaq.
Həyatım qədər sevdiyim
Qadın yadımdan çıxacaq.

Kim qalacaq mənim kimi
Sevənlərin qayğısına?
Əvvəl-axır gedəcəyik
Əbədiyyət uyğusuna.

**21. 11. 2002**

### DƏYİŞMƏ

Mənim bəxt ulduzum hələ
Göyün yeddi qatındadı.
Başdaşım olacaq mərmər
Hardasa yer altındadı.

Mən köçəndə yer altına,
O çıxacaq yer üstünə.
Dönəcək adi insanın
Kiçik xatirə büstünə…

## OCAQ YERİ

Qibtə elədim
baş-başa verən
iki oduna.
Yandılar məhəbbət oduna,
Yandılar əl-ələ,
Yandılar qucaq-qucağa.
Alovdan köz doğuldu,
Apardılar onu başqa ocağa.
Baxdım iki közə,
Dayanmışdılar göz-gözə.
Ömürdən-gündən
Nəsə deyirdilər bizə…
Əbədi deyil ki, ömür –
Sabah üz-üzə dayanacaq
İki kömür…

**1980**

## ÜZÜ GƏLƏCƏYƏ

Zaman – məhək daşı,
Zaman – saxtalara qənim.
Elə bil körpüdü məhəbbət,
Bir ucu sənin çiynində,
Bir ucu mənim.
Bu körpünün altında
sellər-sular çağlayır –
ömrümüzü budaya-budaya.
Üstümüzdən körpələrimiz
keçəcək
O taya, bu taya…
Üzü gələcəyə…

**1980**





## AĞAC

Ay qış küləyi!
Sevinmə ki, qupqurudur,
bomboşdur budağım.
Yenə gələcək bahar!
Hələ mənim içimdə
Nə qədər doğulmamış yarpağım,
açılmamış çiçəyim,
yetişməmiş meyvəm var!
Ancaq sənə verməɾəm onları.
Qışqırırsan, hədələyirsən məni, –
Yoxdur özgə əlacın.
Nəvaziş görməsə,
Səxavət əli açılarmı ağacın?

**1982**

## ALDANIŞ

Qışın saxta təbəssümünə aldanıb,
Onu yaz bilən ağac!
Çiçək gözlərini açıb,
Bəxtiyar-bəxtiyar gülən ağac!
Çiçəyinin üstünə
Ləçək-ləçək qar yağmazmı?
O qar – gözlərinə atılan
Bir ovuc torpağa bənzəməzmi?
Qar saçlı qış bilərmi heç
Nə deməkdi yaz öpüşü?
Güllərini soldurmazmı buz öpüşü?!
Damarında daşıb qanın,
Çiçək-çiçək közərmisən.
Bu vədəsiz oyanışa
Tab gətirib dözərmisən?!

**1980**

## BALIQQULAĞI

Elə bil toydur dənizdə,
Dalğaların səsi
Gah bəmə enir,
gah qalxır zilə.
Balıqqulaqları şabaş kimi
səpələnib sahilə.
Əl atıb götürürəm birini
sevə-sevə,
dönürəm evə.
Öz səsimi uduram,
Qulağıma tuturam.
Bu nədir? –
Heyrətlə baxıram
soluma, sağıma.
Qəribə səslər gəlir qulağıma.
Elə bil sahilindəyəm dənizin,
Ləpələr oxuyur həzin-həzin.
İnanmıram qulaqlarıma,
Boylanıram dörd bir yana.
Bəlkə maqnitafondur balıqqulağı,
Dənizin səsi yazılıb ona?
Ürək tufan sorağında,
Otağımsa dənizə oxşayır.
İşə bax, bir kiçik balıqqulağında
Dəniz yaşayır,
Tufan yaşayır...

1970

## KEÇƏLLƏR

Biri varıdı, biri yoxudu,
Bir keçəl var idi – noxudu.
Keçələ sataşma, adamını tanı.
Şeytan da aldada bilməyib,
Keçəl aldadanı.





Fəqət mərd olublar,
İnsanlara səadət diləyiblər keçəllər.
Şahlar qırmızı geyinib taxta çıxanda,
Bəd niyyətləri keçəl eləyiblər keçəllər.
...Deyirlər fəlakət olarmış,
nəmişliyin qarşısı saxlanmasa.
Şikayətə Allah da baxmazmış.
Qırx keçəlin başı bir ipə bağlanmasa,
Günəş də çıxmazmış.
Biri varıdı, biri yoxudu,
Bir keçəl var idi – noxudu. –
Biz dinləmişik bu nağılları,
Hələ dinləyəcək qızlarımız, oğullarımız.
Deyirəm əhsən keçəllərə,
Onlarsız keçəl qalar nağıllarımız.

## YETİMİN TOYUNDA

Səhər-səhər evdən çıxdı,
şad-şalayın.
Toya getdi o,
yetim qohumunun toyuna.
Toyçular gələn kimi
İlk sifarişi verib,
Yazıq girdi oyuna.
Gəlmişdi
Sınıq ürəyi yamamağa,
Yetim toyunu şənləndirməyə.
Oynadı –
Bu dünyaya bağlı həsrətini əritdi
O havanın odunda.
Torpaq oyum-oyum oyuldu,
Didim-didim didildi
Ayağının altında.
Belə ürəkdən oynadığını
Heç kəs görməmişdi hələ,

Oynayırdı deyə-deyə, gülə-gülə.
Bu oyun –
Onu nə bezdirdi, nə yordu.
Bu oyun bir toyun ilk havasıydı,
bir ömrün son akkordu.
Birdən kökündən qopan
qoca palıdlar kimi
tirtap yıxıldı yerə,
birdən qarışdı ara.
Yetimin toyu da yetim qaldı
bircə havadan sonra…

1977

***

İnsan torpağı şumladı,
bellədi,
kərkilədi.
Dünya dünya olduğunu
Qoynuna insan gələndə
dərk elədi…

1985

## DOQQUZ AYLIQ NAĞIL

Ağrıların gücünə
Gözəlləşir həyat da.
Ağrılar hesabına
Şirinləşir övlad da.
Yer üzündə eh nə qədər
ağrı var? –
Biri sanki bir ulduz.
Ağrıların müqəddəsi –
Doqquz aylıq ağrılar,
Rəqəmlərin müqəddəsi –
Doqquz.
Doqquz ay,
doqquz gün,





doqquz gecə,
doqquz saniyə…
Doqquz aylıq çağanı
Qoyacaqlar nənniyə.
Sona yetəcək doqquz aylıq nağıl.
Göydən alma yerinə
ya qız düşəcək,
ya oğul.
Almalar kimə çatacaq? –
Nə mənə, nə sənə.
İkisi də nağıl söyləyənə…

## ZAMAN

O hara tələsər, bilmirəm hara? –
Aşar bərələri, keçər düzləri.
Ağ cığırlar salar qara saçlara,
Qalar yer üzündə ayaq izləri.

Bilinməz ünvanı, bilinməz yaşı,
Hərəyə bir cürə sovqat göndərər.
Canlıya döndərər torpağı, daşı,
Canlını torpağa, daşa döndərər.

Gör nələr törəyər gərdişi ilə,
Bəzən düşünürəm, bəlkə də zaman
Getsəydi tısbağa yerişi ilə
Gözümüz doymazdı yenə dünyadan.

Zaman hər müşkülə bir əncam çəkər,
Bəzən tumarlandıq, bəzən əzildik.
Zaman yel qanadlı olmasa əgər
Dünyanın üstündə biz nə gəzirdik?!

Qoy artsın sürəti, mən buna şadam,
Ömrün sahilinə gec-tez yetəcəm.
Zamanın qurbanı olubdur atam,
Zamana göz dikib nəvəm, nəticəm…

## BU DÜNYA

Qalalarda qaynaq olub sanki daş daşa,
Dərələrdə sellər, sular çağlayar, daşar,
Xəyalımın buludları gələr baş-başa,
Gözlərimdə şimşək olub çaxar bu dünya.

Kövşənlərdən, zəmilərdən ayaq yığışıb,
Ürəyimi nurlandırar bir qız baxışı.
Bu dünyanın hər sevinci bir yaz yağışı,
Damarımda selə dönüb axar bu dünya.

Öz ağlımın budağında əsir həyatım,
Qitələrdə göbələk tək boy atır atom,
Farağat dur öz yerində, qardaşım, atam,
Çiçək olub qəbrimizdən qalxar bu dünya...

***

İnsan var ki, ömrü keçib boran içində,
Neçə gülü qönçə ikən dərdi bu dünya.
Elə təzə dərd verir ki, bir an içində,
Unutdurur neçə köhnə dərdi bu dünya.

Yaxşıları, yamanları aradı, seçdi,
Gözlərindən neçə qərib ildırım keçdi,
Bir də gördün dağa, düzə ağ libas biçdi,
Bir də gördün güllü xalı hördü bu dünya.

Yaşamaqçün bağışladı çörəyi bizə,
Sevmək üçün bəxş elədi ürəyi bizə,
Ocaq olub nur gətirdi ürəyimizə,
Tüstü olub gözümüzə girdi bu dünya.

Bu həyata bircə dəfə gəlmirmi adam?! –
Ay insanlar, ömrünüzü verməyin bada!
Qoca Xəyyam sağ əlində nur dolu badə,
Haray salıb qışqırır ki, birdi bu dünya!





Yusifoğlu, hey döyürsən gözünü hələ,
Sən də deyə bilməmisən sözünü hələ,
İnsan oğlu dərk etməyib özünü hələ –
Başdan-başa möcüzədi, sirdi bu dünya.

## SEVİNCİM – KƏDƏRİM

*Sevinci bölməyə hamı hazırdır,*
*Kədərin ortağı tapılmır ancaq.*
***M. Lermontov***

Yazıqsan, yoxdursa könül həmdəmin,
Dünyada hər kəsin öz sirdaşı var.
Dərdini bölüşsən, azalar qəmin,
Sevinci bölüşsən, sevincin artar.

Bir könül həmdəmi halımı sorsa,
Açaram dərdimi, ürək dinc olar.
Ən ağır kədərin ortağı varsa,
O kədər özü də bir sevinc olar...

**1972**

## QƏBİR QAPISINDA PASLANAN QIFIL

Ot basmış cığırın yol çəkir gözü,
Həsrət cadar salıb, daşı da bölüb.
Bir vaxt bu gözəlin ölmüşdü özü,
İndi ona olan məhəbbət ölüb.

Torpaq unutmayıb o ahı, ufu,
Şahidsən nə qədər göz yaşına sən –
Qəbir qapısında pas tutan qıfıl,
Göz dağı olmusan baş daşına sən.

Hanı, bu kilidin açarı hanı?
Soyuq mərmərin də gözləri dolub.
Hanı, bu qapının açanı hanı? –
Adicə bir qıfıl qıfılbənd olub…

## QOCANIN ÜZÜ – ŞAİRİN GÖZÜ

Bu qocanın üzündə
Gör nə qədər qırış var.
Zaman bir əkinçidi,
Saldığı şum – qırışlar.

Suala tutsan əgər,
Qoca nəfəs dərəcək –
Üzündəki o şumdan
Xatirə göyərəcək.

Vala da bənzədərsən,
Əgər o üzə baxsan.
Bu qırışın hər biri
Səs cığırıdı yoxsa?!

Bu valı dilləndirmək
İstəyənlər az olub.
O cığıra bir ömrün
Qayğıları yazılıb…

**1987**

## QOCALIĞIN XATİRƏSİ

Uşaqlıq xatirələrinin
Çiynində dayanıb bu günüm –
Özüm qazanmışam bu ucalığı.
Ömrüm bir çay kimi axıb gedir,
Bir sahilində uşaqlığım, gəncliyim,





Bir sahilində qocalığım.
Hərəyə öz canı şirindi,
Ömrü özgələrdən borc allıq necə?
Uşaqlıq, gənclik xatirəyə dönə bilir,
Bəs qocalıq necə? –
Qocalığın xatirəsi yoxdu…

## RUHUNUN DALINCA

*İstəkli dayım Maisin əziz xatirəsinə*

Ayaqların sözünə baxmadı,
Dağ çayı kimi qıjıltılı qanın
Adi insan damarlarına sığmadı…
Başına fırlandı şəhər.
Elə bil çağırırdı səni
sümükləri sürmə olmuş ata, ana.
Qaçmaq istədin
doğulduğun kəndə qədər,
Bədənin dözmədi
bu arzunun ağırlığına.
Çökdü gözlərinə əbədi bir yuxu.
Cəsədini sahil bağında qoyub,
Ucqar bir dağ kəndinə uçdu ruhun.
Hıçqırdıq, ağladıq,
Şivən qopardıq…
Sənin bədənini yerdən qaldırıb,
Ruhunun dalınca apardıq, –
Əlimizdən nə gəlirdi daha…

**1984**

## SON YARPAQ

O yarpaq titrəyəndə
Ürəklərimiz əsir.
Neçə evin üstündə
O ağacın kölgəsi…

O yarpaq ümidimiz,
O yarpaq dayağımız.
O yarpaq yol göstərən
İşıqlı mayağımız.

O yarpağı görəndə
Ömrümüzə gün düşür.
Gecələr o yarpaqda
Yuxumuz düyün düşür.

...Atan, anan, qardaşın
Olubdur torpaq, anam.
Bir nəslin budağında
Əsən son yarpaq – anam...

**1987**

## BU BAĞÇADAN PAYIZ KEÇİB

Xəzəllərdə gözüm qalıb,
Yarpaq yanıb, "közü" qalıb.
Bu bağçadan payız keçib,
Ayağının izi qalıb...

**1987**

## OXQAY

Həyata keçən insan arzusu,
Təşnə üçün bir qurtum su.
Kor gözə gələn işıq,
Həsrətli barışıq.
Ürəkdən çıxarılan qəlpə,
Ana döşlərini əmən körpə.
Zirvədə yellənən Vətən bayrağı,
Qərib üçün bir ovuc Vətən torpağı.
Ana yurdu, ata obası,
Ciyər dolusu dağ havası.





Vətən yelləri.
Loğman babaların səriştəsi.
Xəstə alnında ana əlləri,
Nənələrin sulu əriştəsi.
Tarın sarı simi.
Yağışdan sonra günəşin təbəssümü.
Məhəbbətin şirin əzabı,
Sükutun dili.
"Yaxası dar köynəkdə" iki sevgili.
Balamın dodağında "ata" kəlməsi,
İşdən qayıdanda
Qaça-qaça qabağıma gəlməsi.
Bəxtiyar gün, ay...
Oxqay! Oxqay!!!

* * *

Qırılanda ömrümüzün kəndiri
Onu təzdən kim düyəcək, İlahi?!
Məzar mənim əbədiyyət evimdi,
Qapısını kim döyəcək, İlahi!

**30. 01. 2002.**

## KƏFƏN

İnsan bu dünyada
yaşaya-yaşaya
o dünya üçün
hazırlamalıdı özünü.
Ağ kəfən çətin ağarda
ömrü boyu
qara-qara işlər
görənlərin
üzünü...

**06. 07. 2003**

## RUH VƏ BƏDƏN

- Ruh əbədidi,
bədən ötəri.
Dərd çəkməyə dəyərmi
bədəndən ötəri?!
- Çox yaşamaq,
çox sevmək istəyir ürək.
Ruh onsuz da əbədidi,
Bədənin ömrünü
uzatmaq gərək…

**2003**

## BAŞ DAŞI ÜÇÜN YAZI

Tale sənin də ömrünü
Saldı bir çıxılmaz bəndə.
Allahın buyruğu buymuş,
Neyləyə bilər ki, bəndə?
Dünya bivəfa dünyadı,
Açılan gül gərək solsun.
Əziz anamız, rahat yat,
Torpağın qu tükü olsun!

**2002**

* * *

Ömrə çəkilən
Sığaldır zaman.
Hər cür yaranı
Sağaldır zaman…

**2003**

* * *

Bu il hava çox sərindi,
Həsrət qaldıq gün üzünə.
Qara buludlar çevrilib,
Al günəşin günüsünə…

**23. 07. 2003. Qusar.**





## XƏSTƏLİK

Çağrılmamış qonaq kimi
keçib içimizdə əyləşir; -
Biz onu qova bilməsək,
o bizi aparacaq..

**2004**

## "YEDDİ GÖZƏL" NAĞILI

***Rüf'ətin xatirəsinə.***

*İçin gözəl-gözəl duyğularla, qəlbin Tanrı sevgisi ilə, düşüncən yeni nəslin ürəyindən xəbər verən ideyalarla dolu idi. Ağlına "Yeddi gözəl"ə yar olmaq ideyası haradan gəldi, Rüf'ət? Məgər bilmirdin ki, əfsanəvi "Yeddi gözəl" bir gün səni qanadlarına alıb mələklər dünyasına apara bilər?*

Ömür karvanı dayanır,
Ancaq yetmir dünya sona.
Qəlbi paklar tez gedirlər
Mələklərin dünyasına.

İnsan ömrünün sarbanı
Çərxi-fələkmiş sən demə!
"Yeddi gözəl" səni sevən
Yeddi mələkmiş sən demə!

Ömür nağıldı, sonluğu
Göydən düşən üç almadı…
Yeddi gözəlin biri də
Anana gəlin olmadı…

**01. 08. 2003**

## XƏSTƏXANA

Yaşamaqdan üzməmişəm əlimi,
Hələ neçə arzularım körpədi.
Xəstəxana həyat ilə ölümün
Arasında elə bil ki, körpüdü.

Zalım əcəl oynatmasın qoy atın,
Bu dünyadan gəlib keçib de, kimlər?!
Sərhədində ölüm ilə həyatın
Sərhədçi tək dayanıblar həkimlər.

Qaytarıblar neçə-neçə dəstəni,
Söyləyiblər: -Tələsməyin köçməyə!
Sərhədçilər neçə-neçə xəstəni
Qoymayıblar bu körpüdən keçməyə.

**1981**

## ŞAMXƏLİLƏ

Ürəyimə toxunmuşdu bir nadan,
Sən kövrəldin, bu da mənim bəsimdi.
Hətəmoğlu, gileylənmə dünyadan,
Həmdərd yoxsa biz neyləyək bəs indi?!

**26. 02. 1996**

## ÖMRÜN QIŞ ÇAĞINDA

İllər ötüb, yaşa dolub,
Yanağının gülü solub,
Qız qocalıb, qarı olub,
Gözdən yaşına-yaşına.

Elə ki, dağlara baxdı,
Dilindən bayatı axdı.
Cavanlar kimi qıvraqdı,
Baxma yaşına, yaşına.





Xatırlayır həyatını,
Xəyal çapır hey atını,
Eşitsə o bayatını,
Dönər daş una, daş una.

Dalda yerə qaçır hər gün,
Nəğməsi od saçır hər gün,
Ürəyini açır hər gün
Qəbir daşına, daşına.

Dili yoxdu dinə dağlar,
Bu ayrılıq sinə dağlar.
El qayıtdı, yenə dağlar
Qaldı başına, başına.

Dönüklük ona ar gəlib,
Yuxusuna hey yar gəlib,
O, qəlbində bahar gəlib,
Ömrün qışına, qışına…

**1978**

## BU GÜN QƏBRİSTANDAN DOĞURDU GÜNƏŞ

Sahilə getmişəm, bir mən, bir dəniz,
Uzaqdan hüznlə baxırdı günəş.
Nura qərq olmuşdu məzar daşları,
Bu gün qəbristandan doğurdu günəş.

Tanrının işindən kim baş açıb ki,
Diriyə bənzəyir hərdən ölülər.
Yapışıb günəşin zər saçağından
Qalxmaq istəyirdi yerdən ölülər.

Bu gün qəbristandan doğurdu günəş,
Yerin altına da zər ələnirdi.

Baş aça bilmirdim özüm özümdən,
Ürəyim köksümdə zərrələnirdi.

Bu gün qəbristandan doğurdu günəş,
Bilmirdim onunla necə davranım.
Şükür kəreminə, şükür, İlahi,
Hələki yoldadı ömür karvanım…

**16. 12. 2003**

***

Əbədi yuxuya gedən
böyük insan
oyanmır ki,
oyanmır.
Himn çalınır.
Hamı gərili dayanıb,
Göz yaşları isə
gözlərimizdə
farağat dayanmır ki,
dayanmır…

**15. 12. 2003**

## YOL

Könlümdə
ağrıya bələnmiş
ümidlər,
Saçımda illərin qarı
gedirəm.
İçimdə həyat sevgisi
Keçmişdən
üzü gələcəyə sarı
gedirəm.
Bilmirəm





məni hara aparır
bu yollar?! –
Bir qoluma
xatirələr girib,
bir qoluma
xəyallar…

**25. 02. 2004**

## ƏBƏDİYYƏT

Həyatın əvvəli şirin,
sonu acıdı.
Ölüm –
Ömrün sonu,
Əbədiyyətin
başlanğıcıdı. –
Sözlərim səni də
titrədir;
görürəm necə
dolduğunu.
Soruşursan ki,
kimsə bilirmi
əbədiyyətin
necə olduğunu?!
- Taleyə
meydan oxumaq
nə bizlikdi,
nə də sizlik.
Məni yamanca
üşəndirir, əzizim,
Əbədi sükut,
Əbədi zülmət,
Əbədi sevgisizlik…

**20. 12. 2003**

***

Duranda ümidlə dururam,
Yatanda ümidlə yatıram.
Yaxşı ki,
ömür davam edir,
Yaxşı ki,
ölməmişəm hələ.
Təzə sevdalara doğru
can atıram, –
Ancaq məni bu yoldan
döndərə biləcək bir sevgiyə
rast gəlməmişəm hələ...

**20. 12. 2003**

***

Deyirsən ki, hamı bilir,
Siz ürəyi çiçəksiniz.
Bu dünyada cənnət varsa,
Siz ora düşəcəksiniz.

- Günahdan qaça bilmirəm,
Arabir ürəyim azıb.
Bəndə yazan hesab deyil,
Görən mələklər nə yazıb?

**20. 12. 2003**

***

Qozasını donuz yeyən
Palıd olmaq istəmirəm.
Günəşin önünü kəsən
Bulud olmaq istəmirəm.
Mən yadigar qoymalıyam
Öz təzə-tər sözlərimi, -
Bu dünyadan gedəndə də
Unudulmaq istəmirəm...

**07. 08. 2004. Qusar.**





# SEVDALI DİYAR

***

Allahım!
Nə yaxşı ki,
məni sevdalı
yaratmısan!
Yolumun üstünə
bu qədər sevməli
yar atmısan...
Ömrümü sevgilərlə
gülüstana,
Qəlbimi nəğməli
bülbülə döndərmisən.
İçimi sevgi nuru ilə
doldurub,
Məni sevdalı bir diyara
göndərmisən.
Ürəyim sənin yolunda
əsirdi, yesirdi,
Allahım!
Məni ki, bu qədər sevirlər,
Bilmirəm bu nə sirdi,
Allahım?!

**02. 10. 2004**

* * *

Yaşı dünyanın
yaşı qədər olsa da,
həmişə məs'umdu,
körpədi məhəbbət.
Allahla bəndə arasında
körpüdü məhəbbət...

**03. 03. 2002**

* * *

Səni görəndə
qəlbim titrədi,
qəddi-qamətin
xoşuma gəldi.
Zərif bir məhəbbət
vüqarımı sındırdı, -
Bu nə iş idi
başıma gəldi?!
Nəğmələrimdən nə qədər
adını pozdumsa,
Səni unuda,
Sevgi dağının o biri üzünə
aşa bilmədim.
Hirslənib nə qədər
vida şe'ri yazdımsa,
Səninlə yenə də
vidalaşa bilmədim...

**30. 01. 2002**

## NEYLƏYƏCƏYİK

Səni öpdüyüm üçün mənə
müharibə elan eləmisən.
Sevincə layiq ürəyimi
Qəmlərə bələmisən.
Vüqarımız eşqimizdən
güclü çıxsa,
ömrümüz boyu
göynəyəcəyik...
bütün küsənlər
barışanda öpüşürlər,
bəs biz barışanda
neyləyəcəyik?!

**05. 02. 2002**





***

İnsanların arasında
ola bilmədik bəxtəvər,
ola bilmədik azad.
Bir deyən yoxdu ki,
boyuna görə yorğan tap,
hamı deyir ki,
ayağını
yorğanına görə uzat!

**05. 02. 2002**

## ÜRƏYİM DEYƏNİ ETSƏYDİM ƏĞƏR

Deyirəm ki,
qulaq as, əzizim,
ürəyinin səsinə.
Qərar verə bilmərik axı biz
qəlbimizin əvəzinə.
Acı-acı gülümsünüb,
dərindən ah çəkirsən.
Pərişan görkəminlə
ürəyimə dağ çəkirsən.
Deyirsən ki, ürəyim deyəni
etsəydim əgər, indi hər şey
baş-ayaq olmuşdu.
Ürəyim deyəni etsəydim əgər,
Sizin ailəniz çoxdan dağılmışdı...

**05. 02. 2002**

* * *

Qorxuram ki,
qəlbimdəki məhəbbət ölə.
Elə bilmə ki,
bu adicə bir gileydi.
Duyuram ki,
sənə qovuşmaq

mümkün deyil hələ,
Səni öpmək
vətənindən qovulmuş
didərginin
sərhəd dirəklərini
öpməsi kimi bir şeydi…
**07. 02. 2002**

* * *

Xətrinə dəymişik
bir-birimizin,
Sevgi kotanımız
daşa ilişib…
Ürəkdən gülə bilmirik ki,
bilmirik…
Aramıza tüldən də nazik
bir giley pərdəsi düşüb,
onu qaldıra bilmirik ki,
bilmirik…
**07. 02. 2002**

* * *

Ürəyim olub
qəmin yurd yeri.
Oxuyuram sənə yazdığım
gileyli şe'ri:
"Sevgi kotanımız
daşa ilişib.
Aramıza bir giley
pərdəsi düşüb"…
Səsin titrəyir,
səsin utanır.
Gülümsünüb
deyirsən ki,
bəlkə daşa yox,
xəzinəyə ilişib
sevgi kotanı?!
**12. 02. 2002**





* * *

Telefondan ayrılsan,
Ürəyin həsrət oduna
Ütüm-ütüm ütüləcək.
Ayrılmasan,
paltaryuyan maşında donun
didim-didim didiləcək…
**12. 02. 2002**

* * *

Buludlar toqquşanda
şimşəklər çaxır.
Şimşəklər çaxanda
göy guruldayır, yağış yağır.
Biz toqquşanda
neçə dəfə dirilirik, ölürük.
Ona cörə ki,
kəllə-kəlləyə yox,
dodaq dodağa gəlirik…
**12. 02. 2002**

* * *

Bundan böyük dərd olarmı,
ürəyinin səsinə
qulaq asa bilməyəsən;
sevgililər günündə də sevgilini
bağrına basa bilməyəsən?!
**14. 02. 2002**

* * *

Boya yaraşmır axı
Zər saçaqlı günəşə?!
Tez-tez dəyişirsən
Saçlarının rəngini.
Qorxuram qəlbində
sevgin də dəyişə,
Bir ötən məhəbbətin
məzarı üstünə

qoyası olam mən
şe'r çələngini…

**24. 02. 2002**

* * *

Belə ki, görürəm
qəlbimdəki sevgi çiçəkləri
məhkumdu solmağa.
Mən layiq deyilmişəm
sənin fərdi dünyanın
sakini olmağa…
Didim-didim eləyib
tökmüsən ayaqlar altına
bir ötən sevdanın ləçəklərini.
Mənim kobud qədəmlərim
incidə bilər
sənin fərdi dünyanın çiçəklərini.
Bəbəklərinin dərinliyində
qəm bardaş qurub,
gizləsən də göz yaşlarını.
Yalanın nazbalışından
daha çox sevirəm
həqiqətin pıtır-pıtır daşlarını.
Mən həqiqəti sevirəm,
sən qorxursan həqiqətdən.
Nə gözləmək olar axı
özülü yalan üstündə qurulan
məhəbbətdən?!

**24. 02. 2002**

* * *

Yazdığım şe'rdən
sevgilim incidi.
Dedi ki, sənin qədəmlərin
mənim ürəyimdəki güllərdən
incədi.
Ancaq onlar





könlümdə yurd salan çayırlara
dağ çəkə bilər.
Sənin qədəmlərin
mənim fərdi dünyamın
qaratikanlarını tapdayıb,
yerində gül əkə bilər.
Naz eləməyimə baxma,
sənin məhəbbətin
ürəyimdə çiçək, başımda tacdı.
Mənim fərdi dünyam
sənin qədəmlərinə
həsrətdi, möhtacdı…

**24. 02. 2002**

* * *

Deyirəm:
- Məni hardan tanıyırsan?
Deyirsən:
- Sizi tanımayan varmı?
Sizin kimi insan heç unudularmı?
Ürəyinə sevgi düşüb,
mən heç səni qınamıram.
Sən məni necə tanıya bilərsən ki,
Mən heç özüm-özümü
tanımıram?!…

**03. 03. 2002**

* * *

Sən eşqinlə
ürəyimi bəzəyirsən.
Ancaq fırtınalı dənizə
bənzəyirsən.
Elə bil ki, duymursan məni.
Həmişə sahilindəyəm,
qoynuna girməyə
qoymursan məni…

**03. 03. 2002**

* * *

Bir-birimizdən ayrı yaşasaq da,
elə bilmə ki,
günlərim sənsiz ötüşür.
Səhərim səninlə açılır,
Axşamım səninlə düşür.
Üstümə zülmət dumanı
çökmək istəyəndə
sən gülümsəyib,
yuxudan ayılırsan.
Hər səhər dənizdən boylanan
günəşə dönürsən,
hər axşam mənə
sevgi nəğməsi pıçıldayan
ay olursan…

**04. 03. 2002**

* * *

Həsrətindən gecə-gündüz
yanıram.
Sən çiçəksən,
mən şehəm,
hər səhər üzünə qonuram.
Günəş qurutsa da məni,
asta-asta, aram-aram,
Sənin ləçəyində
zərrədən kiçik də olsam,
mən varam…

**06. 03. 2002**

## SÜBH

Dəniz nəğmə oxuyur,
Ayın ziyası öləziyir,
Günəş isə təzəcə boylanır.
Mənim ürəyimsə
sənin məhəbbətinlə





nura boyanır.
Lakin…
Həsrətin duman kimi
üstümə sürünür…
Nə dəniz, nə Ay, nə Günəş
verə bilmir sənin yerini…

**07. 03. 2002**

* * *

Sevdiyin insana
qadağa qoymaq
insafsızlıqdı.
Ömür keçir,
Onsuz da açılan çiçək
məhkumdu bir gün saralmağa,
bir gün solmağa.
Deyirsən ki,
məhəbbətdə etika gözləmək
özü də etikasızlıqdı.
Əzizim, bəs niyə məni
məcbur edirsən
etikasız olmağa?

**08. 03. 2002**

* * *

Əzizim, sevgilim, bir dənəm!
Soyutma aranı!
Verməyə hazıram
sən məndən nə umsan.
Quş uçmaq,
insan sevmək üçün yaranıb,
qanadsız quşa bənzəyir
sevgisiz insan…

**08. 03. 2002**

## EHTİYAC

Qoynuna yağış yağır,
Dəniz bəxtəvərə dönüb.
Günəşin nurlu saçaqları
yağışda islanıb,
zərə dönüb…
Dünən qaşqabağı
açılmayan dəniz
bu gün gülümsəyir;
hər dərdin əlacı var imiş.
Təpədən dırnağacan
su olsa da,
dənizin də yağışa
ehtiyacı var imiş…
**10. 03. 2002**

* * *

Onun ümid dolu sözləri,
sevgi dolu gözləri
müjdə gətirir
doğan aydın səhərdən.
Sübhə qədər
üstünə sevgi yağışı ələmişəm,
Sevgilimin xəbəri olmayıb
xəbərdən…
**10. 03. 2002**

## İSTƏYİRƏM

Çiçəyin üstünə düşən şehi,
Saçlarında zamanın açdığı zehi,
Sənin nəfəsini xatırladan mehi,
Dalğalı dənizi,
Ulduzlu göyü
öpmək istəyirəm.
Ancaq bunların hamısı bəhanədi,





Özün yaxşı bilirsən ki,
ən çox nəyi öpmək istəyirəm!…
**12. 03. 2002**

* * *

Hər zaman
mənə birbaşa cavab verməkdən
boyun qaçırırsan.
Xəyalımda qurduğum
sevgi sarayını
"bilmirəm" sözü ilə
uçurursan.
Adamın üzülür yerdən,
göydən ayağı.
Deyirəm: - Məni sevirsənmi?
Deyirsən: - Atam evdədi,
danışa bilmirəm axı?!
**12. 03. 2002**

* * *

Odla oynamazlar,
Bir dənəm!
Bir gün
el-aləmi üstümüzə
güldürəcəyəm…
Bir gün sinəmi aramızdakı
sərhəd dirəklərinə çırpıb,
özümü öldürəcəyəm!
Ancaq sənə
yalvarmayacağam ki,
yaramı sarı!
Bəxtiyar-bəxtiyar
can verəcəyəm
üzü sənə sarı…
**14. 03. 2002**

## MƏHƏBBƏT DƏRSİ

Dəniz dostum ürəkdən
vurulduğumu bildi,
həyəcanlı halımı görüb,
mənə doyunca güldü.
Dedi ki,
çoxlarına dərs deyirdin
sevgi ilə bağlı,
uçurdun məhəbbətin
qanadlarında,
göy ilə gedirdin,
Rafiq Yusifoğlu!
Axır ki, sənin də qəlbindən
əlçatmaz sevgi çiçəyini
dərən tapıldı.
Çox şükür!
Sənə də bir sevgi dərsi
verən tapıldı!...

**14. 03. 2002**

* * *

Deyirsən ki,
ötənləri xatırlayıb,
gor eşələməyək!
Bir-birimizi görsək də,
heç vaxt görüşməyəcəyik. –
Sözlərin büküb qamətimi,
Eşqinin önündə
Məcnun söyüd kimi
əyilmişəm.
Görünür mən səninlə
görüşməyə də
layiq deyilmişəm?!

**14. 03. 2002**





* * *

İçim göyüm-göyüm
göynəyir,
Zərif bir çiçəyin
məhəbbəti
əjdaha kimi udub məni.
Görünür,
sevib, ancaq sevilməyən
qızların
qarğışı tutub məni!

**14. 03. 2002**

* * *

Gözəllər arasından
səndən başqa kimsəni
seçə bilmirəm.
Sözlərin isə məni
odlara çatır, əzizim!
İynənin ulduzu boyda
ümid körpüsündən
yanına keçə bilmirəm. –
iynəni qəlbimə batır, əzizim!

**15. 03. 2002**

## BAHARIN İLK GECƏSİ

Baharın ilk gecəsi
yuxuda gördüm səni.
Eh, necə məhəbbətlə
öpürdün məni!...
Yuxudan ayılıb
üz tutdum meşəyə.
Tuş gəldim
xəzəllərin altından
boylanan bənövşəyə.
Ürəyim əsə-əsə
öpüb çiçəklərin gözündən,
pıçıldadım adını.

Ancaq şehli ləçəklər də
verə bilmədi
dodaqlarının dadını...
**21. 03. 2002. Qusar.**

## ZOĞAL AĞACI

Baharın ilk günü
meşədə bəxtəvər anlar
yaşadım.
Zoğal çiçəklərini
saçların bilib oxşadım.
Ürəyim bələndi ətirə.
İstədim ki, bir budaq qırıb
sənə gətirəm.
Zoğal ağacı dil açdı,
kəlmələr dodağında
gül açdı:
- Şair,
həsrətdən saralan budağımı
nə üçün uf demədən
qoparırsan?!
Saçının bir telini
sənə qıymayan gözələ
nə haqq ilə
çiçəkli budağımı
hədiyyə aparırsan?!
**21. 03. 2002. Qusar.**

* * *

Mən elə bilirdim ki,
təmiz bir sevgi ilə
qəlbindəki ağrıları
götürə biləcəyəm.
Mən elə bilirdim ki,
bir dəstə bənövşə ilə
ürəyinə yaz gətirə





biləcəyəm...
Üzünü təbəssüm
bəzəsə də,
duydum ki,
ürəyin çat-çatdı.
Sevindin
dərdiyim bənövşələri
alanda,
diqqətim bir damcı da olsa
imdadına çatdı...
Ancaq ürəyini
gizli bir dərd yeyirdi,
gülümsəməyə çalışsan da,
gözlərin ayrı şey deyirdi...
**23. 03. 2002**

## MƏHƏBBƏT DƏ ÇİÇƏKLƏR KİMİDİ

Gözlərin
qara bulud kimi
dolub.
Deyirsən ki,
dağlardan sənə gətirdiyim
çiçəklər solub.
Əlimdən nə gəlir, əzizim,
heç kəsin hünəri yoxdu
dünyada əbədi qalmağa.
Məhəbbət də
çiçəklər kimidi,
o da məhkumdu
solmağa...
**29. 03. 2002**

* * *

Ürəyimə damıb ki,
mənə qovuşmaq üçün
sən də için-için

yanırsan.
Ancaq uzadırsan
hicranlı günlərin ömrünü;
Dünyanı əbədimi
sanırsan?

**29. 03. 2002**

## ÜRƏYİNİ MƏNƏ VERMİSƏNSƏ

Dəbbələmə, əzizim, bir dənəm!
Sevgi elmini dərindən
mənimsə!
Ürəyini mənə vermisənsə,
təpədən dırnağacan
mənimsən!...

**29. 03. 2002**

* * *

Get özgəyə göstər iş,
Vermə mənə göstəriş!

* * *

Qoysam əgər ürəyimi özbaşına,
O bir oyun gətirməzmi öz başına?!

**24. 02. 2002**

* * *

Mən neyləyim,
səni sevən sevdalı ürəkdi.
Bilirəm ki, əbədi məhəbbət
Əbədi əzab deməkdi.
Ancaq sevirəm bu əzabı.
Qorxuram ki,
sənə olan məhəbbətim
bir gün sola.
Əbədi ömür varmı ki,
əbədi məhəbbət ola?!

**03. 04. 2002**





## NƏ ÜÇÜN

Deyirsən ki, hər şeyi
təbii axarına buraxaq;
könlümüz istəyəndə sevək,
könlümüz istəyəndə darıxaq.
Ancaq dediyin sözü
özün unudursan;
Nə üçün
Allahın göndərdiyi
yağışın önünə
çətir tutursan?
Nə üçün
sənə doğru gələndə
yolumun üstünə
duman kimi çökürsən?
Nə üçün
sevgi dalğalarının qarşısına
bənd çəkirsən?
Əzizim, sevgilim, bir dənəm!
Həsrətli bəbəklərimə bax
başını qaldırıb yuxarı.
Tutduğun çətirlə,
Çəkdiyin hasarla
özün pozmursanmı
təbii axarı?!

**03. 04. 2002**

## SEVGİ XƏYALDISA

Bilirəm ki,
ilahi bir eşq ilə
yanırsan.
Ancaq nə haqq ilə
bu boyda sevgini
əfsanə, xəyal
sanırsan?!

Bu sevgi xəyaldısa,
bəs niyə xəyali görüşdən
danışmağa qoymırsan?
Telefonu yerə
çırpmaq istəyirsən, -
Mənə xəyali vüsalı da
qıymırsan?!
Əlimdə əsən əllər
xəyaldımı?!
Bir-birinə can atan könüllər
xəyaldımı?!
Xəyaldımı üstümüzə
yağan yağışlar?!
Xəyaldımı bir-birinə
məhəbbətlə baxan baxışlar?!
Mənimlə danışanda
titrəyən səsin xəyaldımı?
Sevgiylə yoğrulan nəfəsin
xəyaldımı?
Xəyaldımı həsrətdən
çat-çat olan ürək?!
Xəyaldımı sənə dağlardan
əlim əsə-əsə gətirdiyim çiçək?!
Necə qıyırsan
addımbaşı səni sevən bir insanın
ürəyini qırmağa?!
Necə qıyırsan
bu boyda məhəbbətə
xəyal damğası vurmağa?!
Heyrətə gələr
içindəki sevginin böyüklüyündən, -
kim mənim
dəli bəbəklərimə baxsa!
Ürəyimin qanıyla yoğurduğum
sevgi nəğmələri də
xəyaldı yoxsa?! –





Bütün bunlar xəyaldısa,
Əlvida, canım-gözüm!
Ta sənə mənim nə sözüm?!

PS. Vüsal arzusuyla əsirsə ürək,
Xəyali məhəbbət nəyimə gərək?!

**08. 04. 2002**

## ÜÇ NÖQTƏ, BİR SUAL, BİR NİDA

Telefonda danışdığım zaman
bir sirrini açdın mənə,
canım-gözüm!
Duydum ki, sənin üçün
qəlbim əsə-əsə
dediyim sözlərdən,
yazdığım həsrət dolu
nəğmələrdən
daha əziz imiş
tanımadığın bir adamın
gecəyarı söylədiyi
"canım" sözü!
O ılıq kəlmə ilə
ürəyin bir də gülər, darıxma!
Su gələn arxa
bir də gələr, darıxma!
Nə vaxtsa üzünə açılar
taleyinə bağlı qapılar.
Nə vaxtsa gecə saat ikidə
sənə "canım" deyib
ovunduran tapılar!
Əlvida!
Üç nöqtə,
bir sual,
bir nida…?!

**10. 04. 2002**

* * *

Ürəyim
sevgilər qəbristanıdı,
Qranit üzümdə
yaş muncuq-muncuq.
Heç özünü çəkmə,
mənim ömrümdə
Sən nə birincisən,
nə də sonuncu!...

**10. 04. 2002**

* * *

Məhəbbətim ürəyində
işıq yandırmağı bacarmadı.
Qaranlıq bir dünyanı
işıqlandırmağı bacarmadı.
Sevgim yad nəfəs dəyən
qaranlıq dünyanı
özünə məskən seçə bilmədi.
Məhəbbət çaylarım
aramızdakı
laqeydlik qumsallığını
keçə bilmədi...

**10. 04. 2002**

## SON ANLAR

Məhəbbətim
can verir.
Dediyin ümid dolu sözlər
onun ölüm yatağını
bəzəyir.
Ancaq bu üzüntülü anlar
son günlərini
yaşayan xəstənin
iynə ilə,
dava-dərmanla





uzadılan
ömrünə bənzəyir...

**10. 04. 2002**

## QƏM BULUDU

Sənə olan sevgimi,
həsrətimi
sözlərə,
misralara
bələmişəm.
Nə vaxtsa o şe'rləri
kiməsə göstərib desən ki,
görün bu şairi necə əsir-yesir
eləmişəm?! –
Ağ kağızlar
ağ-ağ dalğalara dönüb,
səni qoynunda
qərq eləyəcək.
Hər şe'rim
bir qəm buluduna dönüb,
üstünə sevgi yağışları
çiləyəcək...
üzücü kədərdən
yaxanı qurtara
bilməyəcəksən.
Bəxtiyar günləri,
perikən sevdanı
bir daha
geri qaytara
bilməyəcəksən...

**10. 04. 2002**

* * *

Ürəyimi göyüm-göyüm göynədir
bu sevginin acı məğlubiyyəti.
Bilmirəm neyləyim indi mən?!

İcazə vermədin səni
sevdiyim adlarla çağıram, -
mənim dilimdə ən gözəl sözlər də
eybəcərmiş sən demə…

**10. 04. 2002**

* * *

Telefonda dediklərini dinləyəndə
qəlbimi yenə ağrılar bəzədi.
"Qələminizi bir də sınayın!" –
"Bəxtinizi bir də sınayın!"
sözünə bənzədi.
Necə ürəyin qıydı
sevgidə uğursuzluğumu
qınamağa?
İlk misram ürəyini oxşamayıbsa,
ehtiyac yoxdu qələmimi
bir də sınamağa…

**12. 04. 2002**

* * *

Özün bilə-bilə cırnadırsan məni.
Hər sözün tikanlı oxdu.
Deyirsən ki,
sənə yazdığım şe'rlərin
şairliyimə heç bir dəxli yoxdu…
Düz deyirsən,
sənin məhəbbətindi
ürəyimi qızdıran.
Qəlbimdəki böyük sevgidi
bu şe'rləri mənə yazdıran…

**13. 04. 2002**

* * *

Arı vızıldaya-vızıldaya uçur.
Qəlbində öz çiçəyinə
qovuşmaq arzusu
puçur-puçur…





Vızıltısı çiçəyə yalvarır:
- İzn ver,
köçək dodaqlarına!
Ancaq arı utanır,
qona bilmir çiçəyin
ləçək dodaqlarına…

**14. 04. 2002**

* * *

Ürəklərimiz bir-biri üçün
can atırsa,
nə günahın axı sənin,
nə günahım axı mənim?!
Aramızda sehrli bir
körpüdü məhəbbət;
bir tağı sənin çiynindədi,
bir tağı mənim.
Əzizim, qoy qəlbimin səsinə
qulaq asım!
Qoy səni məhəbbətlə
bağrıma basım!
Mən dura-dura
ətirli saçlarını
özgələrmi iyləyəsidi?!
Özülü məhəbbətlə
qoyulan körpüyə
sellər, sular neyləyəsidi?!

**14. 04. 2002**

***

Bu günü ömrünün ən gözəl günü
sana bilirsənsə,
Keçdiyin yolu məhəbbətlə
ana bilirsənsə,
Yenə də sevgi oduyla
yana bilirsənsə,
Təbrik edirəm səni!

* * *

Sevdalı qəlbimdən gül dərməsən,
ömrünə nur saçılmayacaq.
Ağlayan könlümü güldürməsən,
Göylərin üzü açılmayacaq, -
Rəhmin gəlsin insanlara!

**21. 04. 2002**

## İKİNCİ YAŞIN İLK GÜNÜ

Səndən əməlli-başlı
küsmüşdüm,
Bu sevdadan əlimi
üzmüşdüm.
Ancaq bircə zənginlə
ürəyim məni necə sevdiyini
duydu.
Bir körpə məhəbbət
ikinci yaşın ilk gününə
qədəm qoydu...

**22. 04. 2002**

* * *

Yalnız sevənlərə aiddi
məhəbbət dili,
sevgi lisanı.
Sən məni özünə
simsar bilmirsənsə,
mən səni necə
sevgilim sanım?!

**22. 04. 2002**

* * *

Kimin ki, qəlbi deyil saf,
Ola bilməz onda insaf...

## KÜNC

Özün də bilmədən
arabir xətrimə dəyirsən.





Bir az da məni
itirib-axtarmasaydın,
ürəyimdəki sevgi alovu
sönə bilərdi.
Gülə-gülə:
-Məni küncə qoyublar, - deyirsən.
Məni də sənin yanına qoysaydılar,
o künc cənnətin bir bucağına
dönə bilərdi...

**29. 04. 2002**

## NƏ YAXŞI Kİ...

Yamanca tarıma çəkilmişdi
qəlbimin mizraba həsrət simi.
Sənin zəngini gözləyirdim, -
susuzluqdan çat-çat olan tarla
yağış gözləyən kimi...
nə yaxşı ki, zəng elədin,
sevgilinin əzab çəkməsinə
qıymadın.
Nə yaxşı ki, zəng elədin,
sevgi güllərini solmağa
qoymadın...

**29. 04. 2002**

## ZAVAL YOXDU

Sənin də xoşbəxt günlərin
gələcək,
göz yaşların
quruyacaq.
Sevgim səni
hər əzabdan, bəladan
hifz edəcək,
qoruyacaq...
Mənə zaval yoxdu
nə qədər ki, xoşbəxtliyim,

səadətim var!
Sənə zaval yoxdu
nə qədər ki, ürəyində mənim
məhəbbətim var!...
**30. 04. 2002**

* * *

Yamanca şübhələnmişəm
qaş-qabağının tökülməyindən.
Xəcalətmi çəkirsən
adımla adının
qoşa çəkilməyindən?
Sevənin ürəyi əzab,
gözləri ləzzət çəkər!
Heç mənim kimi
insanı sevən də
xəcalət çəkər?!
**04. 05. 2002**

* * *

Təəccüblə baxırsan üzümə,
ağ eləmə, gülüm!
Deyirsən ki,
mənim nəyimi sevmisiniz? –
Zövqümə lağ eləmə, gülüm!
**04. 05. 2002**

## QISQANCLIQ

Sevgi çəmənzarına düşən izləri
göz yaşlarımla
yuyuram, gülüm!
Məni məndən xəbərsiz
izləsən də,
özünü tox tutub, qısqanclığını
gizləsən də,
hər şeyi duyuram, gülüm!





Unutma ki,
ürəyim sənə verilən
əmanətdi, əzizim!
Qısqanclıq –
sevgiyə ən yaxşı
zəmanətdi, əzizim!
**04. 05. 2002**

## SƏN BİR SÖZSÜZ MAHNISAN

Sən bir sözsüz mahnısan,
Köksümdə gecə-gündüz
çağlayırsan.
Aya dönüb gülümsəyirsən,
Bulud olub ağlayırsan.
Başımdan ağlımı,
Gözümdən yüxümü qaçırmısan.
Möhtəşəm dinclik sarayımı
bircə baxışınla uçurmusan.
Sən bir sözsüz mahnısan,
Dinləyəndə uzaqlara baxıram.
Sənə söz yazmaq üçün
dəridən-qabıqdan çıxıram.
Ancaq o bəstəyə gələn
söz tapa bilmirəm hələ.
Sönmüş sevgi ocağının altında
köz tapa bilmirəm hələ...
İstəyirəm ki, qalan ömrümü
sənin məhəbbətinə həsr edəm.
Sən bir sözsüz mahnısan,
dinləməkdən doymuram,
oxumağa həsrətəm...
**06. 05. 2002**

## HAQQI VARMI

Deyirsən ki,
mən dəhşətli adamam! –
Bəsdir bu ağrılara dözdüm!
Özgənin əlindən tutub
meydana gətirən gözəldən
daha əlimi üzdüm…
məcburam xirtdəyimə
yığılan qəhəri udmağa.
Mənim ürəyimdən
məhəbbət uman insanın
haqqı varmı özgə əldən
o cür tutmağa?!

**07. 05. 2002**

## DƏHŞƏTLİ ADAM

Sən addımbaşı
mənim kövrək qəlbimə
dəyirsən.
Qısqanclığımı xatırladıb,
«Siz nə dəhşətli adamsınız!» -
deyirsən.
Əlləri çiçək dərəndə titrəyən,
Ayaqları səni görəndə büdrəyən,
Sevgidən ürəyi tir-tir əsən,
Səndən yox, özündən küsən,
Həsrət alovunda
için-için qovrulan,
Ürəyi ay işığıyla,
sevgiylə yoğrulan
dəhşətli adam ola bilərmi?!
Sevgilisini itirməkdən qorxanın
ürəyi gülərmi?!
Mən sənin həyatını
sevdalı nəğmələrimlə





bəzəmişəm,
Mən öz balasını
çalağandan qoruyan ana quşa
bənzəmişəm. –
Bunu dəhşətmi sanırsan?!
Bəlkə ayrı bir sevgiylə yanırsan?!
Duya bilməsən kimsənin ürəyinə
bənzəməyən qəlbimi,
sən mənə gizli-gizli
lağ edib güləcəksən.
Ancaq bilirəm ki,
qəlbimə vurduğun yaranın
böyüklüyündən
nə vaxtsa dəhşətə gələcəksən!
Axı mən dəhşətli adamam!

**08. 05. 2002**

* * *

Sevmirsən heç sevmə,
Haqqım yoxdu
kimsəyə əyiləm!
Haqqım yoxdu
sevgidən sədəqə umam,
dilənəm!
Mən dəhşətli adam deyiləm,
ancaq gördüyümdən,
duyduğumdan
dəhşətə gələnəm…

**08. 05. 2002**

## DƏYƏRMİ

Eşqini başına qaxınc eləyib,
sevən bir ürəyi
pərt eləməyə dəyərmi?!
Bilmirəm
səni özünə əsir eləyən məhəbbəti

pərdələməyə dəyərmi?!
Başını yuxarı tut, Yusifoğlu!
Sevgi əzablarını
dərd eləməyə dəyərmi?!
**10. 05. 2002**

***

Peşimanmı olmusan
mənə könül verdiyinə?
Qəlbimdəki sevgi güllərini
sevinə-sevinə dərdiyinə?
Qalmısan odla su arasında,
mənə xəyali məktublar
yazırsan.
Deyirsən ki,
mənim sevgi əzablarımı
azaltmaq üçün
özünə qəsd eləməyə də
hazırsan!
Əzizim,
el-obanı üstümüzə
güldürməkmi istəyirsən?
Həyatım!
Həyatına qəsd eləməklə
məni öldürməkmi
istəyirsən?
**12. 05. 2002**

***

Əbəs yerə səndən
bədgüman olmuşam.
Hər kinayəli sözüm
ürəyində bir yük imiş, əzizim!
Sən demə mənim yolumda
ölümə də hazır imişsən;
sevgin nə qədər





böyük imiş, əzizim!
Səninlə bağlı imiş
xoşbəxtliyim, səadətim.
Qarşısında baş əyirəm
bu böyük məhəbbətin...
**12. 05. 2002**

***

Yaşın az olsa da,
salıbdır saçlarına
sevgi dən.
Bir zaman
böyük sevgi arzulayırdın,
indi qorxursan
böyük sevgidən.
**12. 05. 2002**

***

Vüsal bizdən gendədi,
Hicran yenə öndədi.
Divin canı şüşədə,
Mənim canım səndədi...
**13. 05. 2002**

## GÜNAHIM NƏDİ?

İqlim dəyişib,
bu soyuq havalar
nə qədər davam edəcək
görəsən?
İki sevgilim var;
biri dəniz, biri sən.
Ancaq nə ona qovuşa bilirəm,
nə sənə.
Günahım nədi, əzizim,
desənə!...
**13. 05. 2002**

## SƏNİN SÖZÜN

Mən məhəbbətinizin qarşısında
yaşıl işıq yandıracam.
Sizə əzab verdiyim üçün
özümü cəzalandıracam…
**13. 05. 2002**

* * *

Yasaq olunmuş nəğmə kimi
birdəfəlik
dodağımdan ayrıldın.
Sən bir payız yarpağı kimi
mənim sevgi
budağımdan ayrıldın…
**19. 05. 2002**

* * *

Mən sevgimdə də,
nifrətimdə də
nadirəm,
qarşısında diz çökməyi
bacarıram
ülvi bir məhəbbətin.
Mən öz sevgimi
sənin səadətinə
qurban verməyə də
qadirəm,
ancaq
mənim məhəbbətim olmasa,
mümkündümü
sənin səadətin?!
**02. 06. 2002**





* * *

Deyirsən:
- Mənə şe'r yaz!
Güllər açılarmı
gəlməsə yaz?!
Buludlar bir-birinə
Toxunmasa,
şimşək çaxarmı?!
Göylərin gözü dolmasa,
yağış yağarmı?
**23. 07. 2002. Qayakənd.**

* * *

"Unut məni" deməklə
xətrimə dəyirsən; -
səninlə keçən dəqiqələr
unudularmı?
"Dünyanın bütün mutlulukları
senin olsun!" - deyirsən,
səndən ayrı
mutluluk varmı?
**21. 08. 2002**

* * *

Qaysaq tutan yaramı
qanatdın, - deyirsən.
Mənə insan olduğumu
anlatdın, - deyirsən.
Alın yazısından
çıxmaq olmaz,
Bu sevgi gecikən
son bahar imiş…
Üzülmə, yavrum!
Sənin taleyində
Mən adda bir
səadət var imiş…
**22. 08. 2002**

* * *

Ağlamalı günlərimiz
qabaqdadı,
baxsaq da bir-birimizə
gülə-gülə.
Nə vaxtsa gözlərimizdən
həsrət yağışları süzüləcək
gilə-gilə.
Biz həm dənizin,
həm eşqin sahilindəyik,
Dalğaların qoynuna
baş vura bilmirik hələ.

**22. 08. 2002**

* * *

Ürəklərimiz bir-birinə
can atsa da,
bir-birimizdən
uzaq düşmüşük.
Biz eşqin dənizinə
baş vurandan
Dənizin sahilindən
uzaq düşmüşuk.

**23. 08. 2002**

* * *

Başına nələr gətirdi
dilxoşluq!
Bir dəli sevdanın
göz yaşlarıyla
Doldumu
içindəki boşluq?!

* * *

Öz sevgi dili var
hər otun, hər böcəyin.
Arı onu görəndə bayılırsa,
nə günahı çiçəyin?





* * *

Həsrətli gözlərindən
yaş boylanır gilə-gilə.
"Allah cəzanı versin", -
deyirsən, -
mənim cəzam
sən deyilsənmi elə?

* * *

"Hara çağırsan gələrəm", -
deyirdin.
Niyə tələsirsən?
Üzünü görmədiyim
bir aydı,
bir ildimi?
"Səni görməsəm, ölərəm", -
deyirdin,
Məni görüb
dirildinmi?

* * *

Hirsindən kükrəyib daşmısan, -
deyirsən,
taleyinin bağçasından
iznsiz çiçəkmi
dərdim mən?
"Dəmirmisən, daşmısan?" –
deyirsən, -
ölməyə dəyərmi daşın,
dəmirin dərdindən?!

**25. 08. 2002**

***

Bir vaxt
Həsrətini çəkdiyin yanaqlara
Çatmayırdı dodağın.
Mənə "əzizim" deyəndə

Beş-on yerdən
çatlayırdı dodağın.
İndi dil-dil ötən gözəl
bir üzüklə susdurulub.
Dilindəki "əzizim" kəlməsi
ürəyində bir mina tək
basdırılıb…

***

Təzəcə yağan qarı
eşqimizin üstünə səpilən
ilk qar sandım.
Birdən mənə zəng elədin,
Öz fikrimdən
Özüm də utandım…

***

Mən elə bilirdim ki,
içimdə közərən
Eşqimizin sonuncu qorudu.
Mən elə bilirdim ki,
bu ilin ilk qarı
Dünyanın ən soyuq qarıdı…
Səni xatırladım,
Soyuq qış məni üşüdən kimi.
Birdən hər şey dəyişdi,
telefonda sevdalı səsini
eşidən kimi.
Məhəbbətlə seyr elədim,
Küçələrə səpilən qarı.
Ürəyimdə ocağa döndü
Sevgimizin öləziyən qoru…

***

Tikanınla vurduğun yaranı
ləçəyinlə
sarımasaydın, gülüm,





başımın üstünü
almışdı ölüm.

***

Mənə olan məhəbbətin
İnanmıram ki, ölə.
Xəstəlik yatağından
qalxan kimi
ilk dəfə mənə
zəng eləmisənsə,
sənə lazımam hələ.
Səsin alıcı quş kimi
üstümə şığıdı.
Sən solğun bir çiçəksən,
Məhəbbətimiz –
gün işığıdı…

**02. 12. 2002**

***

Səni mənə
dəniz verdi,
Məni səndən
dəniz alacaq.
Ayrılıq
göynədəcək içini, -
Göz yaşların
dəniz olacaq…
Həsrətin əriyib
gilə-gilə
su olacaq.
Bizim sevgi
dünyamızın üzünü
su alacaq…

**03. 12. 2002**

## XOŞUNAMI GƏLİR...

Əlindən nə gəlir daha? –
Gizli-gizli
sənə yazdığım şe'rləri
oxşayırsan.
Qəlbini mənə verib getmisən,
Bilmirəm ürəksiz
necə yaşayırsan?
Ağırdı bu hicranın yükünü
zərif bir çiyində daşımaq.
Xoşunamı gəlir
ürəksiz yaşamaq?! –
Mən heç,
niyə itirib-axtarmırsan onu?
Beləmi olurmuş
gecikmiş bir sevdanın sonu?
Bu nə iş idi başımıza gəldi? –
Köksümüzdə göy gurlayır,
Şimşək çaxır.
İçimizə gizli-gizli
yağışlar yağır...
Mənə verdiyin ürəyi
ovundura bilmirəm axı?!

**27. 01. 2003**

***

Elə bil ömür boyu dustağıq
sevmədiyimiz insanların
gözünün altında.
İçin-için inləyirik,
Həsrətin, Ayrılığın
dizinin altında.
İçimizdə sevgi kükrəyir.
Varlığımızı titrədən
sevgi dalğaları yatmır.





Ürəyimiz istəyən
həyata qovuşmağa
Cəsarətimiz çatmır...

**28. 01. 2003**

## BİLMİRƏM NECƏ DEYİM?

Mən həsrət sazağında
üşüyürəm,
Sən isə elə bilirsən ki,
ürək yaxan odam.
Yazırsan ki,
həyatın boyu görməmisən
məndən cana yaxın adam.
Allahdan sonra
bircə mənə inanırsan! –
İnsan gərək olmasın
asi imanına!
Yazırsan ki,
mən sənin ulduzları
saflıq, təmizlik,
məhəbbət, sevgi olan
asimanınam.
Kirpiklərində həsrətin
gilələnib,
Bəbəklərin göz yaşlarıyla
silələnib.
Ümidlərin
dalğaların qoynunda vurnuxan
yelkənsiz bir gəmi...
Məni itirməkdən yamanca qorxursan,
Ölümdən qorxduğun kimi...
Elə bilirsən ki,
səni naümid eləmərəm.
Elə bilirsən ki,
dünya - elə mənəm!

Ancaq bilmirəm
Səmum yelinə dönməyəcəkmi
aramızdakı həsrət küləyi?!
Bu ulu sevgiyə layiq olacaqmı
ötən sevdalardan çat-çat olan
bir şair ürəyi?!
Bilmirəm necə deyim ki,
özünü də, məni də
rüsvay eləmə?! –
Çünki yaxşı bilirəm ki,
nə dəli sevdaya çarə var,
nə də ölümə!...

**31. 01. 2003**

***

Sən hərdən xəyallara dalıb,
Xatırlayırsan
mənli keçən günləri.
Gizlicə oxuyub şe'rlərimi,
titrək səsimi dinləyirsən...
sən mənim
işğal olunmuş torpağım kimi
yad tapdağı altında
inləyirsən...
Ayrılıq yağışları da
poza bilmir
köksünün üstündə olan
gizli izlərimi.
Arabir xatırlayıb
həsrətli gözlərimi,
Durursan ayrılığın qəsdinə.
Yumub gözlərini,
Sevgimi vətən bayrağı kimi
çəkirsən üstünə...

**06. 02. 2002**





## GÖRÜŞ

Qəlbin riqqətə gəldi
Səni sevən şairin sözlərindən.
Mənə sevgin –
Göz yaşına dönüb,
boylandı gözlərindən...
Sevdalı baxışların
ürəyimdəki zülməti
əritdi.
Əllərin əlimə sığınıb,
Qan ağlayan ürəyimi
kiritdi...

**14. 02. 2003**

## O SƏSİN İÇİNDƏ

Məhəbbətlə gedib-gəlir
nəfəsin,
Sevgi ilə yoğrulub
sənin səsin.
O səs –
İçimdə qurduğum
xəyali sevgi sarayımı
bəzəyir.
O səs –
Soluxan ümid çiçəklərimin
üstünə səpilən
yağışa bənzəyir...
O səs –
Sərhədləri aşıb keçir,
O səsin qanadı var.
O səsin içində
sevdalı gözlərinin işığı,
titrək saçlarının ətri,
sehrli dodaqlarının dadı var...

Bəndə ola bilərmi
Tanrının verdiyi səsi
kəsmək gücündə?
Sevdalı bir ömür yaşayıram
o səsin içində...

**06. 05. 2003**

## ŞE'RƏ BÜKÜLƏN ÜRƏK

Qəlbimdə neçə-neçə
qərib sevgilər
gecələyib.
Tanrı mənə
yeni ərmağanmı göndərib
bir qız ürəyinin
nisgilini, qübarını?! –
Qəlbindəki sevda ağacı
bar verməyə başlayıb, -
dərib mənə göndərmisən
ilk sevgi nübarını...
Ürəyinin məhəbbətlə
üzümə açılan qapılarını
sevgimlə gülüstana
döndərəcəyəm.
Ürəyimi
sənə yazdığım şe'rə bükübü,
hüzuruna
göndərəcəyəm...

**12. 07. 2003. Qayakənd.**

## NƏFƏSİN DƏYƏN KİMİ

Saralmış yarpaqlar
budaqların ucunda
tilova düşən balıq kimi
çırpınır.





Ağacların gözləri
dolub.
Səni düşünə-düşünə
meşədə gəzirəm,
Payız məni
qoynuna alıb.
Sarı-sarı yarpaqlar
çiynimə tökülür,
asta-asta əsdikcə külək.
Ürəyim də köksümdə
yarpaq kimi titrəyir, -
Nəfəsin dəyən kimi,
qopub
ovcuna düşəcək...

**31. 10 2003. Qayakənd.**

## SƏNİN HƏSRƏTİN

Mən səni sarı bir yarpaq kimi
öpdüm, oxşadım.
Gecə-gündüz
həsrətinlə yaşadım.
Elə ki,
taleyin yelləri əsdi,
hansı ğəxtəvərinsə
ovcuna düşməyə
tələsdin...
İndi sənin həsrətin
sevdalı bəbəklərimə
çöküb.
Yarpaq kimi saralıb
gözümün kökü...

**31. 10 2003. Qayakənd.**

***

Elə bilmə ki,
meşədəyəm,
Dilim dönmür ki,

kolluğa
meşə deyəm!
Bu dağların salamını
yetirəcəm sənə.
Nəfəsimdə meh,
Gözlərimdə şeh
gətirəcəm sənə…
**31. 10 2003. Qayakənd.**

## SƏNİNLƏ GÖRÜŞ

Təzə sevdaya düşən
cavanlar kimi
qorxa-qorxa,
səksənə-səksənə
görüşünə gəldim. –
Dağ çəkmək istədim
həsrətin köksünə.
Əlim-əlində bəxtəvər idi,
uçunurdum
uçum-uçum.
Qanadlarım da yox idi ki,
uçum!…
Min ilin həsrətlisi tək
gözlərinə dikdim
gözümü.
Səni bağrıma basıb
saçlarını qoxlamaqdan,
Üzümü üzünə söykəyib
hönkür-hönkür ağlamaqdan
zorla saxlaya bildim
özümü…
**07. 11. 2003**

***

Ürəyimdə sənin həsrətin
payız rənginə bürünmüş
dağa,





dərəyə,
yamaca baxıram…
İki damla qanlı göz yaşımı
bir cüt qərənfil kimi
Eşqimizin məzarı üstünə
qoymaqdan
yamanca qorxuram…
**20. 11. 2003**

***

Qəbirdən söz açmağım
Səbrdən
çıxardı səni.
İncik nəvazişin
hönkürən ürəyimi
kiritdi…
"Bu sevgi ölməyəcək" sözü
qəlbimdəki sazağı,
həsrət buzlarını
əritdi…
**21. 11. 2003**

## HƏLƏ

Dedin ki,
bu sevgi
hələ ölməyib.
Duydum ki,
qəlbinə özgə sevgi
gələ bilməyib,
özgə dodaqları
dodaqlarımın izini
silə bilməyib,
ürəyin ayrı nəvazişlə
gülə bilməyib…
Ancaq…
Cızdağımı çıxartdı

bu "hələ" sözü.
Eh, nələr gözləyir
hələ bizi?!
Hələ ürəyində
Həsrətim çağlayır
gilə-gilə…
Hələ…
…Gülə-gülə, sevgilim,
gülə-gülə!

**22. 11. 2003**

***

Ağlımın hökmünə
boyun əyirəm,
ancaq için-için
göynəyirəm.
Gözlərimdə qalsa da,
gizli arzum,
diləyim,
Gərək sənə
səadət diləyim!…
Ancaq bə'zən
baş açmıram özümdən.
Həsrətin –
işığa can atan çiçək kimi
boylanır gözümdən.
İçini yaxan gecikmiş sevgidən
qurtarmağa tapa bilmir
bir çarə ürəyim.
Səndən uzaqlaşmağa çalışdıqca,
sənə doğru can atır
biçarə ürəyim…

**22. 11. 2003**





## TALE BƏXŞİŞİ

Bu gecə
mən səni gördüm
yuxuda…
Ömrün
ayrılmaz bir parçasıdı
yuxu da.
Yenə gözlərin
bir cüt köz kimi yanırdı,
Yenə mənə doğma idin
ürək qədər.
Yenə bəbəklərindən
sevgi boylanırdı,
Yenə üzündə yuva qurmuşdu
ürkək kədər.
Qəlbimizin dəli istəyi
üstün gəldi
qorxumuza,
təlaşımıza.
Bir-birimizə sığındıq
uçuna-uçuna…
Həyatda həsrətini çəkdiyimiz
yuxuda gəldi başımıza. –
Ancaq yuxu demək
olardımı buna?

**07. 12. 2003**

***

Taleyə boyun əydik
ikimiz də.
Sevgimizi gizlədik,
dustaq elədik
içimizdə.
Qəlbimizi
intizar göynətsə də,

arzularımız
puç oldu…
Sevgi ilə yoğrulmuşdu
qəmə bələnmiş
pıçıltın…
Gözlərində yalnız
gözlərimin sezə biləcəyi
gizli bir hüzn.
Yağış gözləyən
solğun çiçək kimi
baxışlarımla cilvələndi
üzün…
Əlacım olsa,
ömrüm boyu göz qırpmadan
gözlərinə baxaram.
Ancaq öləziyən payız günəşi
neyləyə biləcək axı
yarpaqlarına xal düşən
sonuncu bahara?!

08. 12. 2003

## YARIMÇIQ SEVGİ

Bircə kəlmə ilə qopdu
yaranın gözü.
Dodaqlarında aha bələndi
"Dad yarımçıq əlindən"
sözü…
Qəlbimi sənin həsrətin
bəzəyir,
Ürəyimdəki sevgiyə görə
sevilmişəm
el arasında mən.
Səninsə ürəyin
iki yerə paralanmış
bir aynaya bənzəyir:





bir parçasında o,
bir parçasında mən…

08. 12. 2003

***

Meşədə gəzəndə
Saralmış yarpaq olub,
çiyninə qonacam.
Qaranlıq səni qorxudanda
gözəgörünməz çıraq olub,
qəlbində yanacam.
Havan çatışmayanda
nəfəsimi
saçlarına sığal çəkən
mehə döndərəcəm.
Qəlbin qəmə bələnəndə
ürəyimi
kirpiklərinin ucunda
şehə döndərəcəm.
Heç zaman əlindən,
dilindən,
dodaqlarından
doymayacam…
Mən sənin ömrünü də
öz ömrüm kimi
adiləşməyə
qoymayacam…

10. 12. 2003

***

"Nə vaxtsa
solmağa məhkumdu
açılan çiçəklər.
Kim bilir,
Sizin şe'rlərinizi oxuyanda
bizim haqqımızda
nələr düşünəcəklər?!" –

Yamanca qəlbimə dəydi
sözlərin,
hər kəlmən ox imiş…
Sən demə
bizim aramızda
heç nə yox imiş?!…

**10. 12. 2003**

***

Mən şe’r oxuyanda
onun üzünü
bulud aldı.
Gizli həsrət
ürəyinə güc etdi.
Göz yaşları
qəlbimdə soluxan
sevgi güllərini
cücərtdi…
"Sizin üçün darıxmışdım" deyən
dili sevdim.
Gözləri şehlə siləlinmiş
gülü sevdim…

## YAXŞI Kİ, SƏN VARSAN

Mən dərd əlindən
sərgərdan qalanda,
Sən qəlbimdə
yaşamaq hissi oyatdın.
Mən bir qarışqa kimi
dəryada qərq olanda,
Sən bir yarpaq kimi
özünü suya atıb,
imdadıma çatdın…
Sevgimiz
bir ağ yelkənə döndü
qəm dənizində





boğulmaq təhlükəsi
öləzidi, söndü…
İçimdə arzular puçurladı,
Elə sandım ki,
ömrümə yaz gətirən
baharsan.
Üzümü üzünə söykəyib
Pıçıldamaq istədim:
Yaxşı ki, sən varsan!…

**19. 03. 2004**

## ANİ SƏADƏT

Həsrət sazağında
üşüyən əllərin
isti ovcumu
özünə yuva bildi.
Sevgi sevinci
dünyanın qəmini
bir anlıq da olsa
qova bildi.
Bu ani səadət
bir ömrə yetəcəkmi,
bilmirəm?!
Viran olmuş qəlbimdə
təzə sevgi çiçəyi
bitəcəkmi,
bilmirəm?!

## GÖRÜŞ

Əllərin əlimdə
xumarlanırdı,
üstümüzə sevgi dumanı
çökmüşdü.
Həsrət göynədirdi
gözümüzü.
Utancaqlıq

dodaqlarımla
dodaqlarının arasına
tül pərdə çəkmişdi, -
bir-birimizə sarılmaqdan
zorla saxlayırdıq
özümüzü…

**04. 04. 2004**

***

Nə qədər çalışsaq da,
sə'y etsək də,
Hisslər qavranılmır,
mənimsənmir.
Mən sənin olduğumu
bilirəm,
Sən necə,
mənimsənmi?!

**18. 05. 2004**

## SƏNİNLƏ GÖRÜŞƏCƏYİM GÜN

Səninlə görüşə
heç bilirsən necə
can atıram?
Gündüz can atıram,
gecə can atıram…
Bilmirəm sənin sevgin
ömrümü yenəmi
bəzəyəcək?
Səninlə görüşəcəyim gün –
gözlərində cərrahiyyə əməliyyatı
aparılan insanın
sarğısının açıldığı
ana bənzəyəcək…
Ona görə bu görüşə
can atsam da,





bu görüşdən
yamanca qorxuram, -
Billəndə ki,
son ümid şamım da
sönəcək.
Gözlərində
sevgi görməsə gözlərim,
Həyatım
əbədi zülmətə dönəcək…

**10. 06. 2004**

## GİZLİ DÜNYA

Həsrət
göynədir gözümüzü, -
qara bulud kimi
dolmuşuq.
Gizli bir dünyamız var,-
O dünyada
bəxtəvərlər bəxtəvəri
olmuşuq.
Gizli dünyamızdan
xəbər tutsalar,
aləm dağılacaq.
Qəlbimiz ayrılıq odunda
dağ-dağ olacaq.
Həsrətim cilov gəmirir,
Sevgi dünyamızda
at çapa bilmirəm.
Gizli dünyamızda
gizlənpaç oynayırıq,
Hərdən elə gizlənirsən ki,
səni tapa bilmirəm…

**15. 06. 2004**

## SƏNİN MESAJIN

Mənə mesaj göndərmisən,
hər kəlməsi
elə bil baldır;
Sözlərinin işığında
dəyərini itirib
bu gün inci,
bu gün mirvari,
bu gün dürr…
Yazırsan ki,
dünən rö'ya,
bu gün xəyaldır, -
Rö'yanı xoşbəxt,
xəyalı ümidli edən isə
bu gündür.
Mesajınla yenə də məni
bəxtəvərlər bəxtəvərinə
döndərdin
bu gun sən,
əzizim!
Sən rö'ya və xəyal
qolları ilə
məni bağrına basan
bu günsən,
əzizim!

**17. 06. 2004**

## SEVGİ

Həsrətindən ürəyim
para-paradı,
cat-çatdı.
Qəlbimin ən böyük arzusu
ləçək dodaqlarının
arısı olmaq idi, -
Şükür,





bu arzuma da
çatdım.
Səni nə qədər sevdiyimi
soruşursan,
Həsrət buludu
çöküb gözünə.
Səni nə qədər sevdiyimi
titrəyən dodaqlarım
demədimi
dodağına, üzünə?!

**22. 06. 2004**

## AYRILIQ

Hər dənəsini
külək bir tərəfə sovuran
qumuq.
Ayrılmaq istəməsək də,
Ayrılığa məhkumuq…
Hamı əvvəl-axır bu
dünyadan getməlidi. –
Bütün görüşlərin sonu
ayrılıqla bitməlidi.

**06. 07. 2004**

***

Nala-mıxa vurmağın
xeyiri yoxdu,
mənimlə danışanda
sözlərin aydın,
səlist olmalıdı.
Bir də ki,
Məhəbbət xoru sevmir,
Məhəbbətdə hamı
solist olmalıdı…

**13. 07. 2004**

***

Məhəbbətimi
izhar etmək üçün
sevdiyim, əsir olduğum
bütə,
İnanmıram ki,
Bir ömür yetə!...

**2004**

***

Niyə sən mənim
yolumun üstündə
durdun?
Niyə köksümdə
sehrli bir çiçək kimi
bitdin?
Təzə sevdalara doğru
uçan könlümün
qanadlarını qırdın, -
ona sahib də durmayıb
getdin.
Elə bilirdim ki,
bəxtəvər olmuşam,
məni mənim kimi
duyanım var!
İndi nə göyə
qayıda bilirəm,
nə də yerdə bir
həyanım var.

**08. 08. 2004. Qusar.**

***

İnanıram
sevdalı ürəyimin
nə vaxtsa güləcəyinə.
İnanıram sənin mənə olan
bütün sevgiləri





əvəz edə biləcəyinə...
Ancaq bilmirəm
səni əvəz edə biləcək
kimsə olacaqmı?
Qəlbimdə əkdiyin
sevgi gülləri
həsrət xəzanında
yenə də solacaqmı?

**07. 08. 2004. Qusar.**

***

Kimsəsiz qalmış yuva!
Gözlərin aydın!
Axır ki,
köçəri quşlar
qayıdıb gəldi.

***

İçini ot basan cığır!
Sevgilinin ayaqları altında
əzilən otlar,
çiçəklər nə bəxtiyardı!

***

Zəng elədin,
Səsini tanımadım.
Ümidimə güvə düşüb. –
Mənmi səsini
yadırğamışam,
səsinmi dəyişib?!

**04. 09. 2004**

***

Taleyin ömrümə
Məhəbbət ələyib.
Mənə nə eləyibsə,
Məhəbbət eləyib...

**03. 10. 2004**

***

Ayrıgülüm,
Ayrıgülüm!
Necə səndən
ayrı gülüm? –
Axı yoxdu
ayrı gülüm!

03. 10. 2004

## HƏSRƏT KÖLGƏSİ

Ayrılıq günlərində
gözlərimiz nə qədər
gizli-gizli
qan-yaş töksün?
Əllərimə sığınmaq istəyir
əllərin,
köksümə sığınmaq istəyir
köksün…
Ancaq aramıza
ayrılığın qəm hasarı düşüb, -
Həsrət kölgəsi görürəm
mən üzündə.
Sevgi günahdırsa, əzizim,
Bəs niyə özümüzü
bəxtəvərlər bəxtəvəri sanırıq
qərq ola-ola
günah dənizində?!

04. 12. 2004

## DEYƏSƏN

Mənə olan sevgin
üzünü, gözünü
işıqlandırıb.
Təbəssümün
sənə doğru can atan
köksümün önündə





yamyaşıl işıq yandırıb…
Daha gücüm çatmır
könlümün şahlıq taxtından
devirəm səni.
Deyəsən evim yıxılıb,
Deyəsən mən də
sevirəm səni…

04. 12. 2004

## QƏRİBƏ DUYĞULAR

Gözümə dikilən
gözlərin
içimdə qəribə duyğular
oyatdı.
Əllərim
əllərinə sığındı, -
Elə bil qərib quş
qürbətdən dönüb
öz isti yuvasına
qayıtdı.
İçimdə bir fırtına
qopdu elə bil,
qəlbimin iqlimi
dəyişdi.
Çoxdan idi ki,
əllərimə
belə ipisti əl
dəyməmişdi…
Yaz günəşinə bənzəyən
mehriban təbəssümünlə
sındı həsrətimin qulunсu.
Birləşən əllərimizə
toxunub,
çilik-çilik oldu
ayrılığın buz qılıncı…
Gözlərinin sevdalı baxışı

Qəlbimin zülmətini
əritdi.
Həsrət sazağında
üşüyən könlümü
təbəssümün
ovundurdu,
kiritdi…

16. 12. 2004

## HƏZİN RƏQS

Həzin bir mahnı
səsləndi,
üstümə həsrət dumanı
çökdü.
Qadir bir qız əli
əlimdən yapışıb,
məni ortaya
çəkdi…
Ayaqları
ayaqlarıma dolaşıb
büdrəyirdi,
incə beli
qollarımın arasında
ləzzət çəkə-çəkə
titrəyirdi…
Sevgiylə çırpınan ürəyim
sənin ad gününün
hədiyyəsi idi.
Bir-birinə doğru
can atan dodaqlara
axı hicran sazağı
nə deyəsi idi?!
İçimdəki həsrətə,
intizara qənim idin.
O axşam
Sən təpədən dırnağa





Mənim idin…
Axır ki,
bir-birimizə sığınıb,
hicranın komasını
uçurduq.
Həzin bir mahnı səslənir,
Biz isə bir-birimizə sığınıb,
sevgi qanadında
uçurduq…

***

Mən mələk deyiləm ki,
seçə biləm:
pis kimdi,
yaxşı kimdi…
Gözlərin
o qədər gözlərin içində
gözümə baxanda
hiss elədim ki,
pis kimdi,
yaxşı kimdi…

30. 12. 2004

***

Sənin səsin
ömrümün payızını
təzə-təzə çiçəklərlə
bəzəyir.
Sənin nəfəsin
içimdə sevgi cücərdən
bahar yelinə
bənzəyir.
Heç bilmirəm
neyləyəcəm? –
Cavab tapa bilmirəm hələ
ömrün ixtiyar çağında
məni çaş-baş qoyan

suala.
Dəli sevda
içimdəki buz dağlarını
əritsə,
qorxuram
dünyanın üzünü
su ala.
Yenə də qəm yuva qura
həsrət kölgəsi
əskik olmayan üzündə.
İkimiz də qərq olaq
tənə, qınaq
dənizində…

**14. 01. 2005**

***

Deyirsən ki,
bir-birimizə
çox yaraşırıq.
Sevgi göylərində
bir cüt ulduz kimi
sayrışırıq.
Bəs həsrət əllərimiz necə, -
bir-birinə yetirmi?
Ürəklərimiz
eyni ahənglə
ötürmü?
Bu sevginin ilk qarı
O sevginin zığını,
palçığını
örtürmü?
Əzizim,
bir-birinə yaraşmaqla
iş bitirmi?

**16. 01. 2005**





***

Bəzən üstündəki sirr
açılmasın deyə
can atır
kağız oda.
Bəzən elə anlar
yaşayırıq ki, onları
etibar eləyə bilmirik
qələmə,
kağıza da…

**28. 01. 2005**

## FƏLAKƏT

*Dünyada üç fəlakət var: yanğın, qadın, dəniz…*

**Ezop.**

Ağlım kəsəndən
çırpınıram
fəlakət içində.
Qəribə bir dünya yaradıb,
fəlakət içimdə…
Nə qadınsız
yaşaya bilirəm,
nə dənizsiz
həyatım
həyatdı.
Yalnız içimdəki
yanğıların hesabına
murada yetdim,
kamala çatdım…

**31. 01. 2004**

***

Gözlərim –
Gözlərindəki sevgini
duymurdu,
Vüqarım –
Məni sənə

yaxınlaşmağa
qoymurdu.
Bu gün təmiz sevginin
qarşısında əyildim.
Bu gün səni
bağrıma basmaq istədimsə,
Məni qınama, –
Bu vaxtacan
sənə layiq deyildim…

**13. 03. 2005**

## MƏNƏ AZADLIQ VER

*Həyat yoldaşıma*

Mənə azadlıq ver, əzizim,
Onsuz da mən heç nəyi
vecimə alan deyiləm, -
daxilən həmişə azadam.
Nə qədər günahlarım olsa belə,
Sən yaxşı bilirsən ki,
Mənim kimi
safdı, təmizdi
çox az adam…

**13. 03. 2005**

***

Ətirli bir gülün budağını
mənə sarı əyirsən.
O gülün ətrini
ciyərində hiss etməyən
necə canlana bilərdi?
Mənimlə görüşəndə
çox həyəcanlı olduğunu
deyirsən –
Ürəyində sevgi olmayan
necə həyəcanlana bilərdi?!

**16. 03. 2005**





***

Sevgi ilə,
həyat eşqi ilə
doludur səsin.
Çiçəkləri
qış yuxusundan oyadan
bahar yellərinə
bənzəyir nəfəsin…
Bəlkə də bu nəfəs
içimdə mürgüləyən
təzə bir sevgini
yuxudan oyadacaq?
Bəlkə ürəyimdə
çoxdan gözlədiyim
bir sevgi çiçəyi
boy atacaq?! –
Bilmirəm…
Ancaq onu bilirəm ki,
mürgüdən
sənin səsinlə oyanmaq
xoşdu mənə.
Səninlə üz-üzə, göz-gözə,
nəfəs-nəfəsə dayanmaq
xoşdu mənə…

**16. 03. 2005**

***

Mənimlə hələ
təzəcə tanış olmusan,
Ancaq içində
qısqanclıq odu işarır. –
Həyəcandan tir-tir əsirsən,
Gözlərin yaşarır…
Bilmirəm sevdalı könlünü
heç necə ovundurum?!
Elə bil qeybdən
bir səs gəlir:

-Ay ovçu, nə yatmısan,
qarşında ovun durub!
Duyuram ki,
səni mənə sarı gətirir
Zamanın axarı.
Ancaq bilmirəm
necə olacaq
bu sevginin axırı?!

**16. 03. 2005**

## İLK GÖRÜŞ

Ordan-burdan danışdıq,
Sözümüz tükəndi, -
Səninlə üz-üzə,
göz-gözə dayandıq.
Dalğalar kimi həyəcanla
enib-qalxan köksümüzdən
tufan boylandı...
İkimiz də qorxduq
içində fırtına yatan
sükutdan.
Qəlbimizi gizli-gizli odlara,
alovlara çatan sükutdan.
Elə bil bəbəyimdəki
dəli istəyi oxudun
sevdalı gözünlə.
Tələsik durub getdin,
könlümü də apardın özünlə...
Köksündən bir dəli
sevda boylandı,
quş kimi qanad açdın.
Ancaq məndən
uzaqlaşmaq istədikcə,
mənə daha da
yaxınlaşdın...

**16. 03. 2005**





# SEVGİ YAĞIŞLARI

## MƏNİM SEVGİ PAYIM

Məhəbbət ocağı hey için-için
Közərir köksümdə, -
Açılıb dilim.
Dünyaya gəlmişəm yaşamaq üçün,
Dünyaya gəlmişəm sevim, sevilim!

Əyilib su içdik buz bulaqlardan,
Haraya getmədik biz gəzə-gəzə?
Gözəl çəmənlərdən, uca dağlardan
Gül dərmək yazılıb qismətimizə.

Yarpaq pıçıltısı, şəlalə səsi,
Quşların nəğməsi laylamız olub.
İnsan tək yaşamaq, sevmək həvəsi
Qəlbimdə bərq vuran bir ulduz olub.

Böyüyə döndərib həsrət uşağı, -
Yaydan çıxan oxu qaytarmaq çətin.
Gözümdə bərq vurur həsrət işığı,
Köksümdən boylanır sənin surətin.

Sevgin gülüstana döndərib səni,
Əllərim tələsir gül dərmək üçün.
Bəlkə də taleyim göndərib səni
Ağlayan qəlbimi güldürmək üçün?

Başımın üstündə nur saçır ayım,
Verib arzularım bar bu dünyada.
Mənim hava payım, mənim su payım,
Mənim sevgi payım var bu dünyada.

**04. 07. 2004**

## ÖMRÜNƏ YAĞIŞ TƏK YAĞACAĞAM MƏN

Sənin ay üzünü bulud alanda,
Bəxtinə gün kimi doğacağam mən.
Ürəyin həsrətdən çat-çat olanda
Ömrünə yağış tək yağacağam mən.

Ötənlər çıxacaq sənin huşundan,
Bir gün gözlərində yaz güləcəkdir.
Sıyrılıb hicranın qarlı qışından
Sevgi dünyamıza yaz gələcəkdir.

Özümə yurd-yuva seçəcəyəm mən,
Saçına, üzünə düzüləcəyəm.
Sənin köynəyindən keçəcəyəm mən,
Sənin topuğundan süzüləcəyəm.

Ömrünə, gününə ələnib dən-dən,
Səni bəlalardan qoruyacağam.
Bəxtinə gün doğsa ayrı üfüqdən
Əlində, üzündə quruyacağam…

Buxara dönəcək neçə damla su,
Sevgimin izləri pozulacaqdır.
Ancaq o yağışın iki damlası
Sənin kirpiyindən asılacaqdır…

**18. 03. 2002**

## YAŞIL SEVDA

Dəli könlüm bir cüt busə arzular,
Qorxuram ki, yarım yenə inciyə.
Ürəyimdə çiçək açıb arzular,
Gözümdəki yaş çevrilib qönçəyə.





Nifrət etmə səndən sevgi umana,
Bu məhəbbət bir sağalmaz azardı.
Ayrılığın çevrilib kor dumana,
Boz ay kimi üzümə üz bozardıb.

Dözə bilib hicranın sərt qışına,
Tufanlara sinə gərib məhəbbət.
Köz ələnib ürəyimin başına,
Təzələnib ötən qərib məhəbbət.

Qətrə-qətrə göz yaşını içim mən,
O gözləri ürək sevib, göz tutub.
Sıyrılaraq boz dünyanın içindən
Ömrümə bir yaşıl sevda üz tutub…

**10. 03. 2002**

## BU YAZ MƏNİ ÖLDÜRƏCƏK DEYƏSƏN

Təmiz eşqin isidəcək qəlbimi,
Məhəbbətin sac olacaq sinəmdə.
Ömür boyu qönçə qalan ürəyim
Pardaqlayıb açılacaq sinəmdə,
Bu yaz məni öldürəcək deyəsən.

Bənövşələr isinəcək istimə,
Qaratikan kor olacaq tüstümə,
Bu məhəbbət el-obanı üstümə
Əvvəl-axır güldürəcək deyəsən.
Bu yaz məni öldürəcək deyəsən.

Dolanacaq obaları, elləri,
Gözlərimdən axan həsrət selləri.
Yetişəcək muradına əllərim,
Eşq bağından gül dərəcək deyəsən,
Bu yaz məni öldürəcək deyəsən.

Arzularım gül açacaq, sevgilim,
Qapımızı el açacaq, sevgilim!
Rəhmə gəlib dil açacaq sevgilim,
Sevdiyini bildirəcək deyəsən,
Bu yaz məni öldürəcək deyəsən.

**10. 03. 2002**

* * *

Könlüm səndən doyar çətin, əzizim! –
Elə bilmə bu ötəri həvəsdi.
Sənin təmiz məhəbbətin, əzizim,
Gözümdə nur, ciyərimdə nəfəsdi.

Məhəbbətin yaz tək köçüb ömrümə,
Ürəyimi gülüstana döndərib.
Haram maya qatılmayıb xəmrimə,
Tanrı səni mənə sovqat göndərib.

Sevgi olub ürəyimə çökmüsən,
Ömrüm-günüm, səadətim, bir dənəm.
Çox ağrılar, çox əzablar çəkmisən,
Yanaqların qoy olmasın bir də nəm…

**05. 03. 2002**

* * *

Sevən könlüm eşq oduna alışıb,
Daş atmazlar, gülüm, qəlbi sınığa.
Öz olmayan nişanlından danışıb,
Hərdən məni sən çəkirsən sınağa.

Ayrılanda bulud kimi dolan kəs,
Acı sözlə sevən qəlbi deşərmi?
Mənim kimi sevgilisi olan kəs
Özgə sevda sorağına düşərmi?!

**08. 03. 2002**





## SEVGİ YAĞIŞINA DÜŞDÜ ÜRƏYİM

Köksümdə yamanca qürrələnirdi, -
Sənin tək bir gözəl seçdi ürəyim.
Üzündən, gözündən nur ələnirdi,
Sevgi yağışına düşdü ürəyim.

Keşikçi baxışlar həmişə ayıq,
Əlində bəxtəvər olmuşdu əlim.
Heyf, o ilahi sevgiyə layiq
Səni qarşılaya bilmədim, gülüm!

Açılıb vüsalın həsrət qolları,
Köksündən boylanan qəhəri udma.
Sıldırımdan keçir sevda yolları,
Qarşıda əzablar durur, unutma!

Sevdalı ürəyim gör nələr çəkər!
Sənin nəfəsinlə yandım, közərdim.
Mətanət olmasa qəlbimdə əgər,
Hicran əzabına necə dözərdim?!

Tənhayam, adamlar arasında da,
Qəlbim quşu uçan budağa dönüb.
Sahib çıx içimdə işaran oda,
Həsrətin tüstülü ocağa dönüb…

Umacağı yoxdu daha könlümün,
Düşməsin qəlbinə kölgə, əzizim!
Sevdası perikən tənha könlümün
Sahibi sən oldun bəlkə, əzizim?!

**18-19. 04. 2003**

## SƏNİ XOŞBƏXT ELƏMƏYƏ NƏ VARMIŞ

Sevən qəlbim açılıbdır üzünə,
Xoşbəxtlikdən yer tapmırsan özünə,
Əllərini öpüb qoydum gözümə,
Səni xoşbəxt eləməyə nə varmış!

Həyatından duman, çiskin çəkilib,
Ürəyinə göylərdən nur tökülüb,
Baxışların uzaqlara dikilib,
Səni xoşbəxt eləməyə nə varmış!

Sevən qəlbi muradına yetirdim,
Səni tapıb, mən özümü itirdim,
Ürəyinə eşqinlə yaz gətirdim,
Səni xoşbəxt eləməyə nə varmış!

Yaxın gəldin sən uçuna-uçuna,
Titrək əlim sığal çəkdi saçına,
Ürəyimi təslim etdim ovcuna,
Səni xoşbəxt eləməyə nə varmış!

**20. 04. 2003**

## BAŞ GÖTÜRÜB BU DÜNYADAN GEDƏRƏM

Qoymamışam ucuzlaşa məhəbbət,
Neçə ocaq yandırmışam közümlə.
Neçə qəlbi qurtarmışam əzabdan,
Ürəklərə məlhəm olan sözümlə.

Nə olsun ki, sevdiyimi danmışam,
Həsrətinlə için-için yanmışam,
Sənin qonur gözlərini anmışam,
Sübhə qədər qor götürüb gözümlə.





Ayrılığı didim-didim didərəm,
Sevgim ilə səni xoşbəxt edərəm!
Hirsləndirmə, baş götürüb gedərəm,
Qəlbini də aparavam özümlə!...

**29. 03. 2002**

## YENƏ DƏ YUXUMDA GÖRMÜŞƏM SƏNİ

Bu gecə yuxumda görmüşəm səni,
Qorxuram danışam, acığın tuta.
Əllərim köksündən çiçək dərirdi,
Gözlərin dönmüşdü bir top buluda.

Qolların boynumda sarmaşıq idi,
Dilindən qopurdu ilahi sözlər.
Bəxtəvər-bəxtəvər gülümsəyirdi,
Necə xoşbəxt idi o nəmli gözlər!

Bilirsən heç necə bəxtiyar idim?!
Heyrətdən donmuşdum mən naşı kimi.
Asılıb qalmışdı kirpiklərindən
Ürəyim bir damla göz yaşı kimi.

Məni qovuşdurub öz istəyimə,
Xoşbəxtəm, min şükür yaradanıma!
Həyatda sən məni mələk sanırdın,
Yuxuda dönmüşdüm yer adamına.

Könlüncə deyilsə saf məhəbbətim,
Öz zülmət dünyana dönüb sən inlə!
Yamanca küsmüşdüm, Tanrım yuxuda
Yenə barışdırdı məni səninlə...

**09. 04. 2002**

## SÖZLƏRİN YAMANCA GƏLİR XOŞUMA

Ürəyim qul olub ara, namusa,
Könül verməmişəm, gülüm, hər gülə.
"Heç məni itirib-aramamısan,
Sən nə pis oğlansan", - dedin ərk ilə...

Sözlərin canıma yayıldı yağ tək,
İşardı kül altda qalan közlərim.
Bəxtiyar-bəxtiyar titrədi ürək,
Yollara dikildi həsrət gözlərim.

Razıyam başına çevirsən məni,
Qəlbimdə şimşəklər çaxır, əzizim!
Bilsəydim bu qədər sevirsən məni,
"Pis oğlan" olmazdım axı, əzizim?!

Səsimi eşitcək "haycan!" – deyirsən,
Mehriban dilinə canım sadağa!
Sahib olacaqmı qəlbim görəsən,
O ələ, o dilə, o bal dodağa?!

Sözlərin yamanca gəlir xoşuma,
Əlinə dəyəndə titrəyir əlim.
Səni çıxarıb ki, tale qarşıma,
Ötən sevdaları unuda bilim...

**14. 06. 2002**

* * *

Dincliyimi eləmisən talan, yar,
Sübhə qədər gözü yolda qalan yar!
İndi durub necə gəlim yanına,
Gecə üçdə məni yada salan yar?!

**15. 06. 2002**





## ƏGƏR

Əgər titrəyirsə qəlbinin simi
Mütləq gələcəyəm, sən məni səslə!
Payız yağışları mürdəşir kimi
Sarı yarpaqları yuyur həvəslə.

Çəməndə titrəyir ilmə damlalar,
Yoxsa əlvan xalı toxuyur yağış?
Mənim də gözümdə bir cüt damla var,
Vida nəğməsimi oxuyur yağış?

Qismətin olmadım, məni bağışla,
İnsan taleyindən gərək küsməyə.
Heç ola bilməz ki, belə yağışda
Məni xatırlayıb qəlbin əsməyə!

Dünyanı götürüb leysan harayı,
Damlalar içində titrəyir ürək.
Əgər bu yağışda məni arayıb,
Zəng eləmədinsə, mən yoxam demək...

**04. 10. 2002**

***

Eşq bağına qədəm qoyduq gizlicə,
Məhəbbətdən, səadətdən söz düşdü.
Kəpənəyin qanadları titrədi,
Ağ çiçəyin ləçəyinə iz düşdü.

Məhəbbətin qəlbimə yaz gətirdi,
Bomboz dünya gözəlləşdi gözümdə.
Dodaqlarım bəxtəvərə çevrildi
Sevgilimin ay tək yanan üzündə.

İçimizdə yanan sevgi ocağı
Yad nəfəslə sönməyəydi, əzizim.
Bu ilk busə eşqimizin sonunda
Kaş nöqtəyə dönməyəydi, əzizim!…

25. 06. 2003

## ELƏ BİLİRDİM Kİ…

Elə bilirdim ki, unudulmuşam
Elə bilirdim ki, məndən küsmüsən.
Sən demə mən səndən zəng gözləyəndə,
Sən yağış altında tir-tir əsmisən.

Damlalar süzülüb iliyinəcən,
Hər an yaddaşında qalıb o yağış.
Təpədən dırnağa isladıb səni,
Mənim hayıfımı alıb o yağış.

20. 10. 2002

## SƏN VARSAN, DÜNYADA SEVGİ VAR HƏLƏ

Üşüyən qəlbimə qığılcım saçır,
Gözlərin qoymur ki, sönə eşqimi.
Bilsəm kölgə salır səadətinə,
Boğub öldürərdim sənə eşqimi!

Mənimlə görüşmək diləyin yoxsa,
Yolunun üstünə çıxmaram daha.
Gözlərim həsrətdən göynəsə belə
Sevdalı üzünə baxmaram daha…

Onsuz da bilirdim bizimki tutmaz,
Sən yaza gedirdin, mən üzü qışa.
Səni qınamağım insafdan deyil,
Yaşa, seçdiyinlə bəxtəvər yaşa!





Eşqimin gücü yox ürəyindəki
Həsrət buzlarını su eləməyə.
Heç əlim gələrmi sənin, əzizim,
İsti ocağına su ələməyə?!

Yarpaq pıçıltısı, ləpə nəğməsi
"Sevirəm" söyləyən səsimdi mənim.
Sən varsan, dünyada sevgi var hələ,
Sən varsan, bu elə bəsimdi mənim…

13 – 14. 12. 2003

## BU SEVGİ HƏMİŞƏ YAŞIL QALACAQ

Bir eşqin oduna yandım gizlicə,
Bomboz kül rənginə boyandı dünya.
Bir gün ürəyimə düşdü vicvicə,
Sənin gözlərindən boylandı dünya.

Kül altda işardı həsrət közləri,
Özüm boğulanda mən öz tüstümə,
Sənin iki topa bulud gözlərin
Sevgi yağışları səpdi üstümə…

Kövrəlib hönkürdüm mən acı-acı,
Dəli bəbəyimdə yaş muncuqladı.
Kösövə çevrilən sevgi ağacım
Təzədən dirçəldi, tumurcuqladı.

Ürəyin işləri sığmaz ağıla,
Kaş bu eşqin ömrü olaydı uzun.
Başını köksümə söykəyib ağla,
Ötən sevgiləri göz yaşın yusun!

Qara bulud kimi dolubdur gözün,
İndi inandım ki, leysan olacaq.
Tez-tez bozarsa da dünyanın üzü,
Bu sevgi həmişə yaşıl qalacaq…

**12. 07. 2003. Qusar.**

## ELƏ BİLMƏ

Kim bilir ki, bu işlərin sonunu,
Elə bilmə birdəfəlik getmisən.
Ürəyini mənə verib, sən onu
Bəxtəvərlər bəxtəvəri etmisən.

Haraylayır eşqin məni çəmənə,
Köksümdə bir ulduz olub alışır.
Gecə-gündüz yorulmadan o mənə
Şirin sevgi nağılları danışır.

Səni özgə duya bilməz, əzizim,
Baxışımla bumbuz qəlbin isinir.
Sellər, sular yuya bilməz, əzizim,
Dodağından dodağımın izini.

Məhəbbəti salmaq olmaz qəfəsə,
Elə bilmə közərmişəm, sönmüşəm.
Gözündə nur, ciyərində nəfəsəm,
Damarında axan qana dönmüşəm…

**21.07.2003. Qusar.**

## MƏNİ QISQANIRSAN ULDUZLARA DA

Elə bil qoynuna çağırır bizi
Gecə bir dənizdi, ulduzlar ada.
"Amandı, göylərə baxma!" – deyirsən,
Məni qısqanırsan ulduzlara da…





Göylərdən gözümü çəkə bilmirəm,
Sayrışan ulduzlar çiçək-çiçəkdir.
Ancaq qədəminə bəbəklərimdən
Nə vaxtsa ulduzlar səpiləcəkdir…

Gözlərin göylərdə olub həmişə,
Bəbəyim könlümə nur yığa bilir.
Sevdalı gözlərim hələ hamının
Gözünün içinə şax baxa bilir.

Hələ mənim sevgim bu vaxta qədər
Başımı aşağı eləməyibdir.
Hələ heç bir ulduz gözlərin kimi
Qəlbimi işığa bələməyibdir.

Həsrət sazağında qəlbin üşüyüb,
Məni tapanadək bumbuz olmusan.
Odlu nəfəsimlə qəlbin közərib,
Sevgi göylərimdə ulduz olmusan…

**17. 02. 2004**

## NİYƏ BELƏ GEC GƏLMİSƏN DÜNYAYA?

Qəm buludu yuva salıb üzündə,
Qovrulursan sən intizar közündə,
Arzuların qala bilər gözündə, -
Niyə belə gec gəlmisən dünyaya?!

Qismətinə düşən paya dönmüşəm,
Sevgin ilə daşan çaya dönmüşəm,
Sən günəşsən, mənsə aya dönmüşəm, -
Niyə belə gec gəlmisən dünyaya?!

Neyləyəcəm indən belə bağ salıb?
İntizarın gözlərimə ağ salıb,

Aramıza illər dərə, dağ salıb, -
Niyə belə gec gəlmisən dünyaya?!

Ayağının altındakı yol çöküb,
Ömür boyu mənim gözüm yol çəkib,
Bu qismətə tale özü qol çəkib, -
Niyə belə gec gəlmisən dünyaya?!

Ömür köçüm minib əcəl atına,
Əlac varmı ürəyimin çatına?
Ayrılığı al gözünün altına, -
Niyə belə gec gəlmisən dünyaya?!

Gözlərindən ürəyimi oxusan,
Görəcəksən köksümdəki dağı sən.
Bu vaxtacan harda idin axı sən? -
Niyə belə gec gəlmisən dünyaya?!

**26. 08. 2004**

## İŞİN OLMASIN

Bəxtəvərəm, damağımda eşqin dadı var,
Telefonda dinləyirəm titrək səsini.
Deyirəm ki, nəfəsində sevgi odu var,
Deyirsən ki, verəcəyəm onun dərsini.

Gör nə qədər qəddar imiş ağlın, düşüncən! –
Məni sevən ürəyinə divan eləyib.
Yerə girim mənim sözüm yerə düşüncə,
Sənin eşqin bir qocanı cavan eləyib.

Heç unuda bilərəmmi könlüm sevəni?
Eşqin uca dağlarını duman almasın.
İncitməzlər, danlamazlar, gülüm, sevəni,
Ürəyinlə, nəfəsinlə işin olmasın!...

**24. 02. 2002**





## HƏYATIM

Bilmirəm neyləyim bu həzin qəmi mən?!
Əzizim, nə olar, şərik ol qəmimə!
Yol göstər qərq olan məhəbbət gəmimə,
Qoy sevgi yolunda ucalım, boy atım!
Dayağım, mayağım, həyanım, həyatım!

Haraya aparım mən həsrət köçümü?
Yenə də geriyə qaytardın elçimi,
Sözlərin xəncər tək doğrayır içimi,
Gözlərin qəlbimdə məhəbbət oyadır,
İsmətlim, həyalım, həyanım, həyatım!

Görüşə bilmirik, hövsələm daralıb,
Deyəsən yağacaq, buludlar qaralıb,
Elə bil tellərin həsrətdən saralıb,
Şe'rimi saçının rənginə boyadım,
Qəlbimi duyanım, həyanım, həyatım!

Yerimə qor dolur gecələr yatanda,
Dadıma çatırsan qəmlərə batanda,
Ürəyim oxuyur əlindən tutanda,
Şe'rdi, nəğmədi hər insan həyatı,
Sevgilim, bir dənəm, həyanım, həyatım!

**09. 05. 2002**

## BAL PƏTƏYİ

Hər misram, hər bir sözüm bir çiçək ləçəyidi,
Məhəbbətlər, sevgilər ürəyimi bəzəyir.
Deyirsən: mənim qəlbim sanki bal pətəyidir,
Sevdalı qızlar isə arılara bənzəyir.

Bu sehrli pətəyə əliboş girən olmur,
Hər gələn özü ilə çiçək ətri gətirir.
Ürəyimdə açılan sevgi gülləri solmur.
Sevda çəmənzarımdan hərə bir pay götürür.

Gözəllərin yanında ürəyim üzü ağdı.
Qonaq edir hamını şirin-şəkər sözünə.
Qəlbimin qapıları gecə-gündüz açıqdı
Sevgi payı diləyən gözəllərin üzünə...

**30. 01. 2002**

* * *

Üz döndərmə, götür-qoy et sən yaxşı-yaxşı,
Hirslənsən də, bilirəm ki, qəlbi yuxasan.
Başdan-başa mö'cüzədi bu yaz yağışı,
İnanmıram o leysandan quru çıxasan!

Sevgilərin son ucunda bir ayrılıq var,
Unutma ki, hər sevincin sonu kədərdi.
Qəlbimizi paralayır bu ayrılıqlar,
Bu dünyada hər şey, hər şey gəldi-gedərdi...

Qızıl dəni şoranlıqda nahaq əkirsən,
Qorxmursanmı həsrət qala dəyirman una?!
Sən vüsalın qarşısına hasar çəkirsən,
Su tökürsən ayrılığın dəyirmanına.

Qulağımda uğuldayır şivən səsləri,
Həyəcanlar, iztirablar ömrü bəzəyir.
Göz yaşları – o dünyaya gedən kəslərin
Arxasınca səpələnən suya bənzəyir...

**26. 04. 2002**





## DƏYƏRMİŞMİ?

Nə işdisə, çalışmısan ömrün uzunu
Ötənləri, keçənləri pərdələməyə.
Bilə-bilə gizləyirsən məndən üzünü,
Dəyərmişmi ayrılığı dərd eləməyə?!

Sevda dolu ümidlərim hədərmiş, hədər,
Həyatında mənim səsim, sədam yox imiş.
Sənin küskün taleyində bu vaxta qədər
Elə bil ki, heç mən adda adam yox imiş!...

Bəlkə sənə layiq deyil sevgi cəzirəm? –
Tənha qoydun bir ürəyi kövrək qocanı.
Mənə doğru can atandan uzaq gəzirəm,
Dərdli-dərdli düşünürəm məndən qaçanı.

Sevgisiylə ürəyimi üzə bilənin
Qoy nəsibi sevinc olsun, səadət olsun!
Ürək yaxan ayrılığa dözə bilənin,
İnanmıram ürəyində məhəbbət olsun!...

Kim sevdalı gözlərimin içinə baxsa,
Tələsəcək ürəyimi yurd eləməyə.
Vüsalıma can atanın hesabı yoxsa,
Dəyərmişmi bu hicranı dərd eləməyə?!

**28. 04. 2002**

* * *

Nəfəsin od tutub yanır, için-için alışırsan,
Sevməsən, bəbəklərində həsrət közü sayrışarmı?
Qəlbindəki məhəbbəti gizləməyə çalışırsan,
Sənin kimi zərif qıza qatil olmaq yaraşarmı?

**06. 02. 2002**

## "QAYTAĞI"

Özgəylə rəqs edirdin, ürəyim üzülürdü,
Göylərdən yerə enən mələyə oxşayırdın.
Dişlərin ağarırdı, gözlərin süzülürdü,
Sən ömrünün ən xoşbəxt anını yaşayırdın.

Necə mahnı oxusun köksümdə qırılan sim?
Mənim ilham köhlənim təntiyir, büdrəyirdi.
Rəqs edirdin üzündə qəribə bir təbəssüm,
Ayağının altında ürəyim titrəyirdi.

O havanın odunda bir arzu döndü külə,
Bəxtəvər gözlərində məhəbbət qaynayırdı.
Necə bəxtəvər idin,
sən bir özgəsi ilə
Ürəyimin üstündə "Qaytağı" oynayırdın...

**28. 02. 2002**

* * *

Mənim kimi sevə bilməz heç kim səni,
Qəlb odunu soyudursan yavaş-yavaş.
Tamam başqa qız etmişdi eşqim səni,
Sən özünə qayıdırsan yavaş-yavaş.

Hiss etmirsən əsən həsrət küləyini,
Kül altında öləziyir sevgi közü.
Nəğmələrim əfsunlamır ürəyini,
Dodağında ucuzlaşıb sevgi sözü.

İtirmişəm yarpağımı, oynayıram mən xəzəllə,
Ürəyimin gücü çatmır bu sevdadan uzaqlaşa.
Ürəyində gənclik eşqi sel tək daşan bir gözəllə
Qoca qəlbin məhəbbəti çox çətin ki, ayaqlaşa...

**01. 03. 2002**





* * *

Xəyalına gəlməyən iş başına gəlib,
Gecə saat üçdə belə deyinməmisən.
Kimsə sənə "canım!" deyib, xoşuna gəlib,
Eşq yolunda canım çıxıb, bəyənməmisən...

**08. 04. 2002**

## MƏLƏKLƏRDƏN SÖZ AÇSAM DA...

Bulud kimi susan ürək çətin ki, susa! –
Mənə bəsdi sevən qəlbin bircə "sağ ol"u.
Şahə qalxan əsəbimə necə oldusa,
Sözlərinlə çəkə bildin mələk sığalı.

Saçlarının hər telini bir sim elədin,
Mənim qəlbim köks ötürdü, içini çəkdi.
Elə bil ki, baxışınla tilsim elədin,
Həyatımdan biganəlik köçünü çəkdi.

Ürəyimə toy tutmuşdu bir qızın toyu,
Hələ sevda göylərimdə hava nəmişdi.
Mələklərdən söz açsam da həyatım boyu,
Bu günəcən Mələk adlı qız sevməmişdim.

Neçə-neçə yaşıl sevda dönüb xəzələ,
Verdiyini uf demədən fələk alırmış.
Şair qəlbi ürcah olsa təmiz gözələ,
Yer qızı da onun üçün mələk olarmış...

**16. 12. 2002**

## BU İL MƏLƏK QANADINDA GƏLDİ ÖMRÜMƏ

Vətən yoxsa, neyləyirəm belə ömrü mən?!
Bərgüşadın göz yaşı var Kürdə, Arazda.
Bu il mələk qanadında gəldi ömrümə,
Gözlərimdə gözəlləşdi dünya bir az da.

Taleyimdən əsib keçdi min acı külək,
Qəlbimizdə ayrılığı uyuda bildik.
Bəlkə bu il bir mö'cüzə göstərdi fələk,
Doğma yurda, doğma kəndə qayıda bildik?!

Ürəyimdə elə bil ki, mələk şövqü var,
Gözlərimə baxanların gözləri dolub.
Bəlkə mənim taleyimdə yeni sevgi var?
Yosa qəlbim mələklərin yurd yeri olub?!

Haram maya qata bilməz kimsə xəmrimə,
Qismətimi yazan yazıb qızıl lələklə.
Bu il mələk qanadında gəldi ömrümə,
Təzə sevda gətirəcək bəlkə mələklər?!

Yola salıb neçə-neçə quduz illəri,
Ağrılarla, əzablarla döyüşə bildim.
Bəlkə elə taleyimin əsən yelləri
Ürəyimin havasını dəyişə bildi?!

Neyləyirəm məhəbbətsiz ötən ömrü mən,
Təzə sevda bulağından bəlkə su içdim?!
Bu il mələk qanadında gəldi ömrümə,
Bəlkə mələk qanadında göylərə köçdüm?!

**01. 01. 2003**





## MƏLƏYİM

Ürəyin böyükdü, nə olsun kiçiksən!
Məhəbbət bağında bir təzə çiçəksən,
Hamıdan mehriban, hamıdan göyçəksən,
Xoşbəxt ol, Tanrıdan yoxdu bir gileyim,
Mələyim, Mələyim!

Qəm yükü daşımaq ağırdı, çətindi,
Dünyanın axırı ölümdü, itimdi.
Sevgisiz bir ürək qəribdi, yetimdi,
Qoyma ki, eşqinlə quzu tək mələyim,
Mələyim, Mələyim!

Bilirəm, gözündə hamıdan ucayam,
Gücüm yox başına sevgidən tac qoyam!
Sən cavan bir qızsan, mən isə qocayam,
Xəlbirim fırlanır, ələnib ələyim,
Mələyim, Mələyim!

Buludlar yoluna göz yaşı töktübdür,
Üstünə ayrılıq dumanı çökübdür,
Üşüyən ürəyin çox əzab çəkibdir,
Gəl sənin qəlbini sevgiyə bələyim,
Mələyim, Mələyim!

Həsrətin yaş olub göynədir gözümü,
Alovlu nəfəsin oyadıb közümü,
Qalmayıb hicrana zərrəcə dözümüm,
Əsnəyir üstümə ayrılıq küləyi,
Mələyim, Mələyim!

Gizləmək əbəsdi, aydındı göyə sirr!
Sevgiylə yoğrulan ürəyim hey əsir,
Titrəyən əllərin görüşə tələsir,
Taledən, qismətdən daha nə diləyim?! –
Mələyim, Mələyim!

## FƏRİDƏ

Yel əsir, xəzandır məhəbbət bağımda,
Sən mənə tuş oldun ixtiyar çağımda.
Sevdalı günlərim qalıbdır geridə,
Fəridə, Fəridə!

Bilmirəm heç hara aparım köçümü,
Dağıdıb, yurd edib sevdalar içimi.
Qalmayıb qəlbimin sevməyə fəri də,
Fəridə, Fəridə!

Yolumun üstündə çisgin var, duman var,
Yenidən sevməyə görəsən güman var?!
Həsrətin qəlbimdən nisgili əridə,
Fəridə, Fəridə!

**21. 10. 2002**

***

Aylı bir gecədir, olmuşam dəli,
Səngimir köksümdən püskürən atəş.
Mənə sevgi ilə uzanan əli
Necə boş qaytarım, özün fikirləş?!

**21. 10. 2002**

***

Nadanlar qaysaq tutan yaraları qanadır,
Nə qədər titrəyəcək yaş gözümdə, bilmirəm?!
Ürəyim kim üçünsə, nə üçünsə can atır
Heç nə axtardığımı mən özüm də bilmirəm…

* * *

Gözlərinin altına, gülüm, al ölümü sən,
Rüsvayi-cahan olsam, mən ixtiyar yaşımda.
Başını yelləyərək deyirsən: - Dəlimisən?
Səni niyə sevirdim ağlım olsa başımda?!

**2002**





* * *

Həyat qəddara döndərib insanın ən fağırını,
Tale bizə qismət edib eşq dərdinin ağırını.
Ayaq açmaq müşkül olub, daha ot basıb, əzizim,
Səninlə mənim aramda olan sevgi cığırını…

**16. 07. 2002. Qusar.**

* * *

Yağ içində böyrək kimi yaşasan belə,
Heç kəs verə bilməyəcək mənim yerimi.
Daha qəlbim döyünməyir məhəbbət ilə,
Yad nəfəslər perikdirib ilham pərimi.

Xoşbəxt ola bilərmi heç balıq tilovda? –
Heç kəs səni mənim kimi duymayacaqdır.
Ömrüm-günüm, qəlbindəki o dəli sevda
Səni mənsiz yaşamağa qoymayacaqdır…

**17. 07. 2002. Qusar.**

***

Biləndə sevildiyini köksümüzdə ürək gülər,
Zirvədən durub baxıram, nə gözəldi aşağılar!
Zərif, kövrək gülüşünü xatırladır şəlalələr,
Elə bil ki, çiçəklərdə gözlərinin işığı var.

Könül açan mənzərələr canlanır mənim qarşımda,
Ayrılığın nisgil qatıb həsrət yüklü sözlərimə.
Bilirəm ki, olmasaydı sənin xəyalın başımda,
Yamaclar bu qədər gözəl görünməzdi gözlərimə.

Bəxtəvərə çevrilirəm baxanda sənin gözünə,
İnsan sevib-sevilməkçün gəlməyibmi bu dünyaya?
Ürəyindəki sevginin işığı düşüb üzünə,
Mənim sevda göylərimdə dönmüsən nur saçan aya.

Önündəki qara-qara buludlarla döyüşmüsən,
Nəfəsinlə isitmisən tənha sevgi yuvasını.
Nə gizləyim, mehribanım, əməllicə dəyişmisən
Taleyimə gəlişinlə ürəyimin havasını…

**11. 07. 2003. Qusar.**

***

İnsan oğlu taleyindən bə’zən küsüb, "bezdim!" – deyir,
Tənha sanır özünü o, bulaq kimi gözü dolur.
Bu dünyada xeyir şərlə qol-boyundu əzəl gündən,
Əzablarla yoğrulmasa, səadət yarımçıq olur.

Duyuram ki, ömrün boyu ağlamısan için-için,
Tale bir gün qəlbindəki ağrıları götürəcək.
Dözümlü ol, bu ağrılar, bu əzablar sənin üçün
Nə zamansa bir səadət, sevinc payı gətirəcək…

**2003**

## BU İLİN İLK ŞE’RİNİ DƏ MƏN SƏNƏ YAZDIM

Tərpənmirdi, - yalvarsam da, qələm, sözə bax! –
Elə bil ki, heç qələm yox, kəlbətin idi.
Ayrı sevgi nəğməsiylə ili başlamaq
Mənim üçün çətin idi, çox çətin idi.

Sanırdım ki, hicran dönüb bir qara yelə,
Bulud örtüb taleyimin dan ulduzunu.
Nə yaxşı ki, sevgi dolu mesajın ilə
Sən əritdin qəlbimdəki şübhə buzunu.

Qış olsa da, yuva qurdu içimdə bahar,
Həsrət odu sarmaşıq tək sarılıb mənə.
Hiss etdim ki, divanə tək məni sevən var,
Hiss etdim ki, tale özü yar olub mənə.





Ələnsə də başımıza həsrətin külü,
Çöldə boran oynasa da, içimdə yazdı.
Taleyimdən çox razıyam, ürəyim gülür,
Bu ilin ilk şe’rini də mən sənə yazdım…

**03. 01. 2004**

## QORXURAM DİLİM ÖYRƏŞƏ

- Heç nəyi açıb ağartma,
Bir az döz! – deyirsən mənə.
Biz bu qədər ki, doğmayıq,
Niyə "Siz" deyirsən mənə?!
- Sizə "sən" demək xoşsa da,
Nəyə lazımdı, əzizim,
Toydan sonrakı nağara?
Qorxuram dilim öyrəşə,
Adamların yanında da
Sizi "sən" deyə çağıram…

**08. 06. 2002**

## QOY CAVABI QƏLBİN VERSİN

Yenə məni sevirsənmi,
Yoxsa xoşuna gəlmirəm?!
Qovuşmaq şansım qalıbmı? –
Cavabın birdi: -Bilmirəm…
Dodaqlarım istəyir ki,
Yanağından çiçək dərsin.
Sən danışma, acıqlısan,
Qoy cavabı qəlbin versin…

**01. 02. 2002**

## ZAQATALA ÇİÇƏYİ

Mənim təşnə dodaqlarım
Kəpənək qanadlı imiş.
Zaqatala çiçəyinin
Ləçəyi nə dadlı imiş!

Bəxtəvərə çevrilmişəm,
Ürəyimdən sevgi daşır.
Əzizim, mübarək olsun
Bu sevginin təməl daşı!

Bir cüt busənin üstündə
Eşq mə'bədi yapdım bəlkə?!
Sənin kövrək ürəyində
Öz yerimi tapdım bəlkə?!

**02. 06. 2002**

## TÜRK GÖZƏLİ

Türk gözəli, türk gözəli,
Ağlımı aldın başımdan.
Taleyimə necə gəldin
Sən dünyanın o başından?!

Yol çəkən nəmli gözlərin
Elə bil qara buluddu.
Hardan bildin duyğusalam,
Gözün nədən məni tutdu?!

Şeytan bizə bağışlasa
Bir gecəlik səadəti,
Başımıza nə gələcək,
Bəri başdan demək çətin.





Bir ömrə bəs edəcəkmi
Bir günlük könül xoşluğu?!
Doldura biləcəyəmmi
Ürəyindəki boşluğu?!

Bilirəm ki, əvvəl-axır
Qəlbimi qan edəcəksən.
Məni öyrədib özünə
Sonra çıxıb gedəcəksən…

Bir gizli sevgi dastanı
Qərq olacaq göz yaşında.
Sən dünyanın o başında,
Mən dünyanın bu başında…

Türk gözəli, əsirgəmə,
Səndən bir şey canım umsa!
Heyf, nə mən sənin eşin,
Nə sən mənim xanımımsan…

**18. 08. 2002**

## NİYƏ MƏNİ SEÇDİN AXI

Sən öz dəli istəyinlə
Ürəyimi qanadırsan.
Dəmir maqniti sevən tək
Mənə doğru can atırsan.

Qəlbinə sevgi düşənlər
Saya salmır heç günahı.
Adamların arasından
Niyə məni seçdin axı?!

Ətəkləri sıldırımlı
Bir dağa dirənib yolum.
İstəyirsən ki, mən sənin
İntiqam silahın olum.

İçində bir dəli həsrət,
Başında sevda dumanı.
Mö'min idin, məni görcək
Unutdun dini, imanı.

Gülüm, divanə könlümü
Danlamışam mən o ki var.
Niyə məni seçdin axı,
Üzümdə şeytan tükü var?!

**18. 08. 2002**

* * *

Niyə bu işə qol qoydum? –
Hey özümü danlayıram.
Elə bilirəm mən səni
Doğulandan tanıyıram.

Heç bilmirəm qollarımı
Nə üçün boynuna saldım?
Səni oynatmaq istədim,
Özümü oyuna saldım.

Əcəb bəxtəvər olmuşam,
Sevdalı gözlərim nəmdi.
Şeytansan, nəsən, bilmirəm
Sənsiz dünya cəhənnəmdi.

Bu nə işdi, istəmirəm
Gözümün yaşı qurusun.
Həyatım, canım, bir dənəm,
Qoy səni Tanrı qorusun!

**22. 08. 2002**





## SEVGİ YAĞIŞI

Məhəbbət kəhkəşanımda
Parlaq bir ulduz var imiş.
Nə biləydim qismətimdə
Sən adda bir qız var imiş…

Nə biləydim tale mənə
Sevgi payı göndərərmiş.
Ömrün qışında qəlbimi
Gülüstana döndərərmiş.

Səni yaxşı tanımırdım,
Sanırdım ürəyin daşdı.
Birdən mö'cüzə baş verdi,
Gözlərindən sevgi daşdı.

Ürəyim tab gətirmədi
Giley dolu baxışına.
Mənim çat-çat olan qəlbim
Düşdü sevgi yağışına…

**12. 06. 2003**

## TANRI BELƏ BUYURUBSA…

Allahdan kömək diləyib,
Üz çevirdin mənə sarı.
Əgər könlündən keçirsə,
Sarmaşıq tək mənə sarıl!

Qismətində varsa əgər,
Könlünə simsar olaram.
Yüz ilin həsrətlisi tək
Mən də sənə sarılaram!

Qəlbində eşq fırtınası
Uçunursan uçum-uçum.
Köksümə sığınmaq üçün
Göynəyir burnunun ucu.

Bir iş gəlməz əlimizdən,
Biz taleyin nökəriyik.
Tanrı belə buyurubsa,
Əzizim, biz nə karəyik?!

**13. 06. 2003**

## BELƏ PAYIZ OLMAMIŞDI

Könlüm quş tək qonmamışdı
Eşqin uca budağına.
Həyəcandan dönməmişdi
Qəlbim payız yarpağına.

Hələ bu cür həsrət ilə
Gözüm yolda qalmamışdı.
Heç vaxt mənim həyatımda
Belə payız olmamışdı.

Payızın göz yaşlarının
Hər damlası xəzəl idi.
Ürəyim bəxtiyar idi,
Dünya necə gözəl idi!

Xəzəllərin xışıltısı
Qəlbimə od salmamışdı.
Hələ mənim həyatımda
Belə payız olmamışdı…

Hələ heç kəsi görəndə
Qəlbim belə əsməmişdi.
Sevən könlüm heç vaxt belə
Görüşə tələsməmişdi…





Yağışın altında bu cür
Xəyallara dalmamışdım.
Ömrüm boyu belə xoşbəxt,
Belə kövrək olmamışdım.

Dərddən çat-çat olan könlüm
Sevgi ilə dinməmişdi.
Əsən yarpaqlar bu cürə
Sarı simə dönməmişdi.

Dönüb payız buluduna
Bəbəklərim dolmamışdı.
Hələ mənim həyatımda
Belə payız olmamışdı…

**02.02. 2002**

## TƏZƏ EŞQƏ DÜŞƏN KÖNÜL

Qanadlarım ola-ola
Göylərə uça bilmirəm.
Təzə eşqə düşən könül,
Səndən baş aça bilmirəm.

Həzin, kövrək duyğuların
Korşalmasına qıymırsan.
Sağ ol ki, mənim ömrümü
Adiləşməyə qoymursan.

Ömrün boyu bir ünvansız
Külək kimi sən əsirsən.
Öndə ayrılıq, ölüm var,
Axı hara tələsirsən?!

**08. 06. 2002**

## CƏZA

Məni elə qısqanırsan,
Sözün düzü, üşənirəm.
Qəribədir, gecə-gündüz
Gözlərini düşünürəm.

Deyirsən ki, belə getsə,
Sizi cəzalandıracam.
Qəlbinizdə öləziyən
Közü cəzalandıracam.

Tənhalıqda üşümüsən,
Köksümə sığınıb qızın.
Cəzası ağır olacaq
Mənə cəza verən qızın…

**22. 06. 2004**

## ARI VƏ ÇİÇƏK

Təzəcə açan çiçəyin
Körpə gözü yol çəkirdi.
Dünyagörmüş arı isə
Başqa güldən bal çəkirdi.

Çiçək özündə deyildi,
Ağlayırdı için-için.
Ürəyi tir-tir əsirdi
Bir sevdalı arı üçün.

Birdən göz-gözə sataşdı,
Birdən mö'cüzə yarandı.
Gözün aydın, a bəxtəvər,
Qarşında duran yarındı!





Arzularına qovuşan
Xoşbəxt arının nə dərdi?
Çiçəyin yanaqlarından
İlk öpüş nübarı dərdi…

**22. 06. 2004**

## DARIXAN ÇİÇƏK

Bir vaxt sevgi gülzarımın
Yanından ötə bilmirdin.
Qəlbin sevdayla vursa da,
Murada yetə bilmirdin.

Ayrılıq qəddini büküb,
Bəbəyinə həsrət çöküb,
Gözünü gözümdən çəkib,
Yanımdan gedə bilmirdin.

Sevgiylə dolanda için
İnlədinmi için-için?
Şair əlləri səninçün
Dönəcək bütə, bilmirdin.

Dərd əlindən hara köçək?
Gözündə yaş çiçək-çiçək.
Mənimçün darıxan çiçək,
Köksümdə bitə bilmirdin?!

**12. 03. 2004**

***

Bəxtəvərə çevrilmişik,
Köksümüzdən sevgi daşır.
Ürəyimiz tir-tir əsir,
Mum edərmiş sevgi daşı.

Ömrümüzün sonunacan
Əkindəyik, biçindəyik.
Söndürsək də işıqları
Həmişə nur içindəyik...
**12. 03. 2004**

## SEVİRSƏNSƏ

Qorxuram ki, bulandıra
Sevinci bir zərrə kədər.
İstəmirəm ürəyinə
Kölgə düşə zərrə qədər.

Yanaqlarına toxunub,
Dodaqlarım baldır mənim.
Gözündə bir damla yaşam,
Kirpiyinlə qaldır məni.

Ən böyük sərvət sevgidi,
Onsuz ağızda tam yoxdu.
Sevirsənsə, bu dünyada
Səndən varlı adam yoxdu...
**20. 12. 2003**

## DƏYMƏZMİ

Bir-birini sevənlərin
Arasında axı nə sirr?
Gözümüzdən həsrət daşır,
Qəlbimiz sevgidən əsir...

Səndən, məndən, Yaradandan
başqa bunu kim biləcək?
Mizrabın nə çəkdiyini
Kim bilməsə, sim biləcək...





Taleyimiz belə gəlib,
İnləmə içində belə.
Bilirsən ki, günahsızıq
Günahlar içində belə...

Ciyərimdə bala dönür
Odlu nəfəsinin ətri.
Cəza çəkməyə dəyməzmi
Bu ülvi sevgidən ötrü?!
**22. 12. 2003**

## ÜZÜ MƏNƏ SARI

Gecələr səhərə qədər
Köksündə ocaq çatırsan.
Gülüb dedin ki, sən üzü
Qibləyə sarı yatırsan.

Qəlbindən sevgi daşana
Demək artıqdı: məni sev!
Soruşdum: - Qiblə haradı?
Dedin ki, sən yaşayan ev!

Mənə verməyə hazırsan
Qamətini, var-yoxunu...
Bilirəm nə gördüyünü,
Danışmasan da yuxunu...

Yarından ayrı düşənin
Göyləri yandırar ahı.
Bəxtəvərəm, olmuşamsa
Bir gözəlin qibləgahı...
**03. 08. 2003**

## MƏNDƏN ŞE'R İSTƏYƏN ANARƏ XANIMA

"Mənə də şe'r yaz!" – deyirsən,
Köksündə nuru var səhərin.
Təpədən dırnağa şe'rsən,
Yoxdumu özündən xəbərin?
Qəlbində məhəbbət dil açıb,
Gözündə həsrətin alışır.
Üzündə təbəssüm gül açıb,
Əllərin əlimdə danışır...
Ömrümə günəş tək doğmasan,
Köksümdə olmazdı köz yeri.
Şirinsən, əzizsən, doğmasan,
Qəlbimdə var sənin öz yerin!
Kim sevir, yetəcək kamala,
Ocağa dönəcək közümüz.
Gəl fani dünyadan kam alaq,
Bir cənnət yaradaq özümüz...
"Mənə də şe'r yaz!" – deyirsən,
Gərək bir mö'cüzə göstərəm.
Təpədən dırnağa şe'rsən,
Mən səni oxumaq istərəm...

* * *

Səninlə görüşdüyüm
ən kiçik anı sevdim,
Gözlərimdən çağlayan
gur seli sevmədinmi?
Mən sənin xatirinə
qotur almanı sevdim,
Sən mənim xatirimə
bir eli sevmədinmi?!

**09. 09. 2003**





# ƏSİR AYRILIĞIN SOYUQ YELLƏRİ

## SƏNDƏN AYRILMAQ ÇƏTİNDİ

Bunu Tanrı bağışlamaz,
Sən haqqı-salamı kəssən.
Günahlar içində belə
Tərtəmizsən, müqəddəssən.
Mən kiməm? – Hər şeyi edən
Sevdalı ürəkdi, gülüm!
Barışmalı olacaqsan
Məndən neçə dəfə küssən...

Gözlərimdəki işıqsan,
Qulaqlarımdakı səssən,
Elə bilmə mənim üçün
Ötəri sevgi, həvəssən.
Səndən ayrılmaq, dünyadan
Ayrılmaq deməkdi, gülüm.
Damarlarımdakı qansan,
Ciyərlərimdə nəfəssən...

**05. 02. 2002**

* * *

Özgə bir çəməndən
sən gedib gül dərmə,
Özün inadkarsan,
mənlik bir iş qalmır.
Bu təmiz, günahsız
sevgini öldürmə,
Müqəddəs mə'bədlər
heç zaman boş qalmır...

**07. 02. 2002**

## OLMUŞUQ

Eşqin uca göylərində
Biz qoşa qanad olmuşuq.
Dönməmişik sözümüzdən.
Həmişə inad olmuşuq.

Dindirməmiş dinməmişik,
Alışanda sönməmişik,
Heç vaxt suya dönməmişik,
İkimiz də od olmuşuq.

Bir cüt ürəyin səsiydik,
Leyli, Məcnun əvəziydik.
Həzin sevgi nəğməsiydik,
Çevrilib fəryad olmuşuq.

Alammazlar dürrü bizdən,
Kim baş açar sirrimizdən?!
Qaçırıq bir-birimizdən,
Doğma ikən yad olmuşuq...

**01.02. 2002**

## MƏNİM DƏLİ KÖNLÜM

Onunla görüşüm səadət idi
Güvəndiyim dağın başı qar oldu.
Mənim umacağım məhəbbət idi,
Qazancım əzablar, ağrılar oldu.

Bir səbəb yox idi belə hiddətə,
Məndən ayrılanda gözü dolmadı.
Layiq olmasa da qəlbim nifrətə,
Sevgimin cavabı sevgi olmadı.





Zərif rübabımda qırıldı bir sim,
Həsrət varlığımı qəmə bələyib.
Mənim dəli könlüm, sevdalı qəlbim
Dilimi həmişə gödək eləyib...

**01.02. 2002**

* * *

Mən dağam, aran deyiləm,
Münbitəm, şoran deyiləm.
Dərdindən dəli olsam da,
Sənə yalvaran deyiləm.

Qəbristandan ölü dönməz,
Dediyindən dəli dönməz.
Sevməyi bacaran kəsin
Yalvarmağa dili dönməz...

**01.02. 2002**

* * *

Səninlə vidalaşanda
Üzümü duman, çən alır.
Qoymursan o sözü deyim,
Qadağaların can alır.

Gözlərimə getmir çimir,
Həsrətim uyumur axı?!
Quru "Sağ ol!" demək ilə
Ürəyim soyumur axı?!

**03. 03. 2002**

* * *

Tarıma çəkilib
Ürəyimin simi.
Virana eyləyib
Bu hicran qəlbimi.

Girib aramıza
Bir inadkar qürur.
Gileylər gözümdə
Ulduz tək bərq vurur.

Gözümdən boylanan
Yaş imişsən, gülüm.
Nə yaman ürəyi
Daş imişsən, gülüm!

Bu dərdin əlindən
Axı hara köçüm?
Telefonum susur,
Qan ağlayır içim...

**07. 02. 2002**

* * *

Bilirəm, əzab gətirib,
Bu və'dəsiz eşqim sənə.
Laqeydsən öz qismətinə,
Qorxmursanmı eşqin sönə?

Gözündən boylanan qəmdi,
Kirpiklərin yenə nəmdi,
Sükutun bir cəhənnəmdi,
Niyə susursan, dinsənə?!

Üstümdən ötən küləksən,
Qəlbimdə bitən çiçəksən,
Mən bəşərəm, sən mələksən,
Layiq deyiləm mən sənə.

Dalğalı dənizdi içim,
İnləyirəm için-için,
Darıxmışam sənin üçün,
Əzizim, geri dönsənə!

**09. 02. 2002**





* * *

Göylərdən gələn sevgidən
Əlin bir gün üzüləcək.
Gözündəki son qətrə yaş
Kirpiyinə düzüləcək.

Ürəyindəki nisgilin
Pərdələri yırtılacaq.
Könlün sevgi əzabından
Birdəfəlik qurtulacaq.

Qəlbindəki şirin qəmin
Bir gün bağrı çatlayacaq.
Ancaq o ilahi eşqə
Əlin bir də çatmayacaq...

**10. 02. 2002**

* * *

Özgəsinin qoxladığı
Çiçək nəyimə gərəkdi?!
Sevgi əzabı çəkməyən
Ürək nəyimə gərəkdi?!

Yenə də mənim qəlbimə
İlahi nur saçılacaq.
Məhəbbət çəmənzarımda
Təzə güllər açılacaq.

Eşqim söz-söz, misra-misra
Sevənlərə paylanacaq.
Həsrətli bəbəklərimdən
Təzə sevda boylanacaq...

**10. 02. 2002**

## QISQANCLIQ

Ürəyimi oynadır,
Sərhədləri yar aşır.
Gülüb deyir ki, Sizə
Qısqanclıq çox yaraşır.

Nə çəkdiyimi bilmir,
Nə dedi, dözdüm ona.
Başa düşmür ki, bir gün
Olacaq Dezdamona.

Bilmir ki, kül olacaq
Ürəyimin ahından.
O necə qurtaracaq
Otello barmağından?!

**02. 03. 2002**

***

Kiməsə uyub, verirsən
Sən mənə hicran əzabı.
Yoxsa bu imiş, əzizim,
Böyük sevginin cavabı?

* * *

Özün söylə, ay yaralı quşcığaz,
Məhəbbətsiz qoca dünya dünyamı?
Umacağım olmaz daha dünyadan,
Mənə versə öz sevimli Dünyamı…

**08. 03. 2002**

* * *

"Tut əlimdən çıxıb gedək!", -
Xahiş etdim mən o qızdan.
Dedi: - Getmək istəmirəm
Mən öz sevgi dünyamızdan…

**12. 03. 2002**





## BİRCƏ GÖRÜŞ XƏTRİNƏ

İstəmirəm ömrümü
Ayrılığa həsr edəm.
Sərhəd dirəklərini
Öpməyə də həsrətəm.

Sevdalı ürəyimi
Heç kəs buyura bilməz.
İki sevən ürəyi
Sərhəd ayıra bilməz.

Ciyərlərim təşnədi
Saçlarının ətrinə.
Hər əzaba hazıram
Bircə görüş xətrinə…

**13. 03. 2002**

## SEVGİYƏ EHTİYACIM VAR

Qırsaqqız olmağa dəyməz,
Eşq ummazlar qəlbi daşdan.
Könlündə sevgi yoxdusa,
Gəl ayrılaq bəri başdan.

Bəlkə könlündən keçir ki,
Yetim quzu tək mələyəm?!
Allaha qalıbdır işim,
Nə bəşərəm, nə mələyəm.

Barmağına sarımısan,
Əzizim, deyəsən məni!
Yerdə sənə gərək ikən
Çəkirsən göyə sən məni.

Sevgi uman ürəyimi
Ziyarətgah, pir eləmə!
Dəli bir sevdaya düşən
Qəlbimi təhqir eləmə!

Sözlərin sazağa dönüb,
Soyuyub buza dönmüşəm.
İlan yuvası ağzında
Bitən yarpıza dönmüşəm.

Üstümdə ağı deməyə
Nə anam var, nə bacım var.
İnsanam, mələk deyiləm,
Sevgiyə ehtiyacım var…

12. 03. 2002

* * *

Sevən əzab çəkməlidi,
Əzəldən belədir qayda.
Səninlə mənimki tutmaz,
Boş təsəllidən nə fayda?!

Yuxu getmir gözümüzə,
Ürək baxmır sözümüzə,
Toy tuturuq özümüzə,
Mən bu toyda, sən o toyda.

Dizimdə qalmayıb təpər,
Gözlərim qanlı yaş səpər.
Arada tikanlı çəpər,
Mən bu tayda, sən o tayda…

13. 03. 2002





* * *

Gözlərini görən gündən
Adım da çıxıb huşumdan.
Məni odlara salmısan
Bircə yol keçib qarşımdan.

Qismətimə yazılmısan,
Taleyimdə yaz olmusan.
Özün əlçatmaz olmusan,
Xəyalın çıxmır başımdan.

Cana yaxın olur köynək,
Sevən qəlbim göynək-göynək…
Üzümdən öpmədin, neynək,
Öpərsən qəbir daşımdan…

14. 03. 2002

## ARADA SƏRHƏD NƏ GƏZİR

Bir zamanlar söyləyirdin
Könlünü mənə vermisən.
Özünü çəkib kənara,
Hicranı önə vermisən.

Gah deyirsən sevən qəlbin
Mənim qəlbimlə bir vurur.
Gah deyirsən aramızda
Keçilməz bir hasar durur.

Hərdən bir dediyin sözlər
Sevdalı könlümü əzir.
Mən sənin qəlbindəyəmsə,
Arada sərhəd nə gəzir?!

15. 03. 2002

## HƏLƏLİK

Yağılar soxulub yurduma,
Üstümə yeriyir kor duman,
Dolaşan işlərin bir zaman
Yaşayıb, sonunu görərik,
Hələlik, əzizim, hələlik!

Onsuz da batmışıq günaha,
Ümidim qalmayıb sabaha,
Bəlkə heç dönmədim bir daha,
Qəlbimə yaraşmır köləlik,
Hələlik, əzizim, hələlik!

Taqətim qalmayıb davaya,
Quş olub uçaram havaya,
Bəlkə də bu qərib yuvaya
Qayıdıb təzədən gələrik,
Hələlik, əzizim, hələlik!

Dayanıb yollara baxıram,
Şimşəyə çevrilib çaxıram,
Əlvida deməyə qorxuram, -
Bu dərdə dözmərik, ölərik,
Hələlik, əzizim, hələlik!

**17. 03. 2002**

## ZARAFAT

Sevən qəlbin istəyini duyaraq
Məni xəyal köhlənindən düşürür.
Ürəyimi kündə kimi yayaraq
Mənim yarım şəkərbura bişirir…

**17. 03. 2002**





* * *

Qapınızı döyüb, küncdə
Dayanmışam fağır-fağır.
Axır çərşənbə günündə
Boş qaytarmazlar papağı.

Heç biri könlümü açmır,
Sovqat yığsam da bir ətək.
Papağımın içinə qoy
Qəlbini şəkərbura tək…

**17. 03. 2002**

* * *

Gecə-gündüz məhəbbətlə
Adını əzizləyirəm.
Kor işıq gözləyən kimi
Bir sözünü gözləyirəm.

Dünyanın bütün dərdləri
Elə bil qəlbimə cəmdi.
Məhəbbətimin cavabı
"Bilmirəm", "deməyəcəm"di…

**23. 03. 2002**

* * *

Sənə könül verən gündən
Ömrümü həsrət bəzəyib.
Heyf, köksündə çatdığım
Sevgi odu öləziyib.

Daha hicran günlərində
Yaş göynətmir gözümüzü.
Aramızda sevgi yoxdu
Aldadırıq özümüzü.

Sən laqeydsən sözlərimə,
Özgələr eşidir məni.
Soyuyub buza dönmüsən,
Nəfəsin üşüdür məni…

27. 03. 2002

## ÖGEY ADAMLAR TƏK

Sənin soyuqluğun qəlbimi dəldi,
Yaralı könlümdə dərd düyün-düyün.
Ögey adamlar tək üz-üzə gəldik,
Ögey adamlar tək ayrıldıq bu gün.

Əsdi aramızdan sərin bir külək,
Qəlbin istəyəni özün ara, seç!
Gizlicə, oğrunca həsrətlilər tək
Gözün də gözümlə görüşmədi heç.

Yoxsa sənin üçün dönmüşəm yada?
Düşdü ürəyimə kölgə, əzizim.
Geyinib paltonu sağollaşmadan
Görüşə gedirdin bəlkə, əzizim?!

Həsrət ocağının közləri ilə
Üşüyən ürəyim isindi mənim.
Eşqinlə kimisə bəxtəvər elə,
Ağrılar, əzablar bəsimdi mənim…

27. 03. 2002

* * *

İçimdə ağrılar işarır,
Üstümə çökübdür bir kədər.
Arabir gözlərim yaşarır,
Ürəyim dincəlir bir qədər.





Təpədən dırnağa kədərəm,
Taqətim qalmayıb gül dərəm.
Baş alıb dünyadan gedərəm,
Dözmərəm bu uzun firqətə.

Alnıma ayrılıq yazılıb,
Gözümdən mirvari asılıb,
Ürəyim eşqinlə saz olub,
Ürəyin gəlməyib riqqətə.

Üstümə kor duman yeridi,
Qamətim şam kimi əridi,
Nə dərdim, dinmədim, kiridim,
Layiq də olmadım diqqətə…

29. 03. 2002

* * *

Sevən sevəni unutmaz,
Meyl etmədim hər gözələ.
Bir vaxt ayılıb gördüm ki,
Sən çiçəksən, mən xəzələm.

Bu nə sevgidi düşmüşəm,
Arabir huşa gedirəm.
Sən baharın sirdaşısan,
Mən üzü qışa gedirəm.

Gec anladım öz səhvimi,
Sənə layiq deyilmişəm.
Sən üfüqdən boylanırsan,
Mən qüruba əyilmişəm…

31. 03. 2002

## ÜRƏYİM BAXMIR SÖZÜMƏ

Sənin kimi sevgilim var,
Taleyim gülüb üzümə.
Gözlərini görən gündən
Yuxu da getmir gözümə.

Sevirəm sayıqlığını,
Ürəyinin saflığını,
Ancaq ki, soyqluğunu
Dərd eləmişəm özümə.

Ayrılığa gətirib tab,
Bəs deyilmi çəkdin əzab?
Deyirəm get tayını tap,
Ürəyim baxmır sözümə!

**07. 04. 2002**

* * *

Əlim şaddı əlində,
Gözüm qalıb telində.
Sevgilimin dilində
Acı söz də ballanır.

Ona olmuşam əsir,
Qəlbim yarpaq tək əsir.
Ruhumu sazaq kəsir,
Sevgilim xoşhallanır.

Saca həsrət kündəyəm,
Əzizimdən gendəyəm,
Mənə bax, nə gündəyəm,
Yara bax, nə sallanır?!

**14. 04. 2002**





* * *

Dedin: - Başımın üstündə
Nə qədər şimşək çaxıbdır.
Ancaq şadam, tufanlardan
Sevgim üzü ağ çıxıbdır.

Gülümsünüb baxdın mənə,
Könül açan bir söz dedin.
Düzəltdin mənim səhvimi,
"Sevgim" yox, "sevgimiz" dedin.

**14. 04. 2002**

## DALIMCA GƏL

Üstümü duman alıbdır,
Həsrət bəbəklər dolubdur,
Gözüm yolunda qalıbdır,
Məndən soraq alınca, gəl!
Dalımca gəl!

Qəlbim həsrətdən əriyib,
Üzümü xiffət bürüyüb,
Üstünə hicran yeriyib,
Boynuna qol salınca, gəl!
Dalımca gəl!

Dünya genişdi, dar deyil,
Yarı aramaq ar deyil,
Eşqin yolu hamar deyil,
Ayaqları yalınca gəl,
Dalımca gəl!

Nə olacaq görək indi?!
Sevgin mənim gərəyimdi,
Son ünvanın ürəyimdi,
Son nəfəsin qalınca, gəl,
Dalımca gəl!

**15. 04. 2002**

## BU YAZ DA BİR YAZ OLMADI

Həqiqətə göz yumurdum
Şirin xəyala cumurdum,
Mən ondan çox şey umurdum, -
Yuxum doğru yozulmadı,
Bu yaz da bir yaz olmadı!

Gözüm qalıb baxa-baxa,
Eşq yolum dirənib dağa,
Ürək yaxan ayrılığa
Niyə məzar qazılmadı? –
Bu yaz da bir yaz olmadı!

Buludların gözü dolub,
Güllər açılmamış solub,
Həsrətin göz yaşı olub
Kirpiyindən asılmadı,
Bu yaz da bir yaz olmadı!

Güllər arasında itmək,
Şeyda bülbül kimi ötmək,
Sənin vüsalına yetmək
Qismətimə yazılmadı,
Bu yaz da bir yaz olmadı!

**26. 04. 2002**

* * *

Eşitdim küsmüsən, nə əcəb?!
Deyəsən umursan nəsə sən.
Doğmadan, əzizdən küsərlər, -
Kiməm ki, sən məndən küsəsən?

**26. 04. 2002**





## MƏNƏ BAX E...

Sevinirəm səni görcək,
Arzularım açır çiçək,
Köksümə sığışmır ürək,-
Mənə bax e!

Maddım-maddım göz döyürəm,
Ağrılara döz deyirəm,
Nə qəribə söz deyirəm,
Mənə bax e!

Ayrılığa gərdim sinə,
İnanmıram bu eşq sönə,
Könlümü vermişəm sənə,
Mənə bax e!

İçimdə fırtına gəzir,
Qəlbim yarpaq kimi əsir,
Əlim əlinə tələsir,
Mənə bax e!

Mat qalmışam öz gücümə,
Səadət çöküb içimə,
Ta heç nə gəlmir vecimə,
Mənə bax e!

**07. 05. 2002**

* * *

Heç nə vecimə deyildi,
Öyünürdüm:
- Günayım var!
Görə bilmirəm üzünü,
Nə günüm var,
nə ayım var!

* * *

Bahar qoxulu nəfəsin
Dərdlərimin əlacıdı.
Sənin şəlalə saçların
Qəlbimin dar ağacıdı.
Bu yaşımda işə düşdüm,
Baxan halıma acıdı.
Vüsalın necə şirindi,
Ayrılığın nə acıdı!

**2002**

## ADINA EHTİYACIM VAR

Bəlkə qısqanclığım ilə
Könlünü yaralamışam?!
Ancaq sanma ki, adını
Qəlbimdən qaralamışam.

Könlüm sevgi şahmatında
Bircə gedişə mat olub.
Dilimdən düşməyir adın,
Dodaqlarım çat-çat olub.

Nə bir ayrı umacağım,
Nə bir ayrı əlacım var.
Qəlbimə eşqin düşəndən
Adına ehtiyacım var…

**P.S. Köksümdə çırpınan ürəksən,**
**Sən mənə həmişə gərəksən…**

**11. 05. 2002**





## ÖLMƏYƏCƏYƏM

Mənim əzabıma gülən çox olub,
Özgənin dərdinə gülməyəcəyəm.
Əgər perikdirsən könül quşumu,
Qayıdıb yanına gəlməyəcəyəm.

Nədənsə olmadın, gülüm, səmimi,
Tufanlar qərq etdi sevda gəmimi.
Kövrək sevincimi, xəfif qəmimi
Bir daha səninlə bölməyəcəyəm.

Ürəyim üşüyür qarda, sazaqda,
Sevda çiçəyimi soldurdu şaxta,
Təzə sevgilər var hələ qabaqda,
Mən sənin dərdindən ölməyəcəyəm…

**13. 05. 2002**

## ONSUZ DA BİLİRDİM BELƏ OLACAQ

Hansı arzuylasa gizli yanmısan,
Sirrindən sevgilin tez agah oldu.
Əzizim, eşitdim nişanlanmısan,
Ürəyim dərdlərə nişangah oldu…

Tapa bilmədinsə səadətini,
Nə vaxtsa fırtına qoparacaqsan.
Qəlbin məndədisə, sən qamətini
Necə ər evinə aparacaqsan?!

Zərif bir çiçəyin taleyinə bax,
Həyəcan içində yaşayacağam.
Nə o, ürəyinə sahib olacaq,
Nə mən qamətini oxşayacağam.

Onsuz da faydası yoxdu gileyin,
Təşnəsən, həmişə su arasan da!
Bilmirəm nə qədər sənin taleyin
Qalacaq od ilə su arasında?!

Mənim əzablarım ölçüyə gəlməz,
Nə üzlə üzümə gözün baxacaq?
Müqəddəs mə'bədlər boş qala bilməz,
Yenə taleyimə günəş doğacaq…

Dalma xəyallara sən köks ötürüb,
Yalançı peymanlar kimə lazımdı?
Əzəldən mənimki belə gətirib,
Görüşlər, vidalar alın yazımdı.

Sən sevgi közümlə çatmısan ocaq,
Həsrət gözlərimdən alov saçılır.
Onsuz da bilirdim belə olacaq, -
Məni sevənlərin bəxti açılır…

**17. 05. 2002**

## ÖYRƏŞ MƏNSİZ YAŞAMAĞA

Acı xəbər kilid vurub dilimə,
Heç bilmirəm nə deyim, nə söyləyim?
Bilirdim ki, uzun sürməz bu sevda,
Ürəyimlə bacarmadım, neyləyim?!

Bilirdim ki, bir ilğımdı eşqimiz,
İllər durur, aylar durur arada.
Körpüsünü sellər yuyub aparmış
Qıjıltılı çaylar durur arada.





Eşitmədim mən ağlımın sözünü,
Qulaq asdım ürəyimin əmrinə.
Sən layiqsən xoşbəxtliyə, əzizim,
Yamaq olmaq istəmirəm ömrünə.

Ancaq sevgi gülşənində izim var,
Heç olmasa hərdən məni yad elə.
Öz əlimlə bəslədiyim çiçəyi
Heç bilmirəm necə qıydım yad ələ?!

Əzəl gündən mənim qəlbim yaranıb,
Həsrət yükü daşımağa, əzizim!
Bu dünyanı tutub gedən deyiləm,
Öyrəş mənsiz yaşamağa, əzizim!…

**19. 05. 2002**

## ƏSİR AYRILIĞIN SOYUQ YELLƏRİ

Bilmirəm nə işdi başıma gələn,
Qəlbimi bir həsrət sazağı kəsir.
Payız yarpağına dönüb ürəyim,
Üstümdən ayrılıq yelləri əsir.

Az qalır ürəyim köksümdən qopa,
Biləndə əkdiyim güllər solacaq.
O teli özgə əl sığallayacaq,
O əlin sahibi özgə olacaq…

Elə narahatam, elə küskünəm,
Ayrılıq yağışı yağır üstümə.
Halıma acıyır göylər elə bil,
Buludlar gözünü sıxır üstümə.

Bilirdim ürəyim zillət çəkəcək,
Sevgi yollarında ağrı, əzab var.
Gözümün yaşında eşqin bərq vurur,
Zəngine döndərib məni əzablar.

Əsir ayrılığın soyuq yelləri,
Bilmirəm dincliyim hayana getdi?
O qədər yalvardım, Tanrım qəlbimi
Sevgi əzabıyla bəxtiyar etdi.

Gözlərin həsrətlə baxsa üzümə,
Ürəyim bir sarı sim ola bilər.
Sənin hicranından aldığım həzzi,
Sənin vüsalından kim ala bilər?!

19. 05. 2002

## TƏSƏLLİ

Özünə güvən, əzizim,
Özgədən kömək umunca.
Yazdığım hicran nəğməsi
Səni kövrəldib yamanca.

Sevincdənmi, kədərdənmi
Gözlərindən sellər axır.
Sənin də evin, eşiyin
Olmalıydı əvvəl-axır…

Mənim qəlbim əzəl gündən
Öyrəşibdir dərd-ələmə.
Bu da tanrı qismətidi,
Ayrılığı dərd eləmə!

Sən də mənim günümdəsən,
Göynəyirsən için-için.





Elə bu da təsəllidi, -
Sağ ol, kövrəldiyin üçün!

Yeyir acgöz güvə kimi
Ürəyimi fikir, Tanrım!
Qəlbim sevgidən titrəyir,
Kəramınə şükür, Tanrım!

20. 05. 2002

## YENƏ BİR VURACAQ ÜRƏKLƏRİMİZ

Ürəyin ağrıyıb, göynəyib için,
Vaxtında biləydim gərək sirrini.
Məni itirməkdən qorxduğun üçün
Gizli saxlayırsan ürək sirrini.

Sənə yaraşarmı könül ağrıtmaq?
Tuşlanıb qəlbimə dərd nizə-nizə.
Çətindi bu eşqi açıb-ağartmaq,
Qohumlar, tanışlar nə deyər bizə?!

Qəlbimi odlara salan sevgini
Bilən şərik olar mənim dərdimə.
Ancaq aramızda olan sevgini
Bir Tanrı biləcək, bir sən, bir də mən.

Ürəyim ağrıyır, yol çəkir gözüm,
Qəlbimin başında dərd qurub bardaş.
Məhəbbət heç nəyə baxmır, əzizim,
Nə qohum tanıyır, nə dost, nə qardaş.

Gözlərim gözünü vətən seçibdir,
Taqətimiz yoxdu indi dinməyə.
Daha olan olub, keçən keçibdir,
Yolumuz qalmayıb geri dönməyə.

Sevgi dağlarına duman, çən gəlib,
Payıza veribdir yerini bahar.
Bu eşq qəlbimizə göylərdən gəlib,
Nə sən günahkarsan, nə mən günahkar…

Təmiz eşq insanı ucaldır, gülüm,
Düşüb qəlbimizə pozulmaz bir iz.
Məhəbbət hər şeydən ucadır, gülüm,
Yenə bir vuracaq ürəklərimiz…

22. 05. 2002.

## AYIRA BİLMƏZ

Könlünü vermişdi mənə bir pəri,
Sanırdım alınmaz bürcüm, qalam var.
Məcnun neyləsin ki, əzəldən bəri
Yolunun üstündə İbn Səlam var.

Sərhəd çəkiləndə şirin vüsala,
Qılınc öz qınından sıyrılmalıymış.
Niyə ürəyimiz bir ola-ola
Bizim yollarımız ayrılmalıymış?!

Zaman çıxdaş edir, gülüm, qəlpləri,
Təşnəni dəryalar doyura bilməz.
Eyni ahəng ilə vuran qəlbləri
Ayrılıq özü də ayıra bilməz…

22. 05. 2002

## ƏLVİDA

Mənim sənə olan sevgim
Öz işini görüb daha.
Arxayınca ölə bilər, -
Əlvan çələng hörüb daha!





O səni toy zirvəsinə
Qaldıran pilləkən olub.
Sərgərdan sevgi gəmini
Üzdürən ağ yelkən olub.

Şaxtalara gətirdim tab,
Yaz gəlməsə, qış gedərmi?!
Sən kef çəkəsən, mən əzab,
Bu Tanrıya xoş gedərmi?!

Əlvida, vəfalım mənim!
Daha lal ola bilmərəm.
Ayaqlarınız altında
Pyedestal ola bilmərəm.

Sənə uğur diləyirəm,
Qələm çək bu məhəbbətə!
Mənim qəlbim layiq deyil
Bir yarımçıq səadətə…

24. 05. 2002

## QALMAYIB

Mənə öz alovum, öz odum yetər,
Özgə ocağında gözüm qalmayıb.
Yandı bu sevginin son közləri də,
Daha kül olmuşam, közüm qalmayıb.

Özünə yar seçdi bu könül səni,
Nəğməkar bir bülbül sandı gül səni,
Elə biganəsən, elə bil sənin
Sevgi gülzarında izim qalmayıb.

İsidə bilmədim səni közümlə,
Yollara baxıram nəmli gözümlə,
Daha danışıram özüm özümlə,
Sənə deyiləsi sözüm qalmayıb…

## BİR GÖZÜM GÜLƏCƏK

Çökübmüş üstünə ayrılıq çəni,
Gözün yaş tökməyə məqam gəzirmiş.
Mən elə bilirdim sevmirsən məni,
Sən demə ürəyin tir-tir əsirmiş…

Sənsiz varlığımda fırtına qopar,
Üzünü nə bulud, nə duman alsın.
Sevgi sevincini özünlə apar,
Ağrılar, əzablar qoy mənə qalsın.

Çiçəyə can atan körpə böcəyəm,
Sına ürəyimi darda, çətində.
Xoşbəxt ola bilsən, sevinəcəyəm,
Mənim də payım var səadətində.

Xoşbəxtlik sevməkdi bəlkə də elə,
Kim anlaya bilib könül işini?!
Bir gözüm gizlicə ağlasa belə,
Bir gözüm güləcək səni düşünüb…

**02. 06. 2002**

## DƏNİZLƏ SÖHBƏT

Ay dəniz, pənahım olmusan mənim,
Yanına gəlmişəm yayda, payızda.
Qoynuna can atıb ruhum, bədənim,
Səni düşünmüşəm qarda, ayazda.

Tufanlar salıbdır saçlarına dən,
Sən kükrəyən zaman mən də dolmuşam.
İçim dalğalanır səni sevəndən,
Eşqi, məhəbbəti dəniz olmuşam.





Həmişə ömrümü sevgi bəzəyib,
Həsrət nəğmələri qanad açıblar.
Gözəllər köçəri quşa bənzəyib,
Qəlbimdə qışlayıb, sonra uçublar.

Gözümdə bir eşqin şimşəyi söndü,
Qəlbimə yağışlar yağdı gizlicə.
O qız da köçəri bir quşa döndü,
Səadət dalınca uçdu bu gecə…

Qoyma giley-güzar dola qoynuma,
Tazanəyə həsrət simim var mənim.
Dalğa qollarını dola boynuma,
Daha səndən başqa kimim var mənim?!

**02. 06. 2002**

## AYRILIĞIN ŞİMŞƏKLƏRİ

Vida deyəcəyin günün
Tarixini gizləyirsən.
Mənim qismətim hicrandı,
Sənsə vüsal gözləyirsən.

Ayrılığın şimşəkləri
Nə zamansa çaxmalıdı.
Niyə gizləyirsən, gec-tez
Bu can bizdən çıxmalıdı…

Mənim sevdalı qəlbimdən
Sevinc itib ilim-ilim.
Ölüm gününü əzəldən
Bilmək müsibətdi, gülüm!

Sevgimizin çiçəkləri
Öləziyib, solub daha.
Səadətli günlərimin
Ömrünə az qalıb daha…

**23. 06. 2002**

* * *

Bu axşam əsirdi hicran yelləri,
Gözlərin gizlicə mənə baxırdı.
İçimi oyurdu həsrət selləri,
Mənim ürəyimə yağış yağırdı.

Qəlbim inləyirsə, de, necə gülüm? –
Gözlərim qıvrılan telində idi.
Sən mənə "vəfasız" deyəndə, gülüm,
Əllərin özgənin əlində idi.

Ayrılıq qəlbimdə çarpaz dağ olub,
Sevən ürəyimə güc eləyirəm.
Mənim sevgi yuvam təzə dağılıb,
Hələ harda gəldi gecələyirəm…

**07. 07. 2002**

* * *

Gözlərini görən gündən, əzizim,
Ərşə çıxıb gözlərimin yuxusu.
Ürəyimdə gecələyir həsrətin,
Üzümə gül, qəlbin nəğmə oxusun.

Bəbəyində şimşək çaxıb elə bil,
Baxışından gəlir tufan qoxusu.
Daha mənim heç nə deyil vecimə,
İslanmışın yağışdan nə qorxusu?!

**21. 07. 2002. Qusar.**





* * *

Deyirsən: - Sən məni həyatın qədər
Sevirsən! –
Çox sağ ol bu sevgi üçün!
Həyatın bu qədər ucuzdur məgər, -
Payız yarpağına vuruldun neçün?!

**23. 07. 2002. Qayakənd.**

* * *

Yollarımda gözün qalıb,
Dodağımda közün qalıb.
Ürəyimdə heç bir zaman
Silinməyən izin qalıb.

* * *

Gizli bir sevdayla göynəyir için,
Gözündə bir damla qərib yaş qalıb.
Əllərim darıxıb əllərin üçün,
Köksümdə köksünün yeri boş qalıb…

* * *

Könlümdən keçməyib əsla,
Gözlərini nəm eləyəm.
Mən adicə bir insanam,
Nə şeytanam, nə mələyəm.

**23. 08. 2002**

## GÖRDÜM

Düz pətəyin qarşısında
Ölən arını gördüm.
Təzə sevgi məzarının
Bumbuz qarını gördüm.

Əzab çəkər üzə düşən,
Sevgin oldu tez ötüşən,
Aramıza təzə düşən
Uca barını gördüm.

Sevə bilirsən, varlısan,
Hələ qəlbi qübarlısan,
Deyirdin e'tibarlısan, -
E'tibarını gördüm.

**02. 10. 2002**

## DÜNYANIN İŞİNİ NƏ BİLMƏK OLAR

Ağlıma gəlməzdi ürəyindəki
Məhəbbət belə tez buza dönəcək.
Üstümə ayrılıq dumanı çöküb,
Nə vaxt qışın üzü yaza dönəcək?!

Hərdən görüşsək də toyda, düyündə
Düşüb aramıza keçilməz hasar.
Bəlkə də qəlbinin dərinliyində
Mənim də öz gizli, hicra yerim var.

Öz sevgi dünyamdan olundum sürgün,
Daha mən heç kəsi qınamayacam.
Ağlıma gəlməzdi, nə vaxtsa bir gün
Sənin səsini də tanımayacam.

Taleyim beləymiş, pərişan oldum,
Ürəyi nə satmaq, nə bölmək olar.
Bəlkə mən nə vaxtsa bəraət aldım,
Dünyanın işini nə bilmək olar?!

**16. 10. 2002**





***

Dünən keçdi, nə e'tibar yarına?
Bu günün var, zülm eləmə yarına.
Mənim qəlbim qəmin hicra guşəsi,
Ötəridir bu dünyanın nəş'əsi…

**21. 10. 2002**

***

Fəhmim məni aldatmadı,
Yara üstə duz imişsən.
Bu dünyanın özü kimi
Sən də vəfasız imişsən.

Məni itirəndə qəlbin
Sarı sim tək titrəyəcək.
Yalan ayaq tutsa belə,
Əvvəl-axır büdrəyəcək.

Ancaq həyat qabaqdadı,
Bu itkini qəm eləmə!
Sənin üçün çətin deyil
Ürəkləri ram eləmək.

Şaxtadan xəbərsiz olan
Tumurcuqlar puçur-puçur…
Yalan üstündə qurulan
Sevgi sarayları uçur…

**31. 01. 2003**

## HƏR GECƏ GƏLİRSƏN YUXULARIMA

Susuruq, qəlbimiz gəlsə də dilə
Bilmirəm heç nəyi gözləyirik biz.
Saxta təbəssümlə, nəvaziş ilə
Təmiz bir sevgini gizləyirik biz.

Ürəkdə dustaqdı ürək sözləri, -
Tə'nə alovunda ütülə bilər.
Neyləyək, bu sevgi ürəksizlərin
Quduz caynağında didilə bilər.

Xoşbəxt görünsək də zahirən, üzdən,
Həsrətdən göynəyir ürəklərimiz.
Bir vaxt ayrılmazdıq bir-birimizdən,
İndi yuxularda görüşürük biz.

Öz təzə yurdunda qəribsən, qərib,
Şəriksən müqəddəs duyğularıma.
Yanında yatanı yuxuya verib,
Hər gecə gəlirsən yuxularıma.

Ayrılıq göynədir ürəyimizi,
Məhəbbət bağından hicran dərmişik.
Biz öz sevgimizi, diləyimizi
Amansız taleyə qurban vermişik…

**06. 02. 2002**

***

Ayrılıq bizə yar oldu,
Elə bil ki, gözə gəldik.
Bir gün bəxtimiz gətirdi,
Səninlə üz-üzə gəldik.

Özün yaxşı bilirsən ki,
Ürəyim əllərindədi.
Bu gün məni sevdiyini
Titrəyən əllərin dedi.

Taleyim güldü üzümə,
Ürcahıma yarım çıxdı.
Eşqi bütöv bir ürəyin
Səadəti yarımçıqdı…

**14. 02. 2003**





## DÖNMÜSƏN

Bir vaxt əzəmətli eşq dağı idin,
Ovulub, ovulub toza dönmüsən.
Yanar ocaq idi köksündə ürək,
Soyuyub, soyuyub, buza dönmüsən.

Sevdalı qəlbinin kəsilib səsi,
Üstümdən ayrılıq yelləri əsir.
Dilindən perikib sevgi nəğməsi,
Bir simi qırılmış saza dönmüsən.

Qəfəsə salmısan quşu gətirib,
Kəsəyə tay etmə daşı gətirib,
Mənim ürəyimə qışı gətirib,
Özgənin qəlbində yaza dönmüsən.

Vecimə almıram dumanı, çəni,
Sən saldın saçıma ələnən dəni,
Həsrət göyüm-göyüm göynədir məni,
Yarama səpilən duza dönmüsən…

**07. 04. 2003**

## SƏNİN SÜKUTUN

Allah bilir sözlərimi
Neçə yerə yozmusan sən.
Ürəyimin sükutunu
Sükutunla pozmusan sən.

Bu qədər incidərlərmi
Sevgiyə layiq insanı?
Başa düşmürəm qəlbində
Eşq ola-ola susanı…

Səsimi eşidən zaman
Nələri yada salırsan.
Bəlkə sən öz sükutunla
Məndən intiqam alırsan?!

Yaxın gəlmək istəmirsən,
Uzaqdan durub baxırsan.
Deməyə sözün yoxdusa,
Niyə nömrəmi yığırsan?

***

Onsuz da axırı yoxdu yalanın,
Lağ edib gülməzlər dosta, tanışa.
Qəlbində bu qədər sevgi olanın
Niyə cəsarəti çatmır danışa?!

**25. 06. 2003**

## YAXINA GƏL

Bircə anın içində
Güclü bir axın oldu.
Bir-birimizə necə
Mehriban, yaxın olduq!

Eşqinlə bulaq kimi
Çağlamaqdan doymaram.
Səni köksümə sıxıb,
Qoxlamaqdan doymaram.

Üzümə üz qoymağı
Könlün yaman istəyir.
Pıçıldayıb deyirsən,
Üzünə sıx dəstəyi!

Təbəssümünlə nur səp
Ürəyimin ahına.





Bəsdi uzaqda gəzdin,
Yaxına gəl, yaxına!

İstəyirəm yanağım,
Yanağına toxuna.
Həsrət məni göynədir,
Yaxına gəl, yaxına!

**01. 07. 2003**

## SAHİLDƏ

Yağışın, dənizin qoynunda
Bəxtəvər olmuşam bu səhər.
Əlimdə, üzümdə, gözümdə
İz salıb ilahi busələr.

Könlümdən keçir ki, sahildə
Səninçün bir mə'bəd tikim mən.
Bu dünya boşalıb elə bil,
Təkəm mən, təkəm mən, təkəm mən!

**2003**

***

Səni qınamıram, gülüm, düz etdin,
Ellər nə deyərdi bu məhəbbətə?!
Qəlbin sevməsə də, sən ərə getdin,
Son qoymaq istədin bu söz-söhbətə.

Təmiz bir sevginin gördük sonunu,
Həsrət meşəsinə düşüb azacam.
Pozdum dəftərçəmdən telefonunu,
Adını qəlbimdən necə pozacam?!

**24. 08. 2003**

***

Yazırsan ki, mən olmuşam
Sənin sevgi asimanın.
Bu nə sevdadı düşmüsən,
Qarlı qışdan yaz umanım?!

Gözlərin necə doğmadı,
Ancaq heç bilmirəm kimsən.
Sən mənim könül tarımda
Elə bil ki, sarı simsən.

Əridə biləcəksənmi
Mənim qəlbimin buzunu?!
Əminsənmi tapdığına
Sən öz tale ulduzunu?!

Sənin sevda göylərində
İşıq saçır mənim qəlbim.
Könül yaxan ayrılığa
Olacaqmı qənim qəlbim?!

**24. 08. 2003**

***

Dözmədi bu ayrılığa,
Sevdalı qəlbim inlədi.
Özün özgənin yanında,
Həsrətinsə mənimlədi…

Bilmirdim belə olacaq,
Tale yamanca sərt oldu.
Sevgimiz bir xəyal idi,
Ayrılıq həqiqət oldu…

**24. 07. 2003**





## HƏR GÜN GÖZLƏRİMLƏ ÖPƏRDİM SƏNİ

Məni mars elədin, pərt oldum yaman,
Bilmirəm nə deyim tale zərinə?
Əllərim əlinə sığınan zaman
Dönərdim dünyanın bəxtəvərinə.

Tez-tez kövrələrdin, dolardı gözün,
Sevgi yağışında yuyardın məni.
Necə xoşbəxt idik onda, əzizim,
Bircə baxışımdan duyardın məni.

Ötdümü ömrümdən sonuncu bahar,
Sevda bülbülümün batdımı səsi?!
Könlümü yaxardı şirin əzablar,
Dilimdən daşardı sevgi nəğməsi.

Nur kimi gözümə təpərdim səni,
Ay tək şəfəq saçan üzünə baxıb.
Hər gün gözlərimlə öpərdim səni,
İndi o səadət əlimdən çıxıb…

**01. 12. 2003**

## BU YUXU DEYİLDİ

Payız yarpağı tək əsirdi ürək,
Həsrət ilim-ilim gözümdən itdi.
Bizi bu həyatda ayıran fələk
Bu gecə yuxuda bəxtəvər etdi…

Kövrəldim görəndə mən dolduğunu,
Yetdim vüsalına, daha nə dərdim.
Bilmirdim cənnətin nə olduğunu,
Bu gecə mən onu rö'yada gördüm.

Axır ki, toxundum mən sarı simə,
Bu sevgi, bu görüş bəxt işi idi.
Bu yuxu deyildi, sevən qəlbimə
Ulu yaradanın bəxşişi idi…

**07. 12. 2003**

***

Sevginin qədrini bilməz
Hər qəhrəman, hər bahadır.
Sən özünə qəsd eləmə,
Həyat sevgidən bahadır…

**07. 12. 2003**

## NİYƏ? NƏ ÜÇÜN? NƏDƏN?

Oxum daşa dəysə də,
Taleyimdən küsmədim.
Əzəl gündən görüşlər,
Ayrılıqlar – qismətim.
Baş açmıram ki, nədi
Ürəyimi göynədən?
İçimdən bir səs gəlir:
Niyə? Nə üçün? Nədən?

Gözlərim önündəsən
Mən getsəm də haraya.
Can bədəndən ayrılır,
Yetən yoxdu haraya.
Ürəyim parçalanır
Bir qırıq neyə görə.
Heç özüm də bilmirəm
Nə üçün, nəyə görə?!





Meşə səndən söz açır,
Dəniz səndən danışır.
Gözlərimdə həsrətin
Ulduzlar tək sayrışır.
Arabir ah çəkirsən,
Yoxsa göynəyir için?
Niyə? Nədən? Nə üçün?

Dərdin ayağı altda
Sevincim çopur-çopur.
Ürəyimin başından
Bir yanıqlı ah qopur:
Özgənin olmalıymış
O əl, o göz, o bədən…
Niyə? Nə üçün? Nədən?

**08. 12. 2003**

## ƏLVİDA

Əlvida, əlvida! –
Söylədim
nədən mən?
Ayrılsa neylərəm
Can əgər
bədəndən?
Həsrətin od olub,
İçimi göynədir.
Bilmirəm yer nədir,
Bilmirəm göy nədir?!
Dil əsib acıqla
Desə də əlvida,
Yapışıb əlindən,
İstəmir əl vida…

**11. 12. 2003**

***

Yol çəkən gözlərin
Bulud tək dolubdur.
Sevdalı ürəyin
Yanımda qalıbdır.

Ayağın getsə də,
Sən gedə bilmirsən.
Məhəbbət odunu
Səngidə bilmirsən…

***

Gözündən sevgi daşır,
Aldadırsan sən kimi?
Ürəyindəki həsrət
Səngimir ki, səngimir…

**31. 12. 2003**

## HƏSRƏT

Quzu taleli sevgimiz
Tuş olub bir yalquzağa.
Nə vaxtacan köks ötürək
Durub uzaqdan uzağa?

Ürəyindən nələr keçir? –
Yenə qaşların çatılıb.
Yanağının həsrətindən
Dodaqlarım çat-çat olub.

Sarı yarpağı öpürəm
Saçlarının əvəzinə.
Əlim əlinə həsrətdi,
Ciyərlərim nəfəsinə…

İçin-için qovrulursan,
Tanrı yetsin imdadına.





Dodaqlarım tamarzıdı
Dodaqlarının dadına.

Ömrüm-günüm, qəlbimdəki
Sevgi odu solmur axı?!
Halva-halva söyləməklə
Ağız şirin olmur axı?!

**01. 01. 2004**

## ÇOBANYASTIĞI

Dilləndi çobanyastığı:
- Çiçək yolanı kim sevər?
Bir özün yaxşıca düşün,
Qəddar olanı kim sevər? –

"Sevir, sevmir" – deyə-deyə
Yolma mənim ləçəyimi.
Dərib apar sevgilinə
Mənim gözəl çiçəyimi…

**13. 02. 2004**

***

Qorxduq elin qınağından,
Qəlbin istəyindən keçdik.
Sevgi əzabından qaçdıq,
Bir sakitcə ömür seçdik.

Eşqi daşlara dəyənin
Qəlbi gileyli olarmış.
Nə məndən Məcnun çıxarmış,
Nə səndən Leyli olarmış.

Danışmağa dəyərmi heç
Xoşbəxtlikdən, səadətdən?
Rahat həyat yaxşıdmı
Əzab dolu məhəbbətdən?!

**14. 02. 2004**

***

Ömür boyu sevən qəlbim
Hey can atıb qəmə sarı.
Niyə düşüb aramıza
Ayrılığın qəm hasarı?!

Ancaq yaxşı ki, sən varsan,
Qəlbimdə adın yaşayır.
Bilirəm ki, məni sevən
Gözəl bir qadın yaşayır...

***

Üzümüzə açılmasa sevdalı səhər,
Üstümüzə qəm buludu çökəcək bizim.
Özümüz də bilmirik ki, Tanrı nə qədər
Ayrılığın sınağına çəkəcək bizi?!

Könlümdəki həsrət odu çətin ki, susa,
Neyləyəcəm əllərindən əlim üzülsə?!
Aramıza hicran qışı salacaqdısa,
Tale niyə gətirirdi bizi üz-üzə?!

**18. 02. 2004**

***

Öndə bizi nə gözləyir,
Hələ nələr görəsiyik?!
Biz hərəmiz bu dünyanın
Bir kiçicik zərrəsiyik.

Həsrətin məni göynədir,
Bəbəyimdə şimşək çaxır.
Zərrə boyda ürəyimə
Dünya boyda sevgi sığır.

Dənizdə bir qətrə suyam,
Səhrada qum dənəsiyəm.
Bircə dəfə haraylasan,
Mən yanına dönəsiyəm.





Sarı bir yarpağa dönüb,
Küləklərə qoşulacam.
Gözünə çökən buludam,
Kirpiyində yaş olacam...

**25. 02. 2004**

## BİGANƏLİK SAZAĞINDA

Qəlbində sevgi olmasa,
Duya bilməzsən şerimi.
Həyatda da, sevgidə də
Mən bilirəm öz yerimi.

Biganəlik sazağında
Soldu sevgimin gülləri.
Nə üçün havada qoydun
Sənə uzanan əlləri?

Hər ağıllı könül verməz
Xəmiri sıyıq olana.
Həsrət odu neyləyəcək
Buz kimi soyuq olana?

Doğma, isti ocağım var,
Küçələrdə qalmamışam.
Öz sevgimlə bir kimsəyə
Mən hələ yük olmamışam.

Bəlkə məni qısqanırsan? -
Qəlbində sevgi işarır.
Ürəyindən nələr keçir, -
Qonur gözlərin yaşarır.

Bir-birini sevənlərin
Arasında axı nə sirr?

Gözlərin mənə baxanda
Ürəyim yarpaq tək əsir…

Bir özün yaxşı fikirləş:
Kim mehriban,
Kim soyuqdu?
Qəlbimdə sənin yerini
Tuta bilən kimsə yoxdu…

**07. 04. 2004**

## SƏNƏ DƏ QAR YAĞDI…

Ötən sevdaların qaynar alovu
Arzumu içimdə pörşələmişdi.
Eşqin gözümə nur, dizimə təpər,
Qəlbimə ilk bahar bəxş eləmişdi.

Sanırdım dünyanın bəxtəvəriyəm,
Arzular könlümdə qönçələmişdi.
Viranə könlümün isti küncündə
Bir qərib məhəbbət gecələmişdi.

Daha ayağımda təpər qalmayıb,
Uca zirvələrə güzar etməyə.
Sənə də qar yağdı, güvəndiyim dağ,
Qəlbimin odu yox buz əritməyə…

**17. 04. 2004**

***

Taleyin yar olsa, qəlbin də güləcək,
Nazlanıb sevinsin, əlini gülə çək!
Sevgini ürəkdə saxlamaq çətindi,
Geci var, tezi var, el-aləm biləcək…

**17. 04. 2004**





## SONU AYRILIQLA BİTƏN SEVGİLƏR

Qorxuram həsrətlə yoğrulan sözüm
Qəlbində sevməyə həvəs oyada.
Xatirə külündə işaran közü
Bir qaynar, sevdalı nəfəs oyada.

Elə bil dönmüşəm Prometeyə,
Cəllad tək köksümə çöküb taleyim.
Məni eşq odunda əsir eyləyib,
Sevgi sınağına çəkib taleyim.

Həsrətli gözümə dikib gözünü
Oyatma içimdə yatan tufanı.
Nə üçün özünə yurd yeri seçdin
Sevgisi perikən köhnə yuvanı?

Yaxar ürəyimi həsrət bürküsü,
Çiçəklər sığınar çənə, çisginə.
Sonu ayrılıqla bitən sevgilər
Mənim ürəyimi qoyub pis günə…

Qorxuram həsrətlə yoğrulan sözüm
Qəlbində sevməyə həvəs oyada.
Xatirə külündə işaran közü
Bir qaynar, sevdalı nəfəs oyada…

**03. 05. 2004**

## OCAQ ÖMRÜ

Oduna möhtacdı hər ocaq ömrü,
Neçə yol özümü təzələmişəm.
Neçə qol-budaqlı nəhəng ağacı
Mən öz ağuşumda köz eləmişəm.

Qəlbimdə yaşamaq inamı artıb,
Sevdalı könlümün gözləri doymur.
Hərə qucağıma bir çırpı atıb,
Sevgi ocağımı sönməyə qoymur.

Könlündən keçir ki, mənim ürəyim
Səninçün məhəbbət mə'bədi olsun.
Əbədi deyilsə ömrümüz əgər,
Sevgimiz bəs necə əbədi olsun?!

Bəlkə heç yadıma düşməyəcəksən,
Bəlkə də səninçün darıxacağam.
Nə vaxtsa alovum külə dönəcək, -
Hələ işıq saçan yanar ocağam...

P.S. Ocağın içində özü çırpınır,
Axı nə olacaq közü çırpının?!

**04. 08. 2004. Qusar.**

***

Sən duya bilmədin dəniz sevgimi,
Baxmadın gözümdən çağlayan selə.
Söylə, nə qazandın, təmiz sevgimi
Firavan həyata dəyişmək ilə?!

Dağlardan ayrılıq yeli əsəndə
Üzünə ələndi həsrətin çəni.
Mənimlə qovuşmaq istəməsən də,
Dünyadan getməyim qorxudur səni.

Nəyinə gərəkdi gözü toxluğum –
Həsrətin qəlbimi iki bölübsə?!
Heç nəyi dəyişməz mənim yoxluğum,
Sənin ürəyində sevgim ölübsə...

**12. 03. 2005**





## BELƏ GÖRMƏMİŞDİM SƏNİ HEÇ ZAMAN

Sevdalı könlümdən məhəbbət uman
Bir pəri həmişə üzüb dərində. –
Belə görməmişdim səni heç zaman,
Gözlərin gülürdü məni görəndə.

Sevgisi perikən küskün qəlbimi,
Gülüm, məhəbbətlə dindirdin o gün.
Titrədi qəlbimin qırılmış simi,
Məni bəxtəvərə döndərdin o gün.

Baxıb köks ötürdüm sənə dərindən,
Nəmli kirpiklərin pıçıldaşırdı.
Gözümə dikilən bəbəklərindən
Sevgi kükrəyirdi, sevgi daşırdı.

Görmürdün saçıma ələnən qarı,
Könlümü yandırıb yaxırdı gözün.
Buluda bənzəyən qara paltarın
İçində ay kimi yanırdı üzün.

Sənin məhəbbətlə baxan gözlərin
Mənim həsrətimə qənim olmuşdu.
Məlhəmə dönmüşdü titrək sözlərin,
Əllərin bir anlıq mənim olmuşdu...

**13. 03. 2005**

## YENƏ SƏN ÇATDIN DADIMA

Dərd kotanı ürəyimdə
Özü üçün yer açırdı.
Ayaqlarımın altından
Elə bil ki, yer qaçırdı.

Ürəyim payız yarpağı, -
Həsrət qəlbimə güc etdi.
Nəfəsinlə içimdəki
Solan gülləri cücərtdin.

Ötənləri, keçənləri
Bir-birinə qarışdırdın.
Sən mənim küskün qəlbimi
Özüm ilə barışdırdın...

**15. 05. 2004**

## HEYF

Düz mənə doğru gəlirdin,
Yoldan döndərdi kim səni?
Belə sevə bilməmişdim
İndiyəcən bir kimsəni.

Hicran gördün, vüsalımın
Dadını ala bilmədin.
Heyf, mənim həyatımın
Qadını ola bilmədin...

**10. 06. 2004**

## SƏMUM

Nəfəsimiz babaların,
Nənələrin nəfəsidir.
Bizə quş tək qanad verən
Sevginin qadir səsidir.

Əsrlərin o başından
Bu başına əsən yelik.
Pis niyyətlə gələnlərin
Qarşısını kəsən yelik.





Nəqarat

Bədnəzərin gözlərini
Kor eləyən qum olarıq.
Dosta sərin bahar yeli,
Düşmənə səmum olarıq.

Səsimizi dinləyəndə
Qəlbiniz olsun mum kimi.
Özünüzü yığışdırın,
Əsərik ha, səmum kimi...

Bu torpağın övladıyıq,
Bu torpaqdan güc alarıq.
Qəlbimizdə vətən eşqi
Zirvələrə ucalarıq.

Şah babamız Xətainin,
Koroğlunun nəvəsiyik.
Tarixlərə köçüb gedən
İgidlərin əvəziyik...

Nəqarat

**20. 07. 2004**

## GƏL MƏNİ ALDATMA

Baxışınla aləmi
Bir-birinə qatmısan.
Elə bil bu dünyanı
Sən özün yaratmısan.

Çəmən çiçəklərimi
Saçlarına düzdüyün?
Bəs deyilmi, əzizim,
Ürəyimi üzdüyün?

Nəqarat

Sən nəfəs alan zaman
Qəlbim yarpaq tək əsir.
Sanki köksümdən qopub,
Görüşünə tələsir.
A gözləri can alan,
A qaşları çatma yar.
Xəyanətə dözmərəm,
Gəl məni aldatma, yar!

Sevdalı baxışların
Ulduzlarla yarışır.
Çox razısan özündən, -
Bu naz sənə yaraşır.

Süzdürürsən gözünü,
Yandırırsan, yaxırsan.
Məhəbbət göylərimdə
Şimşək kimi çaxırsan.

Nəqarat

**24. 07. 2004**

## NAZIN ÖLDÜRƏCƏK

Qəlbimi üzürsən,
Ay nazənin pəri!
Qorxmursanmı qalam
Bir sümük, bir dəri?

Həsrətin yaş olub,
Boylanır gözümdən.
Sən mənə baxanda
Gedirəm özümdən.

Nəqarat





Niyə zülm edirsən
Bu ürəyi safa?
Daş qəlbin nə zaman
Gələcək insafa?

Bu eşq el-obanı
Bizə güldürəcək.
Məni əvvəl-axır
Nazın öldürəcək.

Süzdürmə gözünü,
Canımı üzürsən.
Söylə, ayrılığa
Sən necə dözürsən?

Odlu baxışların
Canıma od salır.
Ayağım dolaşır,
Dilim topuq çalır.

Nəqarat

**25. 07. 2004**

## GET

Aparır bizi
Bu əzab hara?
Dözə bilmirəm
Bu əzablara, -
Sən Allah mənim
Həyatımdan get!

Qəm yuva salıb,
Solğun üzümdə.
Yaş da qoymadın
Daha gözümdə. -
Sən Allah mənim
Həyatımdan get!

Üstümdən tale
Yelləri əsdi,
Özün çıxıb get,
Həsrətin bəsdi, -
Sən Allah mənim
Həyatımdan get!

Hər gün kükrəyir
Sellər içimdə.
Biabır oldum
Ellər içində, -
Sən Allah mənim
Həyatımdan get!

Sənsiz köksümdə
Fırtına qopar.
Ürəyimi də
Özünlə apar, -
Sən Allah mənim
Həyatımdan get!

Ayrılığına
De, necə dözüm?
Bilmirəm niyə
Dedim bu sözü: -
Sən Allah mənim
Həyatımdan get!

**04. 08. 2004. Qusar.**

## YENƏ GÖZLƏRİM YOL ÇƏKİR

Həsrətindən güllər solub,
Çiçəklərin gözü dolub.
Köksümdə qəm yuva salıb, -
Yenə gözlərim yol çəkir.





Ünvansız əsən küləksən,
Yağışa həsrət çiçəksən,
Bilsəm də gəlməyəcəksən,
Yenə gözlərim yol çəkir.

Sənsizləşib ayım, ilim,
Bağrım olub dilim-dilim.
Hara itdin ilim-ilim? -
Yenə gözlərim yol çəkir.

Çətin ki, murada yetim,
Boylanıram yetim-yetim.
Qar altında yollar itib, -
Yenə gözlərim yol çəkir.

Qarlı dağlar sıra-sıra,
Hər yanı tutub sırsıra.
Qoyma qəlbimi qəm sara, -
Yenə gözlərim yol çəkir.

Başım olmayıb aşağı,
Arzularım göy qurşağı.
Köksümdə ümid işığı, -
Yenə gözlərim yol çəkir.

**05. 08. 2004. Qusar.**

***

Yadıma ağlayan gözlərin düşür,
Şehli çiçəkləri üzə bilmirəm.
Deyirsən: - Ürəyim daş olaydı kaş,
Bu qədər nisgilə dözə bilmirəm.

Sevgi əzabları bəxtəvərlikdi,
Necə inandırım bəs indi səni?
Daş olub əbədi yaşamaqdansa,
İnsan ol, beş-on il bəsindi sənin…

**06. 08. 2004. Qusar.**

## SARIŞINIM

Gözlərinin həsrətindən
Qəlbim cadar-cadar olub.
Səma başımın üstündə
Bir sehrli çadır olub, -
Mənim sevgi göylərimdə
Ulduz kimi sayrışanım, -
Sarışınım.

Özüm də çaşıb qalmışam,
Bilmirəm var burda nə sirr?
Ay üzünü görən kimi
Ürəyim yarpaq tək əsir.
Həsrətimin xəzan rəngi
Saçlarına yaraşanım, -
Sarışınım.

Üzümü bulud alanda
Gözlərindən yağış yağır.
Sevda dolu ürəyimi
Həsrətin yandırıb yaxır.
Həyatım, dəymədüşərim,
Tez-tez küsüb barışanım, -
Sarışınım.

Arzuların çeşməsini
Yad baxışlar lilləndirir.
Qəlbimin sarı simini
Təbəssümün dilləndirir.
Ürəyimdən keçənləri
Gözlərimdən soruşanım, -
Sarışınım.





Baxışlarım bəxtəvərdi,
Üzün günəşdən rəng alıb.
Təbəssümün şəfəq saçır,
Gözlərim gözündə qalıb.
Çiçəklə dolu çəmənim,
Balla dolu sarı şanım, -
Sarışınım.

**06. 08. 2004. Qusar.**

## RƏHM ELƏ

Qəlbimdə ucalmısan
Sevgi heykəli kimi.
Bilirəm ki, sən məni
Sevirsən dəli kimi.

Ancaq yaman qısqancsan,
Gülüm, başa düş məni.
Bütün qızlar, gəlinlər
Ola bilməz düşmənin.

El-obanı üstümə
Güldürməyə hazırsan.
Məni sevən qızları
Öldürməyə hazırsan.

Düşməni dosta çevir,
Nəvazişlə, rəhm ilə.
Ay qız, mənim xətrimə
Gözəllərə rəhm elə!

**07. 08. 2004. Qusar.**

## VÜSAL

Dediyini elədin,
Heyran qaldım bu sə'yə. –
Ürəyim təşnə imiş
Bir alovlu busəyə.

Dodaqlarından gəlir
Çiçək ətri, bal dadı.
Əgər sən bayıldınsa,
Gör şair nə haldadı?!

**07. 08. 2004. Qusar.**

***

Niyə məni qınayırsan,
Sınanmışı sınayırsan?
Çağırsan, dönüb gələcəm
Sən ki məni tanıyırsan?!

**08. 08. 2004. Qusar.**

## ƏLİMDƏN SU İÇƏN ÇİÇƏK

Qəlbində məhəbbət varsa,
Sən tənha qalmayacaqsan.
Ulduz kimi nur saçırsan,
Əlimdən su içən çiçək.
Ya payız olsun, ya da qış,
Heç zaman solmayacaqsan,
Ürəyimi əbədilik
Özünə yurd seçən çiçək…

**2004**





## BİR GİZLİCƏ DÜNYAMIZ VAR

Qismətinə yazılmayan
Çıxa bilməz bəxtə şərik.
Bir gizlicə dünyamız var,
O dünyada bəxtəvərik.

Sirrimizdən xəbəri yox
Allahdan başqa kimsənin.
Ay sevgilim, mənim kimi
Sevə biləcək kim səni?!

Əlim əlindən hərarət,
Qəlbim qəlbindən güc aldı.
Bizim gizli dünyamızda
Sevgi hər şeydən ucadı…

**03. 10. 2004**

## XƏBƏRDARLIQ

Sevəndə dəli könlüm
Məndən bir şey soruşmaz.
Qocalıqda yorğalıq,
Ürək, bizə yaraşmaz!
Bahar deyil, qışdı ha!
Özünü yığışdı ha!

**03. 10. 2004**

***

Bu gün sevdalı ürəyim
can atdı sənə sarı,
"Yox" sözünlə aramıza
saldın hicran hasarı.

Daha mənə olan oldu,
ümidlərim qırıldı,
İndən belə sınıq könlü
təbəssümlə ha sarı...
26. 10. 2004

## BU GÜN, KEÇMİŞ, GƏLƏCƏK

Bu günümü sevirəm, -
Gözlərimi görərsən
Gözümə baxsan orda.
Keçmişimi sevmirəm,
Çünki sən yoxsan orda.
Qarşıda nə olacaq? –
Müəmmadı gələcək...
Allah bilir ömrümə
Daha kimlər gələcək?!...
27. 10. 2004

## AY EVİ YIXILMIŞ

Bilmirəm söhbəti
Heç nədən başlayım.
Çox zaman sevgilər
Heç nədən başlayır.

Bu tale yolunda
Gəlmişik üz-üzə.
Neylərsən əllərin
Əlimdən üzülsə?!

Savabdı insanı
Murada yetirmək.
Ağırdı sevdiyin
Kimsəni itirmək.





Açmaq çox çətindi,
Pas tutub kilidim.
Ağlayan könlünü
Mən necə kiridim?

Çəkməyə gücüm yox,
Dərdimi artırma.
Divanə könlümü
Günaha batırma.

Əllərim öyrəşib
Tər çiçək yığmağa.
Ay evi yıxılmış,
Evimi yıxma ha!...

## BİR ANIN SEVİNCİ

Çox sağ ol, sən məni
Görməyə gəlmisən.
Əlini əlimə
Verməyə gəlmisən.

İntizar baxışlar
Keçibdir hücüma.
Üşüyən əllərin
Sığınıb ovcuma.

Üstümə xoşbəxtlik
Dumanı çökübdür.
Dodağın üzümə
Gül şəkli çəkibdir.

Ürəyin sözünü
Baxışlar deyərmiş.
Bir anın sevinci
Bir ömrə dəyərmiş!...
14. 12. 2004

## YOL VARMI GERİYƏ

Yollara dikilən
Gözlərim yaşarır.
Bomboz kül altında
O nədir işarır?

Perikən durnalar
Təzədənmi gəlib?
Köhnə dəyirmana
Təzə dənmi gəlib?

Çökübdür üstümə
İntizar dumanı.
Necə boş qaytarım
Məhəbbət umanı?

Məni də öyrətdin
Yağışa, çisginə.
Həsrətin qəlbimi
Qoyubdur pis günə…

Ağlayan ürəyim
Çətin ki, kiriyə.
Bir özün fikirləş,
Yol varmı geriyə?!

**01. 02. 2005**





## DÖRDLÜKLƏR

***

Nehrə kimi çalxalayır coşan rüzgar dənizi,
Navalçadan buz sallanır, külək əsir, həyət qar…
Soyuqluğum ürəyini incitməsin, əzizim,
Bilən bilir, buz altında sevdalı bir həyat var…

***

Heç bilmirəm nə söyləyim, nə danışım, gülüm, sənə?!
İnanmıram könlümdəki sevgi odu, gülüm, sönə.
Qəlbimdəki arzuları alovlara bələmisən,
Məni odlara yaxmısan gülümsünə-gülümsünə…

***

Qovub namərd eləməzlər ürəyi saf, mərd adamı,
Məhəbbət muma döndərir ən qaba, ən sərt adamı.
Eyni cürə gülə bilməz həyat hamının üzünə,
Sən hər şeyi dərd eləmə, müdrik edir dərd adamı…

***

Məndən başqa qəlbindəki gülü kimsə dərə bilməz,
Adını gizli çəkməkdən sanki dilim qabar tutub.
Heç kəs sənin gözlərindən daşan nuru görə bilməz,
Taleyin iztehzasıdı: kor əlində fənər tutub…

Bəxtəvərə çevrilirik hərdən səni ana-ana,
Yaşadığın əbədiyyət sığmaz saniyəyə, ana.
Söylə, qərib qəbristanda günlərin necə ötüşür,
Niyə bizi bu qədər tez tərk eləyib getdin, ana?!

***

Ürəyimin başında bir ilahi sızıltı,
Sevda dolu ürəyim bir yanıqlı saz oldu.
Dodağımla üzünə ilk avtoqraf yazıldı,
Səni bilmirəm, mənim ömrüm bahar, yaz oldu…

***

Səndən qorxan yoxdu, özünü yorma,
Nahaq üstümüzə şeşələnirsən.
Dünya sənin üçün küllükdü bəlkə,
Üstündə toyuq tək eşələnirsən...

***

Eşqin ləzzətini dadmayıb hələ
Dərdini danışır aya, günəşə.
İlahi, qıyma ki, bu sevgi ilə
Bu dünya o qızın gözündən düşə...

***

Qorxuram ki, bu yollarda
Əriyib heçə dönüm.
Öndə məhəbbət çağırır,
Geriyə necə dönüm?!

***

Yarın var ikən, əğyarın
Sönən şamını yandırma.
Əzizim, dost var, düşmən var,
Sındırma məni, sındırma...

***

Tükənməz məhəbbətimdən
Böyük bir ölkə danışır.
Ağac günəşlə çarpışır,
Yerinə kölgə danışır...

***

Üzünü bulud alıbdır, -
Yoxa çıxdı, ay azdımı?
Qəlbimi qurban demişəm,
Sənin üçün bu azdımı?!

***

Gülüm, yaxşı tanımırsan
Sevdiyini hələ sən.
Heç yata bilmişəmmi ki,
Yuxuma da gələsən?!





***

Açıqdır mənim könlümdə
Sevənlər üçün qapılar.
Mənim sevdalı qəlbimdə
Sənə də bir yer tapılar...

***

Sən quş olmaq istəyirsən,
Quşun da quş dərdi olur.
Ağac dönüb odun olur,
Ağac dönüb pərdi olur...

***

Adam ürəkdən sevəndə
Qəlbi əsir, gözü dolur.
Həqiqət bircə dənədi,
Yalanın yüz üzü olur...

***

Dünyanın hər bir yerində
Yollar yollara oxşayır.
Həsrətlə açıla qalan
Qollar qollara oxşayır...

***

Adamı yandırıb yaxır,
Sən həsrətin oduna bax.
Bilmədin vüsal qədrini,
Ayrılığın dadına bax...

***

Hər dəfə səni görəndə
Qəlbim tir-tir titrəyib.
Qucağına yıxılaydım
Deyirəm kaş büdrəyib...

***

Əyilmədim dərdə mən,
Atı çapdım dördəmə.
Dediyimi yeritdim,
Haqq-hesabı çürütdüm...

***

Dərdlərinə dəva üçün
Axtarırsan türkə çarə.
Gözəl görəndə əriyir,
Çətin olsun türkə çarə!

## MESAJLAR

Məndə olan səndə yoxdu,
Səndə olan məndə yoxdu.
Dünyada hər şeyi olan
Bir bəxtəvər bəndə yoxdu.

***

Sevda dolu ürəyimdən
Qiymətli bir məkan olmaz.
Sevən qəlblər arasında
Şair qaratikan olmaz.

***

Yaşayıram sənsiz niyə?
Dözəmmirəm sənsizliyə…

***

Özgədən haray gözləmə,
Ürəyinin sözünə bax.
Yalanlara könül vermə,
Həqiqətin gözünə bax!

Qəlbin kövrəksə, göz yaşı
Çətin gözündən qurusun.
Yaddan qorxma,
Allah səni
Sənin özündən qorusun…

**13. 07. 2004**

***

Məni sevən
ya bakirə çıxmalıdı,
ya kirə çıxmalıdı!

**04. 02. 2005**





# MƏNƏ MƏKTUB YAZAN ƏLLƏR

***

Məhəbbətin yaz yağışı, -
Qəlbində çağlayır sellər.
Yorulub, taqətdən düşüb,
Mənə məktub yazan əllər.

Qəlbim əsir ürəyinin
Səsinə qulaq asmağa.
Həsrət qollar müntəzirdi
Səni bağrına basmağa.

Qorxuram dözə bilməyəm,
Hicran mənə güc eləyə.
Kaş gəlib o yorğun əllər
Sinəm üstə gecələyə…

**24. 08. 2003**

## MƏN OVCUMDA YAĞIŞ TUTA BİLMİRƏM

*"Əgər mənim səni nə qədər sevdiyimi bilmək istəyirsənsə, yağan yağışı tutmağa çalış. Tuta bildiyin qədər sən məni sevirsən, bilmədiyin qədər mən səni"…*

***Bir mesajdan***

Mən yağışı tutammıram ovcumda,
Barmağımın arasından süzülür.
Hər damlası şehə dönür saçımda,
Yanağıma, kirpiyimə düzülür…

Öz başıma səpdim eşqin külünü,
Ürəyimin zülmətində ay azıb.
İçimdəki solan sevgi gülünü
Sən təzədən cücərdirsən, a yazıq!

Gözlərimə məhəbbətlə baxırsan,
Eşq bağımda quru budaq dil açır.
Yağış olub taleyimə yağırsan,
Ürəyimdə ötən sevda dil açır.

O yağışın hər damlası bir çiçək,
Gözlərini mən unuda bilmirəm.
Ürəyimə yağış yağır sübhədək,
Mən ovcumda yağış tuta bilmirəm…

**24. 02. 2002**

## QƏLBİMİZ XOŞBƏXTDİ GÜNAH İÇİNDƏ

*"Küsmüşdüm dünyamdan, barışdım yenə,*
*Bəxtimdə sən adlı sevda var demə"…*
*"Şirindir busən də, kəlmən, sözün də,*
*Məni məndən alıb, getdin özün də"…*

***Bir mesajdan***

Sevgisiz yaşamaq yaman ağırdı,
Bunu öz qəlbindən soruş, əzizim!
Sənin ürcahına məni çıxardıb,
Barış, bu dünyayla barış, əzizim!

Bir eşqin şimşəyi qəfil çaxıbsa,
Titrəyən bir qəlbin nədir günahı?!
Bəxtinə mən adlı sevda çıxıbsa,
Dünyadan küsməyə dəyərmi axı?!

De, necə oldu ki, sənə vuruldum? –
Sevda göylərində bir ulduzmusan?!
Səni səndən alıb, bəxtəvər oldum,
Məni məndən alıb, nə uduzmusan?!





Heyrətə gəlmişəm mən hər sözündən,
Küskün ürəyini dindirəcəyəm.
Laləzar köksündən, nurlu üzündən
Əgər qismət olsa, gül dərəcəyəm.

Qəlbin təzə-təzə çiçək açacaq,
Onları dərməkdən doymayacağam.
Sevdalı nəfəsin ətir saçacaq,
Heç vaxt səni tənha qoymayacağam.

Sıxacam köksümə qarda, boranda,
Səni tufanlardan qoruyacağam.
Ancaq üz döndərsən məndən,
bir anda
Susuz ağac kimi quruyacağam.

Tanrıya qalıbdır ürəyin işi,
Biz əzab çəkirik bilmirəm niyə?
Səni yandıracaq həsrət günəşi,
Yerin olmayacaq kölgələnməyə.

Çöküb varlığıma həzin bir kədər,
Dünyada ta heç nə deyil gərəyim.
Xəbərim olmayıb bu vaxta qədər,
Necə kövrək imiş sənin ürəyin?!

Eşqin qarşısında yerə çökmüşük,
Sevinc axtarırıq biz ah içində.
Günahsız olanda əzab çəkmişik,
Qəlbimiz xoşbəxtdi günah içində…

**16. 06. 2002**

## SƏN OLAN DÜNYA

*"Sən olan dünyaya qurban olaram".*
***Bir mesajdan***

Səninlə hər görüş səadət olur,
Ürəyim açılır çiçəklər kimi.
Qara bulud kimi gözlərin dolur,
Bəbəyin od saçır şimşəklər kimi.

Mənə bağışladın eşq çələngini,
Ləçəklər başıma yağır qar kimi.
Elə bil dəyişib dünya rəngini,
Səhralar görünür çəmənzar kimi.

Sevgi göylərində təzə bir ulduz
Nur saçır, qoymur ki, nəfəs dərəm mən.
Mən olan dünyaya qurban olan qız,
Sən olan dünyada bəxtəvərəm mən...

**12. 07. 2002**

## KÜSMƏ BU DÜNYADAN

*"Həyat gözəldir" deyənlərə mənim acığım tuturdu. Çünki mən həyatda gözəl heç nə görməmişdim. Sizinlə tanış olduqdan sonra həyat eşqiylə dolu şe'rləriniz məni dünya ilə barışdırdı. Nə yaxşı ki, bu dünyada Sizin kimi duyğulu insanlar var.*

*E. Salmanzadə*

Heç vaxt ümidini üzmə, əzizim,
Hazır ol qəm yükü daşımağa sən.
Küsmə, bu dünyadan küsmə, əzizim,
Layiqsən insan tək yaşamağa sən!

Sevdalı olmasan, sevər kim səni?
Dərman kömək etməz, dərdə əyilsən.
Tanrı tənha qoymaz, gülüm, kimsəni,
Əgər mən varamsa, sən tək deyilsən!





Başının üstündə şimşək çaxsa da,
Bir də görəcəksən göynəyir için.
Gözündən sel kimi yaşlar axsa da,
İnsan bəxtəvərdi sevdiyi üçün.

Bir gün acılar da dönəcək bala,
Hər yaşıl yarpağın sonu xəzəldi.
Tanrı ürəyinə bir sevgi sala,
Görəsən bu dünya necə gözəldi!

İnsan yaranıbdır xoşbəxtlik üçün,
Dünyanın kədəri, sevinci çoxdu.
Sənin də sevgiylə göynəyir için,
Xoşbəxtsən, özünün xəbərin yoxdu...

**15. 10. 2002**

## SEVGİ HEYKƏLİ

*"Sizin üçün hansı risqlərə getdiyimi bilsəydiniz, mənə heykəl qoydurardınız".*
***Bir qızın sözlərindən***

Ömrüm boyu həsrət yükü
Daşımışam kürəyimdə.
Sənə heykəl ucaltmışam
Onsuz da öz ürəyimdə.

O heykəl elə ucadı,
Hardan baxırsan görünür.
Ucaların qaydasıdı,
Hərdən dumana bürünür.

Dikilibdir uzaqlara,
Qonur gözləri dolubdur.
O heykəlin pyedestalı
Ötən sevdalar olubdur.

Arabir xəyala dalıb
Düşünəndə o heykəli,
Sanki qollarıma qüvvət,
Ayaqlarıma hey gəlir.

O heykəlin tunc qaməti
Dönüb gümüşə, altuna.
Hər səhər şe'r səpirəm
Ayaqlarının altına...
**11. 05. 2002**

* * *

*"Dəniz də, mən də sənsiz qalmışıq".*
***Bir mesajdan.***

Yaman kövrəlib,
Yaman dolmuşuq.
Dəniz də, mən də
Sənsiz qalmışıq.

Tez gəl, əzizim,
Qada sovuşsun!
Həsrət ürəklər
Yenə qovuşsun.

Öpüb oxşasın
Dalğalar səni.
Bağrına bassın,
Nazlı yar səni.

Başının üstə
Öz ayın dursun.
Qəlbin yenə də
Sevinclə vursun...
**22. 07. 2002. Qusar.**





## DUZ

*"Ben zenn etdim yarama ilac olursun,*
*nereden bileydim ki, tuz olacaksın?"*
***Bir mesajdan***

Bağışla!
Yaranın əlacı ola bilmədim,
Onun üstünə səpilən duz oldum.
Kirpiklərində bərq vuran
göz yaşı – ulduz oldum.
Çətindi, bilirəm
bir ömrün yükünü
sevgisiz daşımaq.
Duz göynədir,
ancaq mümkündümü
duzsuz yaşamaq?!
**25. 08. 2002**

## SƏNİN MƏKTUBUN

*"Qəlbim Sizdən dönmür"...*
***M. Günel***

Bu sevdadı, ömrüm-günüm,
Qəlbin məndən dönə bilmir.
Könlünə sevda düşənlər
Lala dönür, dinə bilmir...

Hər şeyi açıq demirsən,
Öz eşqini gizləyirsən.
Heç ağlıma gəlməzdi ki,
Məndən cavab gözləyirsən.

Axı sənə nə söyləyim,
Arabir huşa gedirəm.
Sənin ömrün qabaqdadı,
Mən üzü qışa gedirəm.

Bir körpə gülün köksündə
Sevdalı ürək var imiş.
Bilməzdim ki, taleyimdə
Sən adlı çiçək var imiş…

Məktubunla od elədin
Sönən közümün üstünə.
Əlini öpüb qoyuram
Həsrət gözümün üstünə…

**18. 09. 2002**

## TUT AĞACI

*"Kənddə qapımızda böyük bir tut ağacı var idi. O ağacın altından baxanda bütün kənd görsənirdi. İndi neçə ildir ki, imkansızlıqdan o yerlərə gedə bilmirəm. Sizin şerlərinizi dinləyəndə özümü auditoriyada yox, o ağacın altında hiss edirəm".*

***İ. Musayeva***

Bir sevdalı dünya olub
Tut ağacı sənin üçün.
İndi ona əlin çatmır,
Göynəyirsən için-için.

Gözlərində qəm sayrışır,
Həssas, kövrək ürəyin var.
Tutub əlimdən məni də
Özünlə o kəndə apar.

Qoy sevinsin tut ağacı,
Gözlərində qaynasın yaş.
Bu qədər ki, həsrətlisən,
Tut ağacı olaydım kaş!

Sevdalı qəlbin əsəydi,
Gözündə sevgi yanaydı.





Sən də bir göyərçin kimi
Budaqlarıma qonaydın!

Mənim şirin meyvələrim
Dimdik-dimdik azalaydı.
Səninlə bəxtəvər olmaq
Taleyimə yazılaydı…

Dünyanın sonuna qədər
Qəlbin sevgiylə dinəydi.
Bizim sevdalı ömrümüz
Şirin yuxuya dönəydi…

İnan mənim sözlərimə,
Bu sevgini dünya, sına!
Sevən qəlbləri qərq elə
Şirin nağıl dünyasına!…

**05. 12. 2002**

## ƏN ÇOX SEVDİYİ RƏQƏM "5" OLDUĞU ÜÇÜN MƏNDƏN BEŞ ŞE'R İSTƏYƏN QIZA

*"Mənfi cəhətləriniz: özünüzdən çox razısınız. İkinci mənfi cəhətiniz hamıya şe'r yazmağınız, üçüncü mənfi cəhətiniz isə qızlara marağınızın çox olmasıdır.*

*Müsbət cəhətləriniz: gözəl dərs keçirsiniz, gözəl şe'rləriniz var. Başa düşən, dinləməyi bacaran insansınız…*

*Mən çox kövrəyəm. Sətiraltı mə'nalar, qəmli musiqi, sevgi şe'rləri məni kövrəldir, ağladır. Dumanlı havanı, sakit yağışı çox sevirəm. Xoşuma gələn rəqəm 5-dir. Sizdən çox xahiş edirəm, ən gözəl, maraqlı, məni kövrəldə bilən 5 şe'rinizi mənə hədiyyə edin"…*

***M. Naidə***

1.

Çiçək gətirmişəm ömrün qışına,
Nəyinə lazımdır vaxtsız solmağım?
Bilmirəm nədənsə gəlmir xoşuna
Mənim gözəllərə meyil salmağım.

Titrəyən ürəyim kükrəyən dəniz,
Qıyma ki, qəlbimi duman bürüyə.
Şair məhəbbəti büllur tək təmiz,
Kölgə sala bilməz heç bir ürəyə.

Mən əgər qorxsaydım soyuq küləkdən,
Sevgim çevrilərdi quru xəzələ.
Arı bal çəkmir ki, bircə çiçəkdən,
Şair şe'r yaza bircə gözələ?!

2.

Yazırsan sevirsən sevgi şe'rini,
Dumanlı havanı, narın yağışı.
İçimdə məhəbbət gün tək yanırsa,
Axı nə qorxusu qarın, yağışın?!

Oyan, a bəxtəvər, xəbərin yoxmu
Arı tək qonmuşam çiçək qəlbinə?!
Yazırsan kövrəksən, -
Bəs özgəsinin
Niyə toxunursan kövrək qəlbinə?!

3.

Sözlərin elə bil tikanlı oxdu, -
Yazırsan, özümdən çox razıyam mən.
Bəlkə heç özünün xəbərin yoxdu,
Taleyinə düşən bir yazıyam mən?

Gözlərin ömrümə nur saçan ülkər,
Qorxma saçlarımda dəni görəndə.
Özümdən müştəbeh olsaydım əgər,
Tir-tir əsərdimmi səni görəndə?!





4.

Mürgülü bir qız görəndə
Qəlbimdə sevgi oyanıb.
Yuxulu təbəssümündən
Ürəyim nura boyanıb.

Xəbərin yoxdu xəbərdən,
Gör kim səni əzizləyir?!
Oyan, oyan, a bəxtəvər,
Qismətin səni gözləyir…

5.

Əgər xoşun gəlir "5" rəqəmindən,
Beş dəfə bağrıma basaram səni.
Qəlbimi beşguşə ulduz eləyib,
Başının üstündən asaram sənin…

**19. 12. 2002**

## NƏ ZAMANSA

*"Bə'zən ay işığı altında, yağışlı, qarlı havada pəncərədən baxanda insan həyata bağlanır. Problemlər yarananda isə həyatdan bezib, ölmək istəyirəm".*

***Ə. Aygün***

İnsan oğlu taleyindən bə'zən küsüb, "bezdim", - deyir,
Tənha sanır özünü o, bulaq kimi gözü dolur.
Bu dünyada əzəl gündən qolboyundu şərlə xeyir,
Əzablarla yoğrulmasa səadət yarımçıq olur…

Duyuram ki, ömür boyu ağlamısan için-için,
Tale bir gün qəlbindəki ağrıları götürəcək.
Dözümlü ol, bu ağrılar, bu əzablar sənin üçün
Nə zamansa bir səadət, sevinc payı gətirəcək…

**21. 12. 2002**

***

*"Həyatda ən qiymətli neməti Sizə vermək istəyirəm, amma bunu bacarmıram. Çünki Sizi Sizə verə bilmirəm"...*

***Bir mesajdan***

Mənim sevgi bağımdan çiçək dərmək istədin,
Çıxa biləcəyəmmi bir gün xəcalətindən?!
Ən qiymətli neməti mənə vermək istədin,
Qiymətli bir şey varmı sənin məhəbbətindən?!

**2003**

## ATMA ÜRƏYİMİ AYAQ ALTINA

*"Bilsəydim ki,Sizi məndən çox sevən var, ürəyimi köksümdən çıxarıb onun ayağının altına atardım"...*

***Bir qızın sözlərindən***

Sözlərinlə sən şairi bəxtəvər etdin,
Gözlərinlə gözlərimi sınağa çəkdin.
Təbəssümün qəlbimdəki buzu əritdi,
Ürəyimə yeni həsrət dumanı çökdü.

Şirin-şəkər kəlmələrin döndü altuna,
Mən onları dəyişmərəm inciyə belə.
Gülüm, atma ürəyimi ayaq altına,
İçindəki böyük sevgi inciyə bilər...

**02. 01. 2003**

## ÜÇ DAŞ NAĞILI

*"Mənə üç daş bağışlamışdınız. Ən çox sevdiyim mavini itirdim. Ağ daş sənli, qara daş sənsiz günlərimdi. Mavi isə sənsən..."*

***Bir mesajdan***

Ömür boyu bizi sevgi yaşatdı,
Meyl etmədik mirvariyə, daş qaşa.
Sözlərinlə ürəyimə daş atdın,
Nə olacaq çırpılmaqla daş-daşa?





Doğma ikən niyə döndük biz yada?
Bu taledi, bəbəklərin dolmasın.
Daş itirmək nə şeydi ki, dünyada,
Baş itirmək bizə qismət olmasın.

Çox susmusan, daha bəsdi, danış, din!
Ürəyinə düşüb kölgə, əzizim.
O itən daş vaxtsız ölən sevginin
Baş daşına dönüb bəlkə, əzizim?!

Bir gün sənə yar olacaq səadət,
Bu taledi, çox da üzmə özünü.
Əgər safsa qəlbindəki məhəbbət,
Ağardacaq qara daşın üzünü.

Geri dönməz öz yayından çıxan ox,
Üstümüzdən qəm buludu ötməsin!
Mavi daşı itirmisən, eybi yox,
Təki sənin mavi dünyan itməsin!

Ayrılığın bəbəkləri tökülsün,
Əllərimə həsrət əllər uzanmış.
Biri itib, göz dağıdı ikisi,
Bu üç daşın nağılı nə uzunmuş...

**17. 05. 2003**

***

*"Xoşbəxtlikdən lal olmuşam, söz tapa bilmirəm daha. Mən təslim. Yalnızca Sizin ruhunuza aşiqəm. Bunu ürəyinizdə özünüz hiss edin".*

***Bir mesajdan***

Yazırsan ki, daha mənə
Deməyə sözün qalmayıb.
Səadətini tapmısan,
Kimsədə gözün qalmayıb.

Xoşbəxtlikdən lal olmusan,
Uçmağa qanad gəzirsən.
Təslim bayrağı qaldırdın,
Nə əmr etsəm, müntəzirsən.

Mənim könül rübabımda
Gərək sarı sim olasan.
Ancaq heç istəməzdim ki,
Belə tez təslim olasan.

Odunu özgəyə saxla,
Kifayətdi tüstü mənə.
Şe'rlərimi sevirsən,
Elə bu da bəsdi mənə...

**20. 04. 2003**

## MƏNƏ BƏRK ACIĞIN TUTUB

*"Sizə bərk acığım tutub. Hiddətim bir dalğalı dənizdi. Ürəyimi qəmlərə bələyən də, kirpiklərimə yaş ələyən də, məni göz yaşları içində bəxtəvər eləyən də Sizin şerlərinizdi"...*

***Bir mesajdan***

Mənə bərk acığın tutub,
Hiddətin kükrəyir, daşır.
Gəl öpə-öpə qurudum
Gözündən ələnən yaşı!

Heç bilmirəm layiqəmmi
Bu qəzəbə, bu nifrətə?!
Sevgi Tanrı sovqatıdı,
Sərhəd varmı məhəbbətə?!





İstəməzdim ki, qəlbini
Həzin bir qəmə bələyəm.
Bağışla məni, əzizim,
Neyləyim, mən də beləyəm!

Xəbərin yoxdumu sənin
Ürəyimdəki təlaşdan?
Qəlbim qərq olub, əzizim,
Gözündə bərq vuran yaşda...

Uğuruma sən çıxmısan,
Taleyim belə yazılıb.
Kirpiklərinin ucundan
Sevən ürəyim asılıb.

Bəbəyindəki göz yaşı
Bənzəyir dürrə, altuna.
Gözünü qırpsan, düşəcəm
Ayaqlarının altına...

**18. 06. 2003**

## QƏLBİNƏ QULAQ AS

Mən istəmirəm ki, həyatın boyu
Yaralı quş kimi inləyəsən sən.
Məsləhət umursan, axı nə deyim? –
Gərək öz qəlbini dinləyəsən sən.

Danışa bilmirəm, söz tutmur dilim,
İncidə bilmərik vicdanımızı.
Qurban verməyə də hazırıq, gülüm,
Ürəyin yolunda öz canımızı.

Kim düzəldə bilər tale əyəni,
Kim öz qismətinə gülər, əzizim?
Yüzü yüz söz desin, ürək deyəni
Nə əvəz eləyə bilər, əzizim?!

Əgər qulaq assan qəlbin deyənə,
Çəkdiyin əzab da şirin olacaq.
Məhəbbət kələfin düşsə düyünə,
Ürəyim son güman yerin olacaq…

**21. 06. 2003**

## SƏN ELƏ SEVİMLİSƏN Kİ…

*"Sizin belə bir misranız var: "Səni də sevirəm, rəfiqəni də". Mən istəmirəm ki, Siz məni sevən kimi rəfiqəmi də sevəsiniz. İstəmirəm ki, Sizin qəlbinizdə iki adama eyni bir məhəbbət olsun".*

***Bir məktubdan***

Bilsəydim belə sevirsən,
Özgə gülləri dərməzdim.
Sən əgər mənim olsaydın,
Kimsəyə könül verməzdim.

Sən elə mehribansan ki,
Köksümdə rişə salmısan.
Ömrün bu yaşında mənim
Qəlbimi işə salmısan.

Sən elə sevimlisən ki,
Ömrümdə bahar olmusan.
Sən elə sevilmisən ki,
Qəlbimə simsar olmusan.

Mən səni sevdiyim kimi
Sevə bilmərəm kimsəni.
Sevda dolu ürəyimdə
Əvəz eləyər kim səni?

**21. 06. 2003**





## TƏNHA DEYİLƏM

*Gözünüzün nuru günəş kimi daima şəfəq saçsın, lakin günəş tək olduğu üçün günəşə bənzəməyin, daima qoşa olun!*

***Bir mesajdan***

Sözlərindən görürəm ki,
Həsrət odunda yanırsan.
Bilmirəm heç nəyə görə
Sən məni tənha sanırsan.

Göylərdən gələn məhəbbət
Bəzək vurub yanağına.
Köksündə qəlbin çevrilib
Titrək payız yarpağına.

Sənin ürəyindən mənə
Bir sevgi payı yoxdumu?
Tənha deyiləm, əzizim,
Günəşin ayı yoxdumu?

**06. 07. 2003**

## QƏMƏ BƏLƏKLİ MƏHƏBBƏT

*"Rafiq müəllim, "Ayrılığın qəm hasarı"nı sökmək mümkün olacaqmı? Yoxsa bu qəm hasarının daşları undan, palçığı yumurtadan, suvağı şərbətdən yoğrulub və həmişə şirin bir kökə kimi xatirələrə həkk olub qalacaq?"*

***Bir məktubdan***

Ayrılığın qəm hasarı
Əvvəl-axır aşılacaq.
Kim bilir, bəlkə də qəlbim
Qəlbinə sirdaş olacaq?

Vuruldum ürəyindəki
Qəm bələkli məhəbbətə.
Sevdalı könlün layiqdi
Xoşbəxtliyə, səadətə!

Gizli sevgi dünyasından
Olarmı daşın xəbəri?
Yoxdu qəlbindəki yazdan
Payızın, qışın xəbəri.

Bəxtəvərə çevrilmisən,
Gülüş qonub yanağına.
"Ayrılığın qəm hasarı"
Çevrilib sevgi bağına...

**06. 07. 2003**

## MƏNİM GÖZLƏRİMƏ VURULAN GÖZƏL

*"...İndi bu dünyada yeganə arzum Sizin gözlərinizdən öpməkdi. Çünki mənim sağ qalmağımın səbəbkarı Sizin gözlərinizdi..."*

***Bir mesajdan***

Qəlbini göynədib həsrət közləri,
Sevdiyin insanlar dönəndə yada,
Qibləgahın olub mənim gözlərim,
Getməyə qoymayıb səni dünyadan.

Bu sərsəri eşqin tarixi uzun,
Bilirəm, çat-çatdı sənin ürəyin.
Gözümdən öpməkdi ən böyük arzun, -
Dünyada qalmayıb ayrı diləyin.





Dolsun ciyərinə güllərin ətri,
Hələ ümidini kəsməyə dəyməz.
Qəlbini duymayan insandan ötrü
Bu gözəl dünyadan küsməyə dəyməz.

Yamyaşıl ümidlər olmasın xəzəl,
Nə vaxt eşq bağından çiçək dərəcəm?
Mənim gözlərimə vurulan gözəl,
Sənin gözlərini nə vaxt görəcəm?!

**14. 07. 2003. Qayakənd.**

***

*"Tanrı Sizi gözəllər üçün yaradıb..."*

***Nuriyyə***

Yaxşı bilirsən ki, yoxdu günahım,
Sənin də sevdayla göynəyir için.
Belə yazırsan ki, məni Allahım
Yaradıb sevdalı gözəllər üçün.

Çiçəyin qədrini hər naşı bilməz,
Gərək gülü sevən dərə, əzizim!
Gözün çəkdiyini göz yaşı bilməz,
Sağ ol ürəyinə görə, əzizim!

Həyat ver bəmbəyaz zirvə qarına,
Könlümün gecikmiş harayı sənsən.
Bəlkə məlhəm oldum yaralarına,
Bəlkə taleyimin nur payı sənsən?!

**24. 07. 2003**

## HEÇ VAXT ÇIXARMA SƏN MƏNİ YADDAN

*"Sizi yaddan çıxarmamışam."*
***Bir mesajdan***

Yarımaq olmur
Ürəyə yaddan, -
Çıxarmamısan
Sən məni yaddan.

Əzab çəkirsən
Hər gecə mənsiz.
Xoşbəxt olmusan
De, necə mənsiz?

Sevdalı qəlbim
Bir himə bənddi.
Sənsiz şairin
Əyilib qəddi.

Bir xoş sözündən
Ürəyim əsdi.
Səni görməyə
Könlüm tələsdi.

Qəlbimdə sönən
Şamı yandırdın.
Həsrət közünü
Alovlandırdın.

Dilsiz sükutun
Qatı açıldı.
Üzümə yeni
Qapı açıldı.





Quş tək yanına
Uçmaq istədim.
Qollarımı gen
Açmaq istədim.

Sözün məlhəmdi
Könül ağrıma.
Yaxın gəl səni
Basım bağrıma.

Payız gülünü
Öpüm, qoxlayım,
Sevincdən hönkür-
hönkür ağlayım.

Bəxtəvərliklə
Dolubdur içim.
Durulan, yuyun,
Göz yaşımda çim!

Sevgi elmini
Öyrən, mənimsə!
Harda olsan da,
Bil ki, mənimsən!

Doğma olarmı
Ürəyə yaddan?
Heç vaxt çıxarma
Sən məni yaddan!

***

Eşq günəşi görünmür,
Dumanda, çisgindəyəm.
Sən mənsiz neyləyirsən? –
Mən sənsiz pis gündəyəm...

**16. 07. 2003. Qusar.**

## ŞAİR, NƏ GEC GÖRÜŞDÜK BİZ?

*"Sizinlə rastlaşdığım üçün Allahıma minnətdaram. Mən Sizi çox, lap çox sevirəm. Sözün bütün mənasında. Hərdən ağlımdan özümün də qorxduğum bir fikir keçir: "Şair, nə gec görüşdük biz?"*

***Bir məktubdan***

Ürəyin yarpaq tək əsir,
Eşqin bir kükrəyən dəniz.
Qəlbindən bir nida qopdu:
"Şair, nə gec görüşdük biz?"

Dedin: - Naşükür deyiləm,
Minnətdaram Allahıma, -
Qarşıma Sizi çıxarıb,
Son qoydu könül ahıma.

Qəlbimə düşən sevginin
Hər damlası bir incidi.
İstədim Sizdən gizləyim,
Ürəyimdə sirr incidi.

Nə vaxtadək könlümüzdə
Arzu arzu tək qalacaq?
Eşqindən qəlbim əsirsə,
Necə Arzu tək qalacaq?!

Sevgi hər şeyə qadirdi,
İnsanın fağırı yoxdu.
Taleyin əlində eşqin
Əvvəli, axırı yoxdu…

**17. 07. 2003. Qusar.**





***

*"Bəzən insana elə gəlir ki, oxuduğunuz hər bir şer məhz onu dinləyənə ünvanlanır. Həmişə özümə sual verirəm ki, nəyə görə mən sevməyi və sevinməyi bacarmıram?"*

***M. Nuranə***

Yazdığın ilk məktubda
Gizləsən də özünü,
Gözlərin çoxdan deyib,
Ürəyinin sözünü.

Eşqin ilk əzabını
Sən təzəcə dadırsan.
Ütülü sözlərinlə
Mənimi aldadırsan?

Daha iş işdən keçib,
And içsən də Qur'anə,
Məni sevmədiyinə
İnanmaram, Nuranə!

Gözlərində şeh gülən
Bir gileyli çiçəksən.
Bu şeri oxuyanda
Mütləq sevinəcəksən…

**17. 07. 2003.**
**Qayakənd.**

## GƏNCƏDƏN BOYLANAN GÖZƏL

*"Həyatı mənə Siz sevdirdiniz. Mən Sizə bir ideal kimi baxır və sevirəm."*

***A. Aynur***

Gəncədən boylanan qızın
Qəlbi sevgiylə doludu.
Ürəyimə gedən cığır
Elə bil bulaq yoludu.

O cığırla bir qız gəlir,
Aman Allah, nazına bax!
Həsrətdən bəbəyi dolub,
Gözü olub bir cüt bulaq.

Öz içində dünya qurub,
Bu dünya gözündə deyil.
Bəbəyindən sevgi daşır,
Özündə, sözündə deyil...

Bu qızın yanaqlarından
Öləziyən ay nur umdu.
Gəncədən boylanan gözəl
Məni sevən Aynurumdu...

**17. 07. 2003.**
**Qayakənd.**





***

*"...Yoxsa məni unutmusunuz? Bunu fikirləşmək belə məni dəli edər, çünki Sizi çox sevirəm və heç olmasa təsadüfi bir görüşün həsrətindəyəm, mənim əziz şairim!"*

***Bir mesajdan***

Heç unuda bilərəmmi
Sevda dolu baxışını?
Bəbəyindən ürəyimə
Yağan sevda yağışını?

Doğmanın yerini verməz
Min ögeyin, yadın dadı.
Əllərinin titrəməsi
Əllərimin yadındadı...

Xətrimə dəyərsən mənim
Hisslərimə şəkk eləyib.
Dodaqların dodağıma
Bəxtəvərlik həkk eləyib.

Sevgidən əsən ürəyin
Dönüb nanə yarpağına.
Nə zaman yolum düşəcək
Gül üzməkçün yar bağına?!

**09. 09. 2003**

***

*"Siz, doğrudan da, sehrbazsınız. Ancaq bir az əsəbi sehrbaz. Sizi çox sevirəm!"*

***C. Aygün***

Qüdrətim çatsaydı,
Ürəyimi bir dəstə gülə döndərib,
qəlbini qırdığım qızın
ayağı altına
səpərdim.

Əsəbi olmağım
səni qorxutmasın,
mənim sərtliyim,
mənim kövrəkliyimi qoruyan
sipərdi…

***

Arzular ulduz kimi sayrışır
gözlərimin qarasında.
Sən Aygünsən,
Mən isə sərgərdan qalmışam
Ayla Günün arasında…

***

Əsəbi sehribaz
küsdürüb səni, -
sözlərin tikanlı oxdu.
Nifrət sınağından
çıxa bilibsə,
daha bu sevgiyə
zaval yoxdu…

**23. 10. 2003**

***

*"… Siz yalın əlinizlə kül altında bir kiçicik də olsa köz parçası axtaran Məcnunsunuz…*
*… Sətiraltı mənalarınız adama çatdıqca ləzzət eləyir…*
*… Sizinlə mənim aramda bir divar var…*
*… Mən axtardığımı ancaq ilahi eşqdə axtarır və tapıram…"*

***Bir məktubdan sətirlər***

İmzasız məktubun gəldi,
Kimliyini dərk elədim.
Sətiraltı sözlərinlə
Ürəyimi silkələdin…





Şairdən ayrı şey umma,
Sevgidi dövləti, varı. –
Bu sevgi yıxa bilərmi
Aramızdakı divarı?

Gözümdə həsrəti gördün, -
Gözündən heç nə yayınmır.
Yamanca dəymədüşərdi,-
Qəlbim hər qəlbdən pay ummur…

"Kül altında əliyalın
Köz axtaran Məcnun" – mənəm.
Özün Leyli olarsanmı
Söyləyirsən Məcnun mənə?!

Bəzən mələk qəlbi verir
Ulu Allah bəndəsinə.
Könlündə Tanrı eşqi var,
Layiq deyil bəndə sənə.

Özünü sevdirdin mənə,
Hisslərimi qoyma lağa.
Ancaq mənim gücüm çatmaz
Allaha rəqib olmağa…

***

***P.S.*** *Gizləməyin nə mənası,*
*Sənin adın Ramilədi.*
*Sağ ol, isti sözlərinlə*
*Ürəyimi ram elədin….*

**22. 12. 2003**

***

*"Qəlbiniz həm inci, həm də incədir"...*

***Bir mesajdan***

Yazırsan ki, mənim qəlbim
Həm incədir, həm incidir.
İncə söz məlhəmə dönür,
Kobud söz məni incidir.

Qəlbi daşdı mənim könül
Çəmənzarıma daş atan.
Qəlbi incə olanların
Ruhudur məni yaşadan....

**30. 12. 2003**

***

*"14 fevral Sizin bayramınızdır. Ən çox sevən də, ən çox sevilən də Sizsiniz. Arzum budur ki, sevgi sizə xoş anlar, qəmsiz, kədərsiz bir həyat bəxş etsin!"*

***Bir mesajdan***

Sən mənə qəmsiz, kədərsiz
Xoşbəxt ömür diləyirsən.
Könül açan sözlərinlə
Qəlbimə nur ələyirsən.

Yaşamağa dəyərmi heç
Qəlbdə yoxsa sevgi qəmi?
Tufanların qoynundayıq,
Ömür – dəniz, sevgi – gəmi...

Məhəbbətsiz güllər solar,
Gözdən düşər yar bağı da.
Xoşbəxtəm, sevə bilirəm
Bir quruca yarpağı da.





Ürəyə sevgi düşəndə
Qanad çalıb uçmaq olar.
Ən paslı qıfılı belə
Məhəbbətlə açmaq olar...

**14. 02. 2004**

***

*"Sizi mənə rast gətirdiyi üçün tanrıma minnətdaram."*

***Bir məktubdan***

Yazırsan ki,
mən həsrət göylərində
süzürəm,
sən həsrət dənizində
üzürsən. –
Sevdalı sözlərinlə
titrəyən ürəyimi
üzürsən.
Sevgi odunda əriyərək
gilə-gilə,
damla-damla,
can bir qəlbdə
olmaq istəyirsən
sevdiyin bir adamla.
Həsrət odunda göynəsən də
göyüm-göyüm, için-isin,
Tanrıya minnətdarsan
məni sənə rast gətirdiyi üçün.
Sevda göylərindən enib,
baş vursam həsrət dənizinə,
Sonra necə baxa biləcəyəm
mən üzünə?
Kim ki ömrünü
sevgiyə həsr etdi,
Ürəyi dincliyə, rahatdlığa
həsrətdi...

Gəl əl-ələ,
göz-gözə dayanıb,
bir-birimizdən
heç nə soruşmayaq.
Tanrı özü bilən məsləhətdi,
biz onun işinə qarışmayaq…

**15. 02. 2004**

***

*"Sizi dün sevdim, bu gün də seviyorum, eger aşkınızdan ölməzsem, yarın da sevmeyi yemin ediyorum."*

***Bir mesajdan***

Dünən olsun,
bu gun olsun,
yarın olsun,
Təki səni
sevən
duyan,
yarın olsun!

**2004**

## ADINA LAYİQ

*Vəfa üçün*

Bəlkə sevgi gülşənimdə
Təzə açan bir çiçəksən?
Ağlıma da gəlməzdi ki,
Sən də məni sevəcəksən.

Təbəssümlü baxışların
Qəlbimi odlara çatdı.
Gördün məndən haray yoxdu,
İlk addımı özün atdın.





Ərklə dedin: - Ad günümdə
Mənə şer yazıb göndər!
Könül açan sözlərinlə
Ürəyimi nura döndər!

Saçımızda qara baxma, –
Həmişə ürəyi yazıq.
Qəlbimi kağıza bükub
Necə göndərim mən yazıq?!

Sevənləri öz yolundan
Döndərmək olmur, əzizim.
Məhəbbəti sifarişlə
Göndərmək olmur, əzizim.

Şerim ola biləcəkmi
Qəlbinin oduna layiq?
Kaş mənim yarım olaydın, –
Özü də adına layiq!…

**11. 01. 2004**

## SƏNİN MƏKTUBUN

*"Ömrümün 28-ci qışında çoxdan arzuladığım elə bir xoşbəxtliyi mənə bəxş etdiniz ki, bu xoşbəxtlik mənim həyatımda heç nə ilə əvəz olunmayacaq…"*

***Bir məktubdan***

Ömrünün soyuq qışında
Deyirsən ki, yaz olmuşam.
Kim bilir, bəlkə də sənin
Qismətinə yazılmışam.

Sevgimi səhrada əsən
Sərin mehə bənzədirsən;
Solan çiçəyin üstünə
Düşən şehə bənzədirsən.

Aylar, illər təşnəsinə
Bir damcı şeh bəs edərmi?
Səhraya dönən ürəyə
Bir əsim meh bəs edərmi?

Bir qətrə həsrət şehiylə
Sönərmi köksünün odu? –
Varını verən utanmaz,
Neyləyim, olanım budu…

***

Şerimi köksünə sıxıb,
Adımı əzizləmisən.
İllər boyu ürəyində
Bu sevgini gizləmisən.

Taleyin üzünə gülüb,
Uçmağa qanadın yoxdu.
Bu dünyada sənin kimi
Bəxtəvər qız, qadın yoxdu…

İndən belə xoşbəxt-xoşbəxt
Xəyallara dalacaqsan.
Söz verdin ki, ömrün boyu
Mənə sadiq olacaqsan.

Bəbəklərindən od yağır,
Həsrətin keçib hücümə.
Ürəyini bir kağıza
Bükərək basdın ovcuma…

**14. 01. 2004**





## KÖKSÜMƏ BAŞ QOY…

Baxışların mənim üçün
Çiçəkli çəmən toxuyur.
Çat-çat olan ürəyimə
Gözlərin meydan oxuyur.

Mənim sevgi gülzarıma
Təzə iz düşəcək bəlkə?
Ürəyimin iqlimini
Sevgin dəyişəcək bəlkə?

Nə vaxtacan həsrət gözlər
Dayanıb gendən baxacaq?
Qara bulud tək dolmusan,
Deyəsən yağış yağacaq…

Səni talemi göndərib,
Ürəyimi dağlamağa?
Köksümə baş qoy, əzizim,
Yer tapmasan ağlamağa…

**14. 01. 2004**

## ÜRƏYİN ÜSTÜNDƏKİ ƏL

*"Dünən də, bu gün də, sabah da ürəyim qədər yanımdasan. Özümü yalnız hiss edəndə əlimi ürəyimin üstünə qoyuram, – sən hər zaman ordasan…"*

***Bir məktubdan***

"Sevgi məndən uzaqdı" –
desən də,
içində məhəbbət
qayır-qayır
qaynayır.
Yol çəkən gözlərinin önündə
həsrət buludları

oynayır.
Bəbəklərindən yağan
intizar yağışları
yanaqlarını
bəzəyir.
Ürəyindəki gizli sevgi
qəfəsdəki bülbülə
bənzəyir.
Ancaq…
Açıb buraxmaq istəmirsən
o bülbülü –
Boş qəfəs
kimə gərəkdi?
Köksünün altında çırpınan
sevdalı bir ürəkdi –
Onun içində
qərib bir yolçuya
vermisən sığınacaq…
Məhəbbətlə
yanaşa bilsən əgər,
O da sənə sığınacaq. –
İkiniz də atacaqsınız
ayrılığın daşını…
Soluxan sevgi çiçəklərinin
üstünə səpəcəksən
gözlərinin yaşını…
Baxışlarımız
gizli-gizli öpüşəndə
sevdalı bir kaman kimi
dinirsən.
Əlini ürəyinin
üstünə qoyanda
bəxtəvərlər bəxtəvərinə
dönürsən…
Deyəsən ikimiz də
bir dərddəyik, –





Mən də səni
düşünürəm axı!
Əlini ürəyinin üstündən
çəkmə, –
üşüyürəm axı?!

**28. 03. 2004**

## SEVDALI ÜRƏYİN VARSA…

*"Çox bədbin bir qızam. Çətinliklə sevir, asanlıqla nifrət edirəm. Dostum yoxdur, olmayacaq da…"*

***Bir məktubdan***

Məktubundan duyuram ki,
Burulğanlar içindəsən.
Üzdə qayğısız olsan da,
İnləyirsən içində sən.

Özün də bilmirsən niyə
Həyat sənə zalım olub?
Özünü tənha sansan da,
Kiminçünsə gözün dolub.

Həyat sənə sərt olsa da,
Mənim şair könlüm duyur:
Qəlbinin dərinliyində
Kövrək bir dünya uyuyur.

Xəyallara dala-dala
Hey köksünü ötürmüsən.
Sən nəmli kirpiklərinlə
Nə qədər od götürmüsən.

Həyat gözəldi, nadanın
Tənəsini dərd eləmə.
İçindəki məhəbbəti
Qəddarlıqla pərdələmə.

Öz ömrünü cəhənnəmə
Döndərməyə haqqın yoxdu.
Qəlbindən boylanan nuru
Söndürməyə haqqın yoxdu.

Sən dünyaya gəlməmisən
Kədər yükü daşımağa.
Sevdalı ürəyin varsa,
Haqqın çatır yaşamağa…

**12. 04. 2004**

## HƏSRƏT SIRSIRASI

*"Bütün hisslərimi gözlərimlə söyləyirəm. Ancaq əvvəldən hazırlaşsam belə, Sizinlə söhbət zamanı ürək sözlərim yadımdan çıxır. Deyəsən buna səbəb Sizin sehrli gözləriniz və həddindən artıq həssas olmağınızdır… Gözəl gözlərinizdən öpürəm…*

***Bir məktubdan***

Niyə köks ötürdün axı dərindən? -
İçində arzular oyanır sənin.
Gözümə dikilən bəbəklərindən
Bir sevda tufanı boylanır sənin.

Dolar ciyərimə doğma bir ətir,
Boş qalan könlümə həsrət yığışıb.
Üstümdən ayrılıq buludu ötür,
İndicə yağacaq həsrət yağışı.

İndicə əllərin göyərçin kimi
Qonacaq çiynimə, gözün güləcək.
Dinəcək qəlbinin pas tutan simi,
Mənim ürəyimə bahar gələcək.

Səni qorxutmayır nə duman, nə çən,
Sevdalı ürəyin səfər üstədi.
Məndən ayrılmaqmı keçir könlündən? –
Nə tez gözlərimdən öpmək istədin?





Boynuma dolanan titrək qolların
Hönkürən könlümü kiridə bilməz.
Həsrət sırsırası tutub yolları,
Hər sevgi o buzu əridə bilməz…

Niyə köks ötürdün axı dərindən? -
İçində arzular oyanır sənin.
Gözümə dikilən bəbəklərindən
Bir sevda tufanı boylanır sənin.

**07. 05. 2004**

***

Sən məni öz taleyində
yağışdan sonrakı
günəşə bənzədirsən…
Hələ tələsmə, yavrum,
qəlbindəki hisslər
təzədirsə… -
Sınağa çək onları,
unutma ki,
bu günəşin oduna
yanıb-yaxıla da bilərsən;
sevda yolları daş-kəsəklidi,
büdrəyib
yıxıla da bilərsən.
Qarşıda səni
sevgilər gözləyir,
ümidini kəsmə hələ.
Sıldırımda bitən çiçək
sənə gəl-gəl desə də,
tələsmə hələ…

**07. 05. 2004**

***

Üç kəlmə söz yazıb
üç qızılgül ləçəyinin üstünə
qoyublar dərs jurnalının
arasına.

Üç ləçək
üç damla dərman kimi
səpildi ürəyimin
yarasına.
Xəyalımdan keçənlərdən
özüm də utandım.
Üstünə adım yazılan
ləçəkləri öpdüm, -
Onları mənə sarı uzanan
həsrətli dodaqlar sandım…

**07. 05. 2004**

***

*"Mən Sizə qarşı olan fikirlərim haqqında heç nə yazmayacam. Çünki o fikirlər, o duyğular ancaq və ancaq mənimdi… Söhbətimi bitirmək məcburiyyətindəyəm. Çünki bir az da davam etsəm, özüm də bilmədən hər şeyi açıb danışacam."*

***İ. Pərvanə***

Bilirəm
neçə dəfə mənə
məktub yazıb,
sonra cırmısan.
Hisslərinlə mənim aramda
hasar kimi durmusan.
Yazırsan:
Mənim haqqımda
fikirlərin, duyğuların
ancaq sənə
məxsusdu. –
Ürəyin
sevgi nəğməsi oxusa da,
dilin inad elədi,
susdu…
Məktubunu oxuyub güldüm, -
Sətiraltı sözlərin
şəkərdimi,





baldımı, -
bilmirəm?!
Məni necə sevdiyini bildim, -
Yenə deyilməmiş
sözün qaldımı, -
bilmirəm?

**09. 05. 2004**

## DEYİRSƏN Kİ…

*"Mənim balaca ürəyimdəki sevgi bütün Sizi sevənlərin sevgisindən daha çox, ən əsası daha müqəddəsdir. Mən öz sevgimlə onların hamısını əvəz edə bilərəm.*

***Bir məktubdan***

Bəlkə səni tale
qarşıma çıxarıb ki,
qəlbimi göynədən sevgiləri
unuda bilim? –
Ayrılıq əzabından sonra
sevgi sevincini
dada bilim? –
Bilmirəm…
Ancaq onu bilirəm ki,
dünyanın həsrətləri,
nisgilləri
mənim içimdədi…
Deyirsən ki,
sənin sevgin
mənə olan bütün sevgiləri
əvəz etmək gücündədi…
Təki belə olsun,
Qollarını boynuma dolayıb,
üzünü üzümə söykə.
Qəlbimin əzabları, ağrıları
səngidi bəlkə?!

**07. 07. 2004**

## MƏNİM OLA BİLƏCƏKSƏNMİ?

*"Üzdə yaxın, dost, sevimli görünsək də, mən Sizin ən qatı düşməninizəm. Ona görə ki, mən Sizi sevənlərin hamısına nifrət edirəm. Mümkün olsaydı, mən onların yumşaq, sevgi göyərdən torpaq qəlblərini daşa döndərərdim. Ancaq kədərlənməyin. Çünki mənim sevgim heç zaman Sizi tənha qoymaz."*

***Bir məktubdan***

Yazırsan ki,
məni sevənlərin
ən qəddar düşmənisən.
Ancaq bir şeyi
başa düşməlisən:
sən mənə hava kimi,
su kimi,
işıq kimi gərəksən.
Amma…
Kəpənək qanadlı
körpə sevgin
ütüm-ütüm ütülə bilər
köksümün oduna.
Sən hələ
qəlbində ilk sevgi
puçurlayan
körpə mələksən, -
Dönə biləcəksənmi
könlümün hakimi olan
qadına?!
Qəlbimdəki dəli həsrəti
bu günə qədər
heç kəs səngidə,
uyuda bilməyib.
Sən
içimdə sızım-sızım
sızlayan,





göyüm-göyüm
göynəyən
ağrıya, nisgilə
qənim ola biləcəksənmi?
Neçə-neçə sevgilər
mənim təşnə ürəyimi
soyuda bilməyib, -
Sən
təpədən dırnağa
mənim ola biləcəksənmi?

**11. 07. 2004**

***

Sən hələ körpəsən,
Mənə olan eşqin
Səni böyüdəcək.
Ancaq bilmirəm ki,
mənim sevgi dəyirmanım
hələ neçə-neçə gözəl
üyüdəcək?
Dəyirmanıma həsrətlə gələn
dən oldun bəlkə?
Həyatımın sonuncu qadını
sən oldun bəlkə?

**11. 07. 2004**

## ƏN ÇOX SEVDİYİM BƏXTƏVƏR

*Məktubunda mənə "Ən çox sevdiyiniz bəxtəvər kimdir?" sualı ilə müraciət edən bir qıza.*

Həsrət sazağında üşüyən
körpə çiçəklərin
arzusu olub
ürəyimin oduna
qızınmaq.

Ancaq
hər gözələ nəsib olmayıb
mənim sevgimi qazanmaq.
Ən çox sevdiyim qızın
kim olduğunu soruşursan,
qısqanclıq alovu
qəlbini dələn oxdu.
Xoşbəxtlik
mənim sevgimlə
ölçülürsə əgər, -
dünyada
səndən bəxtəvər
yoxdu…

**12. 07. 2004**

## MƏHƏBBƏT QAYIĞI

***"Sənin məhəbbət qayığının hər zaman sevgi dənizində üzməyini, intizar, hicran qasırğasına mə'ruz qalmamağını arzulayıram."***

***H. Aygün***

Bu da mənim taleyimdi, -
Sevgi dənizində
üzürəm.
Ayrılıq əzabına,
həsrət fırtınasına
mərdliklə dözürəm.
Sevdalı ürəyim
özünə simsar seçəndə
heç zaman
yanılmayıb.
Ancaq məhəbbət qayığım
hər sevgi limanına
yan almayıb…
İntizar, hicran qasırğası
olmasa,





Mənim ömrümlə
adi insan ömrü arasında
nə fərq olacaq?
Ancaq bilirəm ki,
məhəbbət qayığım
əvvəl-axır
sevgi dənizində
qərq olacaq…

**04. 08. 2004. Qusar.**

***

*"Sən mənim həyatda qol-qanadım, çırpınan ürəyim, iki gözümsən."*

***Nuranə***

Çırpınan qəlbim
İki gözümsən.
Bilmirəm mənsiz
Necə dözürsən?

Soyuq qəlbimdə
Bir ocaq qala.
Qoyma gözlərim
İşıqsız qala.

Qol-qanad oldun
Daşa dönmüşə.
Məhəbbətinlə
Quşa dönmüşəm.

Həsrət odunda
Qoyma çırpınım.
Qıyma ki, göydən
Yerə çırpılım!

Köksündə yer ver
Başımı qoyum.
Xoşbəxt olmağın
Dadını duyum…

**04. 08. 2004. Qusar.**

## İYİRMİ DÖRD SAATLIQ SEVGİ

*"Sizi gün ərzində yalnız bir dəfə fikrimə gətirirəm. Bu da 24 saatımı alır."*

***Sizi sevənlərdən birisi***

Bir-birini əvəz edir
Gecə, gündüz.
Kimliyini bilməsəm də,
Mən də səni düşünürəm
gecə-gündüz.
Sanki səndən söhbət açır
Göydə çaxan şimşək,
yağmur…
Xoşbəxtəm ki,
mənə sevgin
24 saata sığmır.
Yaxam qurtarsaydı əgər
bu intizarın əlindən,
24 dəfə öpərdim
saçlarının,
qaşlarının,
kirpiyinin
hər telindən…

**06. 08. 2004.**
**Qusar.**





***

*"İndi yeganə arzum gözlərinizdən öpə bilməkdi. Çünki sağ qalmağımın səbəbkarı mə'nalı gözlərinizdi…"*

***Nani Abaşidze***

Mənə mesaj göndərmisən,
Hər sözündən sevgi daşır.
Ürəyim yarpaq tək əsir, -
Mum edərmiş sevgi daşı.

Qəlbimdəki həyat eşqi
Maya tutub sözlərimdən.
Arzun birce yol öpməkdi
Sevda dolu gözlərimdən.

Sanırsan eşq mə'bədim var
Hər tağı, hər bürcü qızıl.
Mat qalmışam, məni hardan
Tanıyırsan, gürcü qızı?!

*P. S. Xoş söz dedim gül şə'ninə,*
*Həyəcandan əsdi ürək.*
*Mənim sevgi gülşənimə*
*İlk qədəmlərin mübarək.*

**09. 08. 2004. Qusar.**

## SEVGİ PAYI

*"Mən dara düşəndə xəbəriniz olmadan Sizinlə dərdləşirəm və rahatlanıram. Siz mənə səhrada bir damla su kimi gərəksiniz, yaşamaq, nəfəs almaq üçün. Sevginizə möhtac olanları əliboş geri qaytarmayın. Bunu Sizdən sevgiyə möhtac bir insan kimi xahiş edirəm."*

***B. Günel***

Yaxşı ki,
məni sevənləri sevmək
əlimdən gəlir.

Yaxşı ki, bu işdə
üzüm ağdı.
Hamıya sevgi payı
verə bilirəm, -
Könlüm xəsislikdən
uzaqdı.
Adi bir qığılcımı
Ocağa
döndərə bilirəm.
Bir damcı şehi
Bulağa
döndərə bilirəm.
Sevgidən korluğu
olmayacaq,
Kim mənim sözümlə,
özümlə baş-başadırsa.
Dünyanın bəxtəvəri
deyiləmmi
Bir damcı göz yaşım
Bir çiçəyi yaşadırsa?!

**15. 08. 2004**

## QƏLBİMİN SAHİBİ

Məndən könül istəyirsən, -
Bilmirəm heç qalıbmı
könlümün yazılmamış
varağı?
Qəlbim təkcə
özümün deyil ki,
"götür get!" – deyim,
Qəlbimin sahibi
var axı!

**15. 08. 2004**





## DEYƏ BİLMƏDİYİN SÖZLƏR

*"Sizin qəlbləri oxşayan şe'rlərinizi oxuduqca insanın ruhuna damla-damla axıb, ona öz qəmlərini unutdura bilir. Şerlərinizdə elə ifadələr var ki, onlar günəş şüalarına bənzəyir. Elə buna görə də Sizin gənc pərəstişkarlarınız çoxdur. Onlardan biri də mənəm... Ürəyimdə söz çoxdur, ancaq hamısını deyə bilmirəm.*

***M. Nahidə***

Sən də ayrılığa məhkum eşqini –
Duyuram, özünə dərd eləmisən.
Necə sevdiyini utandığından
Ayrı kəlmələrlə pərdələmisən.

Azca meh əsdimi, külün altından
Necə ki işaran közlər boylanır, -
Sənin də sevdalı bəbəklərindən
Deyə bilmədiyin sözlər boylanır.

İçində yanırsa sevgi alovu,
Ürək üşüyərmi boranda, qarda?!
Mənim şe'rlərim qəlbinə axıb,
Sevgi çiçəkləri cücərdib orda.

Bir giley boylanır bəbəklərindən,
Ölürəm sevdalı gözlərdən ötrü.
Mənim çat-çat olan qəlbim təşnədi,
Deyə bilmədiyim sözlərdən ötrü...

**15. 08. 2004**

## TƏSƏLLİ

*"...Ömür tarixçəmə salıb bir nəzər,*
*Söylə, əlac varmı mənim dərdimə?"*
***A. A.***

Bilmirsən dünyanın harasındasan,
Nəmli gözlərində həsrət şehi var.
Nidayla sualın arasındasan, -
Hamıda olmur ki, vəfa, e'tibar?!

Qəlbin ayrılığa dözməyir sənin,
Azmaqdan qorxursan dumanda, çəndə.
Qarşıda sevgilər gözləyir səni, -
Qorxma, dərdlərinin əlacı məndə.

Bir daş ürəkliyə tutub acığın, -
Quruyan layiqdi baltalanmağa.
Tufana düşmüsən, köksümə sığın, -
Bir guşə tapmasan daldalanmağa...

**21. 08. 2004**

## GÖZƏL DÜNYA

*"Dünyanı gözəl olduğu üçün deyil,*
*içində sən olduğun üçün sevirəm."*
***Bir mesajdan***

Bu dünya zalımdı, nə qədər gülü
Nə qədər yarpağı xəzəl eyləyib.
Bu gözəl dünyanı mənim gözümdə
Sözlərin daha da gözəl eyləyib.

Şehli çəmənlərdə çiçək dərəndə
Sevən bəbəyimdə yaş muncuqlayıb.
Ürəyimə yatan gözəl görəndə
İçimdə arzular tumurcuqlayıb.





Gəl uca dağları dolanıb qoşa
Qoxlayaq güllərin gözəl iyini.
Sevda yollarında verib baş-başa,
Artıraq dünyanın gözəlliyini...

**17. 11. 2004**

***

*"Bu məktubu çoxdan yazmaq istəyirdim.*
*Sonra fikirləşdim ki, Sizi nə qədər çox*
*sevdiyimi bilməsəniz yaxşıdır..."*
***S. Günel***

Sözlərinin şirinliyindən
çətin ki,
doya bilim.
Utandığından üzümə
baxa bilmirsən.
Qorxursan ki,
bəbəklərindəki sevgini
duya bilim, -
Gözümə baxa bilmirsən.
Yanaqların qıpqırmızı qızarır,
Könlümün yarasını
kirpiklərinlə qanatdıqca.
Mənə bir az da yaxınlaşırsan,
məndən uzaqlaşmağa
can atdıqca...

**21. 08. 2004**

***

*"Ürəyimi sənə açdım, sevdiyimi dedim. Sən isə*
*qəlbimi oğurladın, eşqimə cavab vermədin..."*
***Bir mesajdan***

Mən
ürək oğrusu deyiləm, -
Ürəyini özün mənə
vermədinmi?

Qəlbimdəki
sevgi çiçəklərini
məndən xəbərsiz
özün dərmədinmi?

**29. 08. 2004**

***

*"Gözlərin gözümə baxdığı zaman ürəyim döyündü, qəlbim çırpındı. İçində bir ocaq qalandı o an..."*

***Bir mesajdan***

Deyirsən ki,
Gözlərin gözümə baxanda
Ürəyin titrəyir,
çırpınır...
Ürəyin peşəsi döyünməkdi, -
Sevgiylə əsmirsə,
Daşlara
çırp onu!

***

Ayrılıq sazağı
üşüdüb səni,
Köks ötürmüsən.
Mənim sevgi ocağımdan
Kirpiklərinlə
köz götürmüsən.
İçində bir ocaq çatmısan,
a bəxtəvər!
Arzularına çatmısan,
a bəxtəvər!
Neçə ki,
həsrət yağışları yağır,
sevgi çiçəkləri
solmayacaq.





O halal közü
qoruya bilsən,
İçindən ocaq
əskik olmayacaq...

**29. 08. 2004.**

***

Gözlərin
həmişə belə
üzümə gülsə,
sazımdakı
simlər güləcək.
Həyatıma kimlər gəldi,
kimlər getdi,
kimlər gələcək?

***

Baxışlarınla könlümü
məst eləmisən.
Gözlərinlə ürəyimdə
əsrarlı bir mahnı
bəstələmisən.
Qəlbimdəki ötən sevdaları
süst eləmisən,
məni sevənlərin hamısını
üstələmisən...
... Çat-çat olan ürəyimi
sevginin nuruna
bələdin.
İndi səndən başqa
kimsədə
gözüm yoxdu.
Dediklərinin hamısını elədin, -
Daha sənə
sözüm yoxdu...

**31. 08. 2004**

## SEVDALI SABAHLAR

*"Səni dünən sevmədim, çünki dünən geridə qaldı. Səni bu gün də sevməyəcəm, çünki bu gün də bitəcək. Səni sabah sevəcəm, çünki sabahlar heç tükənməyəcək..."*

***Xəyalə***

Şəkidə –
Karvansarada
nağıllar dünyasına
dalıb,
keçmişə üz tutanda
mesajınla
məni səslədin
üzü gələcəyə...
Darıxma,
əgər qismətində
varamsa,
mütləq ömrünə
gələcəyəm...
Sona yetəcək
ayrılıq günlərində
çəkdiyimiz ahlar.
Üzümüzə güləcək
Sevdalı sabahlar...

**12. 10. 2004**

**P.S.** Xəyalıma da gəlməzdi ki,
Xəyalə mənə yar olacaq...
Sevdalı ürəyim
ömrün qışında da
bahar olacaq...





## SƏN BƏXTİYAR OLASAN DEYƏ...

*"Bə'zən düşünürdüm ki, həyatın ən dadlı duyğusunu – sevgini yaşamaq mənə nəsib olmayacaq. Lakin səni tapdım, sevməyə nail oldum. Bəxtiyaram, çünki sən varsan..."*

***Bir mesajdan***

İlk sevginin oduna
şam kimi yanırsan.
Məni sevdiyin üçün
Özünü xoşbəxt sanırsan.
Deyirsən ki,
Bəxtiyaram, çünki
Sən varsan!
Sevdalı ürəyimdə
əbədi baharsan.
Sözlərin içimi sevgi ilə
doldurub,
eşqinlə həzin nəğmələr
yazıram.
Sən həmişə
bəxtiyar olasan deyə,
Mən əbədi yaşamağa da
hazıram...

***

Sevginin böyüklüyündən
heyrətləndim,
gözümdən yaş gəldi.
Məcnun könlümün Leylası,
Xoş gəldin ömrümə,
xoş gəldin!

**P.S.** Axır ki, sevgini bildirdin,
Sevdalı könlümü güldürdün...

**03. 10. 2004**

## KÖNLÜM SEVGİ TƏŞNƏSİDİ

*"Bir gün dodaqların qurusa, dənizi gətirərəm sənə. Axşam ayazında üşüsən, günəşi gətirərəm sənə. Könlün bir sevgi istəsə, qəlbimi gətirərəm sənə..."*

***Bir mesajdan***

***

Dənizi neyləyirəm? –
Dodaqlarınla
odumu söndür.
Günəşi neyləyirəm? –
Gözlərinlə
ruhumu isindir.
İçimi sevgi sevinciylə
doldur, -
Bəsdir oldum
əsir qəmə!
Könlüm sevgi təşnəsidi,
qəlbini məndən
əsirgəmə!

***

Dənizim olmaq istəyirsən,
Günəşim olmaq istəyirsən.
Sehrli bir nəğmə kimi
Könlümə dolmaq istəyirsən.
Əllərin titrəyə-titrəyə
məni necə sevdiyini
yazırsan.
Ürəyini köksündən çıxarıb,
köksümə qoymağa da
hazırsan!
Çox zillətlər çəkmişəm,
əzizim,
Tale üzümə
gülənə qədər.





Dünya bu qədər
gözəl deyildi,
Sən ömrümə
gələnə qədər.
Bilən bilir ki,
sadiqəm, vəfalıyam,
Heç zaman olmamışam
çörəyi dizinin üstündə.
Sözünün üstündə
dursan əgər,
yerin olmazmı
gözümün üstündə?

***

Çiçəklər günəşə
can atdığı kimi,
Mənə sarı ilk addımı da
sən atdın.
Yaralı könlümü
yenidən qanatdın.
Sevdalı gözlərinlə
ürəyimi yerindən
oynatdın.
İçimdə mürgüləyən tufanı
oyatdın...
Bir qəfil sevinc kimi
gəldin ömrümə.
İndən belə
neyləyirəm axı
Sənsiz keçən
ömrü mən?

**P. S.** Ay Xəyalə, belə getsə,
Xəyalların çin olacaq.
Əllərin çiynimə qonan
Bir cüt göyərçin olacaq...

**17-18. 10. 2004**

## BİZ NƏ KARƏYİK

*Sevmək günahdısa, məni bağışla!*
***Bir mesajdan***

"Sevmə!" -
deyə bilmərəm, əzizim,
nə sənə, nə özümə.
Nəfəsinlə yeni həyat
vermək istəyirsən
kül altda uyuyan közümə.
Qəlbinə toxunmaqdan
qorxuram, -
Bulud gözlərində
müntəzirdi
yağış payım.
Sən mənə öz sevginlə
bir dünya bağışlamısan,
nə günahın var ki,
səni bağışlayım?!
Qəlbimizin səsini belə
Tanrı eşidir.
Sevgi nə səndən,
nə məndən asılıdı,
sevgi Tanrı işidir...
Əlimizdən nə gəlir axı, -
Hərəmiz öz taleyimizin
qulluqçusu,
nökəriyik.
Sevgini qəlbimizə
Tanrı salıbsa,
biz nə karəyik?

**02. 11. 2004**





## ÜRƏK İSTƏYƏNDƏN SONRA...

*Xəyalə üçün*

Mesajlarını
"Öpürəm!" kəlməsi ilə
bitirirsən.
Sözlərinlə qəlbimi
ehtizaza gətirirsən.
Ayrılıq odunda için-için
yanırsan.
Ancaq nədənsə məni
əlçatmaz, ünyetməz
sanırsan.
Bir damcı
ümidin də qalmayıb
sevgi tufanının
yatmasına.
Ürək istəyəndən sonra
nə var, əzizim,
əlin ələ,
dodağın dodağa
çatmasına?!...

**07. 11. 2004**

***

*"Mən qürub şüalarının təsirinə məruz qalmışam. Sübh şəfəqlərinə ehtiyacım var. Bu işdə mənə kömək edə bilərsinizmi?"*
***Bir mesajdan***

Sevgi qanadında
uça-uça
xəyallara cumursan.

Ömür günəşi
qüruba əyiləndən
Sübh şəfəqlərimi
umursan?…

17. 11. 2004

## QAN İÇİNDƏ

*"Vur xəncəri ürəyimə, qana bulansın, amma çox enmə dərinə, çünki orda sən varsan."*

***Bir mesajdan***

Mənə meydan oxuyursan, -
Xəncərimi arzulayır
köksün. –
Qanı çoxdan quruyan qılıncım
yenəmi
qan töksün?
Eşqini gizli saxla,
yan içində!
Bəxtəvər olmaq
asan məsələ deyil
qan içində…

17. 11. 2004

## ULDUZLU SƏMA

*"Səni hər dəfə düşünəndə qəlbimə bir ulduz əlavə olunur. Neçə dəfə düşündüyümü xatırlamıram, amma mənim qəlbimdə artıq bir ulduzlu səma var"…*

***Bir mesajdan***

Tale qismətinə
bir ilahi məhəbbət payı
göndərib.
Mənə olan sevgin
qəlbini ulduzlu səmaya
döndərib.





Köksündə həmişə
o kəhkəşan
sayrışacaqmı,
bilmirəm?
Bu fani dünyada
ulduzlarımız
barışacaqmı,
bilmirəm?!

17. 11. 2004

## OD İLƏ SU ARASINDA

*"Mən səni sərçələrin axtardığı göz yaşı kimi sevirəm"…*

***M. İlahə***

Baxışınla dilimdəki
Mürgülü sözü oyatdın.
Nəfəsinlə kül altında
Uyuyan közü oyatdın.

A sərçəcik, su gəzirdin, -
Bir qətrə düşdü gözümdən.
Qorxmadınmı qanadların
Od ala mənim közümdən?

Təbəssümünü görəndə
Sevdalı qəlbim alışdı.
O bir qətrə göz yaşında
Sənin həsrətin sayrışdı.

Saçımın ağını gördüm
Gözlərinin qarasında.
Yaşaya biləcəksənmi
Od ilə su arasında?

Gecəyarı pəncərəmdə
Gülümsəyən aysan bəlkə?
Ay İlahə, İlahinin
Göndərdiyi paysan bəlkə?!

**27. 11. 2004**

## OVCUMA SIĞINMAQ İSTƏYƏN ÇİÇƏK

*"Qoparkən sənin üçün qopan və sənin ovuclarında solan çiçək olmaq keçir könlümdən"...*

***Bir mesajdan***

Gözündə bir qətrə şeh,
Bulud tək dolan çiçək!
Yaralı ürəyimin
Məlhəmi olan çiçək!
Sözləriylə qəlbimi
Odlara salan çiçək!
Yerin cənnət olacaq,
Ovcumda solan çiçək...

***

Sərçənin gəzdiyi bir damla su tək
Məni sevdiyini yazırsan, gülüm.
Tər çiçək olsan da sevgi yolunda,
Ovcumda solmağa hazırsan, gülüm!

Bəlkə də göylərdən enib bir mələk
Mənim həsrətimə qənim olmağa?
Ovcuma sığınmaq istəyən çiçək,
Göz yaşım qoyarmı səni solmağa?!

**27. 11. 2004**





## İNTİZARLA GÖZLƏDİYİN GECƏLƏR

*"Gecədirmi məni Sizi düşünməyə vadar edən, yoxsa mənmiyəm Sizi düşünmək üçün gecəni gözləyən?"*

***Bir mesajdan***

Mənə rast gələndən
sevgi əzabıyla
doludur için.
Ancaq özünü
xoşbəxt sanırsan
göynəsən də için-için.
Sevgi üzünü işıqlandırıb, -
gecənin qoynunda ay kimi
yanırsan.
Xəyallara dalıb özünü
bəxtəvərlər bəxtəvəri
sanırsan.
Bilmirəm qüdrətin çatacaqmı
bəxt ulduzunu
səmadan sənin köksünə
düşürmək üçün? –
Hər gün intizarla
gecənin gəlməyini
gözləyirsən,
məni düşünmək üçün.
Təbəssümün üstümə
nur ələyir,
sənsiz gündüzüm də
gecə olar, əzizim!
Xəyalım ki,
səni bu qədər
bəxtəvər eləyir,
Bəs yanına özüm gəlsəm
necə olar, əzizim?!

**27. 11. 2004**

## TORUMA DÜŞƏN QUŞ

*"Sənin ovladığın quşam, toruna düşmüşəm.*
*Ya öldür, ya dən ver, ya da qəfəsdən xilas et!"*
***Bir mesajdan***

Öldürməyə əlim gəlməz,
Sənə çoxlu dən səpərəm.
Ürəyimi şan-şan edən
Dimdiklərindən öpərəm.

Qəlbində əsər yoxdursa
Azad olmaq həvəsindən,
Səni necə xilas edim
Axı sevgi qəfəsindən?

**28. 11. 2004**

## İKİ KOR

*"Həyatda iki kor tanıyıram; biri səni sevən mən, o biri mənim sevgimi görməyən sən..."*
***Bir mesajdan***

Könül işlərindən baş açmır adam,
Ürəyi ağlayan çətin sevinə.
Sənin gözlərini sevgi tutsa da,
Kor demək olarmı məni sevənə?

Yatıb ürəyinə söhbətim, sözüm,
Ruhunu bilmisən ruhuma yaxın.
Sən məni gözünlə deyil, əzizim,
Sən məni qəlbinlə sevmisən axı!

Hər xumar gözlüdən pay ummayana
Bir sevgi nəğməsi oxu, ay gözəl!
Gözündən bir tük də yayınmayana
Kor demək günahdı axı, ay gözəl!





Elə ki, köksümdə dinir sarı sim,
Sədası bir elə, mahala düşür.
Sən nə bilirsən ki, sevdalı qəlbim
Gözünü görəndə nə hala düşür?!

**28. 11. 2004**

## SEVGİ DƏNİZİ

*Mənə görə Siz bir dənizsiniz. Elə bir dəniz ki, su damlaları yerinə yanaqlarıma, dodaqlarıma qonan şirin busələr, ləpələr yerinə gözəl röyalar, dadlı xəyallar, qəzəbli dalğalar yerinə dəli sevdalar ilə çırpınan bəzən durğun, sakit, bəzən coşqun olan mənim sevgi dənizim.*
***Bir məktubdan***

Sənin mənə olan eşqin də
fırtınalı bir dənizdi.
Yanaqlarına, dodaqlarına
düşən damcılar
kimsənin poza bilməyəcəyi
bir izdi...
Balaca ürəyin
suyu heç vaxt sözalmayan
sevgi buluduna bənzəyir.
Kirpiklərindən
qopan damlalar
iri-iri, yekə-yekə.
O dənizin suyunu
bəbəklərindən çağlayan
həsrət yağışları
çoxaldıb bəlkə?
Yanaqlarına,
dodaqlarına arabir qonan
titrək busələr
Təşnə bir ürəyə
necə bəs elər?!
O dənizə biganə olsan əgər
qəlbimdə fırtına qopacaq.

O dəniz damla-damla,
gilə-gilə ruhuna hopacaq…
ən bəxtəvər,
ən varlı bir qızsan
sən indi.
O dəniz
son damlasına qədər
sənindi.
Əgər dönməsə
bu sevgidən üzün,
Hər zaman ləpələnəcək,
dalğalanacaq
sənin sevgi dənizin...

**14. 01. 2005**

## GÖZLƏRİMDƏN ÖPMƏK İSTƏYƏN QIZ

*İcazə versəniz də, verməsəniz də, nədənsə həmişə göz yaşı ilə dolu olan gözlərinizdən öpürəm…*

***Bir məktubdan***

Sevdalı bəbəklərim –
İçində daim həsrət sayrışan
bir cüt ulduz, -
Sən onun aynasında
arabir özünə
baxmısanmı?
Həmişə göz yaşları ilə
dolu olan bəbəklərimdən
öpmək istəyən qız,
o bir damla göz yaşında
qərq olmaqdan
qorxmursanmı?

**14.01.2005**





## DÜNYAYA XOŞ GƏLMİSƏN

*Pərinin xahişi ilə*
*Aynurənin qızı Arifə üçün*

Bircə işarə bəsdi
Ağıllıya, arifə.
Dünyaya xoş gəlmisən,
Ay Arifə, Arifə!
Tez elə, böyü, su iç
Sən qızlar bulağından.
Gülüş əskik olmasın
Üzündən, yanağından.
Şeytan-şeytan gülümsə,
Evinizə nur ələ!
Öp mənim əvəzimdən,
Ananı təbrik elə!
Şe’r yazıb vaxtında
Qəlbini şad etmədim.
Başım qarışdı, onun
Toyuna da getmədim.
Sən dünyaya gələn gün
Anan murada çatıb.
Vətənimin, yurdumun
Bir gözəli də artıb.
Bircə işarə bəsdi
Ağıllıya, arifə.
Dünyaya xoş gəlmisən,
Ay Arifə, Arifə!

**P.S.** Bu misralar şairdən
Sənə yadigar qalıb.
Bu şeri Pəri xalan
Bir cüt öpüşə alıb…

**03. 05. 2002**

# ÖTƏN SEVDALARIN HƏSRƏT NƏĞMƏSİ

## O İŞIQ

*"...Yel vurub sinən açdı,*
*Gözümə işıq gəldi."*

Bu sevgi yoludu, həsrət yoludu,
Bu yolda can verməк könlümdən keçər.
Qara paltarını – qara buludu,
O işıq şimşək tək doğrayar, biçər.

Sinəndən nur daşıb axar gözümə,
Göyərər içimdə bir dəli həsrət.
Bir cüt intizar göz baxar gözümə,
Deyər ki, ömrünü o nura həsr et.

O işığı görcək quru budağın
Üstündə tumurcuq ümidlər yanar.
Gözünə yaş gələr quru bulağın,
Bir ölmüş cığırın otu tapdanar.

Taleyim bir anda bürünər zərə,
Bir ötəri sevinc gözləyər məni.
O işıq xətt çəkər ötən günlərə,
Təzə bir həyata səsləyər məni.

**1983**

## SƏNİN PƏNCƏRƏN

İncimi parlayır gözündə dən-dən,
Bir gün qəh-qəh çəkib güləsisən sən.
Sənsiz kor qalardı sənin pəncərən,
Pəncərən gözdüsə, giləsi sənsən.





Ürək intizarda, gecə uzundu,
Yatarmı gözünə göz dikən aşiq?!
Mənə elə gəlir bəxt ulduzumdu
Sənin pəncərəndən süzülən işıq.

Küçəniz, məhləniz yolumu gözlər,
Hər titrək təbəssüm dayağım olar.
Sənin pəncərəndən boylanan gözlər
Sevda yollarında mayağım olar.

Yenə pəncərənə göz dikmişəm mən,
Həsrətə köklənib qəlbimin simi.
Axır ki, açıldı sənin pəncərən,
Açıldı həsrətli qolların kimi...

**1980**

## SƏN AÇDIN QAPIMI

Çölləri, düzləri dolandım, gəzdim,
Gözümə dəymədi bir gül, bir çiçək.
Qışın bu çağında heç gözləməzdim,
Açarsan qapımı bahar yeli tək.

Közərib boğuldum mən öz tüstümə,
Gircək otağıma sən yana-yana.
Qəfil yağış kimi yağıb üstümə,
Solmuş yarpağımı gətirdin cana.

Ürək olduğunu dərk etdi ürək,
Titrək əllərini alanda ələ.
Odlu baxışların yaz günəşi tək
Qarımı, buzumu döndərdi selə.

Harda od görmüşəm sənin odun tək?!
Közərib alışdı gizli bir ocaq, –
Baş-başa qoyulmuş iki odun tək
Əlimi əlinin üstünə qoycaq.

Bahara çevrildi bir an içində,
Gecikmiş məhəbbət qışda közərdi.
Ətirli yaz oldum boran içində,
Qurunun oduna yaş da közərdi…

1979

## BİR GÖZƏL YAĞIŞA MEYDAN OXUYUR

Alıcı quş kimi yerə şığıyır,
Zövq alır yağmaqdan leysan elə bil.
Bir gözəl yağışa meydan oxuyur,
Qaçıb daldalanmaq hayında deyil.

Gəzən bir çiçəkdi sanki çəməndə, –
Xoşbəxtdir saçına düzülən yağış.
Onun tellərində düşüb kəməndə,
Gümüş topuğundan süzülən yağış.

Sinəyə yapışan ağ köynək altdan
Tunc qamət görünür, ilahi qamət.
Baxışı salacaq atlını atdan,
Qiyamət qopacaq, vallah, qiyamət.

Baxıram, heyrətdən lal olmuşam mən,
O qəddi, qaməti oğulsan unut!
Ayağı altında məst olub çəmən,
Başının üstündə hönkürür bulud…

1985

## QARA PALTARDA

Qara gün ömrünə düşməsin yaxın,
Bu qara paltarda sən nə qəşəngsən.
Mənə elə gəldi qara zanbağın
İçində dincələn ağ kəpənəksən.





Əyilib su içsəm eşqin camından,
Vallah, güləsidi, ömür güləsi.
Gözünün təbəssüm qığılcımından
Alışdı gözümün kömür giləsi.

Közərdi eşqimin ümid tonqalı,
Məhəbbət havalı küləkmi əsən?!
Sən işıq saçırsan, qara manqalın
İçində alışan alovsan, nəsən?!

Odlu gözündəki o sehr nədi? –
Yoxsa müjdəçisi odur baharın?!
Sənin gözəlliyin savab eylədi,
Üzünü ağartdı qara paltarın…

## YANĞIN

Ürəyin qovrulur, bilirəm bunu,
Dilin də söz tutmur, kəkələyirsən.
Fürsət tapan kimi öz "ah-uf"unu
Telefon xəttinə yük eləyirsən.

Asıram dəstəyi, düşmürsən ruhdan,
Yenə zəng edirsən, "ah-uf"dur işin.
Od alsa ürəyim o "ahdan, ufdan",
Bizi nə gözləyir, bir özün düşün!

Vallah bu istəyin əbəsdir, əbəs,
Beynimi yerindən oynatma nahaq.
Telefon yanğını söndürə bilməz,
Gəlsəm, evinizdə yanğın olacaq…

1986

## DAĞ ÇİÇƏYİ

Sən təzə bir çiçək idin,
Heç kəs xəbər tutmamışdı
Saçlarının qoxusundan.
Gözlərinin məsumluğu ayıltmışdı
Məni qəflət yuxusundan.
Əlçatmaz bir uçurumda
Bitəydin kaş.
Sürünəydim sənə sarı
Dizin-dizin, yavaş-yavaş.
Güc verəydi qollarıma
Məhəbbətin qadir səsi.
Qayalara yazılaydı
Eşqimizin tarixçəsi ,–
Axmayaydı qanım hədər,
Qızılı bir yol salaydım
Sənə qədər.
Daha uca olaydı kaş
Sənin yerin.
Baş qoyaydım ayağına,
Can verəydim şirin-şirin…

**1976**

## SƏNİ ÖTÜRMƏYƏ GƏLMİŞDİM O GÜN

Əlinə çatmaqçün əsirdi əlim,
Özümü bəxtəvər bilmişdim o gün.
Köksümü ötürə-ötürə, gülüm,
Səni ötürməyə gəlmişdim o gün.

Ürəyimdə həsrət, dilimdə giley,
Pərişan saçımı külək dağıdır.
Mənimçün nədənsə çox gördü tale,
Səninlə görüşüb ayrılmağı da.





Üzümdən bir həsrət buludu keçdi,
Yağışda islandı qızılı tellər.
Sənin əllərinçün qəribsəmişdi,
Mənim əllərimdə ağlayan güllər.

Ayrılıq gətirdi bizə bu bahar,
Yenə küçələrə çisəkləmişdi.
Güllər əllərimdə ağlayırdılar,
Qəlbimdə həsrətin çiçəkləmişdi…

**1985**

## BU ÇƏMƏNDƏ BİR QIZ ÇIXDI QARŞIMA

Bu çəmənlik yaman gəldi xoşuma,
Bir cüt büllur ləçək düşdü gözümdən.
Bu çəməndə bir qız çıxdı qarşıma,
Çəmən düşdü, çiçək düşdü gözümdən.

Həsrət gözüm o gözələ dikilcək
Yanaqları baxışımdan aldı od.
Əllərində şehli-şehli gül-çiçək,
Şirin-şirin xəyallara daldı o.

Gülümsədi, dağa döndü ürəyim,
Bu xoş günə şahid olsun Göyəzən.
O yanaqda pardaxlayan çiçəyi,
Üzmək mənim qismətimmiş deyəsən!

**1986**

## SEVGİ AĞACI

Sanırdım bir daha titrəməz ürək,
Çevrilib olmuşdu daş ürəyim də.
Qayanın üstündə bitən ağac tək
Bir sevda göyərdi daş ürəyimdə.

Bu sevda ağacı gec-tez boy atıb,
Mənim daş qəlbimi parçalayacaq…
Qayanın qəlbində sevgi oyadıb,
Zərif bir çiçəyin qüdrətinə bax!

**1984**

## O AYLI AXŞAMDA

Mənim həsrətimə sən qənim idin,
Köksümün altında əsirdi ürək.
O aylı axşamda sən mənim idin,
Dolmuşdun qəlbimə ay işığı tək.

Araz topuğumdan, Kür aşığımdan,
Titrəyən ürəyim müğənni idi.
Sanki çarpayımız ay işığından
Asılmış sehrli bir nənni idi.

Bizi yelləyirdi külək astaca,
İlahi, nə xoşbəxt, bəxtəvər idik!
Kəlmə kəsməyə də tapmadıq macal,
Biz eşqin oduna şam tək əridik.

Onda həsrətimə sən qənim idin,
Köksümün altında əsirdi ürək.
O aylı axşamda sən mənim idin,
Dolmuşdun qəlbimə ay işığı tək.

**1985**

## SEVGİDƏ GERİYƏ YOL YOXDU AXI

Qəlbimdə yurd salan təmiz sevgiyə
Niyə yuxarıdan aşağı baxdın?
Məndən üz döndərib uydun özgəyə,
Elə düşündün ki, açıldı baxtın.





Gülünü soldurdu çiçəkli bağın
Soyuq baxışların bir şaxta kimi.
Mənim ürəyimə vurduğun dağın
Yarası göynəyir bu vaxta kimi.

Üstümdən ayrılıq yelləri əsdi,
Məni kül elədi həsrətin ahı.
Sədəqə umursan, ancaq əbəsdi,
Sevgidə geriyə yol yoxdu axı…

**1985**

## DAĞLI QIZIN TOYUNDA

Nələr düşünürdü təntimiş göylər?
Xəyala getmişdi qocaman palıd.
"Gəlin atlandı"ya bənd imiş göylər,
İldırım kişnədi, hönkürdü bulud.

Ələndi gözlərdən yaş gildir-gildir,
Qardaş ovundurdu öz anasını.
Dağın başındakı bulud deyildi,
Dolan gözləriydi qız anasının.

Təzə bəy təlaşla boylanır göyə,
Darayır köhlənin ağ yallarını.
Dağ qızı dağlardan getməsin deyə,
Sel yuyub apardı dağ yollarını.

Adətlər qoymur ki, haraya gəlsin,
Oğlanın köksündə çırpınır ürək.
Dağlı gözəliylə evlənən kəsin
Qəlbi də, səbri də dağ olsun gərək…

## BƏNÖVŞƏ

Səni intizarda qoyub gəlmişəm,
Başqa çiçəklərə uyub gəlmişəm.
Sənin həsrətindən özgə nə dərdim,
Bənövşə, qəlbimi salmısan oda.
Səni sevə-sevə nərgizi dərdim,
Taleyin hökmüymüş sən demə bu da...

**1983**

***

Fikirsiz baş çiyinə,
Sevgisiz ürək sinəyə
yükdü.
İnsan ağlıyla,
məhəbbətiylə
böyükdü...

**1982**

## GÖZÜMÜN QAN CIĞIRLARI

Hara atım sinəmdəki bu ağrıları,
Həyatımı indən belə kimə həsr edim?
Gözümdəki qıpqırmızı qan cığırları
Ayağının izləridi yoxsa həsrətin?

O cığırlar qan ağlayan bulud gözümdə,
İşıq saçan qızıl-qızıl şimşəkdi yoxsa?!
Su ələdin, kömür oldu qızıl közüm də,
Gözlərimi açıb gördüm yanımda yoxsan...

**1986**

## AĞ ƏLLƏRİN İŞIĞINDA

Bu çiçəklər yatdı mənim könlümə,
Ürək dedi: -Gəl onlara nəğmə qoş!
Bir ağ zanbaq əl uzatdı əlimə,
Dedi: -Burdan dönərlərmi əliboş?





Alovlandı, közə döndü yanağı,
Gördüm yazıq için-için qovrulub.
Əllərimə əl uzadan zanbağın
Təbəssümü kədər ilə yoğrulub.

Qara gözlər taleyimin ülkəri,
Duruşu da, baxışı da şer idi.
Mənim kösöv əllərimin kədəri
Ağ əllərin işığında əridi.

O ağ əllər taleyimə nə yazdı,
O gözlərdə bir yaz seli daşırdı.
O əlləri boş qaytarmaq olmazdı,
O əllərə ürəyimi tapşırdım...

**1982**

## PƏRVANƏ KİMİ

Fırlandım sənin başına
Göz yummadan bütün gecə.
Pərvanə odun başına
Necə fırlanır, eləcə...

Elə ki, qaranlıq düşər,
Ürək qızmaz dosta, yada.
Sığınar öz ulduzunun
İşığına hər bir adam.

## MƏN SƏNİNLƏ...

Mən səninlə
aylı gecələri,
şehli çəmənləri,
ətrindən məst olduğum
yasəmənləri,
suyundan içdiyim bulaqları,
zirvəsindən baxdığım dağları,

güllәri üşüdәn
çәni, çisgini,
ürәyimi göynәdәn
ağrını, nisgili –
hәr şeyi, hәr şeyi
unuduram,
yumuram gözümü dә,
Unuduram sәni dә,
özümü dә.
Әbәdiyyәtә qovuşmaq kimi
bir şeydi
sәninlә birlikdә olmaq.

**1988**

## SUBAYLAR MӘCLİSİ

Burda nә qeybәt var, nә dә bir giley,
Duyğular acsa da, göz tox, könül tox.
Alman hesabıyla düzәlib hәr şey,
Kimsәnin kimsәdәn tәmәnnası yox.

Qәdәhlәr toxunur biri-birinә,
Sәmimi sağlıqlar sәfә düzülür.
Burda badәlәrә şәrab yerinә
Zarafat süzülür, sevinc süzülür.

Durub stol üstә yol gözlәyir mey,
On adam sübhәdәk içsә bәsidir.
Bizim süfrәmizdә çatışmayan şey
Tәk qadın әlinin sәliqәsidir.

## SEVGİ FӘSLİ

Dünya yaranışdan xeyirdi, şәrdi,
Sevib әzab çәkәn әhli-bәşәrdi,
Bu hәyat necә dә adilәşәrdi,
Ürәk olmasaydı әsir sevgiyә.





Sevgi yolumuzda yanır çıraq tәk,
Hәdәyә, qorxuya baxmır ki, ürәk.
Sevdin, ilanboğan vaxtındı demәk,
Yaş sәrhәdmi çәkir әsil sevgiyә?!

O necә ömürdü, yoxuşu yoxdu,
O necә bahardı, yağışı yoxdu?!
Sevginin nә yazı, nә qışı yoxdu,
Ürәyin özüdü fәsil sevgiyә...

**1984**

***

Oxuya-oxuya durnalar köçür,
Yarpaqlar tökülür, payız ağlayır.
Pәncәrә önündәn bir oğlan keçir,
Pәrdә arxasında bir qız ağlayır.

Nә üçün gizlicә durub gözlәyir?! –
Qәlbindә bir ümid közәrir bәzәn.
Bir qәrib mәhәbbәt vәtәn istәyir,
Nә üzlә geriyә dönsün yenidәn?!

**1976**

## UMACAĞIM VAR

Gizlәmәk әbәsdir, açım "boğça"nı,
Gül üçün bülbülün çıxır bax, canı...
Axı nә gizlәyim, sizin bağçanın
Qızıl güllәrindәn umacağım var.

Bu tutqun qәlbimi yalnız gül açar,
Dilim yox, dәrdimә olub gül açar,
Toxunsa әlimә, әlim gül açar,
Titrәk әllәrindәn umacağım var.

Demə ki, körpəyik, bircə qarışıq,
Baxma ki, soyuqdur, verir qar işıq,
Nəfəsin qarışıq, səsin qarışıq
Səhər yellərindən umacağım var.

## YALLI

Bu dağlara haray düşür, ün düşür,
Qoç igidlər qızışıblar təzəcə.
Yarpaqların arasından gün düşür,
Toyxanada təzə gəlin süzəcək.

Hamı düşmür axı şabaş selinə,
Ağrın alım, sən köksünü ötürmə.
Dəstəbaşı nə götürsə əlinə,
Hünərin var həmin şeydən götürmə.

Cavanların çırtlayıbdır çiçəyi,
Dəstəbaşı… Əlində şiv çubuğu.
Kimə vursa göynədəcək neçə gün,
Çıxacaqdır kürəyinin qabığı.

Yallı gedən igidlərə bir baxın,
Ayaqların zərbəsindən yer qızıb.
Kürəyimə yavaşca vur, çubuğun
Ürəyinə dəyir axı bir qızın…

**1977**





## KİTABIN İÇİNDƏKİLƏR

### Mənim Azərbaycanım


Mənim xalqım ........ 3
Azərbaycan torpağı ........ 4
Arazın cavabı ........ 5
Ata evi ........ 6
Sumqayıt ........ 7
Mənim imzam ........ 8
Yadında saxla. Yumruq kimi birləşməsə elimiz ........ 9
Azadlıq ........ 10
Yanvar rübailəri ........ 11
Qərənfilə dəyən güllə ........ 12
Laylay, Qəbələm, laylay ........ 12
Qəbələni qoruyan hasar ........ 14
Azərbaycan yaşayır ........ 15
Doğulduğum kənd ........ 16
Lənkəranda yağış ........ 17
Astara ........ 18
Qaraçı yurdunda ........ 19
Kəpəz ........ 20
Maralgölə yol gedirəm ........ 20
Bu gecə ........ 21
Zirvədə ........ 21
Büllur bələdçim ........ 22
Çayzəmidə qış gecəsi ........ 22
«Kəndimizə qonaq gələn dost…» ........ 23
O bağın ağacları ........ 24
Doğma dağların hüzurunda ........ 25
Doğma yerlərdə ........ 25
Qardaş, bir başını yuxarı qaldır ........ 26
Ürəyim atlanır dağlara sarı ........ 27
Qapımızda bitən tutlar ........ 28
Tək armud önündə düşüncələr ........ 28
Həsrət ........ 29
Üşüyən daşlar ........ 30
«Cığırları ayağımla…» ........ 30
Kuzun yolu ........ 31
Dağlara sarı üz tutduq ........ 32
Yora bilməz yollar bizi ........ 33
Dağ lövhəsi ........ 34
Kuzun şəlalələri ........ 34

Ləzə şəlalələri ........ 35
Sudur ........ 35
Yağışdan sonra ........ 35
«Gözəlliklər məskəniymiş Yarımca...» ........ 36
Ağac bitirən qaya ........ 36
Meşəyə yağış yağır ........ 37
«Sev hər gülü...» ........ 37
«Fırtına simfoniyası...» ........ 38
Yaz dumanı ........ 38
Baharın ilk qədəmləri ........ 39
İki dəniz ........ 39
«Bir umacağın varsa...» ........ 39

## Tərəzidir elin gözü

Söz karvanım ........ 40
İti qələm ........ 41
«Həyat eşqi...» ........ 41
Şer yazanda ........ 42
Deyirəm yaxşı ki, bu qələmim var ........ 42
«Ürəyim dolanda dinər qələmim...» ........ 43
Qoruyur ........ 43
«Meylim yox dünya malına...» ........ 44
Söz buludu ........ 44
Ulduzlar ........ 44
Taytutan ........ 45
Qara zurna, dönüm sənin gözünə ........ 46
«Gözümüzdən qovdu qara yuxunu...» ........ 47
«Qara zurnanın içindən...» ........ 48
Kənd toyunda ........ 48
«Toy çörəyi salınanda...» ........ 50
Toy çörəyi hazır oldu ........ 51
Qaboy çalınanda ........ 51
Sarı aşıq yanğısı ........ 53
İydə ətirli nəğmələr ........ 53
İstəmirəm ........ 54

## Haqqın yolu

Vətən uğrunda ........ 55
Ana ........ 56
Düz-əyri ........ 57
Yerin yerinə olsam ........ 57





Qarabağ əlili ........ 58
Bu tonqalın odu ilə ........ 58
Papaq ........ 59
Təpər və çəpər ........ 60
Adi adam ........ 60
Özünü qoru ........ 61
Göy at ........ 62
Dörd misra bayatı ........ 63
Əl quzusu ........ 64
Qoyun ........ 64
Boşalmış kənddə tək qalan köpəyin nəğməsi ........ 65
Yoxdu ........ 65
Bizi ........ 66
Görəcəkli günlərimiz ........ 67
Bəsdir təriflədik bu boz sərçəni ........ 68
Haqqın yolu ........ 69
Gəzirəm ........ 69
Medaldan məhrum edilən qızıma ........ 70
İlan ........ 70
Şəhər yuxu görər ........ 71
Hüseyn Cavidə ........ 72
Ocaq daşı ........ 72
Kişi ürəyi ........ 73
Oxşar talelər ........ 73
Bayatı yağışı ........ 74
«Vətən...» ........ 74

## Ömrüm-günüm

Mənə qanad ver, Tanrım. Dəniz ........ 75
Bizə insan deyərlərmi ........ 76
Çiyin-çiyinəyəm payızla ........ 76
Uşaqlığım ........ 77
Yenə gəldim bu dağları görməyə ........ 77
Bu payız ömrümdən köçünü çəkdi ........ 78
Ömrün əlli üçüncü payızı ........ 78
Xəzəl nəğməsi. Xəzan yelləri ........ 80
Alatoran. «Elə bu zaman...» ........ 81
«Həsrətdən saralıb...» ........ 82
2004-cü ilin son saatları ........ 82
Nə yaxşı ki. İlin son gecəsi ........ 83
«2004-cü ilin...». Təzə ilin ilk şeri ........ 84
«Ötən il günəşin...». «Meşədə...». Babalar ........ 85

Əlli beş yaşım. «Düzlərdə zəncəfil...» ... 86
Həyatın mənası ... 87
İlk qar ... 88
Asfaltın üstündə çiçəklər açar ... 88
Moskvada ilk qar ... 89
Moskvada payız ... 90
Həsrət közü ... 90
Saz köynəkdən çıxanda ... 91
Bibimin sözlərindən ... 91
Xatirələr ... 92

## Möcüzəli, sirli dünya

Əbədiyyət. Dəyişmə ... 93
Ocaq yeri. Üzü gələcəyə ... 94
Ağac. Aldanış ... 95
Balıqqulağı. Keçəllər ... 96
Yetimin toyunda ... 97
«İnsan torpağı...». Doqquz aylıq nağıl ... 98
Zaman ... 99
Bu dünya ... 100
Sevincim-kədərim ... 101
Qəbir qapısında paslanan qıfıl ... 101
Qocanın üzü – şairin gözü. Qocalığın xatirəsi ... 102
Ruhunun dalınca. Son yarpaq ... 103
Bu bağçadan payız keçib. Oxqay ... 104
«Qırılanda ömrümüzün kəndiri...». Kəfən ... 105
Ruh və bədən. Baş daşı üçün yazı ... 106
«Ömrə çəkilən...». «Bu il hava çox sərindi...» ... 106
Xəstəlik. «Yeddi gözəl» nağılı ... 107
Xəstəxana. Şamxəlilə. Ömrün qış çağında ... 108
Bu gün qəbristandan doğurdu günəş ... 109
«Əbədi yuxuya gedən...». Yol ... 110
Əbədiyyət ... 111
«Duranda ümidlə dururam...» ... 112
«Deyirsən ki, hamı bilir...» ... 112
«Qozasını donuz yeyən...» ... 112

## Sevdalı diyar

«Allahım...». «Yaşı dünyanın...» ... 113
«Səni görəndə...». Neyləyəcəyik ... 114
«İnsanların arasında...» ... 115





Ürəyim deyəni etsəydim əgər. «Qorxuram ki...» ... 115
«Xətrinə dəymişik...». «Ürəyim olub...» ... 116
«Telefondan ayrılsan...». «Buludlar toqquşanda...» ... 117
«Bundan böyük dərd olarmı...» ... 117
«Boya yaraşmır axı...» ... 117
«Belə ki, görürəm...». «Yazdığım şerdən...» ... 118
«Deyirəm...». «Sən eşqinlə...» ... 119
«Bir-birimizdən ayrı yaşasaq da...» ... 120
«Həsrətindən gecə-gündüz...». Sübh ... 120
«Sevdiyin insana...». «Əzizim, sevgilim, bir dənəm...» ... 121
Ehtiyac. «Onun ümid dolu sözləri...». İstəyirəm ... 122
«Hər zaman...». «Odla oynamazlar...» ... 123
Məhəbbət dərsi. «Deyirsən ki...» ... 124
«İçim göyüm-göyüm...». «Gözəllər arasından...» ... 125
Baharın ilk gecəsi ... 125
Zoğal ağacı. «Mən elə bilirdim ki...» ... 126
Məhəbbət də çiçəklər kimidi ... 127
«Ürəyimə damıb ki...» ... 127
Ürəyini mənə vermisənsə. «Mən neyləyim...» ... 128
Nə üçün ... 129
Sevgi xəyaldısa ... 129
Üç nöqtə, bir sual, bir nida ... 131
«Ürəyim...». Məhəbbətim ürəyində ... 132
Son anlar ... 132
Qəm buludu ... 133
«Ürəyimi göyüm-göyüm göynədir...» ... 133
«Telefonda dediklərini dinləyəndə...» ... 134
«Özün bilə-bilə cırnadırsan məni...» ... 134
«Arı vızıldaya-vızıldaya uçur...» ... 134
«Ürəklərimiz bir-biri üçün...» ... 135
«Bu günü ömrünün ən gözəl günü...» ... 135
«Sevdalı qəlbimdən gül dərməsən...» ... 136
İkinci yaşın ilk günü ... 136
«Yalnız sevənlərə aiddi...». Künc ... 136
Nə yaxşı ki. Zaval yoxdu ... 137
«Yamanca şübhələnmişəm...» ... 138
«Təəccüblə baxırsan üzümə...». Qısqanclıq ... 138
Sən bir sözsüz mahnısan ... 139
Haqqın varmı. Dəhşətli adam ... 140
«Sevmirsən heç sevmə...». Dəyərmi ... 141
«Peşimanmı olmusan...». «Əbəs yerə səndən...» ... 142
«Yaşın az olsa da...» ... 143
«Vüsal bizdən gendədi...». Günahım nədi ... 143

Sənin sözün ... 144
«Yasaq olunmuş nəğmə kimi…». «Mən sevgimdə də…» ... 144
«Deyirsən…». «Unut məni deməklə…» ... 145
«Qaysaq tutan yaramı…» ... 145
«Ağlamalı günlərimiz…». «Ürəklərimiz bir-birinə…» ... 146
«Başıma nələr gətirdi…». «Öz sevgi dili var…» ... 146
«Həsrətli gözlərindən…» ... 147
«Hara çağırsan gələrəm…» ... 147
«Hirsindən kükrəyib daşmısan…» ... 147
«Bir vaxt…» ... 147
«Təzəcə yağan qarı…» ... 148
«Mən elə bilirdim ki…» ... 148
«Tikanınla vurduğun yaranı…» ... 148
«Mənə olan məhəbbətin…». «Səni mənə…» ... 149
Xoşunamı gəlir. «Elə bil ömür boyu dustağıq…» ... 150
Bilmirəm necə deyim ... 151
«Sən hərdən xəyallara dalıb…» ... 152
Görüş. O səsin içində ... 153
Şerə bükülən ürək. Nəfəsin dəyən kimi ... 154
Sənin həsrətin. «Elə bilmə ki…» ... 155
Səninlə görüş ... 156
«Ürəyimdə sənin həsrətin…» ... 156
«Qəbirdən söz açmağım…». Hələ ... 157
«Ağlımın hökmünə…» ... 158
Tale bəxşişi. «Taleyə boyun əydik…» ... 159
Yarımçıq sevgi ... 160
«Meşədə gəzəndə…». «Nə vaxtsa…» ... 161
«Mən şer oxuyanda...». Yaxşı ki, sən varsan ... 162
Ani səadət. Görüş ... 163
«Nə qədər çalışsaq da…» ... 164
Səninlə görüşəcəyim gün ... 164
Gizli dünya ... 165
Sənin mesajın. Sevgi ... 166
Ayrılıq. «Nala-mıxa vurmağın…» ... 167
«Məhəbbətimi…» ... 168
«Niyə sən mənim…». «İnanıram…» ... 168
Kiçik adsız şerlər ... 169
Həsrət kölgəsi. Deyəsən ... 170
Qəribə duyğular ... 171
Həzin rəqs ... 172
«Mən mələk deyiləm ki…». «Sənin səsin…» ... 173
«Deyirsən ki…» ... 174
«Bəzən üstündəki sirr…» ... 175





Fəlakət. «Gözlərim…» ... 175
Mənə azadlıq ver ... 176
«Ətirli bir gülün budağını…» ... 176
«Sevgi ilə…» ... 177
«Mənimlə hələ…» ... 177
İlk görüş ... 178

## Sevgi yağışları

Mənim sevgi payım ... 179
Ömrünə yağış tək yağacağam mən. Yaşıl sevda ... 180
Bu yaz məni öldürəcək deyəsən ... 181
«Könlüm səndən doyar çətin, əzizim…» ... 182
«Sevən könlüm eşq oduna alışıb…» ... 182
Sevgi yağışına düşdü ürəyim ... 183
Səni xoşbəxt eləməyə nə varmış ... 184
Baş götürüb bu dünyadan gedərəm ... 184
Yenə də yuxumda görmüşəm səni ... 185
Sözlərin yamanca gəlir xoşuma ... 186
Əgər. «Eşq bağına qədəm qoyduq gizlicə…» ... 187
Elə bildim ki ... 188
Sən varsan, dünyada sevgi var hələ ... 188
Bu sevgi həmişə yaşıl qalacaq ... 189
Elə bilmə. Məni qısqanırsan ulduzlara da ... 190
Niyə belə gec gəlmisən dünyaya ... 191
İşin olmasın ... 192
Həyatım. Bal pətəyi ... 193
«Üz döndərmə, götür-qoy et sən yaxşı-yaxşı…» ... 194
Dəyərmişmi. «Nəfəsin od tutub yanır…» ... 195
Qaytağı. «Mənim kimi sevə bilməz heç kim səni…» ... 196
«Xəyalına gəlməyən iş…». Mələklərdən söz açsam da ... 197
Bu il mələk qanadında gəldi ömrümə ... 198
Mələyim ... 199
Fəridə. Kiçik adsız şerlər ... 200
«Həyat qəddara döndərib…» ... 201
«Yağ içində böyrək kimi…» «Biləndə sevildiyini…» ... 201
«İnsan oğlu taleyindən…» ... 202
Bu ilin ilk şerini də mən sənə yazdım ... 202
Qorxuram dilim öyrəşə. Qoy cavabı qəlbin versin ... 203
Zaqatala çiçəyi. Türk gözəli ... 204
Niyə məni seçdin axı ... 205
«Niyə bu işə qol qoydum…» ... 206
Sevgi yağışı. Tanrı belə buyurubsa ... 207

Belə payız olmamışdı.............................................................. 208
Təzə eşqə düşən könül.............................................................. 209
Cəza. Arı və çiçək.............................................................. 210
Darıxan çiçək. Bəxtəvərə çevrilmişik.............................................................. 211
Sevirsənsə. Dəyməzmi.............................................................. 212
Üzü mənə sarı.............................................................. 213
Məndən şer istəyən Anarə xanıma.............................................................. 214

## Əsir ayrılığın soyuq yelləri

Səndən ayrılmaq çətindi. «Özgə bir çəməndən...».............................................................. 215
Olmuşuq. Mənim dəli könlüm.............................................................. 216
«Mən dağam, aran deyiləm...».............................................................. 217
«Səninlə vidalaşanda...». «Tarıma çəkilib...».............................................................. 217
«Bilirəm, əzab gətirib...».............................................................. 218
«Göylərdən gələn sevgidən...». «Özgəsinin qoxladığı...».............................................................. 219
Qısqanclıq. Kiçik adsız şerlər.............................................................. 220
Bircə görüş xətrinə. Sevgiyə ehtiyacım var.............................................................. 221
«Sevən əzab çəkməlidi...».............................................................. 222
«Gözlərini görən gündən...». Arada sərhəd nə gəzir.............................................................. 223
Hələlik. Zarafat.............................................................. 224
«Qapınızı döyüb...». «Gecə-gündüz məhəbbətlə...».............................................................. 225
«Sənə könül verən gündən...».............................................................. 225
Ögey adamlar tək. «İçimdə ağrılar işarır...».............................................................. 226
«Sevən sevəni unutmaz...».............................................................. 227
Ürəyim baxmır sözümə. «Əlim şaddı əlində...».............................................................. 228
«Dedin: -Başımın üstündə...». Dalımca gəl.............................................................. 229
Bu yaz da bir yaz olmadı. «Eşitdim küsmüsən...».............................................................. 230
Mənə bax e... «Heç nə vecimə deyildi...».............................................................. 231
«Bahar qoxulu nəfəsin...». Adına ehtiyacım var.............................................................. 232
Ölməyəcəyəm. Onsuz da bilirdim belə olacaq.............................................................. 233
Öyrəş mənsiz yaşamağa.............................................................. 234
Əsir ayrılığın soyuq yelləri.............................................................. 235
Təsəlli.............................................................. 236
Yenə bir vuracaq ürəklərimiz.............................................................. 237
Ayıra bilməz. Əlvida.............................................................. 238
Qalmayıb.............................................................. 239
Bir gözüm güləcək. Dənizlə söhbət.............................................................. 240
Ayrılığın şimşəkləri.............................................................. 241
«Bu axşam əsirdi hicran yelləri...».............................................................. 242
«Gözlərini görən gündən...».............................................................. 242
Kiçik adsız şerlər. Gördüm.............................................................. 243
Dünyanın işini nə bilmək olar.............................................................. 244





«Dünən keçdi...». «Fəhmim məni aldatmadı...».............................................................. 245
Hər gecə gəlirsən yuxularıma.............................................................. 245
«Ayrılıq bizə yar oldu...».............................................................. 246
Dönmüsən. Sənin sükutun.............................................................. 247
«Onsuz da axırı yoxdu yalanın...». Yaxına gəl.............................................................. 248
Sahildə. «Səni qınamıram...».............................................................. 249
«Yazırsan ki, mən olmuşam...» «Dözmədi bu ayrılığa...».............................................................. 250
Hər gün gözlərimlə öpərdim səni. Bu yuxu deyildi.............................................................. 251
«Sevginin qədrini bilməz...». Niyə, nə üçün, nədən.............................................................. 252
Əlvida.............................................................. 253
«Yol çəkən gözlərin...». Həsrət.............................................................. 254
Çobanyastığı. «Qorxduq elin qınağından...».............................................................. 255
«Ömür boyu sevən qəlbim...». «Üzümüzə açılmasa...».............................................................. 256
«Öndə bizi nə gözləyir...».............................................................. 256
Biganəlik sazağında.............................................................. 257
Sənə də qar yağdı... «Taleyin yar olsa...».............................................................. 258
Sonu ayrılıqla bitən sevgilər. Ocaq ömrü.............................................................. 259
«Sən duya bilmədin dəniz sevgimi...».............................................................. 260
Belə görməmişdim səni heç zaman.............................................................. 261
Yenə sən çatdın dadıma.............................................................. 261
Heyf. Səmum.............................................................. 262
Sən məni aldatma.............................................................. 263
Nazın öldürəcək.............................................................. 264
Get.............................................................. 265
Yenə gözlərim yol çəkir.............................................................. 266
«Yadıma ağlayan gözlərin düşür...».............................................................. 267
Sarışınım.............................................................. 268
Rəhm elə.............................................................. 269
Vüsal. «Niyə məni qınayırsan...».............................................................. 270
Əlimdən su içən çiçək.............................................................. 270
Bir gizlicə dünyamız var. Xəbərdarlıq.............................................................. 271
«Bu gün sevdalı ürəyim...».............................................................. 271
Bu gün, keçmiş, gələcək. Ay evi yıxılmış.............................................................. 272
Bir anın sevinci.............................................................. 273
Yol varmı geriyə.............................................................. 274
Dördlüklər.............................................................. 275
Mesajlar.............................................................. 278

## Mənə məktub yazan əllər

«Məhəbbətin yaz yağışı...».............................................................. 279
Mən ovcumda yağış tuta bilmirəm.............................................................. 279
Qəlbimiz xoşbəxtdi günah içində.............................................................. 280

Sən olan dünya. Küsmə bu dünyadan........ 282
Sevgi heykəli........ 283
«Yaman kövrəlib...» ........ 284
Duz. Sənin məktubun........ 285
Tut ağacı........ 286
Məndən 5 şer istəyən qıza........ 287
Nə zamansa........ 289
«Mənim sevgi bağımdan...» ........ 290
Atma ürəyimi ayaq altına. Üç daş nağılı........ 290
«Yazırsan ki, daha mənə...» ........ 291
Mənə bərk acığın tutub........ 292
Qəlbinə qulaq as........ 293
Sən elə sevimlisən ki........ 294
Tənha deyiləm. Qəmə bələkli məhəbbət........ 295
Mənim gözlərimə vurulan gözəl........ 296
«Yaxşı bilirsən ki, yoxdu günahım...» ........ 297
Heç vaxt çıxarma sən məni yaddan........ 298
Şair, nə gec görüşdük biz........ 300
Yazdığın ilk məktubda........ 301
Gəncədən boylanan gözəl........ 302
«Heç unuda bilərəmmi...». «Qüdrətim çatsaydı...» ........ 303
«İmzasız məktubun gəldi...» ........ 304
«Yazırsan ki, mənim qəlbim...» ........ 306
«Sən mənə qəmsiz, kədərsiz...» ........ 306
«Yazırsan ki, mən həsrət göylərində...» ........ 307
«Dünən olsun...». Adına layiq........ 308
Sənin məktubun........ 309
«Şerimi köksünə sıxıb...» ........ 310
Köksümə baş qoy. Ürəyin üstündəki əl........ 311
Sevdalı ürəyin varsa........ 313
Həsrət sırsırası........ 314
«Sən məni öz taleyində...». «Üç kəlmə söz yazıb...» ........ 315
«Bilirəm neçə dəfə...» ........ 316
Deyirsən ki........ 317
Mənim ola biləcəksənmi........ 318
«Sən hələ körpəsən...» ........ 319
Ən çox sevdiyim bəxtəvər........ 319
Məhəbbət qayığı........ 320
«Çırpınan qəlbim...» ........ 321
İyirmi dörd saatlıq sevgi........ 322
«Mənə mesaj göndərmisən...». Sevgi payı........ 323
Qəlbimin sahibi........ 324
Deyə bilmədiyin sözlər........ 325





Təsəlli. Gözəl dünya........ 326
«Sözlərinin şirinliyindən...» ........ 327
«Mən ürək oğrusu deyiləm...» ........ 327
«Deyirsən ki...». «Ayrılıq sazağı...» ........ 328
«Gözlərin həmişə belə...». «Baxışların könlümü...» ........ 329
Sevdalı sabahlar........ 330
Sən bəxtiyar olasan deyə........ 331
Könlüm sevgi təşnəsidi........ 332
Biz nə karəyik........ 334
Ürək istəyəndən sonra... «Sevgi qanadında...» ........ 335
Qan içində. Ulduzlu səma........ 336
Od ilə su arasında........ 337
Ovcuma sığınmaq istəyən çiçək........ 338
«Sərçənin gəzdiyi bir damla su tək...» ........ 338
İntizarla gözlədiyin gecələr........ 339
Toruma düşən quş. İki kor........ 340
Sevgi dənizi........ 341
Gözlərimdən öpmək istəyən qız........ 342
Dünyaya xoş gəlmisən........ 343

## Ötən sevdaların həsrət nəğməsi

O işıq. Sənin pəncərən........ 344
Sən açdın qapımı........ 345
Bir gözəl yağışa meydan oxuyur. Qara paltarda........ 346
Yanğın........ 347
Dağ çiçəyi. Səni ötürməyə gəlmişdim o gün........ 348
Bu çəməndə bir qız çıxdı qarşıma. Sevgi ağacı........ 349
O aylı axşamda. Sevgidə geriyə yol yoxdu axı........ 350
Dağlı qızın toyunda........ 351
Bənövşə. «Fikirsiz baş...» ........ 352
Gözümün qan cığırları. Ağ əllərin işığında........ 352
Pərvanə kimi. Mən səninlə........ 353
Subaylar məclisi........ 354
Sevgi fəsli ........ 354
«Oxuya-oxuya durnalar köçür...». Umacağım var........ 355
Yallı........ 356

***Hazır yığımdan çap olunmuşdur.***

Korrektoru *Səadət*

***Rafiq Yusifoğlu***
***(Rafiq Yusif oğlu Əliyev)***
**Həsrət sazağı**
*(şerlər)*
***Bakı – Şirvannəşr – 2005***

---------------

Kompüter icraçısı ***Həyat Mahmudlu***
Çapçı ***Rüxsarə Hüseynli***
Cild sexinin müdiri
***Həmiyyə Heydərova***
Ofset üzrə çapçı ***Fariq Tofiqoğlu***

Çapa imzalanıb ***11. 07. 2005.***
Formatı ***60x90 1/16.***
Fiziki çap vərəqi ***23.0***
Sayı ***500.***

